
İMAM
HƏSƏNİN
SÜLHÜ
I
ŞEYX RAZİ ALİ-YASİN

**ŞEYX RAZİ ALİ-YASİN**

# İMAM HƏSƏNİN SÜLHÜ

# I

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin 27 Avqust 2008-ci il DK-103/Ə saylı məktubu əsasında «Ülvi-Həyat» mətbəəsində çap olunmuşdur.

Kitabın adı................................ İmam Həsənin sülhü
Müəllif..................................... Şeyx Razi Asli-Yasin
Mütərcim.................................. Mirqasım Əliyev
Redaktor................................... M. Hüseynova
Koorrektor................................ B. Yusifzadə
Cap tarixi.................................. 2008
Tiraj... ...................................... 2000 1z-500

# SEYYİD ƏLLAMƏ ŞƏRƏFUDDİNİN ÖN SÖZÜ

## Bismillahir-rəhmanir-rəhim

İmam Həsənin (ə) Müaviyə ilə sülh müqaviləsini imzalaması, Rəsul-Əkrəmdən (s) sonra bu ümmətinin Əhli-beyt İmamlarının (hamısına salam olsun) başına gəldiyi ən ağır və kədərli hadisələrdən biridir.

İmam Həsən (ə) sülh müqaviləsini imzalamaqla, Allah-Təlanın lütfü sayəsində heç kimin dözə bilməyəcəyi sıxıntılara sinə gəldi. O, bu ağır imtahana mətanətlə səbir etdi və bu imtahandan alnıaçıq, qalib və hədəfinə yetişmiş bir fərd kimi çıxdı.

İmamın hədəfi, Qurani-Kərimin hökmünü, Rəsullahın (s) sünnətini icra etmək və müsəlmanların mənafeyini qorumaq idi. Bu hədəf onun bütün danışıq və davranışlarında öz əksini tapırdı.

İmam Həsən (ə) asayişini təmin etmək və həyatını qorumaqla ittiham edənlər, eləcədə qardaşı İmam Hüseyn (ə) kimi Müaviyə ilə sonadək mübarizə aparmadığı üçün təsüflən şiələr dərin düşüncədən və uzaqgörənlikdən uzaqdırlar.

Təsüflər olsun ki, əksəriyyət hələ də bu sülh haqqda yalnış fikirdədirlər. Qarşınızdakı bu kitab təklif olunanadək heç bir tədqiqat İmam Həsənin (ə) Müaviyə ilə bağladığı sülhü bütün tərərruatı ilə əks etdirmirdi. Lakin möhtərəm şeyximiz Ali-Yasinin qələmə aldığı bu dəyərli əsər İslam ümətinin gələcəyi üzərində qoyduğu təsirləri əqli və nəqli sübutlar əsaslanaraq ortaya qoymamışdır. Mən özüm dəfələrlə bu işə cəhd gösdərdim. Ancaq Allah-Təalının istəyi isə bu işi hər baxımdam daha təcrübəli və layiqli bir ustadın ərsəyə gətirməsi oldu. Bu ustad İmam Həsənin (ə) sülhü barədə ixtilaflara son qoyaraq, mühakimələrində haqqla batilin hüdudlarını aydınlaşdırdı.

Dəyərli mühəqqiqin fəzilətini göstərən bu əsərin aydınlıq saçan bölümlərindən bir neçəsini araşdırmaq fürsəti əldə etdim.

Kitabın dəqiq bir araşdırmanın, diqqətli və elmi bir təhqiqatın nəticəsində hazırlandığını, bəyanların möhkəm dəlillərə söykəndiyini açıq-aydın gördüm.

İndi İslam ümmətinin ehtiyac duyduğu bu dəyərli əsər, İslam kitabxanasındakı boş yerini doldurdu. Allah-Təala bu ümmət və imamlarım ilə əlaqəli olaraq açdığı düyünləri, gizli qalan həqiqətləri bəyan etdiyinə görə onu ən gözəl mükafatlarla mükafatlandırsın və öz yanında ən uca məqamlara qaldırsın (Onun nemətilə ruzilərindən peyğəmbərlər, siddiqlər, şəhidlər və Onun ləyaqətli bəndələri ilə birlikdə... nə gözəl yoldaşdır onlar!).

***Cəbəl Amil 15 rəcəb hicri 1372-ci il***
***Əbdül-Hüseyn Şərəfuddin əl-Musavi əl-Amili***

# ÖN SÖZ

Qarşınızdakı bu kitab təəssüb və qərəzdən uzaq bir sıra inkarolunmaz tarixi həqiqətlərdən ibarətdir. Bu həqiqətlər tarix boyu nə keçmiş tarixçilər, nə də müasir mühəqqilər tərəfindən yetərincə işıqlandırılmamışdır.

Keçmiş tarixçilərin hədəfləri, müasirlərinsə laqeydliyi və səhlənkarlığı nəticəsində tarixin qəsdən unutdurulmağa səy göstərilən və ya təhrif edilən dövrlərindən biri də, İmam Həsən ibn Əlinin (ə) xilafət dövrüdür. Bu təhriflər, İmam Həsən ibn Əlinin (ə) parlaq simasını, şərqli və ya qərbli olmasından asılı olmayaraq, səthi düşüncəli araşdırmadan hökm verən insanların nəzərində ləyaqətsiz, qadın düşkünü və xilafəti dünya malına satan bir xəlifə kimi canlandırmış və onu son dərəcə çirkin, haqsız, məntiq və həqiqətdən uzaq töhmətlərə məruz qoymuşdur.

Bu kitabın bölümlərində Peyğəmbəri-Əkrəmin (s) vəfatından indiyədək İslam tarixinin ən əhəmiyyətli dövrlərindən biri olan bu qısa dövr - İmam Həsənin xilafət dövrü araşdırılmışdır. Bu dövrü ən əhəmiyyətli bir dövr kimi qələmə verdik. Çünki bu dövrdə İslam xilafəti tarixində bənzəri olmayan və nümunəvi bir xəlifəlik mövcud olmuşdur. Çünki bu dövrdə hakimiyyət və siyasətin mənəviyyatdan necə uzaq düşdüyü və «30 il sonra hakimiyyət çox zəhərli bir padşahın əlinə keçəcəkdir - deyə buyurduğu Rəsuli-Əkrəmin (s) bu uzaqgörənliyi özünü doğrultmuşdur. Çünki bu dövrdə İslam tarixində ilk dəfə olaraq qəbiləçilik kinləri alovlanmışdır.

Ümidvarıq ki, bu kitabda mövcud mənbələrdə nizamsız və pərakəndə şəkildə qeyd edilmiş məlumatları müəyyən məntiqi ardıcıllıqla bir yerə cəmləyib, hadisələri olduğu kimi və ya həqiqətə yaxın bir şəkildə həqiqət axtaranlara çatdıra bilmişik.

İmam Həsən ibn Əlinin (ə) həqiqi siması ortaya çıxacaq; o, zirəng və uzaqgörən siyasətçi və tədbirli bir xəlifə olub, Müaviyə ibn Əbu Süfyan kimi hiyləgər bir adamın təxribatının qarşısını ala bildi. Onun bağladığı nikahlar xilafət və hökuməti

pula satmaq deyil, tarix məhkəməsində düşmənlərinə qarşı iti bir silah idi. Qısa desək, müsbət və ya mənfi dəyərləndirilən hər bir siyasi addımı - istər zəfər əldə etsin, istər məglubiyyətə uğrasın - adi insanların xəbərdar olmadığı, tarixçilərin isə bilərək gizlətdiyi əzəmət və iqtidarının bir göstəricisidir.

Böyük şəxsiyyətlərin sahib olduqları məziyyətlərin təhrif olunma səbəblərindən biri də, səviyyəsiz və qərəzli insanların tarixi nəql edib tarixi şəxsiyyətlər haqqında mühakimə yürütməsidir. Onlar özlərini alim, hər şeydən xəbərdar, qərəzsiz və insaflı mühəqqiq kimi göstərməyə çalışır və zəhmətə qatlanıb heç bir araşdırma və təhqiqat aparmadan böyük şəxsiyyətlərin heysiyyətini ayaq altına almağı iftixar vasitəsi sayırlar. Bu isə onların şəxsiyyətlərin nə qədər alçaq olduğunu göstərir! Kor qəlblərin və sərsəm beyinlərin Həsən ibn Əli barəsindəki haqsız mühakimələri zərərsizdir. Əsas odur ki, ziyalılar onun barəsində insafla mühakimə yürütsünlər!

Şübhəsiz ki, imamın həyatının müxtəlif səhnələri onun dərin düşüncəsi, uzaqgörənliyi və böyük hədəfləri onu bəşəriyyətin dahi şəxsiyyətlərindən biri kim təqdim etmişdir. Bu sətirləri yazmaqda məqsədimiz, şübhəsiz, düzgün bir məntiqlə qüsursuz şəkildə İmamın əzəmətini aşkar etməkdir. Dardüşüncəli və ümumi mənafedən xəbərsiz insanların İmam Həsənin (ə) siyasətinə yönəltdikləri məntiqsiz və insafsız iradlar, onun tutduğu mövqe barədə yaranan anlaşılmazlığın başlıca səbəbidir. Bundan əlavə, bəzi şəxsi maraqları, bəziləri iqtidara tərəfdarlıq etdikləri və bəziləri də həqiqətləri bilmədikləri üçün birtərəfli mövqe tutmuş və ya düşünülməmiş hökmlər vermişlər. Onlar, Həsən ibn Əliyə məğlubiyyətə uğramış bir rəhbər kimi baxmışlar. Əslində isə, baş verən hadisələrin gedişatında İmam Həsənin idarə itdiyi cəmiyyətin nə kimi rol oynadığını və məğlubiyyət kimi qələmə verdikləri bu vəziyyətin səbəblərini araşdırmağı unutmuşlar. Yeni-yeni zəfər və fəthlər şərabının sərxoşluğu bütün zərərləri İmam Həsənin idarə etmək istədiyi cəmiyyətdə elə hakim olmuş və onları elə azdırmışdı ki, artıq onların silah olmasına ümid yeri qalmamışdı. Görəsən, xalqı

azğın, əsgərləri xain və insanları təəssübkeşlikdən məhrum olan bir cəmiyyətin rəhbərinin günahı nədir?

Onlar Həsən ibn Əliyə zirəng və tədbirli bir siyasətçi kimi baxmağı unutmuşdular. Çünki O, cəmiyyətin təfəkkür tərzini, müxalifinin tökdüyü tədbirləri və o dövrdə mövcud olan vəziyyəti tam diqqətlə araşdırıb belə addım atmışdır. Tədbirli davranmaqla, əslində, o, düşmənlərin məzarını qazmışdır; hadisələr təlatümü ustadlıqla yatırmış və «sülh peyğəmbəri» simasında fitnə çovğununda başlıca və müvəffəqiyyətlə çıxmışdır. Hətta ölərkən də özünə xatir bir damla belə qan tökülməsinə razı olmamışdır.

Görəsən, özünü öyən tənqitçilər insafla baxsalar, bundan böyük alicənablıq görə bilərlərmi? Kitabımızda bu həqiqətlər dəqiq və fənni araşdırmalar, məntiqi dəlillər və tarixin səhifələrində pərakəndə düşən şəhidlər vasitəsilə isbat olunub. Bu mövzular, kitabdakı bəhslərin təməlini təşkil edir və onların isbatlanması nəticəsində ikinci dərəcəli mövzular açıq-aydın və asanlıqla başa düşülür.

***

*Əziz oxucular*! Bu kitab, Həsən ibn Əlinin (ə) ömür səhifələrini tam olaraq deyil, yalnız həyatını siyasətlə bağlı səhnələrini əhatə edir. Əlbəttə, kitabın mövzusunun daha mükəmməl olması üçün birinci fəsildə onun həyatı barədə qısaca olaraq məlumat vermişik. Kitabın əsas bəhslərinin şərhində zəruri olduğu təqdirdə bəzən başqa mövzulara da toxunmuşuq. Şübhəsiz, üzərindən 1328 il keçdikdən sonra haqqında kifayət qədər sübut olmayan belə qarışıq və çətin bir mövzunun araşdırılması, heç də, asan deyil.

Nəzərə alın ki, müəllif böyük şövqlə mövzunun mövcud qaydalarda araşdırmış, məlumatlar arasında bağlılıq yaratmış və onları təhriflərdən təmizləməyə çalışmışdır. Sənəd və qaynağın azalığını vurğuladıq. Təəssüflər olsun ki, tarixi kitabların əksəriyyəti təhrifə məruz qalmış və ya bu kitablarda mövzumuza

aid məlumatlar qırıq-qırlq çatdırılmışdır. Bəhs etdiyimiz mövzu haqqında xüsusi olaraq yazılan və qədim alimlərin kitablarının mündəricatında qeyd olunan saysız kitabların heç biri bizə gəlib çatmamış və bir çox başqa miraslarımız kimi məhv edilmiş, aradan götürülmüşdür. İslam tarixinin ən əhəmiyyətli hadisələri və həssas dövrləri barədə məlumatların yetərincə olmaması və onların aydın şəkildə işıqlandırılmamasının elə əsas səbəbi də budur.

Adları qədim alimlərin kitablarında qeyd olunan və onların heç bir əsər-əlamət qalmayan kitablarından bəziləri bunlardır:

- «Sülhul-Həsən və Müaviyə», Əhməd ibn Məhəmməd ibn Səid ibn Əbdur-Rəhman əs-Səbii əl-Həmadaninin təlifi (ö/t: h.q: 333-cü il);
- «Sülhul-Həsən (ə)», Əbdur-Rəhman ibn Kəsir əl-Haşimi (Bu şəxs bəni-Haşimın havadarlarındandır, o soydan deyildir);
- «Qiyamul-Həsən (ə)», İbrahim ibn Məhəmməd ibn Səid ibn Hilal ibn Asim ibn Səd ibn Məsud əs-Səqifinin təlifi (ö/t: h.q: 283-cü il);
- «Qiyamul-Həsən (ə)», Hişam ibn Məhəmməd ibn əs-Saib;
- «Əxbarul-Həsən və vəfatuhu», Heysəm ibn Ədiyy əs-Sələbi (ö/t: h.q: 207-ci il);
- «Əxbarul-Həsən ibn Əli (ə)», Əbu İshaq İbrahim ibn Məhəmməd əl-İsfahani əs-Səqafi [1] (Əbdül-Əziz ibn Yəhya Cəludi əl-Bəsrinin İmam Həsənin başına gələn əhvalatlar barədə yazdığı kitab); və s.

Qələmə aldığımız qaynaqları araşdırarkən məlumatlar arasındakı uyğunsuzluq və ziddiyyət bizi son dərəcədə təəccübləndirmişdi. Məsələn: İmamın müəyyən bir nitqinin tarixi, ordu sərdarlarının adları və hansı ardıcıllıqla gəlmələri sülh haqqındakı fikirlərin necə meydanında gəlməsi, döyüş

---

[1] Bu kitabların adı İbn Nədimin «Əl-Fihrist», Əhməd ibn Əli Nəcaşinin «Rical» və s. kitablarda müəliflərinin tərcümeyi-halında qeyd edilmişdir. Rical kitablarında İmam Həsən ibn Əlinin sülhü və şəhadəti haqqında yazılan digər kitabların da adı çəkilmişdir. Onlardan əsər-əlamət qalmadığını nəzərə alaraq burada hamısının adını qeyd etməyə ehtiyac görmədik.

meydanında Həsən ibn Əliyə qarşı sui-qəsdlərin hazırlanması, onun necə şəhid edilməsi, Müaviyə ilə onun arasında olan döyüşdə baş verən hər hansı bir kiçik və böyük hadisənin şərhi bu kimi mövzuları sadalamaq olar.

Qaynaq kitabların əlçatmaz və ya təhrif olması bəhsimizin bir çox həssas yerlərinin indiyədək qaranlıq qalmasına səbəb olmuşdur. Odur ki, tarixi həqiqətləri nizamlayıb aralarında bağlılıq yaratmaq və onları olduğu kimi təqdim etmək, oxucusu olduğunuz kitabın təlifində ən çətin mərhələlərdən biri olmuşdur. Xoşbəxtlikdən, hadisələri diqqətinizə lazımı ardıcıllıqla təqdim etmək üçün dağınıq və nizamsız nəqllər arasında asanlıqla qəti sübutlar və aydın şahidlər tapdıq! Buna görə də mövcud mənbələrin nöqsanlarına baxmayaraq, kitabımızın təlifinə, eləcə də təhqiqatımızın müsbət nəticələnməsində məhz bu qaynaqlara borcluyuq. Bu isə bizi sevindirən, iftixarımız olan ən böyük nailiyyətimizdir.

Tarixi səhnələrin hər birinin təhlilində düşünərək və tələsmədən irəliləməyə və hər mövzu ilə əlaqəli rəvayətlərdən əqlin hökmü ilə birlikdə yararlanmağa səy göstərmişik. Daha dəqiq və incə araşdırmaya ehtiyac duyulduqda bir çox tarixçilərin rəvayətlərindən daha doğru və qəti olan hadisənin qəhrəmanlarının öz sözlərinə istinad etmişik.

Əlinizdəki bu kitab, İmam Həsənin sülhü barədə tarixdə qaranlıq və müəmmalı qalan bir çox incə mətləblərin aşkara çıxması üçün əziz oxucuların xidmətinə təqdim etdiyimiz kiçik bir sərmayədir. Əgər bu məqdədə yetişmişəmsə, deməli, böyük nailiyyət əldə etmişəm.

Müvəffəqiyyət, yalnız Allahdandır! Yalnız Ona təvəkkül edirəm və dönüşüm Ona tərəfdir!

**Ustad Şeyx Razi Ali-Yasin**

# I FƏSL

## İMAM HƏSƏNİN (Ə) HƏYATI

Həmd və səna, aləmlərin Rəbbi olan Allaha məxsusdur! Salam və rəhməti Məhəmmmədə (s), onun Əhli-beytinə (ə), onun köməkçilərinə olsun!

İmam Həsənin atası Əmirəl-möminin Əli ibn Əbu Talib, anası isə Peyğəmbərimizin qızı və xanımlar xanımı Fatimeyi-Zəhradır (Allahın salamı və rəhməti onlara olsun!) Tarixi bu qədər qısa, lakin bu qədər şərəfli bir nəsil yoxdur.

Ata-anasının ilk övladı olan Həsən (ə) hicrətin 3-cü ili ramazan ayının 15-ci gecəsinin Mədinə şəhərində dünyaya gəlmişdir. Doğulan kimi Rəsuli-Əkrəm (s) onu dərhal qucağına alıb sağ qulağına azan, sol qulağına isə iqamə oxudu. Sonra onun üçün bir qoyun qurban kəsdi. Başını qırxdırıb saçı ağırlığında gümüş - dəyəri bir dirhəmdən bir qədər də artıq olardı - fəqirlərə verdi. Sonra gösdəriş verdi ki, başını ətirləsinlər. O vaxtdan etibarən uşaq üçün «əqiqə» (qurban kəsmək) və saçı ağırlığında sədəqə vermək sünnəsi (adəti) meydana gəldi. Peyğəmbər (s) onun adını Həsən qoydu. Cahiliyyət dövründə heç kim bu adla adlandırılmamışdır. Künyəsini isə Əbu Məhəmməd qoydu. Onun bundan başqa künyəsi olmamışdır. Ləqəbləri əs-Sibt (nəvə), əs-Seyid (ağa), əz-Zəki (təmiz), Muctəba (seçilmiş) və ət-Təqi (təqvalı) olmuşdur. Zövcələri (həyat yoldaşı); Təlhə ibn Übeydullahın qızı Ümmü-İshaq, Əbdür-Rəhman ibn Əbu Bəkrin qızı Həfsə, Süheyl ibn Əmrin qızı Hind və Əşəs ibn Qeysin qızı Cudədir. Cudə, Müaviyənin fitnəsi ilə İmama zəhər verib şəhid etmişdir. Zövcələrinin sayı «Ümmüvələd»lər[1] də daxil olmaqla səkkiz və ya on (rəvayətlər arasında fərqə görə) olmuşdur. Camaat isə onların sayında olduqca mübaliğə etmişlər. Amma bundan

---

[1] Öz sahibindən övladı olan və sahibinin vəfatından sonra azad sayılan kəniz.

xəbərsizdirlər ki, bu çoxsaylı nikahlar - bəziləri bunu irad tutur - həqiqət olsa belə, həyat yoldaşı seçmək anlamında deyildir. Əslində, siyasi və dini vəziyyət bu nikahların bağlanmasını zəruri etmişdir və istər-istəməz və vəziyyətlərdə evlilik də, boşanma da eyni mənaya gəlir. Xülasə, bu nikahlar mövcud vəziyyətin tələbi olmuşdur. Heç şübhəsiz, siyasi və dini vəziyyətin zəruri etdiyi çoxsaylı evlilik üçün insan qınanılmamalıdır. Əksinə, əgər insanlar o dövrdə hökm sürən vəziyyəti nəzərə alsalar imama qüdrətli bir şəxs kimi baxmalıdırlar. Lakin hər şeyə irad tutan tənqidçilər nə həqiqəti bilmişlər, nə də öz cahilliklərini. Əgər onlar İmam Həsənin Əbdur-Rəhman ibn Amir ibn Kureyzə - (İmam Həsən (ə) onun keçmiş zövcəsi ilə nikah bağlamışdır) verdiyi cavabı eşitsəydilər, belə iradları tutmazdılar. İmam Həsənin (ə) qız-oğlan hamısı birlikdə 15 övladı olub və adları belədir: Zeyd, Həsən, Əmr, Qasim, Abdullah, Əbdür-Rəhman, Həsən Əsrəm, Təlhə, Ümmül-Həsən, Ümmül-Hüseyn, Fatimə, Ümmü-Sələmə, Ruqəyyə, Ümmü Abdullah və Fatimə. Nəsli təkcə Həsən və Zeyd adlı övladları ilə davam etmişdir.

Zahiri görkəm, əxlaq, davranış, comərdlik və alicənablıq baxımından heç kim onun qədər Rəsulallaha (s) bənzəməyibdir. Öyənlər onu belə vəsf etmişlər: üzü azacıq qırmızımtıl, qara gözlü, hamar üzlü, saqqalı sıx, qalın saçlı, boynu gümüşü rəngli (və ya gümüşü), orta bədən quruluşu, enli kürək, iri sümüklü, incəbelli, orta boylu, cazibədar və çöhrəsi ən gözəl çöhrələrdən biri idi.

Şairin dediyi kimi:

Zəkalıların ağlından keçən elə bir gözəllik yoxdur ki,
Onun bu gözəllikdən nəsibi olmasın.
Zülfü altından parlayan alnı buna bənzər ki,
Sanki bədirlənmiş ay
Gecənin qaranlığından başına tac qoymuşdur.
Onun könül oxşayan ətri
Yer üzünün əmbəri və müşkündən ətirli idi...

İbn Səd belə deyir: «Həsən və Hüseyn (ə) saçlarına qara xına qoyardılar»

Vasil ibn Əta Mötəzili isə belə deyir: «Həsən ibn Əlidə, Peyğəmbərlərin siması və padşahların cəlal və ehtişamı var idi».

Arxasınca cins atlar gəldiyi halda, O, 25 dəfə piyada həcc ziyarətinə getmişdir.

Ölümü, qəbir evini, məhşəri və Sirat körpüsünü xatırlayarkən ağlayar, göz yaşı tökərdi. Haqq-hesaba (sorğu-suala) çəkiləcəyini xatırlayarkən elə bir fəryad çəkərdi ki, özündən gedərdi. Cənnət və Cəhənnəmi xatırladığı zaman, ilan vuran adam kimi, yerində qıvrılardı; Allahdan Cənnəti istəyər və Cəhənnəmdən Ona sığınardı. Dəstamaz alıb namaza dayanarkən vücudu titrəməyə başlayar və çöhrəsi saralardı.

Üç dəfə var-dövlətini Allahla bölüşdürdü (yəni tək yarısını Allah yolunda xərclədi). İki dəfə Allah yolunda bütün mal-dövlətini bağışladı.

Hər an Allahı yad edərdi. Rəvayət olunur ki, öz dövrünün ən abid və dünya naz-nemətinə qarşı ən etinasız insanı idi.

Üstün insanı dəyərlərə malik idi. İmamı ilk dəfə görən, onu alicənab bir insan kimi dəyərləndirərdi. Onunla ünsiyyətdə olan onu sevərdi. Dost-düşmən olmasından asılı olmayaraq, onunla söhbət edən və ya nitqini dinləyən hər bir kəs danışığına valeh olar, sözü tamamlanana qədər dinləyirdi.

İbn Zübeyr belə demişdir: «And olsun Allaha, qadınlar Həsən ibn Əli kimisindən (gözlərini qaldırıb şəhvani məqsədlə baxmayacağından əmin olduqları üçün) çəkinməzdilər».[1]

Məhəmməd ibn İshaq deyir: «Həya və alicənablıq baxımından Rəsulallahdan (s) sonra ikinci şəxs Həsən ibn Əli idi. Evinin kandarında palaz sərərdilər. Evindən çıxıb orada əyləşdikdə gediş-gəliş yolu bağlanardı. Ona hörmət əlaməti olaraq heç kəs qarşısından keçməzdi. O, bunu gördükdə qalxıb içəri keçər və insanların gediş-gəlişinə mane olmazdı.

---

[1] İbn Kəsir İmadəddin İsmayil ibn Ömər Dəməşqi Şafei: «Tarix» cild 8, səh. 377.

Məkkəyə Həcc ziyarətinə gedərkən atından enib piyada yol gedərdi. Bunu görənlərin hamısı ona baxıb miniklərindən enərdilər. Hətta karvanda olan Səd ibn Əbi Vəqqas da atdan düşüb o Həzrətlə birgə piyada yol getmişdi.

İbn Abbasın, Həsən və Hüseynin atının yəhərindən tutduğunu görən Müdrik ibn Ziyad ona dedi: «Sən onlardan yaşlı olduğun halda onların atının yəhərini tutursan?» İbn Abbas ona belə cavab verdi: «Ey alçaq adam! Sən onların kim olduğunu nə bilirsən! Onlar Peyğəmbərin övladlarıdır. Onların atının yəhərini tutmaq, Allahın mənə qarşı bir lütfüdür!»

Belə bir məqama sahib olmasına baxmayaraq, hədsiz dərəcədə təvazökar idi. Bir gün o, quru yerdə oturan və torpağın üzərinə qoyulan çörək qırıntılarını yeyən bir dəsdə fəqirin qarşısından keçirdi. Onu görən fəqirlər dedilər: «Ey Rəsulallahın oğlu! Gəl birlikdə yemək yeyək!» İmam Həsən dərhal atından enib «Allah təkəbbürlüləri sevməz» - deyə buyurdu və onlarla birlikdə çörək yeməyə başladı. Sonra onları evinə qonaq dəvət edib onlara həm yemək verdi, həm də geyim bağışladı.

O qədər comərd və əliaçıq idi ki, günlərin birində bir kişi ehtiyacı olduğunu ona söylədi. İmam Həsən (ə) ona dedi: «Ehtiyacının nə olduğunu yazıb bizə ver». O da ehtiyacını yazıb verdi. İmam onun yazısını oxuyub istəyinin iki qatını verdi. Ətrafındakılardan biri «Bu yazı onun üçün nə qədər də bərəkətli oldu, ey Rəsulallahın oğlu!» dedikdə, İmam belə buyurdu: «Əslində, bizim üçün daha bərəkətli oldu. Çünki biz də yaxşılıq edənlərdən olduq. Bilirsənmi, yaxşılıq ona deyilir ki, birisi bir şey istəmədən ona verəsən. Lakin istənilikdən sonra verilən şey, istəyənin heysiyyəti qarşısında çox dəyərsizdir. Bəlkə də (eytiyacı olan) o kişi gecəni iztirab içində, qorxu və ümid arasında keçirmişdir. Çünki bilmirdi ki, görəsən, ehtiyacını söylədikdə rədd edəciləcək, yoxsa qəbul edilib ona sevindirəcəklər. İndi sıxıla-sıxıla və həyacanlı halda sənin yanına gəlmişdir. Bu vəziyyətdə əgər ona istədiyi qədər versən, sənin yanında çəkdiyi xəcalət müqabilində ona çox az şey vermiş olarsan».

Bir gün İmam Həsən (ə) bir şairə ənam verdikdə ordakılardan biri dedi: «Subhanallah! Allah qarşı üsyan edib günah işlədən və iftara atan bir şairə hədiyyə verirsənmi?» İmam buyurub: «Ey Allah bəndəsi! Heysiyyətin qorunması üçün maldan verilən bəxşiş, ən yaxşı bəxşişdir. Xeyirli işlərdən bir də şərdən çəkinməkdədir».

Bir kişi bir şey (sədəqə) istədi. İmam (ə) ona 50 min dirhəm və 500 yüz dinar verib buyurdu: «Bu yükü daşımaq üçün bir hambal çağır». Hambal gələn kimi İmam əbasına ona verib buyurdu: «Bu da hambalın muzdu».

Bir gün bir ərəb İmamın yanına gəldi. Həzrət buyurdu: «Yığılan pulların hamısını ona verin». Yığılan 20 min dirhəmi həmin ərəbə verdilər. Ərəb dedi: «Ey mənim ağam! Heç qoymadım ki, ehtiyacımı söyləyim və sənin haqqında tərif deyim». İmam cavabına ona belə bir məzmunda şeir oxudu: «Qorxuruq ki, bizdən ber şey istəyənin heysiyyəti aradan gedər. Odur ki, istəməmişdən əvvəl bağışlayırıq».

Əbül-Həsən Mədaini belə deyir: «Həsən, Hüseyn və Abdullah ibn Cəfərlə həccə getmişdim. Yolda azuqələrini və pullarını itirdilər. Ac və susuz halda qoca bir qadının yaşadığı çadıra çatdılar». Ondan su istədilər. Qadın dedi: Bu qoyunu sağın və onun südünü su ilə qarışdırıb için». Onlar da qadının dediyi kimi etdilər. Sonra isə ondan yemək istədilər. Qadın dedi: «Mənim təkcə bir qoyunum var. Onu kəsin və ətini yeyin». Onlardan biri qoyunu kəsdi. Ətindən bir qədərini bişirib yedilər və oradada gecələdilər. Oradan ayrıldıqda yaşlı qadına dedilər: «Biz Qüreyşdənik və həccə gedirik. Həcdən qayıdandan sonra yanımıza gəl, biz də sənə yaxşılıq edək».

Yaşlı qadının əri gəlib vəziyyəti öyrənəndə belə dedi: «Vay olsun sənə! Mənim qoyunumu tanımadığın insanlar üçün kəsirsən, sonra da «Onlar Qüreyşdəndirlər» deyirsən?!»

Günlər keçdi və yaşlı qadın dolanışığı pisləşdi. Buna görədə yaşadığı yerdən köçdü. Bu vaxt yolu Mədinədən düşdü. Həsən ibn Əli (ə) onu gördükdə tanıdı və yanına gedib ondan «Məni

tanıdınmı?» soruşdu. Qadın: «Xeyir» dedi. Həsən ibn Əli buyurdu: «Mən filan gün sənə qonaq olan adamam».

İmam o qadına 1000 qoyun və 1000 dinar qızıl verilməsini əmr etdi. Sonrada onu qardaşı İmam Hüseynin (ə) yanına göndərdi. İmam Hüseyn (ə) də qardaşının verdiyi qədər qadına bağışlayıb, onu Abdullah İbn Cəfərin yanına göndərdi. Abdullahda onlar qədər bağışladı.

Biri bəni-Haşimdən, digəri isə Əməvilərdən olan iki kişi «Mənim qövmüm daha üstündür» - deyə bir-biri ilə mübahisə edirdi. Axırda bu qərara gəldilər ki, hər biri öz qövmündən on kişinin yanına gedib bir şey istəsinlər. Əməvilərin hər biri öz qöhmlərindən olan şəxsə 10 min dirhəm verdi.

Haşimidən olan şəxs əvvəl Həsən İbn Əlinin (ə) yanına getdi. İmam ona 150 min dirhəm verməlırini əmr etdi. Sonra Hüseyn ibn Əlinin (ə) yanına getdi. İmam Hüseyn soruşdu: «Məndən əvvəl kiminsə yanına getmişdinmi?» O, dedi: «Bəli, qardaşın Həsənin yanına getmişdim» İmam (ə) buyurdu: «Ağamın verdiyindən artıq verməyə səlahiyyətim yoxdur». O da ona 150 min dirhəm verdi.

Əməvi şəxs 10 nəfərdən aldığı 100 min, Haşimi şəxs isə 2 nəfərdən aldığı 300 min dirhəmlə gəldi. Əməvi şəxs buna çox qəzəbləndi və aldığı pulu sahiblərinə qaytardı. Onlar da qəbul etdilər. Lakin Haşimi şəxs pulları sahibinə geri qaytardıqda, Həsən və Hüseyn (ə) qəbul etməyib buyurdular: «İstəyirsən özünə götür, istəyirsən çölə at, biz verdiyimizi geri göturmürük».

Günlərin bir günü İmam Həsən (ə) zənci qulun çörək yediyini gördü. O, çörəkdən bir tikə özü yedikdə bir tikə də yanındakı itə verirdi. İmam quldan soruşdu: «Nə üçün belə edirsən?» Qul dedi: «Özüm yeyib ona verməməyə utanıram». İmam buyurdu: «Mən gələnə qədər burdan ayrılma».

İmam (ə) qulun sahibinin yanına gedərək qulu və içindəki bağı satın aldı. Sonra isə qulu azad edib, bağı da ona verdi.

İmam Həsənin (ə) kərəmi və comərdliyi barədə çox danışmaq olar. Lakin burada onların hamısini bəyan etmək mümkün olmadığı üçün hələlik bu qədəri ilə kifayətlənirik.

Mərvanın dediyinə görə, İmam Həsən (ə) dağ kimi bir helmə və mərhəmətə sahib idi. Zöhdu və dünya naz-nemətinə etinatsızlığı o dərəcədə idi ki, Məhəmməd ibn Əli ibn Hüseyn ibn Babəveyh (ö:/t h.q: 381-ci il) «Zöhdül Həsən (ə)» adlı kitabını onun təkcə bir xislətinə həsr etmişdir. Bu barədə bunu demək kifayətdir ki, din yolunda o, bütün dünya cah-cəlalına arxa çevirdi.

O, Cənnət gənclərinin ağası və Xatəmul-ənbiya Həzrət Məhəmmdin (s) nəslini davam etdirən 2 nəfərdən biridir. O, Rəsulallahın (s) Nəcran məsihiləri ilə mübahiləyə apardığı 4 nəfərdən biridir.[1] O, «Əshabi-kisa»nın 5 nəfərdən biridir. O, Allah-Təalanın itaətini bəndələrinə vacib etdiyi 12 şəxsdən biridir. O, Qurani-Kərimdə hər bir çirkinlik və pisliklərdən təmizlənmiş olaraq tanıdılan şəxslərdən biridir.[2] O, Allah-Təalanın, Peyğəmbərin (s) risalətinin muzdlu mükafatı olaraq sevməyi vacib buyurduğu insanlardan biridir. O, Rəsuli-Əkrəmin Qurana bərabər və iki dəyərli əmanətlərdən biri kimi tanıtdırdığı şəxslərdən biridir. O, Nəbiyyi-Əkrəmin reyhanəsi və sevimlisidir. Peyğəmbər (s) onun haqqında belə buyurmuşdur: **«Allahım, onu sevəni sev».**

Onun məziyyətləri o qədər çoxdur ki, sadalamaqla bitməz.

Atasının vəfatından sonra müsəlmanlar xəlifə olaraq ona beyət etdilər. O, qısamüddətli hakimiyyəti dövründə dövlət işlərini ən gözəl şəkildə idarə etdi. Hicrətin 41-ci ili cəmadiul-əvvəl ayının 15-də (ən mötəbər rəvayətlərə görə) Müaviyə ilə sülh müqaviləsi bağlayıb bu hərəkəti ilə həm dini, həm də möminləri qorumuş oldu. Bu işdə o, atasından, o da Rəsullahdan aldığı xüsusi təlimə uyğun davrandı. Zahiri və rəsmi xəlifəlik müddəti 7 ay 24 gün olmuşdur.

Sülh müqaviləsini imzaladıqdan sonra Mədinəyə döndü və orada məskunlaşdı. Mədinədəki evi həm şəhərin sakinləri, həm də ora gələnlər üçün ikinci hərəm oldu. O, bu iki hərəmdə (həm

---

[1] «Ali-İmran» surəsi, ayə 61(«Mübahilə ayəsi»).
[2] «Əhzab» surəsi, ayə 33 («Təthir ayəsi»).

Peyğəmbərin məclisində, həm də evində) hidayət və elm çıtağı, müsəlmanların sığınacağı oldu. Ətrafını dini öyrənmək və sonra da öz şəhərlərinə dönüb qövmlərini Allahın əzabından qorxutmaq üçün uzaq şəhərlərdən gələnlər dövrəyə almışdı. Onlar İmamın tələbələri, raviləri və elminin daşıyıcıları idilər.

Həm Allahın bəxş etdiyi böyük elmə sahib olduğuna, həm də xalqın könlündə tutduğu uca məqama görə Həsən ibn Əli (ə) ümmətə rəhbərlik etməyə, onların düşüncələrini istiqamətləndirməyə, inanc və etiqadlarını islah etməyə, aralarında vəhdət və birlik yartmağa ən layiqli şəxs idi.

Sübh namazını qıldıqdan sonra Günəş çıxana qədər Rəsulallahın (s) məscidində oturub Allahı zikr edərdi. Xalqın ağsaqqalları və möhtərəm insanları ətrafında əyləşər, o da onlarla söhbət edərdi. İbn Səbbağ ləqəbi ilə məşhur olan Nuriddin Əli ibn Məhəmməd ibn Əhməd Maliki Məkki «Əl-Fusulul-muhimmə» adlı kitabının 159-cu səhifəsində belə yazılır: «Camaat onun ətrafında yığışar, o da onların elmi məsələrini həll edər və müxaliflərin iradlarını cavablandırardı».

Allahın evini təvaf edərkən insanlar onu salamlamaq üçün elə bir izdiham yaradırdılar ki, bəzən az qalırdı İmamı əzsinlər.

İmam Həsəni (ə) dəfələrlə zəhərləmişdilər (növbəti fəsillərin birində bu barədə geniş şəkildə söhbət açacağıq). Axırıncı dəfə zəhərlənmənin təhlükəli olduğunu hiss etdi. Odur ki, qardaşı İmam Hüseynə (ə) dedi: «Tezliklə səndən ayrılıb, Rəbbimə qovuşacağam. Bil ki, məni zəhərləyib ciyərimi parça-parça etmişlər. Kimin və nə üçün məni zəhərlədiyini bilirəm və Allahın hüzurunda ondan şikayət edəcəyəm». Sonra buyurdu: «Məni Rəsulallahın yanında dəfn et. Çünki ona (onun kənarında) və onun evinə (evində dəfn olunmağa) hər kəsdən daha layiqəm. Əgər buna mane olsalar, and verirəm səni Allaha yaxın edən bağılılığına və Rəsullaha olan yaxın qohumluğuna ki, mənim üstümdə bir damla belə qan tökülməsinə yol vermə. Rəsulullahla qovuşduqda, onun hüzurunda düşmənlərdən şikayət edərik və xalqın zülmünü danışarıq».

Daha sonra ailəsi, övladları və mirası barədə Həzrət Hüseynə (ə) lazımlı göstərişləri verdi. Atası Əlinin (ə) ölüm ayağında vəsiyyət etdiyini qardaşına vəsiyyət edib, özündən sonra onun xəlifə olduğunu xalqa bildirdi. O, hicrətin 49-cu ili səfər ayının 17-də şəhadət şərbətini içdi.

Əbül-Fərəc İsfahani yazır: «Müaviyə, oğlu Yezid üçün beyət almaq istəyirdi. Ən böyük maneə olaraq Həsən ibn Əli və Səd ibn Əbi Vəqqası görürdü. Elə bu səbəbdən hər ikisini gizli vasitələrlə zəhərlədi».

Aydındır ki, bu kimi böyük faciələr bir qırmanc kimi qəflətə dalmış və məst olmuş insanları qəflətdən oyadır və hisslərini oyandırır. Bütün islam diyarında bu böyük hadisənin xəbəri ağızdan-ağıza dolaşaraq, hər bir tərəfə yayılırdı. Xalqın hay-küyü təlatümlü bir qiyamın baş verəcəyindən xəbər verirdi. İldən-ilə baş qaldıran üsyanlar hökuməti inqilabla hədələyirdi. Allah-Təala buyurur: ***«Zülm edənlər tezliklə necə bir sona uğrayacaqlarını biləcəklər».***

Sibt ibn Covzi ibn Səddən, o da Vaqididən belə rəvayət edir:

«Həsən ibn Əli can verərkən dedi: «Məni babam Rəsulullahın yanında dəfn edin». Lakin Əməvilər, Mərvan ibn Həkəm və Mədinə şəhərinin valisi Səd ibn As buna mane oldular.

İbn Səd deyir: «Müxaliflərdən bir qadın da belə dedi: «Heç kim Rəsulullahın yanında dəfn edilməməlidir!»

Şeyx Əbül-Həsən Əli ibn Hüseyn Məsudi rəvayət edir ki, Məhəmməd ibn Əbu Bəkrin oğlu Qasımin müdaxiləsindən sonra o qadın bu işdən çəkilir. Bundan sonra Hüseyn ibn Əlinin (ə) ətrafına çoxlu adam toplanıb dedilər: «Bizi Bəni-Mərvanla təkbaşına burax. And olsun Allaha, onlar bizim qarşımızda çox gücsüz və zəifdirlər». Hüseyn (ə) buyurdu: «Qardaşım vəsiyyət etdi ki, onun üçün bir damla belə qan tökülməsin. Əgər bu vəsiyyət olmasaydı, Allahın qılınclarının onlara nə edəcəyini görərdilər! Onlar bizimlə bağladıqları əhdi pozdular və şərtlərimizi tapdaladılar».

İmam bu sözü ilə sülh müqaviləsinin şərtlərinə işarə edirdi.

Həsən ibn Əlinin (ə) mübarək cəsədini Bəqi qəbiristanlığına apardılar və nənəsi Fatimə binti-Əsədin yanında dəfn etdilər.

İbn Həcər Əsqəlaninin «Əl-İsabə» kitabında Vaqididən və o da bir neçə ravi vasitəsilə Sələbədən belə nəql edilir: «Həsən ibn Əli vəfat etdiyi və Bəqidə dəfn edildiyi vaxt mən orada idim... Elə bir izdiham var idi ki, iynə atsaydın yerə düşməzdi...»

# II FƏSİL

## BEYƏTDƏN ƏVVƏL SİYASİ VƏZİYYƏT

Mövzumuzun (yəni İmam Həsənin sülhü) nə dərəcədə keçmiş və ya eyni zamanda baş verən hadisələrin təsiri altına düşdüyünü aydınlaşdırmaq üçün bir qədər geriyə qayıtmaq və Peyğəmbərin (s) dövründən sonra - o Həzrətin müsəlmanlar üzərindəki böyük təsirini, İslam cəmiyyətinin yaranmasında olan böyük səyini və ardıcıllarını necə şövqləndirdiyini nəzərə alaraq - İslamın ilkin dövrlərində müsəlmanların ilk dəfə qarşılaşdıqları bir sıra ictimai hadisələri araşdırmaq kifayətdir.

Keçmiş hadisələr içərisində, yalnız mövzumuzla müəyyən qədər və ya tam əlaqəsi olan hadisələri yad etməklə kifayətlənirik. Bu yolla bu hadisələrin mövzumuzun üzərində qoyduğu təsirləri nəzərinizə çatdıracağıq.

İslam tarixində ən böyük hadisə, Xatəmul-Ənbiya Həzrət Məhəmmədin (s) vəfatı və bütün dünyaya işıq saçan bu səmavi nurun sönməsidir. Onun vəfatı ilə dünya zülmətə büründü və yerin göylə əlaqəsi kəsildi. Çünki vəhy, göylə yer arasındakı bir elçi və onları bir-birinə birləşdirən bir bağ idi. Mümükündürmü ki, yer göyə möhtac olmasın?! Bir halda ki, yerin rizqi, həyatı, sevinci, nuru və şəriəti oradandır? Həqiqətən, əgər bu ayrılıq həmişəlik olsaydı, dünya üçün bundan böyük qorxu və müsəlmanlar üçün bundan böyük bir ziyan təsəvvür edilə bilməzdi.

Rəsulallah (s) vəhyin kəsilməsi ilə müsəlmanların təbii olaraq düçar olacaqları ağır imtahan və böyük müsibəti əvvəlcədən bilib, möminlərə qarşı bəslədiyi sevgi və şəfqət səbəbindən daim yerlə göyü bağlayan ilahi bir bağın olacağı xəbər vermişdir. «Vəhy bağı kəsildikdən sonra göylə bağlanmağa başqa bir bağ varmı?» - deyə soruşulduqda buyurdu: **«Mən sizin aranızda elə bir əmanət qoyuram ki, ona bağlansanız, əsla azmazsınız: Biri, yeri göyə bağlayan**

**Allahın Kitabı, digəri isə Əhli-beyhim və itrətimdir. Bu ikisi qiyamətdə mənimlə görüşənə qədər bir-birindən ayrılmazlar. Gərək, məndən sonra bu iki əmanətimin ehtiramını necə saxlayacaqsınız».**[1]

Burada müsləman cəmiyyətinin və ya cəmiyyətin təmsilçisi və rəhbəri olmağa layiq olduqlarını iddia edənlərin Peyğəmbərlərin (s) əmanətini necə quruduqlarına dair bir hökm verə bilmək üçün onların Əhli-beytə qarşı necə davrandıqlarına bir nəzər salaq. Ən azı mövzumuza aid olan qədərindən xəbərdar olaq.

Əgər bir kəsin itrəti dedikdə onun sülaləsi və qohum-əqrəbaları nəzərdə tutulursa, bu halda Həzrət Əli, Rəsulallah ən yaxın qohumu və onun sülaləsində ən başda duran şəxslərdəndir. Əgər insanın itrəti onun övladları və nəvələridirsə, İmam Həsən Rəsulallahın ilk nəvəsi və onun zürriyəsini davam etdirəndir. Ərəblər «itrət» sözünü, həm sülalə və həm də övladlar mənasında isdifadə edirlər. Sanki Rəsullahın vəfatından dərhal sonra tarixdə dərin iz qoyan bu ikitirəlik və parçalanma müsəlman cəmiyyətinin taleyinə yazılmışdı: Bir qrup Rəsullahın buyruqlarını isdədikləri mənalara yozub yazma bataqlığında boğulmalı idi. Başqa bir qrup da Peyğəmbərin aşkar əmrlərinə tabe olub, bu əmrlərdən dönməməli idi.

Rəsullahın öz canişinliyinə namizədlik haqqında bir çox aşkar göstərişləri vardır ki, burada onları sizin nəzərinə çatdıra bilməyəcəyik. Biz burada təvil[2] tərəfdarlarının əqidəsini rədd etmək və ya ikinci qrupun sözlərini isbat etmək niyyətində deyilik. Çünki bu iki qrupun arasında yaranan ixtilaf və ya

---

[1] Əli ibn Husaməddin Müttəqi Hindi «Kənzul-ummal» kitabının 1-ci cildinin 44-cü səhifəsindəki 874-cü hədis olan bu hədis Tirmizi də nəql etmişdir. Əhli-sünnətin «Sihah» və «Məsnəd» kitablarında bu məzmunda çoxlu hədis nəql olunmuşdur. Bu hədislərin bəzisində belə deyilir: «Mən aranızda iki canişin qoyuram: biri, göylə yeri birləşdirən bir bağ olan Allahın Kitabı, digəri isə itrətim, yəni Əhli-beytimdir. Bu ikisi Qiyamətdə mənə qovuşana qədər bir-birindən ayrılmazlar». (İmam Əhməd və Təbarani: «Durrul-kəbir»).

[2] Yozma.

razılıq öz zamanında xüsusi bir vəziyyətdə baş vermişdir və bu məsələlər barədə bizim mübahisəmiz həqiqəti dəyişdirməyəcək. Fərz edək ki, biz də bir anlıq «təvil-əhli»nə dəsdək olub Peyğəmbərin açıq-aşkar əmrlərinə müxafilətçiliklərini üzrlü hesab etmək üçün deyirik: Onlar, «vəhyin təmsəli» (və ya Peyğəmbərin canişinliyi) məsələsinə - belə ki, Rəsulallah özündən sonra bu məqamın yalnız Qurana və Əhli-beytinə xas olduğunu bu (yəni «Səqəleyn» hadisində) və bu kimi oxşar bir çox hədisdə bəyan etmişdir - siyasi bir məsələ kimi yanaşdılar və Rəsulallahla müxalifət etmək istəmədən canişinlik məsələsini dövrün tələbindən asılı bir məsələ kimi qəbul etdilər. Onların əqidəsincə, siyasi bir məsələdə Rəsulallahın əmrinə itaətin zəruriliyi, dövrün təcrübəli və dünyagörmüş yaşlı şəxslərinin məsləhətindən və nəzərindən asılıdır. Yəni əgər dövrün «təcrübəli» şəxslərinin nəzəri Peyğəmbərin nəzərinə uyğun olsa, Rəsullahın nəzəri qəbul ediləcək, əks halda Peyğəmbəri nəzəri əsasdır. Beləliklə, xilafət, Rəsulallahın Əhli-beytindən alındı və iş o yerə çatdı ki, bir gün də İslam xilafəti üstündə Müaviyə başqaları ilə mübahisə edib daha yaşli olduğu üçün bu mənsəbə daha layiq olduğunu iddia etdi.[1] Əmr ibn As, Muğeyrə ibn Şubə və Əbu Hureyrə «ağsaqqal»lar da onu dəstəklədi.

Müaviyənin İslamın qüdsiyyət və paklığa təhqir sayılan bu iddiası ilk dəfə görünən iddia deyil. Bunun kökünü daha əvvəlki dövrlərdə, daha qədim və üstün üsulda olan təxribatlarda axtarmaq lazımdır.[2] Bu mövzu uzun müddət gizli qalmadı.

Bu azğınlığın törətdiyi fəsadların biri də, həmin gün Mədinədə baş verən «Bəni-Saidə Səqifəsi» hadisəsi oldu. Rəsulallahın bu hədisdə («Səqəleyn» hədisi) bəyan etdiyi və nəzərdə tutduğu göylə yer arasındakı ilahi vasitədən fərqli yeni vasitə meydana gəldi. Elə bir vasitə ki, tarix boyu onların istəyi

---

[1] İzzəddin ibn Əbil-Hədid Mötəzili «Nəhcül-bəlağənin şərhi» cild 4, səh. 13. Müaviyənin İmam Həsənə (ə) məktubu.

[2] Sözümüzə sübut olaraq Müaviyənin bu xüsusda dediyi sözlərə müraciət edin: Əbül-Həsən Əli ibn Hüseyn Məsudi: «Tarix» cild 6, səh. 78-79 (İbn Əsir Cəzri Əli ibn Məhəmmədin «Tarix» kitabına yazdığı haşiyə).

istiqamətində davam etdi. Pavlos Səlamənin dediyi kimi: «O alaçanın altında bir çox hadisələr baş verdi. Bu hadisələr gizli hisslərin üzrə çıxmasına və azğınlıqların yaranmasına səbəb oldu. İstəklər və arzular dalğası hər tərəfə yayıldı. Eynilə tikan budaqları kimi; yaşıl, təzə, tikanlı və bəlalarla dolu».

Xilafətin əsl sahibi, o «təvil əhli»nin qarşısın da özünə layiq və uca ruhunu nümayiş etdirən bir mövqe seçdi. Bu davranışı ilə də İslamın əmin-amanlığını təmin etdi. Məgər Allahla bəndələri arasındakı tək vasitə o deyildimi?!

Müsəlmanları ayıltmaq və haqqının əlindən alındığını onlara başa salmaq üçün lazım bildiyi müddətə qədər, xilafət kürsündə oturana beyət etməyi tarixə saldı və sonunda hakimiyyətin təzyiqi qarşısında təslim olub beyət etdi.[1] Dostlarından biri «Bu məqama hər kəsdən daha layiq olduğunuz halda nə üçün sizi ondan uzaqlaşdırdılar?», - deyə soruşduqda belə buyurdu: «Bu, bir inhisarçılıq idi ki, bir dəstə ona tamah saldı və başqa bir dəstə izzətlə ondan vaz keçdi. Bu mövzuda Allah hökm verəcək və qayıdış yeri də Qiyamətdi. İndi isə sənin işinə yaramayan işlə məşğul olma».

Bu sözdə, Həzrət Əlinin narazılığını, qəzəbini və zahirdə təslim olsada səbir etdiyini görmək mümkündür.

Rəqibləri o Həzrətin nurunu görə bilmədilər. Çünki gözlərini kin və düşmənçilik pərdəsi örtmüşdü. Onlar İmamın parlaq keçmişini, cihadını, Peyğəmbərlə (s) yaxın qohumluğunu, onun kürəkəni və qardaşı olduğunu, elm və ibadətini və Rəsuli-Əkrəmin onun haqqındakı aydın sözlərini inkar etmirdilər. Lakin elə bu üstünlük və imtiyazlarına görə ona kin bəsləyir və döyüş meydanlarında İslamın fidanını əkib xalq arasından özünə qanlı düşmən qazanan kəskin qılıncına, haqqı danışıb haqqı axtarmasına düşmənçilik bəsləyirdilər.

Cavan olduğunu ona irad tuturdular. Halbuki, o gün o, ömrünün dördüncü on ilini yaşayırdı. Təəccüblüdür ki,

---

[1] Müaviyə, Əbu Əmamə Babilin vasitəsi ilə o Həzrətə göndərdiyi məktubunda belə yazmışdır: «Ona yəni – Əbu Bəkrə beyət etməyi təxirə saldın. Nəhayət, vurnuxan erkək dəvə kimi zorla ona doğru aparıldın».

Rəsulallahın canişini olmaq üçün yaş baxımından məsələn, yetmiş yaşı şərt qoyduqda, görəsən bilmirdilər ki, imamlıq və ümmətə rəhbərlik məqamı eyni ilə peyğəmbərlik məqamı kimi bir məqamdır?! Peyğəmbərliyə rəva olan hər şey imamlığa da rəvadır, peyğəmbərliyin şəninə uyğun olmayan imamlığın da şəninə uyğun deyil! Görəsən, Allahın göstərişi ilə peygəmbər tərəfindən canişin təyin olunmasına baxmayaraq, bəzilərinin yaş şərtinin ortaya çıxarmasını və bunu siyasi səbəblərlə əlaqələndirməyini necə dəyərləndirmək olar?

Rəsuli-Əkrəm (s) vəfat etdikdə, Həzrət Əlinin (ə) yaşı, Məryəm oğlu İsanın göyə qaldırıldığı vaxtkı yaşı ilə eyni idi. Təəccüblüdürki, Həzrəti İsaya peyğəmbərliyinin son günündə 33 yaşında olması rəva idi, amma Həzrət Əliyə, imamətinin ilk günündə bu yaşda olması rəva deyildi?! Bu yaş həddi Allah-Təalanın Cənnət sakinləri üçün təyin etdiyi və uyğun gördüyü bir yaşdır. Əgər bu yaş həddi insanın ən gözəl çağı olmasaydı, uca Allah bunu, Cənnətdəki seçilmiş bəndələri üçün təyin etməzdi!

Rəsulullahla (s) yaxın qohumluğunu onun başqa bir qüsuru sayıb, peyğəmbərlik və imamlığın bir ailədə toplanmasını bəyənmədilər. Necə ola bilər ki, məziyyət qüsur sayılsın. Necə ola bilərki, yaxın qohumluğu xilafətə əngəl bildikləri halda, uzaq qohumluğu xilafət üçün bir dəlil və yad rəqiblər qarşısında əsas gətirdilər? Bütün bunlar cavabsız qalan suallardır....

Onlar, xilafəti Rəsulullahın (s) sülaləsindən ayırıb ən uca dini mənsəblərə sahib olmaq üçün meydanı digər sülalələrin fəaliyyətinə və qüdrətlərinin nümayişinə açmağı İslamın və müsəlman cəmiyyətin xeyrinə olduğunu fikirləşdilər. Lakin bu mənsəb, mahiyyətcə qüdrət sahibi olmaq və ya fəth olunma kimi məqsədlər daşımırdı. Xülasə, Rəsuli-Əkrəmin təkidlə və ehtiyatla ümməti və itrəti üçün nəzərə aldığı və bu səbəblə xilafəti itrətinə həvalə etdiyi mühüm hədəf onların nəzərindən yayındı.

Sonradan İslam aləmində baş verən hadisələr bais oldu ki, oyaq qəlblər Rəsuli-Əkrəmin (s) atdığı addmının doğruluğunu və

İslam ümmətinin məsləhətini iddia edənlərin səhvini anlasınlar. Çünki itrətin xilafətdən izaqlaşdırılması nəticəsində xilafət düşkünləri arasında saysız qanlı tarixi ixtilaflar yarandı. Eləcə də İslam aləmində o böyük faciələri törətdi və ideal İslamın həqiqiləşməsi yolunda maneələr yaratdı. Belə ki, əgər İslam xilafəti ilk gündən etibarən təyin olunan və özünün aydın yolu ilə getsəydi, yəni əgər Allahdan başqa heç kəs ona müdaxilə etməsəydi və bəşəri siyasətlər və ictihadlar onu aludə etməsəydi müsəlmanlar bu hadisələri yaşamayacaqdılar.

وَمَا كَانَ لِمُؤْمِنٍ وَلَا مُؤْمِنَةٍ إِذَا قَضَى اللَّهُ وَرَسُولُهُ أَمْرًا أَنْ يَكُونَ لَهُمُ الْخِيَرَةُ مِنْ أَمْرِهِمْ ۗ وَمَنْ يَعْصِ اللَّهَ وَرَسُولَهُ فَقَدْ ضَلَّ ضَلَالًا مُبِينًا

***«Allah və Rəsulu bir işə hökm verdiyi zaman, heç bir mömin bir kişi və qadının bu hökmə öz istəklərinə görə əməl etməyə haqqı yoxdur. Hər kim Allah və Rəsuluna qarşı itaətsizlik edərsə, azğınlığa düşmüşdür».***[1]

Sizcə, tanınmış müsəlman sülalələri arasında nəsildən-nəsilə miras qalan bu düşmənçilik və qanlı çəkişmələrin xilafət meydanının layiq olub-olmayan hər kəs üçün açıq buraxılmasından başqa bir səbəbi vardırmı? Sizcə, İslam tarixinin müxtəlif dövrlərində Əməvilərlə Haşimilər, Bəni-Zubeyrlə Bəmi-Üməyyə, Bəni-Abbasla Bəni-Üməyyə, Ələvilərlə Abbasilər və sair sülalələr arasında baş verən qanlı savaşların ilahi hökmə qarşı itaətsizlikdən başqa bir səbəbi varmı? O hökm ki, Rəsuli-Əkrəm (s) onun toxunulmamazlığı üçün hədsiz dərəcədə ehtiyatlı və diqqətli idi; sanki o Həzrət bu kədərli hadisələri əvvəlcədən görürdü və onların qarşısını almağa çalışırdı.

Hər biri öz növbəsində tay-bərabəri olmayan faciə sayılan Rəsulullahın Əhli-beytini qətlə yetirmək, dara çəkmək, əsir götürmək və ya diyar-diyar sürgün etməyin atılan o ilk səhv addımdan başqa bir səbəbi varmı? O səhv ki, Peyğəmbərin

---

[1] «Əhzab» surəsi, ayə 36.

ümməti və Əhli-beyti haqqında amallarını puç edib, onlar üçün verdiyi məsləhətlərə etina olunmadı.

Bəli, onlar bu uzaqgörənliyin və uzun müddətli siyasətin dərinliyinə vara bilmədilər. Çünki başqa bir siyasətlə məşğul idilər, onlar peyğəmbərliyin və imamlığın bir ailədə cəmləşməsini istəmirdilər. Əslində, bu, olanların zahiri üzr və bəhanələri idi. Çünki bundan başqa camaat deyə biləcək bir bahanə tapmamışdılar. Görəsən, onların batini üzrləri və əsl istəkləri nə idi? Bunu, aşkarı və gizlini bilən Allah-Təaladan başqa hec kim bilməz! Ancaq böyük ehtimalla demək olar ki, bu üzr - İslama dəvətin müqəddəs döyüşlərindən qalan qanlı xatirələr və ya hadisədə buyurduğu kimi, «atəş odunun külə döndərib yox etdiyi kimi, dini yox edər» - həsəddən başqa bir şey deyildi. Həqiqətən də, rəhbərlik eşqi və hökümət sevdası, bəşərin ən təhlükəli ruhi xəstəliyi olub, rəhbərlərə və ya rəhbərlik iddiasında olanlara ən çox təsir göstərən amillərdən biridir.

Nübuvvət və imamət; hər ikisi mənsəb olduğu üçün bu mənsəb, tanınan siyasi mənsəblər dairəsindən xaricdir. Peyğəmbərin və ya onun tabeliyində olan hər bir təşkilatın yürütdüyü hər növ siyasət, dini qanundur və dinə aid olunur. Bu sistemdə yeganə səlahiyyətli şəxs isə dini gətirən və dini rəhbərdir. Onun sözü və nəzəri, ən son və ən qəti söz və nəzərdir.

Bu məsələnin bəhsimizlə sıx əlaqəsinin aydınlaşması üçün xilafətinin əvvəllərində Həsən ibn Əlinin Müaviyəyə yazdığı etiraz və məzəmmət məqsədli məktubuna işarə etmək isdəyirəm. Bu məktubda yazılıb: «... Rəsuli-Əkrəm vəfat edən kimi, onun hökumət mirası üsdündə ərəblər arasında münaqişə yarandı. Qüreyş: «Biz onun qövmü, qohum əqrəbaları, nəslinin davamçılarıyıq. Buna görə də onun hökümət (miras) və iqtidarı barədə bizimlə düşmənçilik etmək sizə yaraşmaz» - dedilər. Ərəblər də, Qüreyşin bu dəlilini qəbul edib onun iddiasına təslim oldular; ehtiram göstərərək, bu məqamı onlara təslim etdilər. Bu vaxt biz də Qüreyşə, onların ərəblərə söylədiklərini dedik. Lakin

onlar, ərəblər kimi bizə qarşı insaflı davranmadılar. Qüreyşlilər, hökuməti öz dəlillərinin gücü və ərəbin insafının yardımı ilə ələ keçirtdilər. Lakin sıra bizim dəlillərmizə və onların insafına gəldikdə, bizi uzaqlaşdırdılar. Əl-ələ verib bizə zülm və cəfanı rəva gördülər və hökumət başına keçdilər.

Bəli, onlarla görüşəcəyimiz yer Allah-Təalanın hüzurudur. Yardımçımız və himayədarımız da Odur!

O gün bir dəstənin qəsbkarcasına haqqımıza və ailəmiz məxsus olan hökumətə əl uzatdıqları üçün təəccüblənmişdik. Lakin münafiqlər və dinin müxalifətləri İslami məğlubiyyətə uğratmaq, fəsad və təfriqə yaratmağa bir vasitə və yol tapmasınlar deyə, fəzilət sahibi olduqları və İslama xidmət gösdərdikləri üçün onlarla münaqişə etmək fikrindən daşındıq.

Ey Müaviyə! Lakin bu gün sənin bu məqam və mənsəbə əl uzatmağına hər kəsin təəccüb etməsi yerində olar! Çünki sən heç bir baxımdan bu məqama layiq deyilsən; nə sənin bir fəzilətin və bəyənilən sifətin var, nə də ki, yaxşı və sevilən bir adın...

Bundan əlavə, sən, düşmənlərin yetişdirdiyi və Rəsulallah və Quranın ən azğın Qüreyşli düşməninin oğlusan!... Allah sənin etdiklərini görür. Yaxında Onun hüzuruna daxil olacaq və işin aqibətinin kimin lehinə olduğunu görəcəksən!»[1]

Gördüyünü kimi, İmam Həsən (ə) Müaviyənin qəsbkarcasına xilafət məqamına əl uzatmasına olan heyrətini, ilkin qəsbkarların rəftarına olan heyrətinin davamı kimi ifadə edir. Beləliklə, bu iki hadisənin, yəni ilkin qəsibkarlıqla Müaviyənin qəsibkarlığının bir-biri ilə əlaqəsi, eləcə də bu iki qardaşa (Həsən və Hüseyn), ana-atalarına (Fatimə və Əli) və Əhli-beytin ümumi haqlarına aid digər həqiqətlər aşkar olur.

Burada məqsədimiz, yalnız mövzumuzla tam əlaqəsi olan hadisələri bəyan etmək olduğu üçün başqa hadisələrə toxunmaq istəmirəm. Rəsulallahdan (s) sonra bir göz qırpımında qələbə çalan maraqlı və məharətli siyası oyun - belə ki, təşkil edənlərin biri onu «gözlənilməz hadisə» və daha sonra Müaviyə bu

---

[1] «Nəhcül-bəlağənin şərhi» cild 4, səh. 12.

hərəkəti «Haqqı ortadan qaldırmaq və əmrə itaətsizlik» adlandırmışdı - təşkilatçılarının bu planı çox əvvəldən hazırlandığını göstərir. Beləliklə, xilafət iddiaçılarının Əhli-beyt qarşısında istər o dövrdə, istərsə də sonrakı dövürlərdə böyük təsirlər qoyan xüsusi bir tərzdə qruplaşmasını söyləyə bilərik. Bu qruplaşmanın nəticəsində Rəsulallahı itrəti xilafət məsələsində məğlub oldu. Sonra da, onları planlı şəkildə tarixdə baş verən hər bir əhəmiyyətli hadisələrdən uzaqlaşdırdılar.

Nə özündən sonra canişin təyin edən birinci xəlifə Əhli-beyti önə çəkdi, nə də ki, xəlifənin təyin olunmasında altı nəfərdən üçünün nəzərini əsas tutan ikinci xəlifə onlara qarşı insafla davrandı. Üçüncünün evində baş verən macəradan sonra da əgər xəlifəni təyin etmək xalqın əlinə düşməsəydi, İslam tarixinin heç bir dövründə Rəsulallahın Əhli-beyti xilafətə gələ bilməyəcəkdir. Bu qruplaşmanın digər bir nəticəsi də, iki dövr Haşimi hökümətinə (İmam Əlinin 5 illik hakimiyyəti və İmam Həsənin bir neçə aylıq xilafətinə) qarşı dərin və köklü bir düşmənçilik və müxalifətin yaranması oldu. Bəsrə, Siffeyn, sonra da Məskin döyüşlərində buna bir çox şahidlər göstərmək olar.

Həmçinin, Abdullah ibn Ömər, Səd ibn Əbu Vəqqas, Üsamə ibn Zeyd, Məhəmməd ibn Məsləmə, Qudamə ibn Məzun, Abdullah ibn Salam, Həssan ibn Sabit, Əbu Səid Xədri, Zeyd ibn Sabit, Numan ibn Bəşir və sairlərin İmam Əli və İmam Həsənə beyət etməyərək bitərəf mövqe tutması sözümüzə başqa bir şahiddir. Bu ixtilaf və qarşıdurma, müxtəlif sahələrdə və müxtəlif formalarda özünü göstərir. İtrətinin istər Mədinədə, istərsə də Kufədə qarşılaşdığı üsyankar, mənfi və mübhəm simalarını buna nümunə gətirmək olar. Yoxsa Əlinin (ə) Kufədə minbərə çıxıb fəryad etməsinə nə ehtiyac var idi: «Ey kişi cildindəki namərdlər! Ey düşüncələri uşaqların qarışıq röyaları və zifaf otağında gözləyən gəlinlərin düşüncəsinə bənzəyənlər! Kaş sizləri heç görməyəydim, tanımayaydım. Nə qədər də üzücü və peşmanedici bir tanışlıqdır! Ölüm olsun sizə ki, qəlbimi ağrıtdınız, köksümü qəzəblə doldurdunuz, qəm və kədər

qədəhini qurtum-qurtum boğazıma tökdünüz, itaətsizlik və saymamazlıqla tədbirimi puç etdiniz».[1]

Əmirəl-möminin digər nitqlərində bu məzmunda ifdələri çoxdur.

Məgər Əli (ə) hökumətinin bütün məntəqələrində təfriqə toxumunu səpən və müxtəlif bəhanələrlə xalqı ona yardım etməkdən çəkindirən bu mənfi vəziyyət, Əhli-beytlə müxalifətin təzahürü deyildimi?! Silahlı mübarizə və yardımdan çəkinmək kimi qarşıdurmanın yaranmasında qruplaşmanın da təsir göstərdiyini unutmamalıyıq.

Şübhəsiz, İmam Həsənin hökümətinin, ümumiyyətlə hicrətin ilk əsrindəki bütün Haşimi hökümətlərinin səciyyəvi xüsusiyyəti olan yenilməz ədalət və dəqiq bərabərlik, istər müharibədə, isdərsə də əmin-amanlıqda labüd olan mütləq itaət, ixlas və səmimiyyətlə uzaqlaşmaq istəməyən xalqın müəyyən bir təbəqəsində bir növ sıxıntı və təzyiq hissi oyandırmışdı.

Məğlubiyyətə uğrayan ölkələrin xəzinələrinə yol açan fəthlər və insanlar üçün yeni sayılan təm-təraqlı həyat tərzi, nur və aydınlığın əksinə hərəkət etmiyə zəruri edən bu cür ruhi böhranın yaranmasında mühüm rol oynayırdı.

Peyğəmbərdən (s) sonra artıq 25 il ərzində İmam Əlinin hökumətin dövrünə və Həsən ibn Əliyə beyət edilənə qədər bu qarşıdurma və qruplaşma formalaşmışdı.

İmam Həsən, Həzrət Əlinin ilk övladı və böyük oğlu, onun canişi, kədər və sevincinin, yaxşı və pis gününün şəriki idi. Atasının dərdini dərk edir, iztibarına görə iztibar çəkirdi. Atasını əhatə edən fəryadı, qövmünü və qohum-əqrabalarını, düşmənlərini və müxaliflərini, ümumi xalq kütləsini cox yaxşı tanıyırdı və onlarla ünsiyyətdə idi. Ətrafında baş verənlərə görə daxilən qüssə cəkirdi.

Qardaşı Hüseyn də onun bu qəminə ortaq idi... Peyğəmbərin nəvələrinin bu daxili qüssəsi, ümmətin, Rəsulallahın (s) Əhli-beytinə qarşı necə davrandığını və **«Görək, məndən sonra**

---

[1] «Nəhcül-bəlağə» xütbə 27.

**Əhli-beytim barədə haqqımı necə qoruyacaqsınız!»** sözünə necə əməl etdiklərini göstərirdi. Lakin İmam Həsən (ə) bir tərəfdən bu vəziyyəti görərək ürəyində ağır bir kədər daşısa da, digər tərəfdən kamil bir igidlik, qəramanlıq, fədakarlıq və ixlas örnəyi olan və həva və həvəslarinə aldanmayın, Allah yolunda canlarından keçən atasının dəyərli tərəfdalarını görəndə içində bir ümid işığı yarandı. Onların arasında sərkərdələr, güclü xətiblər, fəqihlər, Quran qariləri və İslamın dirçəlməsində böyük rolu, zəhmətləri olan seçkin insanların varisləri gözə çarpırdı.

Həqiqətən, onlar, istər müharibədə, istərsədə əmin-amalıqda Əmirəl-möminin Əlinin (ə) etibar etdiyi insanlar idi və təhlükəli hadisələr qarşısında Haşimilər hökmətinin sütunlarını təmsil edirdilər. Onlar, Əhli-beyt bairəsində Peyğəmbərlə bağladıqları əhd-peymana sadiq qalan və onları, özlərini və övladlarını qoruduqları kimi qoruyacaqlarına dair verdikləri sözü unutmayan müsəlmanlar idi. Belə olduğu təqdirdə, İmam Həsən (ə) atası barədə və ya özünün gələcəyi barədə nə üçün onlara ümid bəsləməsin? Onlar, Rəsulallahın Əhli-beyti haqqında Allah-Təalanın buyruqlarına iman gətirən, Əlinin canişinliyinə və Allahın ona xas etdiyi və özünün də layiq olduğu məqam və mənsəbə qəlbən inam bəsləyən və Əlini layiqincə tanıyan həqiqi möminlər idi.

Məgər Əli, müsəlmanların, Rəsulallahdan (s) sonra ixlas, səmimiyyət, İslam yolunda fədakarlıq, müsəlman ümmətinin ümumi mənafeyini düşünmək, ədalətdən dönməmək və elimin çoxluğunda tay-bərabərini və bənzərini görmədikləri və tanımadıqları bir qəhraman deyildimi?

Bəzilərinin inkarı, Həzrət Əlinin məqamının əzəmət və ucalığını azalda bilməz! Onlar, varlıqlarını həva-həvəsə təslim edənlərdir. Belə insanlar hər zaman Əli aləmindən uzaqda və onun meyarlarından fərqli meyarlarla yaşamalı və təməli hökumətin və mənsəblərin alı-verişi üzərində qurulan bir cəmiyyətdə güzəran sürməli idilər. Əli ilə birlikdə sınaqdan keçən və seçilən həqiqi və doğru düşüncəli müsəlmanlar yaşamalı idi; Əmmar ibn Yasər, Zuş-Şəhadəteyn, Xüzeymə ibn

Sabit, Hüzeyfə ibn Yəman, Abdullah ibn Budeyl və qardaşı Əbdur-Rəhman, Malik ibn əl-Haris Əştər, Xəbbab ibn əl-Ərət, Məhəmməd ibn Əbu Bəkir, Əbdül-Heysəm ibn ət-Təyhan, Haşim ibn Utbə ibn Əbu Vəqqas (Mərqal), Səhl ibn Hüneyf, Sabit ibn Qeys əl-Ənsari, Uqbə ibn Əmr, Səd ibn Haris, Əbu Fuzalə Ənsari, Kəb ibn Əmr əl-Ənsari, Qərəzə ibn Kəb Ənsari, Ovf ibn Haris ibn Ovf, Kilab ibn Əsgər əl-Kənani və Əbu Leyla ibn Buleyl və onlar kimi döyüş meydanlarının sərkərdələri, ibadət mehrablarında gecələri sabahlayan, zülmü pisləyib bidətləri böyük günah sayan, yaxşı işlərə əmr edib pis işlərdən çəkindirən və başqaları maddi hədəflər üçün bir-biri ilə yarışdığı halda, Allah yolunda ölmək üçün bir-birləri ilə yarışan bir çox insanlar.

Bunu da xatırladaq ki, bu böyük və seçilən şəxsiyyətlərin hamsı döyüş meydanlarında İmam Əlinin (ə) silahdaşı olub şəhid olmuşlar. Təkcə Siffeyn döyüşündə Bədr əhlindən[1] 63 kişi şəhadət şərbətinin icmişdir. 3 il sürən döyüşlərdə dəyən zərər isə bu rəqəmin bir neçə mislidir.

Sizcə, belə olan təqdirdə, bu ixlaslı dostların varlığı səbəbilə Həsən ibn Əlinin qəlbindəki ümid işığı hansı vəziyyətdə ola bilər? Görəsən, bu sadiq köməkçilərinin itirdikdən sonra zaman keçdikcə artan o gizli iztirabdan başqa hansı bir hiss qala bilər?

Həzrət Əlinin ordusu, ən yaxşı adamlarını itirmək və dayağını əldən verməklə ən böyük müsibətə düçar oldu və şəhid olan köməkçilərininin cansız cəsədlərinin kənarında, özünün dediyi kimi, «başdan-ayağa qəm, kədər və qüssə ilə dolu bir həyat»a başladı.

Əli, hökümətinin geniş üfüqünə baxıb, bu ərazidə yaşayan insanlar arasında bu şəhidlər kimi və bəyənilən xüsusiyyətlərə sahib insanlar görə bilmədi. Onlarla bir qədər oxşarlığı olanlar isə az olduqları üçün müharibədə və ya əmin-amanlıqda ümid bəslənəcək qədər deyildi.

---

[1] Bədr döyüşündə iştirak edənlər nəzərdə tutulur və bu döyüşdə iştirak etmək böyük bir iftixar sayılır.

Şübhəsiz, əgər Həzrət Əlinin xütbələrindəki güclü və təsirli bəyanı və eləcə də dinləyicilərin gözündəki uca mövqeyi və məqamı olmasaydı, o, seçilmiş tərəfdarlarını itirdikdən sonra, əsla nə bir ordu toplaya bilərdi, nə də ki, etibarlı bir dayaq əldə edə bilərdi.

Elə bir vəziyyət yarandı ki, Həzrət Əli bir tərəfdən bəzi qəbilə başçılarının əlaqələrini kəsməsi, başqa tərəfdən bir qrupun silahlı düşmənçiliyi və nəhayət, «dinclik zamanı qardaş, bəla zamanı isə azad bir şəxs olmayan» və «ardıcıl»ların saymamazlıq və alçaqlıqları ilə üzləşdi. Həqiqətən, ümid işığı görünməyən, qələbəyə ümidi olmayan və bu dəyərsiz və müvəqqəti dünyanı əbədi Axirətə dəyişən Allahın ləyaqətli bəndələrinin köçüb getdiyi bir həyatda yaşamaq nə qədər də çətindir! Elə buna görə də dəfələrlə İmam Əlinin (ə) belə dediyini eşitmişdilər: «İlahi! Muradinin (İbn Mülcəm) bədbəxtliyini tezləşdir». Yaxud «Nə üçün insanların ən azğını saqqalımı başımın qanına boyamır?» - deyirdi. Ya da xalqa xitabən «And olsun Allaha ki, məni sizin aranızdan aparıb Öz rəhmətinə qovuşdurmasını arzu edirəm» buyurduğu nəql edilmişdir.

Salam olsun ona! Doğulduğu, hər kəsdən əvvəl İslamı qəbul etdiyi, qılıncı ilə İslamı qoruduğu, imtahanını verdiyi, öldüyü və təkrar diriləcəyi günə.

Həzrət Əli (ə) şəhadət şərbətini içdi vəköməkçilərin olmadığı, silahlı düşmənlərin ayağa qalxdığı və kömək edə bilənlərin köməklərini əsirgədiyi qarışıq vəziyyəti özündən sonrakı canişin üçün yerdə qoyub getdi.

## BEYƏT

Əgər İslam məntiqinə görə din, ilahi bir peyğəmbərin gətirdiyi hökmlərdirsə, halda həva-həvəs ilə danışmayan və danışdığı hər bir sözün ilahi vəhy olduğu yeganə şəxs odur ...

Əgər İslam aləmində xəlifə, Rəsulallahın bu məqama təyin etdiyi kəsdirsə, belə ki, bu işə səlahiyyətli şəxs, peyğəmbərdir ....

Deməli, Həsən ibn Əli, mübahisəsiz, şəri xəlifədir və xalqın ona beyət edib-etməməsi bu mövzuda heç bir şeyi dəyişdirmir!

Rəsuli-Əkrəm (s) onu adı və vəsfi ilə on iki imamdan biri olaraq tanışmışdır. Rəsullahın bu əmrini əhli-sünnə alimləri bir çox hədislərdə rəvayət[1] etmiş və şiə alimləri də bu rəvayətləri qəbul etmişlər. Hər iki firqə də eyni fikirdədirlər ki, Rəsuli-Əkrəm ona və qardaşına buyurmuşdur: **«Siz ikiniz imam və rəhbərsiniz və ananızın şəfaət haqqı var».**[2]

Həmçinin İmam Hüseynə işarə edərək buyurmuşdur: **«Bu, imamın oğlu, imamın qardaşı və doqquz imammın atasıdır».**[3]

Atası Əmirəl-möminin Əli (ə) yatağa düşdükdə Həzrət Həsənə, camaat namazında imam (pişnamaz) dayanmağı əmr verdi [4] və həyatının son anlarında «Oğlum! Məndən sonra məqamının və qanımın sahibisən» buyurub, onu öz vəsisi təyin etdi. O Həzrətin Hüseyni, Məhəmməd Hənəfiyyəni və digər övladlarını, həmçinin şiənin və xanədanının başçılarını bu vəsiyyətinə şahid tutdu. Sonra öz kitabını və silahını ona verərək belə buyurdu: «Oğlum! Rəsulallah mənə əmr etmişdir ki, səni özümə vəsi təyin edib kitab və silahını mənə vermişdi. Həmçinin, mənə göstəriş verdi ki, sən də ömrünün son anlarında bunları qardaşın Hüseynə verərsən».

---

[1] Bu hədislər ətraflı şəkildə Şeyx Süleyman Bəlxi Hənəfinin «Yənabiul-məvəddə» kitabının 2-ci cildinin 440-cı səhifəsindən və Şeyxul-İslam Əbu İsaq Həmvininin «Fəraidus-səmteyn» və Sədrül-əimmə Əbül-Muəyyəd Müvəffəq ibn Əhməd Xətib Xarezminin «Müsnəd» kitablarına əsasən yazılmışdır. Bu hədisləri, həmçinin bu kitablarda da nəql ediblər: İbn Xəşşab: «Tarix»; İbn Səbbağ ləqəbi ilə tanınan Nuriddin Əli ibn Məhəmməd ibn Əhməd ibn Maliki Məkki: «Əl-Fusulul-muhimmə»; Hafiz Məhəmməd ibn Yusif Gənci Şafei «Əl-Bəyan»; Əsəd ibn İbrahim ibn Həsən ibn Əli əl-Hənbəli: «Ərbəin»; Hafiz xacə Parsayi Buxari: «Fəslul-xitab» və s.

[2] Şeyx Əllamə Abdullah ibn Məhəmməd ibn Amir Şəbravi Şafei: «Əl-İthaf bi hubbil-əşraf» səh. 129 (Misir çapı); Safuri əş-Şafei: «Nəzhətul-məcalis» cild 2, səh. 184.

[3] İbn Teymiyyə ləqəbi tanınan Əhməd ibn Əbdül-Həlim Hənbəli: «Əl-Minhac» cild 4, səh. 210.

[4] «Tarixi İbn Əsir» cild 6, səh. 61.

Sonra İmam Hüseynə üz tutub buyurdu: «Sənə də bunları bu oğluna (İmam Zeynəlabidin) verməyi əmr etdi». Daha sonra Əli ibn Hüseynin əlindən tutaraq buyurdu: «Rəsulallah sənə də bunları oğlun Məhəmməd ibn Əliyə (İmam Baqir) verməyi əmr etdi. Ona Rəsulallahın və mənim salamımı çatdır!»[1]

Bu mövzuya toxunan bütün hədis kitablarında nəzərinizə çatdırılan bu hədis eyni şəkildə nəql olunmuş və bu mövzuya aid rəvayətlər, səhih sənədlər və etibarlı yollarla əsl rəvayət qaynaqlarına, yəni Əhli-beyt İmamlarına və etibarlı ravilərə çatdırılmışdır.

## İMAMƏTİN İSBATINDA ŞİƏNİN ÜSLUBU

Həm şiə qaynaqlarında mövcud olan «mütəvatir»[2] hədislər, həm də əhli-sünnənin qaynaqlarında rəvayət olunan aydın məzmunlu və «dəlalət»i aşkar olan hədislər, imamların sayının 12 nəfər olub hamısının da Qureyşdən olduğunu açıqlayır.

Hədislərin bəzilərində də sonuncu İmam Mehdi Muntəzərə (ə) qədər onların ardıcıllıqla adları çəkilir və sonuncu imam vasitəsi ilə zülm və haqsızlıqla dolan dünyada ictimai ədalət və insani dəyərlərin bərqərar olunacağı bildilir.

Hər İmam açıq şəkildə özündən sonra itaəti vacib olan imamı təyin edib.

Əhli-beyt İmamlarının hər birinin elmi, əxlaqi üstünlüyü və kəramətləri əvvəlki iki dəlili təsdiqləyən digər məntiqi dəlildir.

Bunu bilməliyik ki, xalqın beyəti, bir imamın imamlığının şərti deyildir. Camaat isə Rəsuli-Əkrəmin (s) nəss və buyruqlarına uyğun bir şəxsə beyət etməlidirlər. Şiələr bundan başqasına beyəti, çarəsizlik və məcburiyyət istisna olmaqla, düzgün hesab etmirlər.

---

[1] Siqətül-İslam Əbu Cəfər Məhəmməd ibn Yəqub ibn İsaq əl-Kuleyni «Üsuli-kafi» səh. 151; Şeyx Cəlil Əbül-Həsən Əli ibn Əbül-Fəth İrbili: «Kəşful-gümmə» səh. 159.

[2] Düzlüyünə şübhə edilməyən sənəd (xəbər), arası kəsilmədən məsumlardan birinə çatan sənəd və s.

Mövcud şərait və bu şəraiti meydana gətirən məqsəd və səbəblər nəticəsində müsəlman ümməti Rəsuli-Əkrəmin açıqcasına təyin etdiyi həqiqi xəlifələrdən, yalnız ikisinə beyət edə bildilər və o iki nəfər Əmirəl-möminin Əli və oğlu İmam Həsən (hər ikisinə salam olsun) idi.

İmam Həsəndən sonra qeyri-ilahi və zahiri xəlifəlik dövrü başladı. Bu dövrün ən əsas xüsusiyyəti, silah gücünə xalqdan beyət almaq olmuşdur. Höcətul-İslam Əbu Həmid Məhəmməd ibn Məhəmməd Qəzalinin dediyi kimi: «Xilafət, heç bir baxımdan ona layiq olmayanların əlinə keçdi».[1]

Müsəlmanlar, xüsusilə də İslam tarixçiləri İmam Həsən ibn Əlinin (ə) xilafət dövrünün sona çatması ilə İslam xilafəti dövrünün sona çatmasını qəbul etməli və ondan sonralı dövrü siyasi və ictimai sultanlıq dövrü hesab etməlidirlər. Əgər belə etsəydilər, Rəsulallahın (s) və onun həqiqi xəlifələrinin rəftarlarından zahir olan həqiqi və ideal İslamın simasını olduğu kimi qorumuş və adı xəlifə olan bu padşahların öz davranışları ilə bu dinə gətirdikləri xələli uzaqlaşdırmış olardılar. Onda tarix də bu zalım azğınları «Peyğəmbərin canişini» adlandırmaz və bu dinə belə bir zülmü rəva görməzdi!

Görəsən, xəlifənin, yəni təqva, elm və İslam dininin hökmlərinə riayət etməklə Rəsulallaha hamıdan çox bənzəyən bir insanın cümə namazını çərşənbə günü və ya zöhr çatmamış qılması düzgündürmü?! Yaxud açıqcasına haram işi yerinə yetirmək, qızılı, öz ağırlığında olmayan bir qızıla satmaq, vələdizinanı nəslə aid etmək, mömini günahsız yerə zindana atmaq və sonra onu öldürmək, bir kafirə maddi yardım göstərib müsəlmanlara qarşı onu təchizadlamdırmaq və bunlar kimi dinə zidd olan işləri görmək «xəlifə»yə yaraşarmı?! Nə üçün belə bir insanı padşah deyil, din rəhbəri saymalıyıq? Müaviyənin canişinləri və Qurani-Kərimin layiq olduqları kimi yad etdiyi o budağın meyvələri iddiamız üçün yetərli dəlillərdir! Görün,

[1] Fərid Vəcdi: «Dairətul-maarif», «Həsən» sözü cild 3, səh. 231.

Yezid ibn Müaviyə, Əbdul-Məlik, Vəlid və bu «lənətlənmiş ağacı»ın şaxələri» olan başqaları nələr etdilər?

Əslində, bu həqiqətlər müsəlmanları, İslam haqqında daha insaflı davranmağa vadar etməli idi. Yeni bu dini hakimiyyətin ən uca məqamına, Rəsulallah kimi ən ləyaqətli və saf bir insanı layiq görməli və yerli-yersiz hər kəsi «Peyğəmbərin xəlifəsi» adlandırmamalı idilər.

Bir qədər əvvəl İmam Həsənin, istər xarici görkəm, istərsə də əxlaq və alicənablıq baxımından Rəsuli-Əkrəmə (s) hamıdan daha çox bənzədiyinin qeyd etmişdik.[1]

Peyğəmbərin siması və nuraniliyi onun üzündə təcəlli edirdi; Cənnət gənclərinin sərvəri idi. Şübhəsiz ki, Axirətdə sərvər olan, bu dünyada da sərvərdir!

«Sərvər» (ağa) ləqəbini ona, babası Rəsulallah vermişdi və bu, onun xüsusi ləqəbinə çevrildi. Həmçinin, məlum olduğu kimi, nəsil baxımından - ata, ana, baba, nənə, əmi, bibi, dayı, xala - İmam Həsən, - Malik ibn Əclanın, Müaviyənin məclisində dediyi kimi - ən üstü nəsilə sahib idi.[2]

Nə üçün Peyğəmbərin (s) təyini ilə imam və rəhbər olduğu kimi, insanlar tərəfindən də ümumi beyət yolu ilə seçilməsin?! Nə üçün belə bir məqama və üstün xüsusiyyətlərə sahib olduğu

---

[1] Şeyx Müfid ləqəbi ilə tanınan Əbu Əbdullah Məhəmməd ibn Nöman Əkbəri: «İrşad» səh. 167; Məhəmməd ibn Yəqubi «Tarix» cild 2, səh. 201.

[2] Bir gün Müaviyə Qüreyşin və qövmünün başçılarının yanında belə dedi: «Ana, ata, əmi, bibi, dayı, xala, baba və nənə baxımından insanların ən üstününü mənə tanıtdırın!» Malik ibn Əclan ayağa qalxıb İmam Həsən (s) işarə edərək belə dedi: «Dediyin adam budur. Atası Əli ibn Əbu Talib, anası Rəsulallahın (s) qızı Fatimə, əmisi Cəfəri-Təyyar, bibisi Əbu Talibin qızı Ümmü-Hani, dayısı Rəsuli-Əkrəmin oğlu Qasım, xalası Rəsulallahın qızı Zeynəb, babası Rəsulallah, və nənəsi Xuveylədin qızı Xədicədir». Bu sözlərdən sonra ordakıların hamısı susdu. İmam Həsən (ə) ayağa qalxdı. Əmr ibn As üzünü Malik ibn Əclana tutub dedi: «Bəni-Haşimi sevməyin səni yalan danışmağa vadar etdi?» Malik dedi: «Mən indiyədək yalan söyləməmişəm! Bəndənin razılığını qazanmaq üçün Yaradanın qəzəbini satın alanlar bu dünyada öz arzularına çatmaz, Axirətdə də bədbəxtlikdən başqa bir nəsibləri olmaz! Bəni-Haşimin zatı hər kəsdən təmizdir və onlar hər kəsdən comərddirlər... Elə deyilmi, ey Müaviyə?» Müaviyə dedi: «Bəli, elədir».

halda ən uca dini məqama seçilməsin?! Əgər ümmətin rəhbəri və Rəsulallahım (s) canişinin bu xüsusiyyətlərlə tanınmırsa, onda onu hansı yolla tanımaq lazımdır?

Məscidə gəlib faciə sayılan Həzrət Əlinin (ə) şəhadəti barədə danışmaq üçün - bu faciədən sonra camaatın onunla necə davranacağını əsla nəzərə almadan - atasının minbərinə çıxıb buyurdu: «Bu axşam elə bir insan dünyasını dəyişmişdir ki, keçmişdəkilər ondan önə keçməmiş və gələcəkdəkilər də ona çata bilmiyəcəklər. O, Rəsulallahla birgə cihad etmiş və onu qorumaq üçün canını fəda etmişdir. Rəsulallah bayrağı verər və onu meydana göndərirdi. Bu vaxt sağ tərəfdən Cəbrayıl və sol tərəfdən Mikayıl onu əhatəyə alardılar. Allah onu zəfərə çatdırmayana qədər meydandan dönməzdi...

O, elə bir gecədə vəfat etmişdir ki, bu gecədə Musa vəfat etmişdi, İsa qeybə çəkilmiş və Qurani-Kərim nazil olmuşdur. Ölərkən, dünya malından, ancaq beytül-maldan payına düşən 700 dirhəmi var idi və bununla da ailəsinə bir xidmətçi tutmaq istəyirdi».[1]

Bu nitq, xitabə (natiqlik) sənətinə görə misilsizdir. Böyük elm və din xadimlərinin xatirələri haqda danışılarkən, adətən, onların elm, vəfa, alicənablıq, fəsahət, şücaət, əsl-nəcabət kimi məziyyətləri yad olunur. Lakin İmam Həsənin nitqində Əmirəl-möminin Həzrət Əli kimi uca şəxsiyyətin məşhur məziyyət və xüsusiyyətlərindən bəhs edilməmişdir. O, atasını daha fərqli bir şəkildə yad etmişdir.

Nə üçün? Görəsən, üz verən müsibət güclü xətib və ərəblərin ən böyük natiqi Həzrət Əlinin oğlu Həsən ibn Əliyə danışmaqda mane olmuşdu? Yoxsa O, bilərək bu danışığın üslubu seçmişdi və bu seçimlə natiqlikdə birinciliyini nümayiş etdirmişdi?

Bəli, O, İmam Əli haqqında elə bir nitq söylədi ki, tarixdə heç kim haqqında belə təsirli sözlər deyilməmişdir. Əgər İmam

---

[1] «Tarixi-Yəqubi» cild 2, səh. 190; «Tarixi İbn Əsir» cild 3, səh. 16 və Əbdür-Rəhman Əbül-Fərəc ibn Covzi İsfahani: «Məqatilut-talibiyyin» cild 1, səh. 62.

Həsən bu qısa nitqində Həzrət Əlinin (ə) başqa məziyyətlərini sadalasaydı, digər dahilər üçün də belə nitqin söyləməsinə imkan yaradardıq. Sadalanan məziyyətlər isə yalnız Əliyə (ə) xas olan məziyyətlər idi.

O, Əliyə (ə) ilahi baxışla baxırdı; bir imamın başqa bir imama baxışı. Bu baxışda, İmam Əli, ölüb gedən və hal-hazırda yaşayan insanlar arasında tay-bərabəri olmayan bir insan və heç bir dövrdə rast gəlinməyən bir rəhbər idi.

O, bir kişi idi... Lakin keçmiş və gələcək insanların hamısından üstün bir insan... Bir insan idi... Lakin Cəbrayıl və Mikayıl kimi... Yəni mələklərə xas xüsusiyyətləri olan bir insan... İsanın göyə yüksəldiyi gecədə pak ruhu göylərə qalxdı! Musa vəfat etdiyi bir gecədə şəhid oldu! Quran yerə endiyi gecədə məzara endi! Müqərrəb bir mələk, Allah elçisinin bənzəri, münzəl Kitaba[1] oxşarı olan Peyğəmbərin yavəri və onun fədaisi...

İndi özünüz hökm verin! Maddi məziyyətlər bu fəzilətlər qarşısında sadalanacaq bir dəyərdədirmi?!

İndi, bəlkə sən də eyni fikirdəsən ki, o xas şəraitdə atasını yad edərkən İmam Həsənin seçdiyi üslub ən düzgün üslub idi..

Həsən ibn Əli bu nitqi ilə babası Peyğəmbər və atası Əli - bu iki söz sultanı ilə qohumluğunu bir daha isbat etdi. Təbii ki, sonralar zamanın tələbi ilə - beyət zamanı qarşıya çıxan hadisələrlə əlaqədar - bu xütbəyı bənzər xütbələr İmam Həsəndən (ə) çox eşidildi.

Əmisi oğlu Übeydullah ibn Abbas, insanlarla dolan Cümə məscidində minbərin qarşısında dayandı. Əvvəlcə, bu xütbədən sonra məscidi bürüyən ağlaşma tufanının sakitləşməsini gözlədi. Daha sonra atalarından irsi keçən gur səsi ilə göy üzündən çıxan bir ildırım kimi məsciddə fəryad çəkdi: «Ey insanlar! Bu Rəsulallahın oğlu, sizin rəhbər və imamınızın canişinidir. Ona beyət edin! Allah onun vasitəsilə Öz razılığını əldə etmək

---

[1] Nazil olan Quran.

istəyənləri qurtuluş yollarına yönəldər və iznilə onları qaranlıqdan nura çıxarıb, doğru yola hidayət edər».

Həmin vaxt o kütlə arasında atasından sonra o Həzrətin imam olacağını Peyğəmbərin dilindən eşidənlər çox idi. Elə buna görə də Übeydullah ibn Abbasın qısa müraciətindən sonra «O, bizə çox əzizdir. Üzərimizdə çox haqqı var və həqiqətən, xilafətə layiqdir» söyləyib böyük şövq və rəğbətlə ona beyət edirlər. Bu hadisə hicrətin 40-cı ili, Ramazan ayının 21-də, yəni atası Əmirəl-mömininin şəhadət günündə baş verdi.[1]

Beləcə Kufə, Allahın və ictimai ədalətin tələb etdiyi həddə İslami əmniyyətini əldə edə bildi.

Bəsrə, Mədain, ümumiyyətlə bütün İraq Həsən ibn Əliyə (ə) beyət etməkdə Kufəyə qoşuldu. Hicaz və Yəmən böyük sərdar Cariyə ibn Qüdamənin səyi nəticəsində və farslar da valiləri olan Ziyad ibn Übeyd vasitəsi ilə beyət etdilər.

Ümumiyyətlə, bu bölgələrdə yaşayan tanınmış ənsar və mühacirlərin hamısı ona beyət etdilər.

Məsciddə olanlardan heç kəs İmam Həsənə beyət etməkdə tərəddüd etmədi. Orada olmayanlardan da heç kəs beyət etməkdən çəkinmədi. Bildiyimiz qədər təkcə Müaviyə və onun dəstəsi İmam Həsənə beyət etməkdən boyun qaçırtdı. Təkcə Müaviyə və ona tabe olanlar, möminlərin getdiyi yolun əksinə yönəldi və İmam Həsənə qarşı atası Əliyə qarşı davrandığı kimi davrandı. Onlardan başqa bir neçə nəfər Həsən ibn Əliyə itaət göstərib beyət etməkdən boyun qaçırtdı və sonralar «Quad» (oturanlar, bitərəflər) adı ilə tanındılar.

Xülasə, qanuni xilafət, ümumi xalq kütləsi tərəfindən ixtiyari beyət yolu ilə həyata keçdi. Əhli-beyt tarixində ikinci dəfə insanlar öz razılıqları ilə bir xəlifəyə beyət etdilər və beləcə, yarım əsr öncə nübuvvət günəşi doğduğu üfüqdə imamət günəşi parladı. Həqiqətdə, bu xilafət, Rəsulallahla bağlılığı baxımından

[1] «Nəhcül-bəlağənin şərhi» cild 4, səh. 11.
Bəzi qaynaqlarda «Übeydullah» yerinə qardaşı «Abdullah»ın adı qeyd edilmişdir. Lakin bu kitabın «Döyüş səfərbərliyi» adlı 6-cı bölümündə İmam Həsənə beyət edidiyi gün Abdullahın Kufədə olmadığına toxunacağıq.

həmin nübuvvət günəşinin nurunun davamı idi və bu dəfə bu ilahi feyz məşəlindən xalqa nur saçırdı.

Yeni xəlifə, bütün maddi və mənəvi üstünlüklərə sahib idi. Bu şerdə deyildiyi kimi:

Xilafətə yetişdi, çünki xilafət ona layiq idi,
Necə ki, Musa Allahın hüzuruna daxil olmağa layiq idi.

Beyət mərasimi tamamlındıqdan sonra İmam Həsən (ə), Əhli-beytin üstünlüklərini və xilafətin, yalnız onların haqqı olduğunu, eləcə də qara buludlar kimi üzərini alan təhlükəli hadisələri vurğulayan bu tarixi və təsirli bir xütbəsi ilə sözə başladı. Bu xütbənin bir yerində belə buyurur: «Biz Allahın qalib dəstəsiyik, Peyğəmbərin yaxın qohumları və onun pak Əhli-beytiyik.

Rəsullallahın ümmətə qoyub getdiyi iki qiymətli mirasından biri və hər şeyi əhatə edən və heç bir səhvə yol verilməyən ikinci Quran bizik. Odur ki, Quranın təfsiri üçün bizdən kömək istənilməlidir. Çünki Quranın təfsiri üçün biz zənnə qapılmırıq və onun həqiqətlərinə yəqinlə yetişirik.

Bizə itaət edin! Çünki bizə itaət etmək vacib və Allah və Rəsuluna itaətlə yanaşıdır. Allah-Təala buyurmuşdur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا أَطِيعُوا اللَّهَ وَأَطِيعُوا الرَّسُولَ وَأُولِي الْأَمْرِ مِنْكُمْ ۖ فَإِنْ تَنَازَعْتُمْ فِي شَيْءٍ فَرُدُّوهُ إِلَى اللَّهِ وَالرَّسُولِ

***«Ey iman gətirənlər! Allaha, Rəsuluna və sizdən olan əmr sahiblərinə itaət edin. Əgər bir şeydə ixtilafınız düşsə, onu Allaha və Rəsuluna yönəldin».***[1]

Yenə buyurmuşdur: ***«Əgər, onu (ixtilaflı məsələni) Rəsula və aralarındakı əmr sahiblərinə yönəltsəydilər, həqiqət axtaranlar həqiqəti tapardılar».***

İmam xütbəsinin sonunda belə buyurdu: «Amandır, şeytanın vəsvəsələrinə qulaq asmayın, çünki o, sizin açıq-aydın

---

[1] «Nisa» surəsi, ayə 59.

düşməninizdir! Yoxsa şeytanın bu sözləri dediyi dostlarından olarsınız: «Bu gün insanlardan heç kəs sizə qalib gələ bilməz! Mən, sizin arxanızda durmuşam!» Lakin iki dəstə üzləşdikdə, onlara arxa çevirərək deyər: «Mən sizdən bezmişəm!»

Mən sizin görmədiklərinizi görürəm. Tezliklə nizə və qılınclara yem, oxlara hədəf olacaqsınız. İman gətirməyənlərin və ya imanlarından bəhrələnməyənlərin o gün iman gətirməsinin heç bir faydası yoxdur».[1]

Sonra minbərdən aşağı enərək şəhərlərin valilərini təyin edib, onlara lazimi göstərişlər verdi və dövlət işləri ilə məşğul olmağa başladı.[2]

Bəziləri özlərini ağıllı hesab edib belə etiraz edirlər ki, acı hadisələrin baş verəcəyi gözlənilən belə bir dönəmdə Həsən ibn Əlinin xilafəti qəbul etməsi, bir növ tələskənlik idi. Bu fikrin nə qədər düzgün olub olmadığını açıqlamaq üçün bunu söyləyə bilərik:

**1.** Təyin edilən bir imama beyət etmək xalqa vacib olduğu kimi, yardımı olduğu ilahi höccətin tamamlandığı halda imama da bu beyəti qəbul etmək, qaçılmaz şəri bir vəzifədir.

İmam Həsənə gəlincə, İslami şəhərlərin hamısında xalqın beyət üçün rəğbət və həvəslə ona üz tutması, zahiri baxımdan onların İmam Həsənin tərəfdarı olduğunu göstərirdi. Bu şərtin mövcudluğu ilə, İmam, şəri vəzifəsindən boyun qaçıra bilməzdi.

**2.** İmam Həsənə edilən bu etiraz göstərir ki, bu hadisəyə, yalnız dünyəvi cəhətdən baxılmışdır. Lakin bir inamla əlaqədar hadisələr daha çox dini baxımdan araşdırılmalıdır. Çünki imamın baxışında dinlə dünya arasında fərq olduqca böyükdür. Bu baxımdan İmam Həsənin hər bir hərəkəti, o cümlədən imzaladığı sülh başdan-ayağa xeyirdir. Bu hadisə hər nə qədər kədərli olsa da, İslam yolunda dözülməli idi. Bu halda, İslamın

---

[1] Bu xütbəni Hişam ibn Hassan rəvayət edərək «Bu, İmam Həsənin özünə beyət edildikdən sonra oxuduğu xütbəsinin bir bölümüdür» demişdir. Məhəmməd Baqir Məclisi İsfahani «Biharul-ənvar» cild 10, səh. 99 və «Tarixi-Məsudi».

[2] Bunu tarixçilərdən çoxu qeyd etmişdir.

evində dünyaya gələn və orada yetişən İmam Həsəndən İslama daha yaxın və onun dərdlərinə dözməyə daha layiq kim ola bilər?

**3.** Bunlardan əlavə, qabaqcıl müsəlmanlar içərisindən İmam Həsən ibn Əli ən üstün soya və ən üstün biliyə sahib olduğu üçün, əgər istəsəydi də, bu məqamdan boyun qaçıra bilməzdi. Əgər o, xalqdan uzaqlaşsaydı belə, xalq ondan ayrılmayacaqdı. İslam ictimaiyyətində baş verən hadisələr və dəyişikliklər və haqqın bərqərar olub batilin yox olması istər-istəməz onun rəhbərliyini tələb edirdi.

Necə ki, qardaşı İmam Hüseyn də öz dövründə oxşar bir vəziyyətlə üzləşmişdi. Həmçının, fərz edək ki, əgər imam, beyəti qəbul etməsəydi və müsəlmanlar da onun xilafətə gəlməsini tələb etməsəydilər, şübhəsiz, iqtidar sahibləri və hakimiyyətə gələnlər onu rahat buraxmaz və hər an ona təhlükəli rəqib gözü ilə baxardılar. Çünki adətən, əhatə edən mühitdə imam, ya islahatçılığa dəvət idi, ya da müxtəlif dəstələrin - istər dinin vəzifə xatirinə, istərsə də siyasi rəqabət məqsədi ilə - hakimiyyətdən olan və qəzəb və narazılıq fəryadına. Hər halda müxaliflər və qiyamçılar üçün Rəsullallahın övladı və müsəlmanların sevimli rəhbərindən daha yaxşı bir sığınacaq ola bilməzdi.

Məgər Müaviyənin hökuməti dövründə nüxtəlif qrupların İmam Həsənə etdikləri təkliflər - belə ki, Əməvi hökuməti ilə mübarizəyə və qəsb edilmiş xilafəti yenidən geri almağa hazır olduqlarını bildirirdilər[1] - o günkü islam cəmiyyətini bürüyən kin və qəzəbin göstəricisi deyilmi? İnsanların könüllü şəkildə ətrafına toplandığı belə bir lider olduğu halda xilafətin qəsbkarların əlində qalması mümkün idimi?

Unutmayaq ki, onu zəhərlədilər. Əgər imamın varlığı onların iqtidarını hədələməsəydi və xalqın könlündə yer tutmağa mane olmasaydı, onlarka sülh edən və hər bir şeyi onlara həvalə

---

[1] Əbu Məhəmməd ibn Müslim ibn Qüteybə ibn Əmr Bahili Dinəvəri: «Tarixi-Xulafayi-raşidin və dövləti-Əməvi» səh. 151 (Bu kitab «Əl-İmamətu vəs-siyasə» adı ilə məşhurdur).

edən bir insanı nə səbəblə zəhərləyirdilər? Görəsən bu hadisə, insanların qəlbən və inamla İmam Həsənə bağlandırdıqlarını və onun düşmənlərinə dəyər vermədiklərini göstərən bir sübut deyilmi? Hələ bu rəğbət sülh müqaviləsini imzaladıqdan sonra şiələrin də qeyri-şiələrin etirazları tufanında xalqın imama olan rəğbətidir.

Gəlin bir qədər düşünək! Əgər İmam Həsən başlanğıcda xalqın beyətini qəbul etməsəydi və xalqında ona olan o güclü sevgisi olduğu kimi qalsaydı, onun mənəvi nüfuzu daha təsirli və şiddətli olmazdımı? Bu vəziyyətdə caamatın ümid və hakimiyyət müxaliflərinin və düşmənlərinin pənah yeri olan bir insanın, dünya düşkünlərinin qorxu və tamah dolu gözlərindən yayınması və ilk fürsətdə namərdcəsinə onun pak həyatına son qoymayacaqları heç mümkün idimi? Böyük ehtimalla, atasının şəhadətindən sonra elə ilk ildə belə bir sui-qəsdə məruz qalmışdı.

Görəsən, hələ də nəzərinizcə İmamın, xilafəti və beyəti qəbul etməsini tələsik bir qərar olduğuni iddia edənlərin sözü məntiqə uyğundurmu?

Əslində, xilafət əsasən, İmam Əli ibn Musanın təbirilə desək, atasının mənsəbi və ona və qardaşına qalan deyildimi?

Bu xoşagəlməz hadisələr isə İmam Həsənin Kufədəki müxaliflərinin təxribatının təbii nəticəsi idi. Əgər xalqın o təlatümü sonuna qədər o şəkildə davam etsəydi, bu hadisələr imama heç bir zərər verə bilməzdi. İndiyədək hansı bir xəlifə və ya rəhbər belə müxalif və müxalifçilikdən amanda qalmışdır?! Bu vəziyyətdə, beyəti qəbul etmək ən uyğun bir hərəkət idi. Hətta zamanın və ümumi mənafenin tələbinə görə və haqqı yaşatmaq üçün vacib bir hərəkət idi.

## KUFƏ BEYƏT GÜNLƏRİNDƏ

Səsəə ibn Sübhan Əbdi[1] Kufə şəhərini belə təsvir edir: «...Kufə İslamın qərargahı idi. Alovlu nitqlər meydanı, bayraqlar və rəhbərlər məkanı olan bir şəhər.

Burada əmr sahiblərinə itaət etməkdən çəkinən və ümumi vəhdətə xələl gətirən bir dəstə kobud və quru insanlarda da yaşayırdı».

Müsəlmanlar bu şəhəri hicrətin 17-ci ilində İraqın fəthindən sonra qurdular.[2] Əvvəlcə evlər qamışdan tikilmişdi. Bir yanğın nəticəsində evlər yanıb kül oldu. Bundan sonra evləri kərpicdən tikməyə başladılar. Mərkəzi yolların eni 20, ara küçələrin eni isə 7 arşın[3] idi. Yolların arasında evlər üçün 40 arşın genişliyində və cəmiyyətdə sayılıb-seçilənlərə məxsus 60 arşın genişliyində torpaq əraziləri yerləşirdi.

Şəhərdə təməli qoyulan ilk bina məscid olmuşdu. Yaxşı ox atan bir adam, şəhərin qurulması üçün nəzərdə tutulan məntəqənin ortasında duraraq hər dörd tərəfə ox atmışdır. Məscidlərin divarı oxların düşdüyü yerlərdə hörülmüşdü. Məscidin qarşısında İran şahlarının Hiyrədən gətirtdikləri mərmərdən bir müsafirxana tikilmişdi. Məscidin ətrafında isə heç kəs ev tikməsin deyə, xəndək qazılmışdı.

Əmirəl-möminin Əli (ə) Cəməl döyüşündən sonra hicrətin 36-cı ilində Kufəyə hicrət edib oranı hökumətinin paytaxtı etdikdən sonra şəhər böyük sürətlə abadlaşmağa başladı.

---

[1] Kitabımızın «Müaviyə və şiələrin rəhbərləri» adlı bölümündə bu şəxsin həyatı haqda oxuyacaqsınız. Yuxarıdakı təsviri Şeyx Əbül Həsən Əli ibn Hüseyn Məsudi «Tarix» kitabının 4-cü cildinin 118-ci səhifəsində ondan nəql etmişdir.

[2] Əbu Cəfər Bilazəri (Zübeyr ibn Bekar Əhməd ibn Yəhya ibn Cabiri-Bağdadi) «Futuhul-buldan»da, Bərraqi «Tarixul-Kufə»də və Yaqut ibn Abdullah Rumi Həməvi «Mucəm»də bunu nəql edirlər. Bəsrə barəsində isə belə demişdir: «Bəsrə şəhəri hicrətin 12-ci ilində Kufədən 6 ay əvvəl qurulmuşdur».

[3] Təxminən, 48 sm-ə bərabər olan uzunluq ölçüsü.

İmam Əli bu şəhərə rəcəb ayının 12-də daxil olmuşdu. Bu hicrətin səbəblərindən biri Hicaz ərazisində məhsulun az olması və digər ərazilərə ehtiyac duyması idi. Bir dövlətə ziyan vuran ən böyük amil, ərzaq və məhsulda başqalarından asılı olmaq və öz-özünü təmin etməməkdir. Lakin Kufə və Səvadın (İraq) şəhərlərində özlərini təmin edəcək və hətta ondan da artıq məhsul yetişirdi. Bundan əlavə, o vaxtlar İraq, xüsusilə də Dəclə və Fərat çayları arasındakı ərazilər təxribatçıların silahlı üsyanları üçün təhlükəsiz bir məkan olmuşdu. Bu vəziyyətdə xüsusi bir hərbi mövqe tutmaq lazım gəlirdi.

Kufə xilafət mərkəzi olduqdan sonra bütün müsəlman məntəqələrindən İslamın tanınmış simaları ora üz tutdular. Yəmən və Hicazdan gələn ərəb qəbilələri, Mədain və İrandan fars mühacirləri orada məskunlaşdılar. Kufənin ticarət bazarları rövnəqləndi və orada elm və təhsil inkişaf etdi. Şəhərin ətrafında bağlar, bostanlar, otlaqlar və kəndlər salındı. Uzun müddət tarixi, elmi və ədəbi şəxsiyyətlər yetişdirdi.

Bəni-Haşim hökümətinin sayəsində bu şəhərdə Həzrət Məhəmmədin Əhli-beytinin ardıcıllarının sayı artdı. Yeni şəhərin sakinləri müxtəlif təbəqələrdən olub fərqli baxışlara sahib olduqları üçün müxtəlif maraq və istəklərin toqquşması qısa müddət ərzində fitnə və üsyan atəşinin alovlanmasına və bir çox tarixi faciələrin və çaxnaşmaların yaranmasına səbəb oldu.

Lakin Kufə xalqının İmam Həsənə beyətində çox az mövzu barədə aralarında fikirbirliyi olan mövcud bütün təbəqələr bu barədə həmrəy oldular.

Bu şəhərdə yaşadığı müddət ərzində İmam Həsən ibn Əlinin sürdüyü həyat tərzi, onun, baxışların qibləsi, könüllərin sevimlisi və ümid yer etmişdi. Atasının hökumət mərkəzi olan bu yeni şəhəri təqva, əliaçıqlıq, xoşrəftarlılıq, gülərüzlülük, güzəşt, səbir, elm, zöhd və s. bu Peyğəmbərin (s) Əhli-beytində (ə) irsi olan məziyyətlərlə bəzəmişdi.

Xilafət kürsüsü, onu tərk edən Əmirəl-möminin Əliyə görə qəmə bürünsə də, peyğəmbərlərlə xas sifətlərin məzhəri olan İmam Həsən ağuşunda gördüyü üçün sevinclə təbəssüm edirdi.

O gün İmam Həsəndən daha təqvalı və bütün müsbət sifətlərin özündə cəm edən başqa bir şəxs yox idi. Bir millətin rəhbəri və bir qövmün başçısı üçün zəruri olan bütün xüsusiyyətlər onda cəm olduğu üçün fərqli fikir sahiblərinin azad reyini də özünüdə cəm etmişdi.

Əgər gözlənilməz və xoşagəlməz hadisələr baş verməsəydi, Kufədə beyət şənlikləri arzu edildiyi kimi təntənəli şəkildə sona çatardı. Lakin öz tarixində ilk dəfə beyət şənliyinim yaşayan bu böyük şəhərin siyasi fəzası yaxın keçmişdə baş verən Cəməl, Siffeyn və Nəhrəvan döyüşlərindən sonra hələ də tutqun və qeyri-sabit idi. O günlərdə Kufədə adı çəkilən döyüşlərdə hər iki cəbhədən həlak olanların qohumların və dostları yaşayırdı. Onlar bir gün intiqam almağı arzulayır və bu hədəfə çatmaq üçün əllərindən gələn əsirgəmirdilər.

Burada, həm müsbət, həm də mənfi məqsədlər mövcud olduğundan, daim ixtilaf və təfriqənin yaranmasına səbəb olurdu.

Xilafət kürsüsünə əyləşən İmam Həsən ibn Əli isə bütün qəlbləri özündə cəzb etmişdi. Çünki hər şeydən əvvəl Rəsulallahın (s) övladı idi və onu sevmək imanın şərti sayılırdı. Başqa bir tərəfdən beyət üçün zəruri olan hal, itaətkarlıqdır (cammaat da ona tabe olmuşdu).

İbn Kəsir İmadəddin İsmayıl ibn Ömər Dəməşqi Şəfei «Əl-Bidayətu vən-nihayə» kitabının 8-ci cilidinin 41-ci səhifəsində belə yazır: «Xalq onu, atasından daha çox sevirdi».

Heç şübhəsiz, əgər İmam Həsən ibn Əli bir dəstənin həsas təəssübkeşlikləri və başqa bir dəstənin şəxsi məqsəd və mənafeləri il, toqquşan bir təşəbbüs göstərməsəydi, yenə də hamı tərəfindən olduğu kimi seviləcək və əmin-amanlıqda qalacaqdı. Çünki o gün İslam dini ya şəxsi mənfəətlər, ya da kor-koranə təəssübkeşliyin vasitəsinə çevrilmişdi.

Özünün düşünən və mənfəətpərəst insanların çoxu Rəsulallahın (s) əxlaqını xatırladan son dərəcə gözəl bir əxlaqa sahib olan İmam Həsən (s) beytə etməklə nəfsi istəklərinə qovuşacaqlarını zənn edirlər. Lakin onlar, həqiqətən, bu gözəl

əxlaqın mahiyyətini başa düşə bilməmişdilər. İmam Həsənlə həmrəy və həmfikir olmayanların çoxu bu səhvə yol verdikləri üçün ixlaslı möminlər kimi istək və rəğbətlə ona beyət etdilər. Lakin çox keçmədi ki, arxalarına baxmadan meydandan qaçdılar. Nəfsi istəkləri qarşısında o mülayimliyi sınaqdan keçirdikdə, məsuliyyəti qəbul etdikdən sonra imamı, nüfuz edilə bilinməyən polad kimi gördülər. Hətta yaxınları, qardaşı və əmisi oğlu belə onu öz fikrindən daşındıra bilmədilər. O, öz nəzərlərinə söykənərək çəkinmədən hərəkət edirdi.

Odur ki, Kufənin adlı-sanlı və mənsəbpərəst insanlarında da düşmənçilik ruhunun daxilən formalaşması və bu şəhər əhalisinin tədricən əvvəlki imama qarşı etdikləri «qəlbini qəzəblə dolduran və qəm qədəhini içirdən» rəftarları təkrarlanması təəccüblü deyil. Beləliklə, bu aludə cəmiyyətdə xarici qüvvələr tərəfindən də az-çox dəstəklənən qruplaşma və parçalanmalar yenidən meydana gəldi, daxili ixtilafların təsiri nəticəsində müxtəlif şəkillərdə özünü göstərdi.

İslam xilafəti İraqdakı yeni mərkəzinə köçüb ədalətin icrasında öz qətiyyətini açıqcasına büruzə etdiyi gündən etibarən bəzi dırnaqarası kişilər fitnə-fəsad törətmək və təfriqə yaratmaq yolunu seçmiş və bu işlərdə təcrübə əldə etmişdilər. Onların iğtişaş yaratmaqlarının əsl səbəbi, bu xilafətdə maddi mənfəətlərindən məyus olmaları idi. Çünki Haşimi xilafəti dünyəvi və maddi deyil, dini və mənəvi bir hakimiyyət idi. Onlar, başa düşmüşdülər ki, bu xilafət əvvəlki vəziyyət davam etməyə və ümumi mənafeyə müdaxiləyə və qeyri-qanuni mənfəətlər əldə etdirməyə icazə verməyəcək, uzun-uzadı qeyri-şəri arzularının qarşısını alacaqdır.

Bir tərəfdən Kufədə yeni xilafətin meydana gəlməsi və inkişafı, digər tərəfdən isə Müaviyənin Şamda üsyankarlığını davam etməsi bu qrupun qüvvələrini işə salıb fitnə-fəsad törətmələrinə və mümkün olduğu qədər, hətta hər iki tərəfi öz çirkin oyunlarına qatmaq bahasına olsa belə, müftə gəlirə çatmalarına uyğun bir fürsət yaratdı. Onlar üçün ancaq iki yol var idi: İmkan dairəsində yeni hökumətdə nəfsi istəklərini təmin

etmək üçün mənsəb və mövqelər ələ keçirmək. Əks təqdirdə, hökumətə qarşı çıxmaq və fitnə və fəsad törətmək.

Şam xəzinələri hər an gözqamaşdırıcı sərvət və ürəkoxşayan vədləri ilə çoxlarını tamaha salırdı. Kufəlilərə qarşı Şam hökumətinin ən böyük silahı, əsasən pul və vədlər idi. Ona görə də Kufə Həsən ibn Əlinin dövründə dəyərlərin dəyişilməsinə, fikirayrılığana, ikitirəliyə və xalqın böyük bir qismində kin və düşmənçiliyin baş qaldırmasına məruz qalmışdı. Bu fəsadların baniləri İmam Həsənə (ə) beyət edilən günlərdə bir neçə qrupa ayrılırdı:

## 1. ƏMƏVİLƏR

Bu qrupun ən əsas nümayəndələri Əmr ibn Həris, Əmmarə ibn əl-Vəlid, Hicr ibn Əmr, Ömər ibn Səd, Əbu Musa Əşərinin oğlu Əbu Burdə, Təlhə ibn Übeydullahın oğullları İsmayıl və İshaq və başqaları idi. Onların arasında şayiələr yaymaq və ikitirəlik yaratmaqla İmam Həsənin məğlubiyyətə uğuramasına təsir göstərən qüdrət və nüfuz əsahibləri var idi.

«Onlar gizlincə Müaviyəyə məktub yazıb onun bayrağı altına keçidiklərinin bildirdilər və ona, Kufəyə doğru hərəkət etməyə təkan verirdilər. Həmçinin, Müaviyənin ordusu Həsən ibn Əlinin hərbi düşərgəsinə yaxınlaşanda, İmam Həsəni əlibağlı ona təslim və ya ona sui-qəsd edəcəklərinə söz verirdilər».[1]

Əbül-Həsən Əli ibn Hüseyn Məsudi «Tarix» kitabında belə nəql edir: «Onların çoxu gizlində Müaviyə ilə məktublaşıb vədlər verirdilər və bu yolla özlərini ona yaxınlaşdırdılar».[2]

---

[1] «İrşadi-Müfid» səh. 170 və Şeyx Əbu Mənsur Əhməd ibn Əli ibn Əbitalib Təbərisi: «Əlamul-vəra».

[2] «Tarix» cild 6, səh. 42.

Kim bilir! Bəlkə də kufəlilərin Müaviyyəyə yazdığı kimi, Şam əhlindən də İmam Həsənə məktub yazanlar var idi! Çünki məlum olduğu kimi, hər iki məntəqənin əhalisi – kufəlilər və şamlılar da maddiyyata meyliliyə səbəb olan əxlaqi yoxsulluqda ortaq idilər. Müaviyənin tərəfdarları Həzrət Əliyə (ə) yazdıqları məktub xüsusunda Hafiz Əbu Bəkr Əhməd ibn Hüseyn Beyhəqi

Müaviyə, Əmr ibn Həris, Əşəş ibn Qeys, Haccar ibn Əcbər və Şəbəs ibn Rəbi ilə gizlicə razılığa gəlib casusları vasitəsiylə onların hər birinə bu xəbəri göndərdi. «Əgər Həsəni öldürsən, səni Şam ordularından birinin sərdarı təyin etməklə və qızlarımdan biri ilə evlənməklə və 100 min dirhəm pulla mükafatlandıracağam».

İmam Həsən bu gizli razılaşmadan xəbərdar olduqdan sonra həmişə libasının altından zireh geyinər və ehtiyatlı davranardı. Hətta namazı da zirehlə qılardı. Bir dəfə namaz qılarkən düşmənlərdən birinin atdıqda ox zirehə dəymiş və beləcə, İmam bu yolla yaralanmaqdan xilas olmuşur».[1]

Vəziyyətin nə yerdə olduğunu bilmək üçün bu tarixi sənədlərin bircə nümunəsi kifayət edər.

Bu dəstənin bəzi üzvləri fürsət güdən bir xainin edə biləcəyi ən çirkin cinayətə əl uzadırdı. Onların çirkin fəaliyyətləri yalan və nifaq pərdəsi altında uzun müddət gizlənə bilmirdi və tam planlarını həyata keçirmək istədikləri ərəfədə xəbislilər ortaya çıxışdı. Onlar bütün xoşagəlməz hadisələrin və iğtisasların səbəbkarı və İmam Həsənin hökümətində düşmənin xəyanətkar əli ilə.

Xəvaric də, Haşimilər höküməti ilə düşmənçilik baxımımdan Əməvilərlə eyni fikirdə olduqları üçün təxribat törətməkdə onlarla həmkarlıq edirdi. Xəvaricin iki tanınmış nümayədəsinin, yəni Əşəs ibn Qeys və Şəbəs ibn Rəbinin adının

---

Şafeinin «Əl-Məhasinu vəl-məsavi» kitabının 2-ci cildinin 200-cü səhifəsinə baxa bilərsiniz.

Əbdül-Məlik Mərvanın əsgərlərinin Musəb ibn Zübeyrə məktub yazaraq ondan aman diləmələri və mükafat istəmələri haqda baxın: «Tarixi-Yəqubi» cild 3, səh. 12.

Bəlkə də Müaviyənin tərəfdarlarının İmam Həsənə yazdığı məktublar, o Həzrətin əmanətdarlığı və məktub yazanların sirrini ifşa etmədiyi və ya başqa mövzularda olduğu kimi tarixçilər də bu mövzuda özlərini görməməzliyə vurduqları üçün bizdən gizli qalmışdır.

[1] Şeyx Saduq Əbu Cəfər Məhəmməd ibn Əli ibn Hüseyn ibn Musa ibn Babəveyh Qumi: «İləluş-şərayi» səh. 150.

yuxarıda qeyd olunan tarixi sənədlərdə çəkilməsi bu iddiamıza ən aşkar sübutdur.

## 2. XƏVARİC

Onlar, Həkəmiyyət hadisəsindən sonra həm Əli, həm də Müaviyə ilə düşmən kəsilənlər idi. Bu dəstənin Küfədəki başçıları Abdullah ibn Vəhəbur-Rasibi, Şəbəs ibn Rəbi, Abdullah ibn Kəvva, Əşəs ibn Qeys və Şimr ibn Zilcovşən idi.

Xəvaric, İmam Həsənə (ə) beyət etdikləri gündən etibarən Müaviyə ilə döyüşən hamıdan çox təkid edirdi. Onlar beyət edərkən azğın və təcavüzkarlarla yəni Şam əhli ilə döyüşməyi Həsən ibn Əli qarşısında şərt qoydular. Lakin İmam Həsən əlini cəkib bildirdi ki, istər döyüş vaxtı istərsədə sülh vaxti qeydsiz-şərtsiz ona tabe olmalıdır. Onlar qardaşı İmam Hüseyin yanına gedib dedilər; «Əlini uzat, atana beyət etdiyimiz kimi sənədə beyət edək. Bir şərtlə ki, azğın və təcavüzkar şamlılarla döyüşəcəksən». O Həzrət isə belə cavab verdi: «Həsən sağ ikən beyətinizi qəbul etməkdən Allaha sığınıram». Onlar da çarəsiz qalıb yenidən İmam Həsənin yanına gəldilər və onun şərtini qəbul edib beyət etdilər».[1]

Əlbəttə, Müaviyə ilə döyüşə təkid edən və təkcə beyət zamanı bunu şərt qoyan xəvaric deyildi. Çünki İmam Həsənin (ə) ən yaxın səhabələri və şiələri arasında da döyüş üçün onlar qədər təkid edənlər var idi. Lakin İmam Həsənin həyatı araşdırılan bu kitabın bəzi bölmələrində görəcəksiniz ki, bu qrup ən çətin anlarda kədərli hadisələrin səbəbkarları idi. Bir qədər öncə qeyd etdik ki, onların başçılarından ikisi Kufədə Əməvilərin ən alçaq və ən çirkin təxribatlarına qatılmışdır.

Onlar camaat arasında fitnə-fəsad və həcmərclik törətmək üçün ən təsirli və ən qorxunc üsullardan istifadə edir və müxtəlif vasitələrlə bir çoxlarının imanını sarsıdırlar.

---

[1] «Əl-İmamətu-siyasə» səh. 150.

Onlar Nəhrəvan məntəqəsində uğradıqları böyük məğlubiyyətdən sonra yenidən dirçəlmələrinin sirri də bu idi. Ziyad ibn Əbih, xəvaricin təbliğatını belə təsvir edir: «Alov qamışı necə bürüyürsə, onların sözləri də insanların vücudunu bürüyürdü».

Muğeyrə ibn Şurə isə onlar haqqında belə deyir: «Onlar iki gün bir şəhərdə qaldıqda, ünsiyyətdə olduqları hər kəsi korlayır».[1]

Xəvacir, söylədikləri nahaqq sozlərin haqq və etdikləri çirkin işlərin gözəl olduğunu sanırdı. Allaha söykənirdilər, amma Allaha gedən həqiqi və dinin doğru bildiyi yollarla irəliləmirdilər.

«Ordunu təşkil edən ünsürlər» bölümündə onlar haqqında ətraflı məlumat verəcəyik.

## 3. ŞƏKKAKLAR[2]

Şeyx Müfid ləqəbi ilə tanınan Əbu Əbdullah Məhəmməd ibn Nöman Əkbəri (r.ə) İmam Həsənin (ə) ordusunu təşkil edən ünsürlərdən bəhs edərkən bu dəstədən də söz açmışdır.

Böyük ehtimalla bu qrupun «şəkkaklar» adlandırılmasının səbəbi, onların xəvaricin təbliğatının təsiri altına düşməsidir. Onlar xəvaricdən deyildilər, lakin daim tərəddüd içində idilər.

Seyid Murtaza da «Əmali» adlı əsərin 3-cü cildinin 93-cü səhifəsində «şəkkaklar»dan bəhs etmiş və onları kafir hesab etmişdir. Onun fikrincə, bu qrup, dinin əsasında şübhə edirdi.

Xülasə, onlar Kufə sakinləri və bu cəmiyyətin alçaq üzvləri olub nə yaxşılıq etmək fikrində idilər, nə də pislik etməyə qadir idilər. Bu xüsusiyyətlərin nəzərə alaraq onların varlığını şər və pislik qaynağı, fəsad vəlisi və Kufə fitnəkarlarının əlində iradəsiz bir alət olduqları hesab etmək olar.

---

[1] Hafiz Əbu Cəfər Məhəmməd ibn Cərir Təbəri: «Tarix» cild 6, səh. 109.

[2] Şəkk edənlər.

## 4. ƏL-HƏMRA

20 min silahlı kişidən ibarət olan bu dəstə (Təbərinin rəvayətinə görə) Küfə bölüşdürülərkən mütəffiq olduqları bəni-Əvdül-Qeys tayfasının yerləsdiyi ərazidə məskunlaşmışdılar. Onlar, əslində, nə bəni-Əvdül-Qeys qəbiləsinə mənsub idilər, nə də ərəb idilər. Müxtəlif irqlərdən olub kölə üşaqları idilər. Böyük ehtimalla onların əksəriyyəti hicri 12-17-ci illərdə «Eynut-təmr» və «Cəlula»da əsir olan fars cariyələrindən dünyaya gəlmişdir.

Hicri 41 və 62-ci illərdə, yəni İmam Həsən və İmam Hüseynlə əlaqədar hadisələrdə silahlı və döyüşçü bir dəstə sayılırdılar. Onlar, təxminən hicri 51-ci ildə şiəni dəhşətli şəkildə qətlə yetirən Ziyad ibn Əbihin mühafizləri idilər. Xülasə, muzd alıb istənilən cinayətə əl atırdılar. Xüsusilə, qüdrət sahiblərinin ətrafına toplanardılar və zalımların əlində iti qılınc sayılırdılar.

Bu dəstə, hicrətin I-ci əsrində Kufədə baş verən müxtəlif hadisələr və fitnələrdə böyük rol oynadıqları üçün ad-san qazandılar və iş o yerə çatdı ki, Kufə onlara nisbət verilərək «Həmranın Kufəsi» adlandırılırdı.

Bəsrədə də kölə uşaqlarından ibarət bir qrup var idi. Ziyad Bəsrənin valisi olduğu dövrdə onların qüdrətlərindən qorxuya düşüb soyqırım etmək istədikdə, Əhnəf ibn Qeys onu bu işdən çəkindirdi. Dövrümüzün bəzi yazıçıları səhvən onları şiə qrupu kimi tanıyırdılar. Onların nəinki şiəyə heç bir oxşarlığı yoxdur, hətta onlar şiənin və Əhli-beyt imamlarının ən təhlükəli düşmənləri idilər. Aralarında az sayda şiəliyi qəbul edən insanların olması ehtimalı varsa da, lakin çoxluğu azlığa görə dəyərləndirmək doğru olmaz!

Bu müxalif ünsürlərin kənarında, İmam Həsən ibn Əlinin (ə) şiələri dayandırdı. Həzrət Əlinin hökumətində sayca digər qruplardan çox idilər. Onların arasında, İmam Əli ilə birlikdə Kufədə məskunlaşan ənsar və mühacirlərdən olan Peyğəmbəri-Əkrəmin (s) səhabələri də var idi. Rəsulallaha (s) ünsiyyətdə

olduqlarına görə xalq arasında böyük hörmətə və yüksək məqama malik idilər.

Kufənin böyük şəxsiyyətləri istər Həzrət Həsən ibn Əlinin xilafətinin əvvəllərində, istər beyətdən sonra İmam cihad əmri verdikdə, istərsə də sonradan meydana çıxan digər hadisələrdə Əhli-beytə qarşı öz ixlas və səmimiyyətlərini isbat etdilər. Şübhəsiz, əgər o gün bu ixlaslı və səmimi şiələr digər həmşəhərlilərinin hiylələrindən amanda qalsaydılar, Şamdan Kufəyə yönələn təhlükələrin qarşısında güclü bir dəstə sayılırdılar. Onlarda olan mənəvi hazırlıq, həyəcan və sevinc inkarolunmaz idi. Bu da, onlarda qarşıya çıxan hər bir çətinliklərə sinə gəlməyə zəmin yaradırdı.

Qeys ibn Səd ibn Übadə, Hucr ibn Ədiy, Əmr ibn Həməq əl-Xuzai, Səid ibn Qeys Həmədani, Həbib ibn Məzahir Əsədi, Ədi ibn Hatəm, Müseyyib ibn Nəciyyə, Ziyad ibn Səsəə kimi şəxslər haqqında bundan başqa nə demək olar?!

Əlbəttə, gözlənilməz və müxalif cərəyanlar, eləcə də muzdur və xain əllər bu yararlı vəziyyəti və gedişatı dəyişdirmək üçün dayanmadan fəaliyyət göstərirdilər.

Tamamilə fərqli və bir-birinə zidd maraqların toqquşduğu, fitnəkarların və müxtəlif təbliğatların baş alıb getdiyi bu şəraitdə, həmin gecənin sonu və gedişatın gələcəyi İmam Həsən (ə) üçün qaranlıq deyildi. Lakin hökumət kürsüsünə keçdiyi üçün hədəfini və bu hədəfə yetişmək üçün görəcəyi işləri xalqa çatdırmalı, həmçinin tökdüyü tədbirlərdə daxildə və xaricdə onu əhatə edən şəraiti və tələbləri nəzərə almaq məcburiyyətində idi.

Müaviyə, məkr və hiylələri ilə sahib olduğu qüdrət vasitələri və iqtidarı ilə Kufəni hədələyən Kufə sərhədlərinin xaricindəki bir düşmən idi. Müaviyə, kiçik bir düşmən deyildi ki, İmam Həsən ibn Əli (ə) ona qarşı soyuqqanlı və laqeyd qalsın və laqeyd qaldıqda onun hücumundan amanda qalsın. Həqiqətdə, İmam Həsən münasib bir şəraitdə Müaviyənin şeytani gücünü məhv edib ona layiq olan dərsi verməyi hər kəsdən çox istəyirdi.

Lakin İmam Həsəni (ə) ən çox onunla birgə yaşayan, lakin hədəf və düşüncə bacımından ondan çox-çox uzaq olan

insanların düşməçiliyi düşündürürdü. Hökümətinin mərkəzində, nəfsinin əsiri, tamahkar və hədəfsiz insanların yaşaması İmama çox ağır gəlirdi; sədaqətin nə olduğunu bilmir, dinə ehtiram göstərmir və qonşunun haqqına riayət etmirdilər. İnsani dəyərlərdən uzaq və xəbərsiz olduqlarına görə hiylə, fəsad və nifaq vasitələrinə çevrilmişdilər. Nə siyasət səhnəsi onların varlığı ilə canlanırdı, nə də ki, döyüş meydanı səhmana düşürdü. Cəmiyyətdə belə namərdlərin varlığı fitnə və fəsadın yaranması, cəmiyyətin müxtəlif bəla və təhlükələrlə üzləşməsi üçün kifayət idi.

İmam Həsən ibn Əli bu vəziyyətdə elə bir dahilik göstərdi ki, əgər o gözlənilməyən müsibət və hadisələr olmasaydı, heç şübhəsiz, parlaq bir zəfərə çatardı.

Gələcəkdə baş verən hadisələri təxmin edirdi, lakin ehtiyatı əldən verməmək üçün onları açıqlamaqdan çəkinir və sadəcə kiçik bir qismini bəyan edirdi. Beyət günü oxuduğu xütbədə vurğuladığı cümlə buna bir sübutdur: Qurani-Kərimin ayəsinə istinadən

إِنِّي أَرَىٰ مَا لَا تَرَوْنَ

***«Mən sizin görmədiklərinizi görürəm».***[1]

Bu sözü söylədiyi gün, onun qarşısında yanlız yeni xəlifəyə səmimiyyətini göstərməyə çalışan, sevinc və həyəcanla dolub-daşan bir izdiham var idi. Bəs onların görə bilmədiyi nə idi? Bu döyüşdə və sülhdə, dost və düşmənlə atdığı hər bir addımında İmam Həsənə xas olan uzaqgörənliyi idi.

Tarixi mənbələrdə İmam Həsənin (ə) siyasətinin, tarixi səhnələrini xüsusilə də hakimiyyətinin birinci mərhələsində və cihad hökmü verməmişdən öncə, sərgilənməsə də, lakin bizə gəlib çatan nadir təsadüflər mütaliə edənləri onun mükəmməl siyasətinə heyran qoyur. Çünki o cür çətin və qarışıq bir vəziyyətdə o qədər tədbirli və hakimanə bir şəkildə rəhbərlik etdi ki, ondan daha yaxşısını təsəvvür etmək qeyri-mümkündür.

---

[1] «Ənfal» surəsi, ayə 48.

İmam Həsən (ə) müharibədən əvvəl həyata keçirdiyi siyasi tədbirlərdən bir neçə nümunəni nəzərinə çatdırırıq:

a) Beyəti xüsusi bir çərçivədə qəbul etdi.

Beyətdə qarşısına hər hansı bir şərtin qoyulmasının qarşısını aldı və hamıdan yalnız tam itaətkarlıq şərti ilə - istər döyüş vaxtı, istər dinc vaxtı - beyət qəbul etdi. Bu şərt onun uzaqgörənliyini göstərir. Çünki həm döyüşdən, həm də əmin-amanlıqdan söz açmışdı; həm döyüş tərəfdarlarını və həm də döyüşə müxalif olanları nəzərə almışdı.

Əlbəttə, Kufənin ümumi vəziyyətindən kifayət qədər xəbərdar olması belə bir hakimanə addımın atmasını zəruri edirdi.

b) Əsgərlərin məvacibini 100 dirhəm artırdı.[1]

İmam Həsən (ə) xilafət məqamına keçdikdən sonra gələn xəlifələrin hamısı da bu siyasətdən istifadə etdilər.[2]

Aydındır ki, əsgərlərin vəziyyətinin yaxşılaşdırılması və gəlirlərinin artması, İmamın iqtidarının və məhbubiyyətinin artmasına səbəb oldu. Bundan əlavə, döyüş üçün daha çox əsgərin toplanmasına təsir etdi.

Bu hərəkət, zahirdə İmamın döyüşə hazırlaşdığı göstərsə də, Onun döyüşə qəti qərarından xəbər vermirdi. Çünki bunu yeni bir xilafətdə vəziyyətin yaxşılaşması kimi də qəbul etmək olar.

Bu hərəkət, gələcəkdə baş verə biləcək bir döyüşün qarşısının alınmasında uzaqgörənlik və ağıllı bir qərar olmaqla yanaşı, təfriqə və ixtilafa da səbəb olmadı.

c) Müaviyə casusluq edən iki nəfərin edamına fərman verdi.

Bu fərmanın icrası ilə Bəsrə və Kufə camaatının bir çoxunda formalaşan fitnə və üsyan ruhiyyəsinin qarşısı alındı.

---

[1] Ərəbcə «Zadəl-çəqatələtə müəyyən miətən miətən» cümləsinin tərcüməsidir. Yəni məvacib 500 dirhəm olanı 600-ə və 900 dirhəm olanı 1000 dirhəmə qaldırdı. Və ya belə bir mənanı ifadə edə bilər ki, hər əsgərə əvvəl 100 dirhəm verdi və daha sonra vəzifəsini yaxşı yerinə yetirdiyini gördükdə ona 100 dirhəm də əlavə etdi. Ümumiyyətlə, bu cümlədə, sadəcə əsgərlərin məvacibinin artırılmasından söz gedir. (Mürtəcim).

[2] «Nəhcül bəlağənin şərhi» cild 4, səh. 12.

Şeyx Müfid Əbu Abdullah Məhəmməd ibn Nöman bu barədə yazır: «Əmirəl-möminin Əlinin şəhid edilməsi və xalqın İmam Həsən ibn Əliyə beyət etməsi xəbəri Müaviyə çatdıqda, gizli şəkildə Humeyr qəbiləsindən bir nəfəri Kufəyə, Bəni-Qeyn qəbiləsindən də bir nəfəri Bəsrəyə göndərərək orada baş verən hadisələri ona yazmağı və orada fitnə-fəsad törətməyi əmr etdi.

İmam Həsən bu əhvalatdan xəbər tutduqda, Kufədə bir qəsabın evində gizlənən Humeyrli casusu həbs edərək edam edilməsini əmr etdi. Bəsrəyə də məktub yazdı ki, Bəni-Səlim qəbiləsinin içərisində gizlənən Qeylı casusu da tutub edam edilməsi hökmünü verdi.

Əbül-Fərəc İsfahani də əhvalatı buna yaxın şəkildə nəql etdikdən sonra deyir: «Həsən, Müaviyəyə belə bir məktub yazdı: «Demək casuslarını göndərmisən. Deyəsən, mənimlə görüşmək istəyirsən?! Bundan şübhəm yoxdur. O halda gözlə həmin günün çox yaxındır. Ağıl sahiblərinin sevinmədikləri bir şeyə sevinərək rişğənd etdiyini eşitdim. (Həzrət Əlinin (ə) şəhadətindən görə Müaviyənin sevinməsini vurğulayır).

Bu şeir sənə çox uyğundur:
Düşməni ölən kəsə də ki,
Səndə buna hazır ol!
Sanki bu an səni yaxalayacaq!
Biz elə bir insanlarıq ki,
Ölümü, gecəni yatağında
Sübhi gözləyən kəs kimi gözləyirik».

ç) İmam, xəlifə olduğu ilk gündən etibarən yaxınlarının və ətrafındakılarının Müaviyə ilə döyüşə başlamağı təkidlə istəmələrinə baxmayaraq, döyüşü təxirə saldı.

Kitabın beşinci bölümündə o dövrün siyasi vəziyyətini təhlil etdikdə görəcəksiniz ki, həmin şəraitdə bu mövqe, məsləhətə uyğun və ən doğru bir tədbir idi.

d) İmam Həsən məktub və xəbər mübadiləsi yolu ilə, Müaviyənin güc iddiaları ilə uzlaşmayan mövqeyini ona unutdurdu və onun dolaşıq düşüncələrini göstərən bu məktublarda bir əsas əldə etdi. Bu da maskalanmış Müaviyənin

gizli qalan həqiqi simasını insanlara tanıyırdı və xalqın nəzərində Müaviyəyə qarşı mübarizə aparmaq üçün İmam Həsən tutarlı əsas verdi. Nəticədə, Müaviyə zorakılıq məntiqində qalıb sayılsa da, ağıl sahiblərinin nəzərində hər zaman məğlubdur.

Bu nümunələrin hər biri Həzrət Əlinin (ə) şəhid edilməsindən döyüşün başlanmasına qədər qısa bir zaman ərzində İman Həsənin siyasi üslubunu bizə tanıtdırır. Bu səbəbdən əlavə nümunələr təqdim etməyə ehtiyac duymuruq.

## DÖYÜŞ QƏRARI

Tarix səhifələrini vərəqlədikcə, əxlaqın irəliləməsinə dinin böyük bir rol oynadığını görürük. Çünki adətən, ümumi xalq kütləsi həyat və davranışlarında rəhbərlərin yolunu davam etdirirlər və ictimayyətdə mövcud qanunlara tabe olmaq məcburiyyətindədirlər. Hətta əgər din, təkcə yaxşı işlərə əmr etmək, pis işlərdən çəkindirmək prinsiplərindən və insanların nəfsini saflaşdırmaq barədə tövsiyələrdən ibarət olsaydı, yenə də cəmiyyətin islahı üçün yetərli olardı. Lakin cahiliyyətin varisləri olan bu qrup sinfi cəmiyyətin digər tərəfdarları kimi, ata-babalarının batil və nahaq adət-ənənələrinin qorunub saxlamağı və davam etdirməyi vərdiş etmişdilər. Onlar, yəni dinin zühur etdiyi ilkin illərdə onun ən qəddar və təhlükəli düşmənləri sırasında yer tutdular. Lakin sonralar təslim olmaqdan başqa çarələri qalmadıqlarını gördükdə, dünya işlərinə çatmaq üçün dinə bir vasitə olaraq yanaşdılar.

Bu yanlış düşüncələr sayəsində, dinin əsl hədəfi unuduldu. Cəmiyyətin islahatlar doğru yönələn nizamlı və tədrici hərəkəti dondu. İnsanların başı dünya işlərinə qarışdı və din, güzəranlarını keçirmək üçün bir vasitə oldu. Bəla və çətinliklərə qarşılaşdıqda isə çox az adam dinə bağlı qaldı...

Rəsulullah (s) Əhli-beytinin (ə) əhəmiyyətli bir öhdəçiliyi var idi; bu şəxsi mənfəət əldə etmək deyil, insanları xilas olması idi! İqtidara çatmaq deyil, din dirçəltmək idi! Şəxsi mənfəətlərini deyil, mənəviyyatı qorumaq idi!

Müaviyə, daim bu hədəflərin düşməni və islahat carçılarının müxtəlifi oldu. Nəhayət, üsyankarlıqla müsəlman cəmiyyətindən uzaqlaşdı. Hökumət sevdası qəlbinin dərinliklərində kök saldı və şəxsi gəlirləri, düşüncə və davranışlarında təsir qoydu. Odur ki, Həsən ibn Əli müsəlman ümmətin Müaviyə qarşı səfərbər və onu ilahi hökumətə dəvət etməli idi. Allah, hökm edənlərin ən yaxşısıdır.

Əbül-Fərəc İsfahani yazır: «Həsən ibn Əlini gördüyü ilk iş, hərbiçilərin məvacibini 100 dirhəm artırmaq oldu».

Ondan əvvəl İmam Əli (ə) Cəməl döyüşündə bu işi görmüşdü. O da xilafətinin əvvəlində bu üslubdan istifadə etdi və o Həzrətdən sonra da bu üsluba müraciət etdilər.

Daha sonra yazır: İmam Həsən (ə) Hərb ibn Abdullah Əzdinin vasitəsi ilə Müaviyəyə belə bir məktub göndərdi:

***Əmirəl-möminin Əli oğlu Həsəndən Əbu Süfyan oğlu Müaviyəyə!***

*Salam olsun sənə! Ondan başqa məbud olmayan Allaha həmd edirəm. Allah-Təala, ilahi əzabdan çəkindirmək və kafirlərə höccəti tamamlamaq üçün Məhəmmədi (s) aləmlərə rəhmət, möminlərə minnət və bütün insanlara bir elçi olaraq seçdi. O da Allahın risaləti (öhdəsinə qoyulanları) layiqli şəkildə yerinə yetirdi və Onun əmrinə uyğun davrandı.*

*Sonra qusura yol vermədiyi, səhlənkarlıq etmədiyi və Allah-Təala onun vasitəsi ilə haqqı aşkar edib şirk devirdiyi halda, onu öz dərgahında apardı. Qüreyş, onun simasında xülasələçdirib* ***Bu Quran, sənin və qövmünün xatirəsidir*** *- deyə buyurdu. Dünyadan köçdükdən sonra hakimiyyət üstündə ərəblər arasında ixtilaf düşdü. Qüreyşlilər dedi: «Biz onun qövmü və qohum-əqrəbalarıyıq və onun soyunu davam etdiririk. Onun xilafəti üstündə bizimlə mübahisə etməyə haqqımız yoxdur!»*

*Ərəblər Qüreyşin bu dəlilini qəbul etdilər və onlara tabe oldular. Sonra biz də Qürəyşə, onların ərəblərə söylədiklərini söylədik. Lakin onlar bizə qarşı ərəblər kimi insaflı davranmadılar. Qüreyşlilər, gətirdikləri dəlilin gücü və ərəbin insafı sayəsində hökuməti ələ keçirdilər. Lakin növbə bizim*

*dəlilimizə və onların insafına gəlincə, bizdən uzaqlaşdılar və bizə qarşı zülm, düşmənçilik və haqsızlıqda əlbir olub bizə qalib gəldilər və hakimiyyəti ələ keçirtdilər. Bəli, biz onlarla Allah-Təalanın hüzurunda görüşəcəyik! Bizim sahibimiz və yardımçımız Odur!*

*Biz o gün bəzilərinin haqqımızı qəsb etməsinə və ailəmizə aid olan hökumətə əl uzatmasına çox təəccüblənmişdik. Lakin onlar fəzilətli və İslam dinində mötəbər keçmişləri olan şəxslər olduqları üçün onlarla mübarizə aparmaqdan çəkindik ki, məbada münafiqlər və din düşmənləri bu yolla dinə bir zərər versinlər və ya fəsad törətsinlər.*

*Lakin bu gün hamının sənin bu məqama əl uzatmağına təəccüblənməsinin yeri var. Çünki sən, heç bir cəhətdən bu mənsəbə layiq deylsən; nə İslami bir fazilətin var, nə də yaxşı və gözəl bir iz buraxmısan! Bundan əlavə, sən, düşmənlərin yetirməsi və Qüreyşin arasında Rəsullahın (s) və Quranın və böyük düşmənlərdən birinin övladısan.*

*Allah-Təala sənin şərrinin qarşısını alacaq və tezliklə Onun hüzuruna daxil olacaqsan. Görəcəksən ki, (xeyrli) aqibət kimindir. And olsun Allaha, yaxın bir zamanda Rəbbinlə görüşəcəksən və O, əməllərinin cəzasını verəcək! (Bunu da bil ki,) Allah qullarına zülm etməz!*

*Əli dünyadan köçdükdən sonra - Allahın rəhməti onun öldüyü günə, Allahın onu İslamla şərədləndirdiyi günə və məzardan qalxacağı günə olsun - müsəlmanlar xilafəti mənə həvalə etdilər. Axirətdəki kəraminin əksilməsinə səbəb olanları bizə nəsib etməsin.*

*Məni, sənə məktub yazmağa məcbur edən, Allah-Təalanın hüzurunda sənin əməllərin haqqında üzrlü olmaq istəyimdir. Əgər sən mənim söylədiklərimə tabe olsan, böyük bir fayda əldə edərsən. Bu, müsəlmanların da xeyrinə olar.*

*O halda, batil yoldan əl çək və başqaları kimi mənə beyət et! Çünki özün də bilirsən ki, mən, xilafətə səndən daha layiqəm. Allahdan qorx, üsyankalıqdan əl çək və müsəlmanların qanını tökmə! And olsun Allaha, bundan çox insanların qan bahasına*

*Allahın hüzuruna aparmağın xeyrinə deyil. İtaət və dinclik yolunu tut! Xilafət üstündə xilafət əhli ilə və ona səndən daha layiq olanla mübarizə etmə! Belə davransan Allah-Təala fitnəni yatırdar, müsəlmanları müttəhid edər və onların arasını islah edər. Əgər azğınlığından və müxalifətçiliyindən əl çəkməsən, müsəlmanları üzərinə göndərəcəyəm və aramızda Allahın hökm etməsi üçün səni ilahi məhkəməyə çəkəcəyəm. Allah ən yaxşı hökm edəndir».*[1]

Gördüyünüz kimi, məktubun sonunda İmam Həsən Müaviyəni açıq-aşkar müharibə ilə hədələyir. O Həzrətin bundan başqa çarəsi də yox idi. Çünki əvvəlcə düşmənin batildən əl çəkib digərləri kimi beyət etməyə dəvət edir. Bunun özü siyasi bir üslubdur ki, düşmənin iradəsini zəiflədib onun əzmini qırmaq üçün yararlıdır.

Bundan əlavə, İmam bu sözləri, Rəsulallahın Əhli-beytinin Qüreyş üçün gətirdiyi dəlili xatırlatdıqdan sonra deyir.

Öncə xeyirxah bir dəvət, sonra xəbərdarlıq və sonunda açıq şəkildə müharibə ilə hədələmək ...İmam Həsən, Müaviyəyə qarşı davranışlarında atasının yolunu davam etdirdi. Həqiqətən, İmam Həsən onu əhatə edən o xas şəraitdə və düşmənləri ilə rəftarında atasını xatırladırdı. Sanki onun dövrü, Əmirəl-möminin Həzrət Əlinin dövrünün bir hissəsi idi və onun ölümündən sonra da davam etdirirdi. Həzrət Əlinin (ə) dövründə olduğu kimi, İmam Həsənin dövründə də müharibədən başqa bir çıxış yolu yox idi.

Xilafətini cazibəli edən amillərdən biri, gənc olmasına baxmayaraq, iqtidara və idarəçilik bacarığına sahib olduğunu göstərmək idi. Bunun üçün xainləri hakimiyyətdən uzaqlaşdırılmalı və bu saflaşdırma nəticəsində qəlblərə heybətini salmalı, sarsılmazlığını və qüdrətini nümayiş etdirməli idi. Bu baxımdan təbii ki, məktub, açıq bir hədə-qorxuya, təsirli bir nəsihətə və əmredici bir ahəngə sahib olmalı idi: *«... Allahdan qorx, üsyankarlıqdan əl çək və müsəlman qanını tökmə! And olsun Allaha, bundan çox insanların qan bahasını Allahın*

[1] İzzəddin İbn Əbil-Hədid Mötəzili: «Nəhcül-bəlağənin şərhi» cild 4, səh. 12.

*hüzuruna aparmağın sənin xeyrinə deyil. İtaət və sülh yoluna tut! Xilafət üstündə xilafət əhli ilə və ona səndən daha layiq olanla mübarizə etmə!...»*

Şamda Əməvilərin bayrağı, Kufədəki Haşimi xilafətinə düşmənçiliklə dalğalanırdı. Keçmişdə Həzrət Əliyə beyət etmədikləri kimi, İmam Həsənə də beyət etmədilər. İmam Həsənin nəsihətlə dolu məktublarının bir faydası olmadı və bu məktublardakı məntiqli və sağlam dəlillər Müaviyənin azğınlıq və üsyankarlığını yatıra bilmədi.

İmam Həsənin Müaviyəyə yazdığı məktubları araşdırdıqda sağlam məntiqdən uzaq və ya əsassız bir sözə rast gəlmək mümkün deyil. Bu məktublarda, Əhli-beytin məsumluğundan, onların insanlar üzərindəki haqlarından - belə ki, onları sevmək hamıya vacibdir - və Qurani-Kərimdə açıq şəkildə bəyan olunan Əhli-beytin müsəlmanlara rəhbərliyindən söz açılır. Xilafət məsələsi və imamın təyin edilməsinə dair Peyğəmbərin göstərişləri vurğulanır və İmam Həsən (ə), Müaviyəni təslim olmağa, itaətkarlığa, müsəlmanların qanını tökməməyə və müsəlmanların xeyrinə iş görməyə dəvət edir.

Bunun müqabilində Müaviyənin İmam Həsənə (ə) yazdığı məktublarda mövzunun mahiyyətinə deyil, kənar məsələlərə toxunulur. Əksər hallarda unudulmuş və keçmiş düşmənçiliklər xatırlanır, müsəlman qardaşlar arasında fitnə və təfriqə salan ifadələr işlənilir.

Müaviyəni, İslam tarixində qəbiləçilik hisslərini oyadan ilk şəxs adlandırmağımız yerinə düşərdi. O, unudulmuş düşmənçilikləri xatirladıb ixtilaf atəşini alovlandırmaqla tövhid dininin təməlini, yəni birlik və vəhdəti parçalayan və həqiqətən, tərəqqi amili və İslam dinin naliyyətinin sirri olan bu təməli süstləşdirən ilk şəxs idi.

Özünün və atası Əbu Süfyanın ləkəli keçmişi bütün müsəlmanlara məlum olduğu üçün Müaviyə yaxşı bilirdi ki, özündən fəzilətlər uydurub, hətta sadəlövhləri belə aldada və tora sala bilməyəcək. Odur ki, İmam Həsənə yazdığı

məktublarda Əbu Bəkr, Ömər və Əbu Übeydənin adını çəkir və Əhli-beytin Əbu Bəkrə beyət etmədiyini onun üzünə vurur.

Müaviyənin məktublarında bir şey əskik idi: xilafətə layiq olduğuna isbat etmək və bu müqəddəs məqamı ələ keçirdiyi üçün məntiqli bir dəlil gətirmək. Hətta Həzrət Əli ilə Müaviyə arasındakı bütün çəkişmə və döyüşlərdə Əmirəl-mömininə qarşı kəskin bir təbliğat silahı olan «Osmanın qan intiqamını alma» iddiası o Həzrətin vəfatından sonra artıq öz təsirini itirmişdi.

İndi Müaviyə, Həsən ibn Əli ilə qarşı-qarşı durmuşdu. O kəs ki, Osman qətlə yetirildiyi gün onu müdafiə etmək üçün evinin qapısında dayanmışdı. Hətta əksər tarixçilərin dediyinə görə, ona dəyən zərbələrdən bədəni qana boyanmışdı.

Təqtəqi bu barədə belə yazır: «...Osmanı müdafiə etmək üçün yorulmadan mübarizə apardı; hətta Osmanın özü belə onu kənara çəkirdi. Amma O, döyüşür və canını təhlükəyə atırdı...»

Bu fədakarlıq, bəzilərinin Osmandan köməklərini əsirgədiyi və ən yaxşn adamlarının belə onu buraxıb qaçdığı bir vaxtda göstərilmişdi.[1]

Bəli, Müaviyənin İmam Həsən yazdığı məktublardakı yeganə dəlili və əsası bu idi: «Mənim hakimiyyətdə keçmişim var və mən, səndən daha təcrübəliyəm». «Mən səndən yaşca böyüyəm».[2]

Şübhəsiz, əgər Müaviyənin hər dəfə dediyi bu sözlərdən başqa məqbul bir dəlili olsaydı, onu da bəyan edər və müvəffəq olmaq üçün qədim düşmənçilik hisslərini, kin və düşmənçiliyi oyandırmağa çalışmazdı.

Kaş ki, Müaviyənin hansı təcrübədən bəhs etdiyini biz də biləydik! Görəsən, Şam xalqı Müaviyənin əlindən zara gəlib ondan Ömərə şikayət etdiyi vaxt və Ömər də qəzəblənib adamlarını onun yanına göndərib hüzuruna gətirdiyi vaxt Ömərdən yox, köləsi Yərfadan daha çox qorxduğu təcrübəsindənmi bəhs edir?!

---

[1] Bu barədər daha geniş məlumat üçün: Ustad Abdullah Əlayilinin «Kitabu əyyamil-Hüseyn» kitabına baxın.

[2] İzzəddin İbn Əbil-Hədid Mötəzili: «Nəhcül-bəlağənin şərhi» cild 4, səh. 13.

Görəsən, yaşıl libası geyinib Ömərlə qarşılaşdığı və Ömər də onu şallaqla başına vurduğu gündəmi bəhs edir?! Yoxsa Osmanın xəbəri olmadan işləri onun adı ilə gördüyü və nəticədə Osmanın bədbəxt olmasının səbəbkarlarından biri olduğundan söz açır?! Ya da azğınlıq və üsyankarlıq ordusunu zamanın İmamı ilə döyüşə aparıb heç bir bəhanəsi olmadan onunla savaşdığı günü nəzərdə tutur. Bu «təcrübələr», Müaviyənin hakimiyyətə keçməsi və ya hakimiyyətdə qalması üçün daha layiqli olduğunu göstərən dəlillər ola bilərmi?! Əks təqdirdə, hansı ləyaqəti iddia edirdi? Məgər, bu yollarda əldə edilən və yalan, iftira və əzmkarlıq təməli üzərində qurulan bir hökumətin uca dini məqama, yəni xilafətə daha layiq olduğunu göstərən dəlil ola bilərmi?!

Məntiqli dəlillər ünvanında ancaq eyni sözləri təkrarlamaq... Hamısı da bir mənada xülasələşirdi. Uzun müddət hakimiyyətdə olmaq!

Haqq məntiqində uzun müddət hakimiyyətdə olmaq və ya yaşca böyük olmaq xilafətə keçmək üçün bir ölçü və meyar deyil!

Vicdanlarını satın almaqda və ya cəmiyyətdə fitnə-fəsad törətməkdə hamıdan təcrübəli olmaq, nübuvvət məqamının canişiliyinə hamıdan daha layiqli olmağı ibat etmir.

Bəziləri əsəblərini cilovlayıb hisslərini məharətlə gizlədir və hamı onları ən mərhəmətli və ən səbirli insan hesab edir. Lakin bu vəziyyət, onların cəmiyyətdə din rəhbəri olmasına səbəb ola bilməz! Çünki səbir və mərhəmət bir din rəhbəri və imamda olduğu kimi, siyasət, rəhbərlik və hökumət iddiası edənlərdə də ola bilər.

Bəziləri zirənglik nəticəsində xalq öz şəxsi əqidələrinə və düşünçələrinə - bu inanc, istər ilahi mənbədən qaynaqlansın, istər də şəxsi həvəslərdən - doğru yönəltməyə qadir ola bilər. Lakin beləlari müsəlmanların xəlifəsi deyil, dində bidət qoyanlardır. Çünki bir xəlifənin, Quranın əqidəsindən başqa əqidəsi, hədislərdən başqa əsası və Allahdan başqa müraciət yeri ola bilməz. Deməli, uca İslam xilafət məqamına və Peyğəmbərin

canişiliyinə layiq olan şəxs, Allah-Təalanın bəndələri arasında seçdiyi və sahib olduğu fəzilətlərinə, bəyənilən fərdi xüsusiyyətləri görə digər insanlardan üstün etdiyi şəxsdir. İnsanları yaradan Allah, bu ləyaqətli və fərqlənən bəndəni hamıdan daha yaxşı tanıyır; onu ad və vəsfləri ilə Peyğəmbərinə tanıtdırır və Rəsulallah da onu özünə canişin təyin edir. Burada artıq başqalarının xəlifə seçməyə və ya təyin etməyə haqqı yoxdur!

Müaviyə, özünün və atasının ləkəli keçmişini, necə müsəlman olduğunu, Ömər, Osman və İmam Əlinin (ə) qarşısında tutduğu mövqeyi nəzərə almadan, dini rəhbərlik və xilafət məqamına əl uzatmaqdan çəkinmirdi. Odur ki, İslam məmləkətində yaşayan bütün müsəlmanların beyət etdikləri və Peyğəmbərin köməkçilərinin və adi müsəlman olan hər bir kəsin itaət etdiyi Xatəmul-Ənbiyənın nəvəsi İmam Həsənə belə yazdı: «Mən yaşda səndən böyüyəm və səndən daha təcrübəliyəm».

Görəsən, dəlillər dünyasında məntiq məna baxımından bundan aciz bir dəlil tapmaq olarmı?!

İmam Həsənə yazdığı növbəti məktubunda isə ona sui-qəsdlə hədələdi. Sanki İmam Həsən ibn Əlini tanımadığı üçün onunla bu qədər almaq və rəzil şəkildə danışırdı: *«... Alçaq və azğın insanların əli ilə ölmədən qorx və bizə təsir qoymaqdan ümidini kəs! Bil ki, xilafət məndən sonra sənin haqqındı! Axı sən ona hər kəsdən daha layiqsən...»*[1]

İmam Həsənin elçiləri Cündəb ibn Abdullah Əzdi və Hərs ibn Süveyd Təymiyəyə verdiyi son cavab bu idi: *«Geri dönun! Bizimlə sizin aranızda, ancaq qılınc hökm edəcəkdir!»*[2]

Beləcə, düşmənçiliyə birinci Müaviyə başladı. İtaəti vacib olan İmama qarşı çıxan o idi. Elə bir İmam ki, ancaq Müaviyə və onun təlim keçdiyi gözü, qulağı möhürlü tərəfdarlarından başqa - belə ki, Səsəə ibn Sühan onları belə vəsf edir: «Məxluq

---

[1] İzzəddin İbn Əbil-Hədid Mötəzili: «Nəhcül-bəlağənin şərhi» cild 4, səh. 10 və 13.

[2] İzzəddin İbn Əbil-Hədid Mötəzili: «Nəhcül-bəlağənin şərhi» cild 4, səh. 10 və 13.

qarşısında ən itaətkar və Allah qarşısında ən üsyankar insanlar idilər. Allahın əmrinə qarşı çıxıb, azğınlarla əlbir idilər» - müsəlmanlardan heç kəs ona beyət etməkdən boyun qaçırtmamışdı.[1]

Kufə, Müaviyənin hədə-qorxusunu və İraq üzərinə hərəkət etdiyini eşitmişdi. Şiənin bahadırları və məşhur döyüşçülərinin dili ilə desək, hərbi marşlar çalınır və beləcə, günlər ötüb keçirdi.

İş olduqca ciddiləşmişdi. Hökumətin başında olan şəxs bu gözlənilməz hadisəyə bir çarə tapmalı və dövrün tələbinə uyğun davranmalı idi.

Zalım və üsyankarlarla döyüşmək, dini inanc və düşüncəsini hökm etdiyi bir vəzifədir. Ümumiyyətlə, İslam xilafəti, Müaviyənin 3 il boyunca xilafətə qarşı apardığı silahlı hücumlarla müsəlmanların arasında yaratdığı təfriqə və ixtilaflara aradan aparmaqdan, o günlərdə daha çox ehtiyac duyduğu sabitlik və vəhdəti əldə edə bilməzdi.

Müaviyənin apardığı bu döyüşlər, İslam ən böyük zərər və zərbə vuran döyüşlər idi. Bu döyüşlərdə tökülən qanları, tapdalanan haqlar, təhrif olunan həqiqətlər, ağılsızların və alçaq dünyapərəstlərin əldə etdiyi zəfər və nailiyyətlər və s. İslam tarixində baş verən döyüşlər arasında tay-bərabər yox idi.

İslam dini, uca insanı təməlləri etibarilə, yalnız Allah yolunda, insanların xeyrinə və İslam cəmiyyətinin müdafiəsi üçün döyüşə icazə verir! Hökmranlıq məqsədilə sərhədləri pozmaq, əmniyyət içində olan insanları qorxutmaq, müsəlmanlarla, Allaha və Peyğəmbərə inanan millətlərlə döyüşmək, bir sözlə müharibəyə qalxmağa İslamın təməl prinsipləri baxımından əsl yol verilmir! Bu döyüşlər cahiliyyətin qalığıdır!

Müsəlmanların vəhdət və birliyini pozan, müsəlman qruplaşmaları arasında kin və düşmənçilik toxumlarını səpən də bu kimi döyüşlər idi. Təəssüf ki, bu döyüşlərdə «alçaq səfehlər»[2]

---

[1] Əbül-Həsən Əli ibn Hüseyn Məsudi: «İbn Əsirin haşiyəsi» cild 6, səh. 119.

[2] Onlar haqqında bu ifadəni Şəbəs ibn Rəbi hicri 36-cı ildə Müaviyə ilə qarşılaşdığı vaxt ona demişdir.

Müaviyəyə müsbət cavab verdilər. O da onların əxlaqı rəzilliklərindən və yalnış düşüncələrindən yetərincə yaralandı və itaətkarlıqların qarşılığı olaraq hamısını həlakətə yuvarladı.

Döyüşmək ilk başlamamaq isə Bəni-Haşimdən xas olan xüsusiyyət idi. İmam Həsən ordusunun baş sərdarı Übeydullah ibn Abbas göndərdiyi fərmanında Hakimlərə xas bu üstün cəhətin nəzərə almasını vurğulamışdı.

İmam Həsən Müctaba xüsusi olaraq ərəbin böyük şəxsiyyəti Əmirəl-möminin Əlinin (ə) tövsiyə və göstərişləri xəzinəsinə sahib idi. Tarixin şahidlik etdiyi kimi, atası ona böyük məhəbbət bəsləyir və onu olduqca uca və əziz tuturdu.[1] Bu tövsiyələr və göstərişlərin hamısı həm dini, həm dünyəvi, həm də əxlaqi mövzularda qiymətli və dəyərli örnəklər, xətadan uzaq sözlərdir. Bu tövsiyələrdən də biri belə idi: «Əsla heç kimi mübarizəyə çağırmaq! Mübarizəyə çağırıldıqda isə qəbul et! Çünki müharibə qaldıran təcavüzkardır. Təcavüzkar isə məğlubdur».

Buna görədir ki, İmam Həsən, bəyət edilən günlərdə və tərəfdarlarını səbirsizliklə döyüş gözlədikləri bir zamanda açıq-aşkar müsbət cavab vermədi və onların fikrini ciddi qəbul etmədi. Çünki o, döyüşə, ancaq zəruriyyətdə və çarəsiz qaldıqda ikrahdoğurucu bir vəzifə kimi baxırdı. Həm də o kifayət qədər qüvvəsi olan və müsbət sonluğa zəmanət verən bir döyüş aparmaq istəyirdi. Lakin gündən-günə vəziyyəti ağırlaşdığı o böhranlı günlərdə istədiyini həyata keçməsi qeyri-mümkün idi.

Əvvəlki bölümdə Əməvilər, xəvaric, şəkkak və əl-Həmra kimi müxtəlif davakar və iğtişaşı qruplaşmaları sizə tanıtdırdıq və o günkü ictimayyətə hakim olan fitnəkarlıq və mövcud hakimiyyətlə müxalifətçilik ruhunu sizin üçün açıqladıq. Bu amillər bütünlüklə - hətta onların bəzisi də belə kifayət idi - səbəb oldu ki, İmam Həsən səmimi tərəfdarlarının əksəriyyətinin israr etməsinə baxmayaraq - döyüşü gecikdirsin.

Beyət günlərində Kufədən görünən keçisi və müvəqqəti canlanma Həzrət Müctəbanın (ə) bu həqiqi dostlarını aldatmış və

---

[1] «Tarixi İbn Kəsir» cild 8, səh. 36-37.

yeni xəlifələrinin xeyrinə olan hər cür təşəbbüsün müvəffəqiyyətlə nəticələnəcəyinə ümidvar etmişdi. Lakin bu, pərdə arxasında və bu qrupların xüsusi hədəflərini görə bilməyən səthi bir düşüncə idi.

Lakin İmam Həsən açıqlıq və uzaqgörənlik ilə gələcəyi görür, zəkası ilə çətinlikləri onlardan daha yaxşı tanıyır və dini vəzifəsinə əsasən, ümumi mənafenin xatirinə diqqət və ehtiyyatla davranırdı. O, qarşılaşdığı vəziyyətin əhəmiyyət və incəliyini dərk edirdi. Çünki tərəfdarlarının və əsgərlərinin böyük bir qisminin düçar olduğu əxlaqi fəsaddan, yəni dini dünyaya satmaq rəzilətindən xəbərdar idi. Qorxurdu ki, əgər zəruri olmayınca döyüş başlasa, müharibə şəraitində bu əxlaqi fəsad öz mənfi təsirini göstərsin.

Beləliklə, səbirli olmağın mövcud siyasi vəziyyət üçün bir çox faydalarını görür və tədbirini davranmağın zərurətini hiss edirdi. Elə buna görə də insanlarla mülayim və həlim davranışı uyğun gördü; xoş rəftar olmaq və güzəşt yolunu seçdi, saflaşdırmaq və islahetməni isə başqa vaxta saxladı.

Bütün bunlar, Kufə cəmiyyətinin əndamındakı gizli yaranın qaysaqlanması və hamını bürüyəcək bir fitrənin qarşısını almaq üçün İmam Həsənin yürütdüyü dahiyanə siyasət idi.

Burada, ortaya belə bir sual çıxır: Əgər belə yaramaz və qarışıq vəziyyətlə qarşılaşan bir dövlət başçısı hərcmərclik və üsyanları yaratmaq üçün son dərəcə ehtiyatlı davranmalı və ciddiyyətlə xəyanətkarların üzə çıxardıb cəzalandırmalıdırsa, onda nə üçün İmam Həsən sərt davranmaq əvəzinə mülayimlik göstərdi? Bir halda ki, sabitlik yaratmaq və təhlükə altına düşən gələcəyə zəmanət vermək üçün onun qarşılaşdığı vəziyyətdə birinci üsula, yəni güzəşt etməmək və sərt davranmağa daha çox ehtiyac var idi.

Bu sualın üç cavabı var və 8-ci bölümün (Ordunu təşkil edən ünsürlər) sonunda nəzərinizə çatdırılacaqdır. Burada isə bunu söyləməklə kifayətlənirik ki, əgər İmam Həsən bu vəziyyətdə hamı kimi o yolu seçsəydi, vaxtından əvvəl fitnə atəşini öz əli ilə alovlandırar və zərəri, nəticə etibarı ilə zərəri

Şam döyüşlərində az olmayan daxili çaxnaşmalar üçün meydan apardı. Müaviyə isə bütün maliyyə imkanları və təbliğatı ilə Kufədə daxili çaxnaşmalar zəmin yaratmaq üçün daim fürsət axtaran bir düşmən idi. Beləliklə, belə təhlükəli və həssas vəziyyətdə ən gözəl üsul, İmam Həsənin (ə) seçdiyi yol idi.

Təzliklə döyüşə başlamağı İmama məsləhət görən və «Siz Müaviyənin üzərinə hücum çəkin ki, döyüş onun diyarında baş versin»[1] deyən səhabəsinə isə belə cavab veririk: Əgər İmam Həsən belə etsəydi, Kufədə ona zidd olan dəstə başçılarının özlərinə dindar görünüşü verən riyakarların əlinə müxtəlifətçilik üçün yaxşı bir fürsət vermiş olardı. Yəni onlar öz müxalifətçiliklərinə bir əsas əldə edərdilər. Həm də bu insanların çoxu və ya ən azı sadəlövhlər üçün cavabsız bir sual yaradar və beyətlərini pozub açıq-aşkar İmam Həsənin əmrlərinə itaətsizlik etmələrinə səbəb ola bilərdi. Buna görə də bəzilərini irəli sürdükləri döyüşə birinci başlamaq təklifi, həqiqətdə, İmamın öz əli ilə cəmiyyətdə ən təhlükəli və ən dəhşətli partlayışı meydana gətirməsi və onun doğuracağı nəticələrlə barışması mənasına gəlirdi. Bax, bu səbəblərlə İmam Həsən ibn Əli döyüşə başlamaqda tələsməmək qərarına gəldi.

Lakin bir müddət sonra qəflətən cihad əmri verdi. O, elə bir vəziyyətdə bu əmri verdi ki, hamının hər kəsin fikrincə cihaddan başqa çarə yox idi. Çünki Müaviyə düşmənçilik və tüğyan etməyə başlamış, İslam torpaqlarının mərkəzində ərazilərini genişləndirmək həvəsinə düşmüş və İraqa doğru Cisri-Mənbəcə[2] qədər irəliləmişdi. Bu hadisə, Məhəmməd ibn Yəqubinin[3]

---

[1] İzzəddin İbn Əbil-Hədid Mötəzili: «Nəhcül-bəlağənin şərhi» cild 4, səh. 13.

[2] «Mənbəc», həmin adla tanınan Fərat çayının üzərindəki körpüdən 18 km və Hələb şəhərindən 60 km (və «Mucəm»də deyilənə görə, 2 günlük) uzaqlıqda yerləşən böyük qədim şəhərin adıdır. Yaqut ibn Abdullah Rumi Həməvi «Mucəmul-buldan» kitabında belə yazır: «Orada Məlitə 4 günlük və Fərata 1 günlük yol vardır. Bu şəhərdən Buhtəri və Əbu Furas Həmdani kimi şəxslər çıxmışdır».

[3] «Tarix» cild 2, səh. 191.

dediyinə görə, Əmirəl-möminin İmam Əlinin (ə) şəhadətindən az sonra, yəni 18 gün sonra baş vermişdi.

Müaviyə Kufə igidlərini xəbərdarlıq etmək və döyüş elan etmək məqsədilə Fərat çayının yuxarı məntəqələrində əmin-amanlıq pozmağa və iğtişaş yaratmağa başladı. O, Həzrət Əlinin şəhadətini, Kufə və Şam münasibətlərinə son qoymaq üçün ən gözəl fürsət bilirdi. Bu, Müaviyə və müşavirlərinin tutduğu son qərar idi. Bu müşavirlər, gecə-gündüz Haşimi xilafətinə qarşı hərəkata rəhbərlik edən Müğeyrə ibn Şübə, Əmr ibn As, Mərvan ibn Həkəm, Vəlid ibn Ütbə, Yezid ibn Hürr Əbəsi, Müslim ibn Üqbə və Zəhhaq ibn Qeys əl-Fəxri kimi rəzil şəxslər idi.

Müaviyə həm uyğun mövqe seçməyə və həm də Kufədə qarşılıqlıq salmağa müvəffəq oldu. O, bu iş üçün tam bir ciddiyyətlə alçaq vicdanları pulla satın aldı və müxtəlif bölgələrdə casuslar göndərdi. Bu casuslar getdikləri yerlərdə cürbəcür yalanlar yayır və geri döndükdə düşmənin döyüş imkanları və ya tutduğu qərarlar haqda ətraflı xəbərlər gətirdilər. Bu isə Müaviyənin ən təsirli və güclü döyüş taktikası idi.

«Müaviyə bütün qövmləri və əsgərləri səfərbər etdi. Hakimiyyəti altında olan bütün bölgələrə bu məzmunda məktub yazdı: *«Bu məktubu alan kimi bütün qüvvələrinizlə bərabər mənim yanıma gəlin!»*[1]

İmam Həsən (ə) də müharibə istəyən Müaviyəyə qarşı cihad elan etdi. Bu fərmanı ilə ixlası möminlər, Quran hafizləri, döyüş sərdarları və İmamın ətrafında toplandılar, o cümlədən: Hicri ibn Ədiyy, Əbu Əyyub Ənsari, Əmr ibn Qurzə Ənsari, Yezid ibn Qeys Ərhəbi, Ədiyy ibn Hatəm Tai, Həbib ibn Məzahir, Zirar ibn Xəttab, Məqəl ibn Sinan Əşcəi, Vali ibn Hürr Həzrəmi (Seyyidul-İqbal), Hanı ibn Urvə, Rəşid Hicri, Məysəm Təmmar, Büreyr ibn Xuzeyr, Həbbə Ərəni, Hüzeyfə ibn Əsid, Səhl ibn Səd, Əsbağ ibn Nəbatə, Səssə ibn Sühan, Əbu Huccə Əmr ibn Muhsin, Hanı ibn Os, Qeys ibn Səd, Səid ibn Qeys, Abis ibn Şəbib, Abdullah ibn Yəhya Həzrəmi, İbrahim ibn Malik Əştər,

---

[1] «Nəhcül-bəlağənin şərhi» cild 4, səh. 13.

Müslim ibn Ovsəca, Əmr ibn Həməq, Bəşir Həmədani, Müseyib ibn Nəciyyə, Amir ibn Vailə, Cüveyriyyə ibn Mushir, Abdullah ibn Musmə Həmadani, Qeys ibn Musəhhər Seydavi, Əbdur-Rəhman ibn Abdullah Şaddad, Əmmarə ibn Abdullah Selluli, Hanı ibn Hanı Şəbii, Səid ibn Abdullah, Kəsir ibn Şərab, Əbdur-Rəhman ibn Cündən, Abdullah ibn Əziz, Əbu Sumamə Saidi, Abbas ibn Cudə, Əbdur-Rəhman ibn Şüreyh, Rəqa ibn Əmr, Qeys ibn Vərqa, Gündən ibn Abdullah Əzdi, Hirs ibn Süveyd, Ziyad ibn Səsəə ət-Teymi, Abdullah ibn Val və Məqil ibn Qeys ər-Riyahi.

Onlar İmam Hüseynin (ə) cəbhəsinin əsas qüvvəsini təşkil edirdilər. İmam, Übeydullah ibn Abbas yazdığı əmmaməsində onları belə vəsf etmişdir: «Onların hər biri, bir orduya bərabərdir!» Müaviyə isə Süffəyn döyüşündə onları belə tanıtdırmışdır: «Onların hamısının qəlbi birdir» və ya «Onlar bir dəstə insanı öldürməmiş öldürülməzlər».

Yenə də Müaviyə onlar haqqında demişdir: «Onların Süffeyndə başlarındakı papaqlarının altından parlayan gözləri yadıma düşdükdə, ağlım başımdan çıxır». Şübhəsiz düşmənin bu etirafı onları bizə daha yaxından tanıtdırır.

Hamı nikbinliyə qərq olduğu üçün hökm verilərkən Kufə lərzəyə gəldi və xalq dəstə-dəstə orduya qatıldı. Cihada könüllülər arasında bundan əvvəl Allah rizası üçün xeyirli işlərə bu qədər şövqlə qatıldıqları xatırlanmayan müxtəlif ünsürlər də var idi. İmam Həsən Müctabanın ordusunda ixlaslı silahdaşları ilə yanaşı, böyük ehtimalla düşmən üçün casusluq etməyə gələn şəxsiyyəti məlum olmayan və ya tanınmış ailələrdən olan insanlar, həmçinin İmam Həsəndən fərqli düşünən bədxahlar da var idi. Nəhayət, döyüş vaxtı qaçıb canını qurtara və qənimət toplamaqdan başqa məqsədi olmayan bir qrup insan da bura toplaşmışdı. O qruplardan heç biri digərinin fikir və baxışı ilə razılaşmırdı; hamısı bir-birinə zidd, ümumiyyətlə məntiqsiz və hədəfsir idilər. Xülasə, bu qruplar arasında döyüşə lazımlı hazırlıq üçün ən böyük maneə sayılan münaqişələr mövcud idi.

İmam Həsən (ə) elə ilk gündən bu təəssüfdoğrucu qarmaqarışıqlıq nəticəsində narahat idi. Bəzi tarixi qaynaqlar da bu həqiqət vurğulanır. O, qarşısında döyüş marşları oxuyan bu hay-küylü camaata nə etibar edirdi, nə də ixlas və həmrəyliyinə ümid bəsləyirdi. Çünki bu camaatın arxasında islah və hidayət olacaqlarına əsla ümid bəslənilməyən Kufənin münafiq və ikiüzlüləri dayanırdı. O cümlədən: Əşəs ibn Qeys, Əmr ibn Hüreys, Müaviyə ibn Xədiyc, Əbu Burdə Əşəri, Münzir ibn Zübeyr, İsaq ibn Təlhə, Hucr ibn Əmr, Yezid ibn Haris ibn Rəvim, Şəbəs ibn Rəbi, Əmmarə ibn Vəlid, Həbib ibn Məsləmə, Ömər ibn Səd, Yezid ibn Umeyr, Həccar ibn Əbcər, Urvə ibn Qeys, Məhəmməd ibn Umeyr, Abdullah ibn Müslim ibn Səid, Əsma ibn Xaricə, Qəqə ibn Şurzəhli, Şimir ibn Zilcovşən... kimilərini misal çəkə bilərik.

İmam Həsən nə vaxtsa bu qruplar bir hadisə yaşayacağını bilirdi. Bunlar, müsəlman olduqlarını iddia etməklə yanaşı, özləri və özləri kimi olanlar üçün şəxsi istək və iradələrinə uyğun əxlaq qanunlar çıxaran kufililər idi! Əxlaq bulağını qəlblərdə qaynadan və müsəlmanlara saysız nemətlər bəxş edən İslam dini, bu əxlaqsız xalqın dünyapərəstliyi qarşısında məğlubiyyətə uğramışdı. Bu səbəblə Rəsulullahın (s) Əhli-beytindən (ə) uzaqlaşmış və onların təlim və rəftarları sayəsində yarana bilən vəhdəti itirmişdilər.

Onlar, İmam Həsənə (ə) tam mənası ilə itaət etmək və əmrlərinə tabe olmaq şərti ilə beyət etdikləri andan etibarən, düşmənlərin köməkçiləri timsalında, təfriqə və çaxnaşma yaratmağa başladılar. Ən böyük cinayətlər törətmək üçün onun dünya və axirət nəticələrindən əsla çəkinmədən daim fürsət axtarırdılar. Bu qrupun orduya qatılması ilə İmam Həsəni gözləyən təhlükə aşkarcasına qarşı-qarşıya dayandığı düşmənindən gözlənilən təhlükədən daha böyük idi. Belə olduğu təqdirdə, Kufə rəhbərliyinin işin sonunda tənha qalmağından narahatlıq keçirməsi və mümkün olduğu qədər döyüşü gecikdirməsi yerində deyildimi?!

Şübhəsiz, nəticəsinin naməlum olması, səbirli və ehtiyatlı davranmağı və ehtimal verilən zərərlər qarşısında daha çox hazırlıqlı olmağı zəruriləşdrir. Lakin indi ki, döyüşə dəvət edilmişdi, atasından irsi keçən xüsusiyyətli ibraz etməli idi; çünki qurddan qurd törəyər!

İmam Həsən atasının «Əsla heç kimi döyüşə dəvət etmə! Amma əgər kimsə səni döyüşə dəvət etsə, qəbul ət; çünki döyüşə başlayan təcavüzkardır...» tövsiyəsinə əməl etməli idi. Həmçinin, hakimiyyətin şəri məsuliyyətini də nəzərə almalı idi. İnsanlarında beyət edib tabe olduğu bir rəhbər üçün qanunun açıq-aşkar tapdalamasına və İslama təcavüz edilməsinə göz yummaq və imkan daxilində mübarizə aparmaq yolverilməzdir. Allah-Təala buyurur:

وَقَاتِلُوهُمْ حَتَّىٰ لَا تَكُونَ فِتْنَةٌ

***«Allahın yoluna dönən qədər azğınlarla döyüşün!»*** [1] Rəsulallah (s) da belə buyurur: «Hər kim imam və rəhbər var ikən xalqı özünə və ya başqasına tərəf çağırarsa, Allahın lənətinə gəlmişdir; onu öldürün!»

Lakin bu hərəkət üçün yeni azğınlığa qarşı mübarizə üçün lazımı qüvvəyə gəlincə: Kufə xainlərindən bir çoxunun ürəyincə olan qeyri-sabit vəziyyətə baxmayaraq, Kufə ərazisində döyüş üçün lazimi qədər qüvvə var idi. İslam höküməti I əsirin ortalarında, o dövürdə bir dövlət üçün lazım olan ən böyük orduya sahib idi.

Nəhayət, sərhədləri qorumaq, ciddi mühafizəkarlığı və İslam ordusunun böyük qisminin orada yerləşdirməyi tələb edirdi. Nəticədə, hərbi qüvvələrin böyük hissəsi o dövürdə ibtidai vəsaitlərlə qosun çəkməyin çətinliklərini nəzərə alaraq mərkəzə yaxın döyüşlərdə iştirak edə bilmirdi.

---

[1] «Bəqərə» surəsi, ayə 193. Bu barədə başqa ayələrə də baxa bilərsiniz: «Bəqərə» surəsi, ayə 190, «Ənfal» surəsi, ayə 39, «Tövbə» surəsi, ayə 29, «Hucurat» surəsi, ayə 9 və s.

Təkcə Kufədəki qosunda əsgərlərin sayı, iki fərqli rəvayətə görə[1], 90 və ya 100 min nəfər, Bəsrədə isə 80 min nəfər idi.[2] Onlar bu iki şəhərin dövlət xəzinəsindən təqaüd alırdılar. Bu əsgərlərin orduya qosulan tərəfdarları və kölələrinin, eləcə də bu iki hərbi şəhərdə könüllü olaraq cihada qatılanların sayı da, təxminən bir bu qədər idi.

Beləliklə, İran, Yəmən, Hicaz və digər bölgələrdəki ordudan başqa, təkcə İraq orusundakı əsgərlərin sayı təxminən 350 min nəfərə catırdı. İmamın tərəfdarlarının döyüşə olan rəğbəti bir tərəfdən, Xəvariclərin «azğın»larla döyüşdə olan israrı digər tərəfdən, eləcə də ümumi xalq kütləsinin cihad tərəfdarlarının fikirlərinin qəbulu ilə döyüşə olan meyli də başqa bir tərəfdən hamını lazımi döyüş qüvvəsinin mövcudluğuna arxayın edirdi.

Təkcə bu qalırdı ki, döyüş başladıqda bu döyüşçülər Allah-Təala ilə bağladıqları əhd-peymana vəfa etsinlər və sözlərinin üstündə dursunlar.

## DÖYÜŞ SƏFƏRBƏRLİYİ VƏ RƏHBƏRLİYİ

Carçı Kufədə «Əs-salatu cəmiəh»[3] - deyə car çəkdi. Camaat məscidə toplandı. İmam Həsən (ə) minbərə çıxdı. Allaha həmd-səna etdikdən sonra belə dedi: «Bəli, heç şübhəsiz, Allah insanlara cihadı vacib etdi və onu «məşəqqət» adlandırdı. Sonra cihad edənlərə

ا أَيُّهَا الَّذِينَ آمَنُوا قَاتِلُوا الَّذِينَ يَلُونَكُم مِّنَ الْكُفَّارِ وَلْيَجِدُوا فِيكُمْ غِلْظَةً ۚ وَاعْلَمُوا أَنَّ اللَّهَ مَعَ الْمُتَّقِينَ

***«Mübarizə aparın! Allah mübarizlərlədir»*** [4] - deyə buyurdu.

Və siz ey insanlar! Siz, sevmədiyiniz şeylər qarşısında səbir edib müqavimət göstərməyincə, sevdiyiniz şeylərə

---

[1] «Tarixi-Yəqubi» cild 2, səh. 94; «Əl-İmamətu vəs-siyasə» səh. 151.
[2] Cəmil Müdəvvər: «Hizarətul-İslam fi darus-səlam».
[3] Camaatı bir yerə toplamaq üçün işlədilən ifadə (Mütərcim).
[4] «Tövbə» surəsi, ayə 123.

qovuşmazsınız. Mənə xəbər çatıb ki, bizim döyüşə qərar verdiyimizi eşitdikdən sonra bizə doğru hərəkət edib. Odur ki, siz də Nuxeylədəki[1] düşərgələrinizə gedin - Allahın rəhməti üzərinizdə olsun! - ta ki, birlikdə bir qərara gələk».

Tarixçilər bu hadisəni belə yazmışlar: «Onun sözlərindən sonra hamı susdu; heç kəsdən səs çıxmadı və heç kim İmam Həsənə cavab vermədi».

Ev Təyy qəbiləsinin tanınmış şəxsiyyəti, Rəsulallah (s) və Əmirəl-möminin İmam Əli (ə) ilə birgə keçirdiyi parlaq keçmişinə görə müsəlmanların gözündə böyük bir məqamı olan böyük sərkərdə Ədiyy ibn Hatəm bu vəziyyəti gördükdə, qəzəb bütün vücudunu bürüdü. Uca və təkanverici bir səslə fəryad çəkdi. Hamının diqqəti ona tərəf yönəldi və onun sözünü eşitməyə səy göstərdilər.

Ora toplananlar arasında Ədiyyin parlaq keçmişini, alicənablığını və Allah yolunda əzmini bilənlər çox idi. Ədiyy, onların bu soyuqqanlılıq və sükutunu qınayaraq alovlu sözlərlə deyirdi: «Mən Hatəm oğlu Ədiyəm... Vay olsun sizə, bu davranışınız nə qədər çirkindir! Nə üçün imamınıza və Peyğəmbərinizin oğluna cavab vermirsiniz?! Rahatlıqla dilləri qamçı kimi olan və indi iş ciddiləşəndə tülkülər kimi yuvalarına girən şəhərin xatibləri hardadırlar?! Allahın qəzəbindən qorxmursunuz?! Rəzil və rüsvay olmaqdan çəkinmirsiniz?!

Sonra İmam Həsənə tərəf dönərək belə dedi: «Allah səni doğru yola nail etsin, hər bir xoşagəlməz işlərdən uzaqlaşdırsın və hər cür gözəl və bəyənilən işə müvəffəq etsin!... Sözlərini eşitdik, əmrlərinə tabe olduq, buyurduğun və düşündüyün hər şeyə təslimik!»

Daha sonra «Mən indi düşərgəyə gedirəm. Bizimlə getmək istəyən varsa, bismillah...» deyib məsciddən çölə çıxdı. Məscidin qapısı ağzında bağladığı atına minərək Nuxeyləyə doğru hərəkət

---

[1] Nuxeylə, Kufənin yaxınlığında bir yerin adıdır. Bu söz ərəb dilində «nəxlə» sözünün «təsğir», yəni kiçiltmə forması olub, «kiçik xurma ağacı» mənasını verir. Hal-hazırda Kərbəla istiqamətdə Kufədən 12 mil (720 metr) uzaqlığında «Xanun-Nuxeylə» adı ilə məşhur olan bir bina vardır.

etdi və köləsinə döyüş ləvazimatlarını düşərgəyə gətirməyi əmr etdi. O, əmrə tabe olan ilk mücahidlik örnəyi və döyüşə hazırlanan ilk şəxs idi.[1]

Təyy qəbiləsində Ədiyyin itaətində olan min döyüşçü var idi. [2] Xətiblərdən bir neçəsi də ürəklənib imam Həsənin hüzurunda onun kimi danışdılar. İmam onlara belə buyurdu: «Allahın rəhməti üzərinizdə olsun! Mən həmişə sizi xoşniyyətli, sadiq bir dost bilmişəm. Allah sizə xeyirli mükafatlar versin!»

Sonra əmisi oğlu Muğeyrə ibn Nofəli (ibn əl-Haris ibn Əbdül-Müttəlib) Kufədə öz yerində qoydu və camaatı Nuxeyləyə getməyə rəğbətləndirməyi ona göstəriş verdi. Daha sonra tərəfdarları ilə birlikdə şəhərdən çıxdı. Cihad elan etdiyi gün İmamın düşərgəyə getməyi, xalqı səfərbər etmək üçün son dərəcə təsirli bir üsul idi.

Nuxeylədəki qoşunu özünün və atasının ixlaslı səhabələri və şiələri, eləcə də müxtəlif dəstələr təşkil edirdi. Muğeyrə ibn Nofəl də böyük həvəslə xalqı Nuxeyləyə getməyə rəğbətləndirirdi.

Beyət həftəsinin təntənəli şənlikləri hamıda bu təsəvvürü yaratmışdı ki, Kufədə bir nəfər belə İmam Həsənin (ə) dəvətini rədd etməyəcək və istisnasız olaraq hamı düşərgəyə gedəcəkdir. Təəssüf ki, bu təsəvvür reallaşmadı! Hətta Əmirəl-möminin Əli (ə) şəhadətindən bir qədər əvvəl Şama hücum üçün hazırladığı və sayı 40 min nəfərə çatan təchizatlı alaylar belə vəhdət və birliklərini itirmiş, əksəriyyəti əmrdən çıxmış və Kufədəki əlisilahlıların çoxu da itaətsizlik və süstlükdə onlara qoşulmuşdularlar. Kufənin ikiüzlü və riyakar başçıları, əməl vaxtı gəldiyi o həssas anda hər zamankından daha çox fəaliyyət göstərirdilər. Bu tarixi hadisənin şahidi olan Haris Həmədəni belə nəql edir: «Düşərgəyə getmək istəyənlər Həsən ibn Əli ilə birlikdə hərəkət etdilər. Camaatın böyük hissəsi isə şəhərdə

[1] «Nəhcül-bəlağənin şərhi» cild 4, səh. 14.
[2] «Tarixi-Yaqubi», cild 2, səh: 171.

qaldı. Onlar əhd-peymanlarına vəfa göstərmədilər və onu da, atası Əmirəl-möminin kimi aldatdılar...

İmam Nuxeylədə 10 gün gözlədi. Bu müddət ərzində onun ətrafına ancaq 4 min nəfər toplandı. Bax, elə bu səbəblə xalqı döyüşə səfərbər etmək üçün Kufəyə qayıtdı və orada «Məndən əvvəlki xəlifəni aldatdığınız kimi, məni də aldatdınız....» məzmunlu xütbəsini oxudu.[1]

Bu xütbəsindən sonra orduya qatılanların sayı dəqiq bilinmir. Sadəcə bunu bilirik ki, İzzəddin ibn Əbil-Hədid Mötəzilinin «Nəhcül-bəlağənin şərhi» kitabında dediyinə görə, Kufədən böyük ordu hərəkət etdi. Biz «Qoşunun sayı» bölümündə İmam Həsənin qoşununun sayı haqqında tarixçilərin fərqli nöqllərini araşdıracağıq.

İmam, Nuxeylədən Deyri-Əbdur-Rəhman adlı məkana doğru hərəkət etdi bə orada 3 gün qaldı. Yenə də sayı məlum olmayan bir dəstə də orada onlara qatıldı. Deyri-Əbdur-Rəhman, İmam Həsənin (ə) Mədain[2] və Məskindəki[1] iki ordugahına gedən yolayrıcında yerləşirdi.

---

[1] Səid ibn Hibədullah Rəvəndi: «Əl-Xərayicu vəl-cərayih» səh. 228 (İran nəşri).

[2] Bu şəhər Sasanilərin min illik paytaxtı və Babilin əzəmətinin mirası idi. Bu gün isə Kəsra alaqapısı və Rəsulullahın (ə) böyük səhabəsi Salman Farsinin məzarından başqa orada bu əzəmətli şəhərdən heç bir iz qalmamışdır. Mədain, Dəclə çayı kənarında bir-birinə yaxın 7 şəhərdən ibarət idi. Müsəlmanların hicrətin 15-ci ilində fəth etdikləri bu şəhər o dövrdə bütün İranın paytaxtı idi. Bu 7 şəhər bunlardan ibarət idi: Qərbdən Şahruda bitişik «Müzləmi-Sabat» nahiyyəsində «Sülukiyyə», «Dərzican», «Vəh Ərdəşir» və «Cəndişapur» (Kulə) şəhərləri, şərqdən «İspanir», «Rumgan» və «Tisfun» (Mədainin mərkəzi) şəhərləri.

Mədain, hicri 150-ci ildə Bağdad şəhərinin qurulması nəticəsində viranəyə dönməzdən əvvəl, fəthindən sonra 100 ildə artıq bir müddət ərzində abad bir yer idi. Bu, müddət ərzində Kufə, müsəlman olan iranlı kölələri Kufəyə göndərməklə onu sənaye və ərzaq məhsullarından, həmçinin xəzinəsindən istifadə edirdi. Salman Farsinin Mədaində valiliyi vaxtında bu şəhərin əhalisi Əhli-beyt davamçıları oldular. VII əsrə qədər də orada daim ixlaslı və fəal şiələr yaşayırdı.

İmam Həsən üçün bu iki düşərgənin müxtəlif əhəmiyyəti var idi.

a) «Mədain», İraqı Fars və ondan sonra yerləşən şəhərlərə bağlayan yolun başlanğıcında yerləşirdi. Coğrafi mövqe baxımından Kufə, Bəsrə və İran yolları təkcə bu nöqtədə kəsişirdi. Hərbi əhəmiyyət baxımından da döyüş vəziyyətində strateji nöqtə idi. İran isə daim təhlükəli partlayışlara məruz qalırdı. İmam Həsən Ziyad ibn Übeydi oraya vali təyin etmişdi. O, hələ ki, hər şeyi dəyişdirən rəzilliyə düçar olmamışdı.

b) «Məskin»ə gəlincə, ora İmam Həsənin cihadı tarixində həssas bir nöqtə idi. Çünki İmam Həsən orada düşmənlə qarşı-qarşıya dayandı. O dövrdə bu məntəqə Bəni-Haşim hökümətinin mərkəzi sayılan Kufənin tabeliyində olan məntəqələrin şimal sərhəddi idi.

Məskin bölgəsində səfalıq, abad, çoxsaylı cəmiyyəti olan kəndlər var idi. Bu kəndlər arasında Əvana və Əkbəranı misal göstərmək olar. Şimalda ən son yaşayış məntəqəsi olan «Əl-Aləs» [2] və onunla üzbəüz «Əl-Cənubiyyə» kəndi yerləşirdi. Müaviyə ordusu ilə Cisri-Mənbici keçdikdın sonra ora endi və iki qoşun burada qarşı-qarşıya dayandılar. O günkü Məskinin ərazisi bu gün Samira yaxınlığındakı düzənlik olduğu güman edilir. Bu məntəqə, bol məhsulu, bir-birinə yaxın su məntəqələri və geniş düzənliklərinə görə abad və zəngin bir bölgə idi. Elə bu səbəbdən də döyüş üçün uyğun yer sayılırdı. İmam Həsənlə

---

Şeyx Əbül-Həsən Əli ibn Hüseyn Məsudi İraq barəsində danışarkən bu şəhərlərə işarə edərək belə yazır: «İraqın şəhərləri Mədain və onun tabeliyində olan şəhərlərdir. Bu şəhərin xalqı ən gözəl rəngə, ən gözəl iyə, ən gözəl xislət və ən yaxşı dərrakəyə, üstün fəzilətlərə və ən bəyənilən cəhətlərə sahib idilər...»

[1] Məskin, bir məntəqənin arıdır və Duceyl çayı sahilindəki səfalı və bağlı-bağatlı «Əvana» kəndi bura tabedir. Hicri VI əsrin şairlərindən olan Əbül-Fərəc Səvadinin şeirində də bu bölgəyə işarə edilmişdir.

[2] Məvərdi «Əl-Əhkamus-sultaniyyə» adlı əsərində Həməvidən belə rəvayət edir: «Ələs, bu tərəfdən İraqın başlanğıc nöqtəsidir».

Ələs, Əkbər ilə Samiranın arasında yerləşir. Əkbər isə, Əvana yaxınlığındakı Duceyl bölgəsində bir kənddir.

Müaviyə arasında baş verən döyüş bu bölgənin tarixində ilk döyüş idi. Lakin ondan sonra bu bölgədə İraq və Şam arasında çox hadisələr baş verdi.

İmam Həsən, Mədaini, strateji mövqeyinə görə baş qərargah etmək qərarına gəldi. Beləcə, həm köməkçi qüvvələrin bura yaxın üç bölgədən gəlib orada toplaması təmin olunurdu, həm də Müaviyə və Şam ordusu ilə döyüşdə bu yer arxa cəbhə hesab olunacaqdı. Bəni-Haşimin bu iki düşərgəsi (Mədəni və Məskin) bir-birindən təxminən 90 km aralı idi. Bu, o gün üçün analoq olmayan maraqlı bir döyüş taktikası idi.

Beləcə, İmam Həsən hazırladığı bu döyüş planı ilə zəmanəsinin müharibə taktikalarını çox yaxşı bilən agah və tədbirli sərkərdə olduğunu nümayiş etdirdi. İstər uyğun zamanın və fürsətlərin seçimində, istərsə də ordunun hərəkət etdirməkdə İmamın sonrakı addımları, siyasət, ixlas, fədakarlıq və s. üstün xüsusiyyətlərə sahib olduğu kimi, hərbi taktikaları da tamamilə yiyələndiyini göstərirdi.

İmam Həsən ibn Əli, Məskinə öndə göndərmək istədiyi qoşuna sərkərdə seçmək üçün sağa-sola nəzər saldı və diqqətlə ətrafına toplanan şiənin qabaqcılları və sülaləsinin başçılarının üzlərinə baxdı. Onlar arasında üç nəfər diqqətini cəlb etdi. Onlar imama yardım etmək üçün hamıdan çox can atırdılar və bu üç nəfər Übeydullah ibn Abbas,[1] Qeys ibn Səd ibn Übadə və

---

[1] «İrşadi-Mufid» səh. 170; «Nəhcül-bəlağənin şərhi» cild 4, səh. 14 və «Tarixi-Yəqubi» cild 2, səh. 191.
Başqa bir tarixçi onun Abdullah ibn Abbas, yəni Übeydullahın qardaşı olduğu söyləmişdir, lakin bu, doğru deyildir. Çünki Abdullah, Həsən ibn Əlinin xilafəti dövründə Kufədə deyildir. O, bu vaxt ərzində Məkkədə yaşayırdı və orada İmam Həsənə məktub yazıb döyüşü ona məsləhət görmüşdü. Bu məktub olduğu kimi İzzəddin ibn Əbil-Hədid Mötəzilinin «Nəhcül-bəlağənin şərhi» kitabının 4-cü cildinin 8-9-cu səhifələrində qeyd olunmuşdur.
Əgər Abdullah Kufədə olsaydı, o vaxtlarda baş verən hadisələrdə onun adı mütləq hallahardı. Məhəmməd ibn Cərir Təbəri «Tarix» kitabının 6-cı cildinin 81-ci səhifəsində yazır: «Bu ildə (hicrətin 40-cı ili) bütün tarixçilərin söylədiyinə görə, Abdullah Bəsrədən çıxaraq Məkkəyə getdi. Bəziləri bunu rəd edərək Əmirəl-möminin Əlinin (ə) şəhadətinə qədər o Həzrətin təyinatı ilə

Kufədəki yəmənlilərin başçısı Səid ibn Qeys əl-Həmadani idi. Beləliklə, öndə gedən qoşuna sərkərdəliyini ardıcıllıqla bu üç nəfərə həvalə etdi.

Übeydullah ibn Abbas, macəra axtaran və dünya həyatına könül bağlayan bir insan idi. Dəyanətli, inancı bir tərəfdən və qiblə təəssübkeşliyi də digər tərəfdən onu təhrik edərək Bəni-Haşim hakimiyyətinin müdafiəsində polad bir silaha çevirmişdir. Bu, heç də təəccüblü hal deyil; çünki onun özü də Bəni-Haşimin başçılarından biri idi. Əbəs yerə deməmişlər: «Dərdi olanın çəkdiyi ah, adama təsir edər...»[1]

Onun parlaq keçmişi haqqında bunlar qeyd edilmişdir: Hicri 36 (İbn Həcər Əsqəlaninin İsabədə rəvayət etdyinə görə) və ya 39-cu ildə (Təbərinin rəvayətinə görə), ya da hər iki ildə həcc karvanının başçısı olub. Həzrət Əlinin dövründə bir dəfə Bəhreynin və bir dəfə Yəmən və onun ətraf məntəqələrində İmamın məmuru olub».[2]

---

Bəsrədə və Əlinin şəhadətindən sonra da Həsən ibn Əlinin sülh müqaviləsinə qədər orda qaldığını, sonra Məkkəyə getdiyini güman edirlər».

Xeyr, o, Bəsrədə də deyildi. Əgər orada olsaydı, İmam Həsənin Mədaində döyüşçü qüvvəsinə həddən artıq ehtiyac duyuduğu anda Bəsrə qüvvələri gecikməzdi. İbn Əsir Cəzri ibn Məhəmməd «Tarix» kitabının 3-cü cildinin 166-cı səhifəsində də Abdullah ibn Abbasın Əmirəl-möminin Əlinin sağlığında ondan ayrıldığını vurğulayır. Çox güman bu səhv iki qardaşın adlarının yazılışındakı bənzərlikdən və atalarının bir olmasından qaynaqlanır.

Bəzilərinin yol verdiyi başqa bir səhv də budur ki, öndə gedən qoşunun sərkərdəsinin Qeys ibn Səd olduğunu düşünürlər. Lakin (İbn Əsrin də açıq şəkildə bəyan etdiyi kimi) Qeys, bu öndə gedən qoşunun sərkərdələrindən biri olub.)

[1] Orjinal mətndəki «və ləysətis səkla kəl-mustəcəri» ifadəsinin sinonimi olaraq seçilmişdir. (Mürtəcim)

[2] Bəziləri, Yəmən hadisəsini nəzərə alaraq, Müaviyənin göndərdiyi ordu qarşısında tab gətirə bilməyib Yəməndən çıxdığına görə Übeydullahın keçmişini sual altına salmaq istəyiblər. Lakin etiraf etmək lazımdır ki, həqiqətən, o dövrdə Yəmənin qərargahı Busr ibn Ərtatın hücumu qarşısında mübarizə aparmaq üçün zəif idi. Yəmənlilərin bir qisminin bəni-Haşimin hökumətindən ayrılması, Müaviyəyə məktub yazıb əmrlərə Səid ibn Nəmranı ordudan qovmaları və valiləri Übeydullaha düşmənçilikləri onun bu ittihamlardan uzaq olduğunu göstərir. Əgər Übeydullah o hadisədə Busr ibn

Hacıların şahidliyinə görə, Məkkədə əliaçıq və cömərd bir kişi idi. Bütün bunlardan başqa, o, xalqı İmam Həsənə beyət etməyə dəvət edən ilk şəxs idi. Beləliklə, əmisi oğlu İmam Həsən ona etibar etməsinə və onun tərəfindən öndə qoşuna sərkərdə seçilməyə layiq idi. [1]

---

Ətratın qarşısında müqavimət göstərsəydi, Osmanın Yəməndəki tərəfdarları onun işini bitirər və artıq Busra ehtiyac qalmazdı!

Bundan əlavə, Übeydullah, ondan əvvəl Məkkə və Mədinə valilərinin hərəkətini təkrar etmişdi; onlarda Bursun qabağından qaçmış və nəticədə Müaviyənin göndərdiyi həmin adam, bu ən böyük şəhərə hücum edərək o bölgənin dinc əhalisindən 30 min müdafiəsiz insanı öldürmüşdü.

Bildiyiniz kimi, Übeydullah, Yəməndən çıxaraq Kufəyə getmişdi. Əgər o, xəyanət etmək istəsəydi, heç şübhəsiz, Kufəyı getməzdi.

Həmçinin məlum olduğu kimi, Səid ibn Nəmran Həzrət Əlinin hüzurunda özünə haqq qazan dırmaq üçün demişdi: «Mən xalqı (Yəmənliləri) döyüşə çağırdım. Az bir kütlə çağırışımı qəbul etdi və zəif döyüş apardıq. Döyüşçülər ətrafımdan dağıldığı üçün mən də geri çəkildim». Sizcə, İbn Nəmranın başına gələnlər, İbn Abbasa bəraət qazandırmırmı? Deməli, onun keçmişini sual altına salmaq doğru deyil! Həmçinin, İmam Həsənin, onun keçmişinə etibar etdiyi üçün bu məqama seçməsinə təəccüblənmək lazım deyil!

[1] «Nəhcül-bəlağənin şərhi», cild 4, səh. 14; «İrşadi-Mufid», səh. 168-169; «Tarixi-Yəqubi», cild 2, səh. 191.

Tarixçilər arasında üçüncü sərkərdənin adını qeyd etməyən yalnız Yəqubidir. Yəqubi deyir: «İmam Həsən, Übeydullaha, Qeys ibn Sədin fikir və nəzərinə əməl etməyi əmr etdi. Übeydullah adaya doğru (Beynənnəhreyni nəzərdə tutur) hərəkət etdi. Müaviyə də Həzrət Əlinin şəhid edildiyi xəbərini eşitdikdə, hərəkət etdi və onun şəhadətindən 18 gün sonra Mosula çatdı. Burada iki qoşun qarşılaşdı...»

Burada adı gedən Mosul, Yaqut ibn Abdullah Rumi Həməvinin «Mucəm» kitabında işarə etdiyi kimi, İmam Hadinin (ə) oğlu Seyid Məhəmmədin türbəsinin yerləşdiyi «Məskin»ə tabe bir yerin adıdır. Bu hazırkı Mosul şəhəri deyildir.

Müaviyənin ordusunun məskən saldığı yer haqqında Yəqubi ilə digər tarixçilər arasında bir ixtilaf yoxdur. Çünki Mosul, Heyuzə və Cənubiyyə Məskinin kəndləri idi. Mümkündür ki, Müaviyənin ordusu bütün bu kəndləri işğal etmiş və tarixi rəvayətlərin hər birində bunlardan birinin adı qeyd edilmişdir. Bizim burada təkcə «Cənubiyyə»nin adını çəkməklə kifayətlənməyimizin səbəbi, Qeys ibn Sədin İmam Həsənə yazdığı məktubda (yeri gəldikdə, geniş şəkildə açıqlayacağıq) bu məkanının adının çəkilməsidir.

İmam Müctəba (ə) onu çağıraraq təfəruatı ilə bizə çatmayan və yalnız bəzi mənbələrdə müxtəsər şəkildə bəyan olunan bir əmrnamə verdi. Bu əmrnamədə belə yazılmışdır: «Ey əmim oğlu! İndi mən ərəb süvariləri və şəhərin dindarlarından 12 min nəfəri səninlə birlikdə göndərirəm. Onlardan biri, bir qoşuna bərabərdir. Onları hərəkət etdir və onlara qarşı xoşrəftarlı, gülərüz və sözün əsl mənasında genişqəlbli ol. Onlarla ünsiyyətdə ol, çünki onlar Əmirəl-möminin Əlinin həyatda qalan bir rəng (ikiüzkü və münafiq olmayan) səhabələrdir. Onları Fəratın sahilinə apar və sonra Müaviyə ilə rastlaşana qədər irəlilə. Müaviyə ilə qarşılaşdığın zaman, mən sizə çatana qədər, onu gözlət. Mən də qısa bir müddət sonra sənin arxandan hərəkət edəcəm.

Hər günün xəbərini mənə çatdırmalısan! İşlərində bu iki nəfərlə - Qeys ibn Səd və Səid ibn Qeyslə məşvərət et! Müaviyə ilə qarşılaşdıqda, o, döyüşə başlamamış sən başlama! Əgər o başlasa, bu halda sən də döyüş! Əgər səni öldürsələr, qoşunun sərkədəsi Qeys ibn Səd olacaq. O da öldürülərsə, sərkərdə Səid ibn Qeysdir».

Gördüyünüz kimi, İmam Həsən bu əmrnamədə diqqəti Übeydullahdan daha çox səhabələrə yönəltmiş və onların qeydinə qalmışdır. Həm onları mədh edib cəsarət və igidliklərini tərifləmiş, həmdə atası Əmirəl-möminin Əliyə nisbət vermişdir. Bu sözlərdə imamın məqsədi, onun mənəviyyatını yüksəltmək, onları çılğınlaşdırmaq və hisslərini oyatmaq idi. Sonra sərkərdəsinə səhabələrə qarşı xoşrəftar, gülərüz və onlarla ünsiyyətdə olmağı əmr edir. Bu təlimlərdə məqsəd isə sərkədələrlə əsgərlər arasında qarşılıqlı etimadın yaranmasıdır. Bu etimad, müasir hərbi taktikaların olmadığı bir müharibədə «qara günlər»in yeganə ümid yeri və çox mühüm bir qüvvədir.

Gördüyünüz kimi, İmam Həsən sərkədəsinə etdiyi tövsiyədə eyni məzmunlu dörd cümləni ardıcıl olaraq işlətmişdir. Sizcə, bu təkrarlamada İmamın məqsədi sərkərdəliyə yeni başlayan Übeydullahın sahib olduğu xarakteri islah etmək deyildimi? Çünki bu qoşunda Übeydullahın ətrafında fərqlənən və parlaq

keçmişləri olan bir çox şəxsiyyətlər var idi. Onlar məqam, mövqe, cihad təcrübəsi, təqva və yaşda [1] özlərindən üstün olmayan bu gənc Haşimi sərkərdənin sərtlik və kobudluğunu, yersiz əmr və qadağaların həzm edən və bu rəftarlara güzəşt edən insanlar deyildilər.

İmam Həsənin «Bu iki nəfər ilə məşvərət et» göstərişi, onun əmisi oğlunda xəbərdar və onun zəfərinə bir manrə olan biləcəyindən nigaran olduğu, kobud və sərt xarakterin mövcudluğunu göstərən başqa bir əlamətdir.

Lakin bilməliyik ki, sərkərdə üçün zəruri olan çox sayda digər xüsusiyyətlərə sahib olduğuna görə Übeydullahın bu sərt və kobud xasiyyəti - bu ehtimal olduğu halda - komandanlığın ona verilməsinə maneə sayılmamalıdır. Bundan sonra başqa, «sərtlik və kobudluq»la «hərbiçilik» arasında sıx bir əlaqə vardır.

İndi isə qarşıya belə bir bu sual çıxır ki, görəsən, İmam Həsən, hərbi təcrübəsi, etibarı və Rəsulullahın Əhli-beytinə olan itaətkarlığı hamıya məlum olan Qeys ibn Səd ibn Ubadə kimi bir şəxs olduğu halda, nə üçün ön qoşununun sərkərdəliyini Übeydullaha verdi? Bu suala bir neçə cavab verə bilərik:

1. İmam Həsən Übeydullaha verdiyi əmranamədə Qeys ibn Səd və Səid ibn Qeyslə məşvərət etməyi göstəriş vermiş və beləcə, komandalığı Übeydullahdan inhisar olmaqdan çıxarıb qoşununun ən ləyaqətli üç şəxsdən ibarət bir şura halına getirmişdi.

Başqa tərəfdən əgər İmam Həsən (ə) qoşununun sərkərdəliyinə birbaşa Qeysi seçib bu iki sərkərdə və ya digər dost və sərkərdələrdən önə keçirsəydi, qoşundakı başqa ləyaqətli insanların qısqaclığına səbəb ola bilərdi. Çünki bu orduda Əbu Əyyub Ənsari, Hücr ibn Ədiyy, Ədiyy ibn Hatəm və bir qədər irəlidə adı çəkilən olanlar kimi mübarizliyi, sərkərdəliyi, ixlas və fədakarlığı, bir sözlə parlaq keçmişi dillərdən dastan olan sayda seçilən insanlar var idi. Bax, bu səbəbdən İmam Həsənin öz

[1] Übeydullah ibn Abbas bu ordunun baş rəhbəri secildiyi gün 39 yaşında idi.

əmisi oğlunu - O, Rəsullahın (s) da əmisi oğlu idi - sərkərdə seçib digərlərindən önə keçirməsi, sonra Qeys və Səidin fikirlərindən yararlanmağı ona tövsiyə etməsi, hər cür ixtilaf və qisqanclığın qarşısını alan ağıllı bir hərəkət idi.

2. O dövrün ümumi vəziyyətini nəzərə alaraq söyləyə bilərik ki, İmam Həsən (ə) ordu başçılarının ancaq Bəni-Haşimdən seçilməsi ehtiyat nöqteyi-nəzərindən ən düzgün bir hərəkət idi. Belə ki, Kufə əhlinin, İmam Həsənin xilafətinin ilkin çağlarında zahirə çıxan süstlük və dönüklüyü işin nəticəsi haqqında yetərincə ümidsizlik yaratmışdı. Buna görə də İmam Həsən, gələcəkdə eyib axtaranlar tərəfindən qınanmaq və özünə haqq qazandırmaq üçün zəruri gördüyü hər bir tədbiri həyata keçirməli idi.

Xalqın, məğlubiyyətə səbəb ola bilən kiçik bir səhvi müşahidə etməsi və ya əhəmiyyətsiz bir bəhanə tapması İmam Həsən (ə) etiraz atəşinə tutmaları üçün kifayət idi. Heç şübhəsiz, İmam Həsən Məskində məğlubiyyətə uğradıqda bəziləri «Əgər ordunun başçısı Bəni-Haşimdən olsaydı, çətinliklə qarşısında digərlərindən daha çox əzm və səbir göstərər və iş bu yerə gəlib çıxmazdı» deyəcəkdir. Bu halda, ehtimal verilən iradların qarşısını əvvəlcədən almaq, yəni Bəni-Haşimdən bir nəfəri ordu başçısı seçmək çox dəqiq bir tədbir idi.

3. Şübbhəsiz, Übeydullah ibn Abbasdan başqa heç kəs - nə Qeys, nə Səd və nə də digərləri - Müaviyəyə qarşı o qədər qəzəbli və barışmaz deyildi. O, iki gənc oğlunun, Müaviyənin Yəmən üzərinə göndərdiyi ordu başçısı Busr ibn Ərtat tərəfindən faciəli şəkildə qətlə yetirdiyi (bu mövzu tarixin ən məhşhur hekayələrdən biridir) bir ata idi. Beləliklə, bu qəzəbli və qəlbinə dağ çəkilən sərkərdənin, övladlarının qatili ilə döyüşə gedən bir orduya başçı təyin edilməsi, həqiqətən, çox düzgün bir seçim idi.

4. Übeydullah sərkərdə təyin edildiyi ön qoşunun döyüşçülərinin böyük bir qismi, Əmirəl-möminin İmam Əli (ə) şəhid olmazdan öncə şamlılarla müharibə üçün topladığı böyük bir ordudan qalan şəxslər təşkil edirdi.

Qeys ibn Səd Həzrət Əlinin (ə) dövründə o böyük ordunun sərkərdəsi idi.[1] Mümkündür ki, belə bir iqtidarlı sərkərdə istədiyi vaxt öz ideallarını həyata keçirib baş komandanın əmrini gözləməsin. Bu məsələ, o şəraitdə ən əhəmiyyətli məsələ olaraq nəzərə alınmalı idi. Qeys, böyük ehtirama laiq olsa da, onun bəzən hisslərə qapılıb yol verdiyi özbaşınalığına laqeyd yanaşmaq olmazdı. Unutmamalıyıq ki, Qeys Məskindəki ordunun sərkərdəsi keçən kimi döyüşçülərin arasında dayanıb onları bu iki seçimdən birinə çağırdı: ya İmam Həsənin (ə) bağladığı sülh yolunu seçmək, ya da İmam Həsən olmadan Müaviyə ilə döyüşmək! Beləliklə, sərkərdəliyin belə bir adama həvalə edilməməsi, lakin eyni zamanda onun döyüş barədə məlumat və təcrübəsində yararlanmaq üçün hərbi müşavir təyin edilməsi düzgün bir tədbiq idi. İmam Həsən də belə etdi. Bunu da qeyd edək ki, Qeysin sərkərdə canişini – yəni Übeydullah öldürüldükdə ikinci sərkərdə olaraq seçilməsinin, bu siyasətdə heç bir ziddiyyəti yoxdur. Çünki birinci sərkərdə öldürüldükdən sonra ikinci sərkərdənin tutduğu qərarlara əvvəlki sərkədənin tutduğu qərarlara bağlı, başqa sözlə desək, təyin olunan döyüş taktikasının davamıdır. Bu qərar və taktikaları dəyişmək o qədər də sadə bir iş deyil. Çox güman ki, dəyişiklik baş verənə qədər işlər İmamın (yəni baş komandanın) öz nəzarəti altına keçəcəkdi. Çünki bir qədər əvvəl qeyd etdiyimiz kimi, İmam, tezliklə ön qoşununa yetişəcəyini bildirmişdi. Bu halda Qeysin ikinci sərkərdə olaraq seçilməsinin heç bir maneəsi yoxdur.

## QOŞUNUN SAYI

Hicrətin I əsrinin ortalarında Kufə ordusunun rəsmi sayı 40 min nəfər idi.[2] Onlardan hər il 10 min nəfəri cihadda iştirak

[1] «Tarixi İbn Kəsir» cild 8, səh. 14 və s.

[2] «Döyüş qərarı» adlı bölümün sonunda, Kufə ordusunun sayı 90 bə ya 100 min nəfər olduğu, (iki fərqli rəvayətə görə) qeyd olunmuşdur. Bu rəqəm isə yuxarıdakı rəqəmlə uyğun gəlmir. Lakin bir qədər sonra görəcəksiniz ki, 90 və ya 100 min ədədi, yalnız Yəqubi və Əbu Məhəmməd ibn Müslim ibn

edirdi (Bu rəqəm, etibarlı qaynaqlarda qeyd edilmişdir). Əvvəldə qeyd etdiyimiz kimi, Əmirəl-möminin İmam Əlinin (ə) Şama hücum üçün tədarük gördüyü ordunun sayı (iki fərqli rəvayətə görə) 40 və ya 50 min nəfər idi. Lakin İmam Əli (ə) bu döyüşü başlamamazdan əvvəl şəhid oldu. Böyük ehtimalla ordunun bir qismini beytül-maldan maliyələşən Kufə ordusunun rəsmi əsgərlərinin təşkil etməsi güman edilir.

İmam Həsən cihad hökmü verdiyi vaxt isə bu iki ordunun (Kufənin rəsmi ordusu ilə Həzrət Əlinin (ə) Şama hücum üçün hazırlaşdığı ordu) vəziyyəti haqqında bundan başqa bir məlumat yoxdur. Təkcə bunu bilirik ki, İmam Həsənin (ə) Məskinə, Müaviyənin qarşısına göndərdiyi ön qoşunun sayı, bir çox tarixi qaynaqlara görə, 12 min nəfər idi. Güman olunur ki, onlar, Həzrət Əlinin Müaviyə ilə döyüşmək üçün tədarük gördüyü ordunun İmam Həsənin dəvətini qəbul edən əsgərləri idi. Qalanları isə İmam Həsənin dəvətini qəbul etməmişdilər. Yenə digər tarixi qaynaqlarla göstərilir ki, Kufə əhlinin cihada qarşı laqeydliyi və süstlüyü qəfil tam əksinə oldu və 4 min nəfər döyüşcü meydanına yollandı.[1]

Deməli etibarlı tarixi sənədlərə söykənərək İmam Həsənin (ə) ordusunun 16 min nəfərə çatdığını söyləyə bilərik.

Tarixi qaynaqlarda yəginlik və ehtimal ilə göstərilən digər mübahisəli rəqəmlər də mövcuddur. Burada biz bu tarixi sənədləri olduğu kimi nəzərimizdə çatdırıb və sonra digər bir şəkildə araşdırma aparaq:

**1. Axund Molla Məhəmməd Baqir Məclisi İsfahani:** «...Daha sonra İmam Həsən, 4 min nəfərlik qoşunu bir sərkərdənin başçılığı ilə Müaviyənin üzərinə göndərdi. İmam (ə) Kində qəbiləsindən olan bu sərkərdəyə, Ənbar şəhərində [2]

---

Qüreybə ibn Əmr Bahili Dinəvərinin rəvayətində qeyd alınmışdır. Ancaq bu rəqəm müəllifin nəzəri və bu bölümdə apardığı araşdırma ilə üst-üstə düşmür. (Mürtəcim)

[1] «Əl-Xərayicu vəl-cərayih» səh. 228.

[2] Bağdadın qərbində Fərat sahillərində, təxminən 65 km uzaqlıqda yerləşən bir şəhərdir. Bu şəhərin «Ənbar» adlandırılmasının səbəbi, budur ki,

yerləşməyi və mərkəzdən bir sərəncam almayana qədər heç bir iş görməməyi əmr etdi. Bu sərkərdə Ənbar şəhərinə çatdıqda, Müaviyə xəbətdar olub ona elçiləri ilə belə bir məzmunda məktub göndərdi: *«Əgər mənim tərəfimə keçsən, tezliklə səni Şam və Cəzirə (İraq) bölgələrində bir neçə əyalətin valisi edərəm»* Müaviyə ona 500 min dirhəm pul da göndərdi.

Kindəli sərkərdə bu pulları alaraq İmam Həsənin (ə) planlarını alt-üst etdi və dost və əqrəbalarından 200 nəfərlə birlikdə Müaviyənin ordusunda qatıldı. Bu xəbər İmam Həsənə çatdıqda, o, bu nitqi söylədi: «O Kindəli kişi Müaviyəyə tərəf keçərək mənə və sizə xəyanət etmişdir! Mən dəfələrlə sizin vəfasız və dünya qulları olduğunuzu söyləmişəm. Mən indi başqa bir şəxsi onun yerinə göndərirəm. Amma bilirəm ki, o da mənə və sizə qarşı eyni cür davranacaq və Allahı nəzərə almayacaq».

Sonra Murad qəbiləsindən bir nəfərin başçılığı ilə Ənbara 4 min nəfərlik qoşun göndərdi və oradakıların qarşısında ona tapşırıqlar verdi. Bildirdi ki, o da Kəndəli şəxs kimi xəyanət edəcəkdir. Murad qəbiləsindən olan bu sərkərdə dağları sarsıdan bir and-amanla o xain kimi rəftar etməyəcəyini söyləsə də, İmam Həsən onun tezliklə xəyanət edəcəyini bildirdi.

Murad qəbiləsindən olan bu sərkərdə Ənbar şəhərinə çatdıqda, yenə Müaviyə elçilərini göndərərək, əvvəlki kimi məktublar yazdı və 5 min dirhəm (böyük ehtimalla 500 min dirhəm) göndərərək, Şam və Cazirə ayələtlərinə hakim olmaq arzusunu onun da qəlbinə saldı... Bu sərkərdə də nəfsi qarşısında tab gətirmədi... İşləri alt-üst edərək, etdiyi o qədər and-amanı unudub, Müaviyənin ordusuna yollandı...»[1]

---

iranlıların müstəmləkəsi olduğu dövrdə onların bütün buğda və arpa anbarların burda yerləşirdi. Abbasi xəlifəsi Əbdül-Abbas Səffah həyatının sonuna qədər bu şəhərdə yaşadı və burada saray və malikanələr tikdirdi. Lakin bir müddətdən sonra şəhər xarabalığa çevrildi.

[1] «Biharul-ənvar» cild 10, səh. 110.

Məclisi, bu hadisəni nəql etdikdən sonra İmam Hüseynin (ə) Nuxeylədə yerləşdiyini və sonra da oradan hərəkət etdiyini qeyd edir.

**2. İzzəddin İbn Əbil-Hədid Mötəzili:** «Camaat şəhərdən çıxıb düşərgəyə getdi və hərəkət etməyə hazırlaşdı. Həsən ibn Əli düşərgəyə gəldi və Müğeyrə ibn Nofəl (ibn Hərs ibn Əbdülmüttəlib) Kufədə öz yerində təyin etdi. Ona tapşırdı ki, xalqı cihada ayağa qaldırıb düşərgəyə yollasın. O da xalqı ayağa qaldırıb düşərgəyə göndərdi. Nəhayət, böyük bir qoşun yarandı. Bu vaxt Həsən ibn Əli bu böyük təchizatlı qoşun ilə hərəkət etdi. Dəyri-Əbdur-Rəhmana çatdıqda, arxadan gələnlərin çatması üçün 3 gün orada gözlədi. Sonra Übeydullah ibn Abbası çağıraraq dedi: «Ey əmim oğlu! İndi ərəb süvarilərindən və şəhərin dindarlarından 12 min döyüşçü səninlə birlikdə göndərirəm».[1]

**3. Zühri**, Hafiz Əbu Cəfər Məhəmməd ibn Cərir Təbərinin (ö/t: hicri-qəməri 310-cu il) Tarix kitabına əsasən belə rəvayət edir: Müaviyə, Übeydullah ibn Abbas və Həsənin (ə) işindən xəbərdar olduqda bütün səyini bir nəfəri aldatmağa yönəltdi. Çünki onu aldatmaq çox əhəmiyyətli idi. O, 40 min əsgərə başçılıq edirdi. Müaviyə, Əmr və Şam xalqı onunla qarşı-qarşıya dayanmışdır».[2]

**4. Müseyyib ibn Nəciyyə**[3]:

(Bu sözlər İzzəddin İbn Əbil-Hədid Mötəzilinin nəqlinə görə, Əbül-Həsən Mədainidəndir[4]): «...Müseyyib ibn Nəciyyə, İmam Həsənə (ə) dedi: «Hər zaman sənə təəccüb edirəm ki, 40

---

[1] «Nəhcül-bəlağənin şərhi» cild 4, səh. 14.

[2] «Nəhcül-bəlağənin şərhi» cild 6, səh. 94.

[3] Tarixçilərdən bir qrupunun rəyinə görə, o, sülh imzaladığı üçün İmam Həsəni (ə) qınamışdır.

[4] O, Əbül-Həsən ibn Məhəmməd ibn Übeydullah ibn Əbu Seyfdir. Əsli Bəsrədən olub, Mədaində yaşamışdır. Sonra Bağdada köçüb, hicri 215-ci ildə orada vəfat etmişdir. İzzəddin İbn Əbil-Hədid Mötəzili: «Nəhcül-bəlağənin şərhi» kitabında onun barəsindıı ətraflı danışmışıq. Onun müxtəlif mövzularda təlif etdiyi 200 əsəri vardır. Allah ona rəhmət eləsin!

min nəfərlik bir orduya sahib olduğu halda Müaviyə ilə sülh bağladın!»[1] (Və ya başqa bir rəvayətə görə, «beyət etdin»)

**5. İbn Əsir Cəzri Əli ibn Məhəmməd:** «Əli ibn Əbu Talib Şam haqqında verdiyi xəbərlər doğru çıxdıqdan sonra, Əlinin silahdaşlarından 40 min nəfər cihad üçün ona beyət etdilər. Həzrət Əli (ə) döyüşə hərəkət üçün hazırlaşdığı vaxt öldürüldü. Allah bir işi istəsə, ondan qaçmaq qeyri-mümkündür!

Əli (ə) şəhid edildikdən sonra xalq, oğlu Həsənə beyət etdi. Müaviyə və Şam xalqının İraqa doğru hərəkət etdiyi xəbəri çatdı. Əliyə beyət edən ordunu səfərbər edib Məskində düşərgə salan Müaviyənin qarşısını almaq üçün Kufədən hərəkət etdi. Mədainə yetişdikdə 12 min nəfərdən ibarət olan qoşunun sərkərdəliyini Qeys ibn Səd ibn Übadə Ənsariyə və ya başqa bir rəvayətə görə də, Abdullaha[2] verdi. Abdullah da Qeysi ön sıralara başçı secdi».[3]

**6. Əbül-Həsən Mədaininin** rəvayətinə görə, İmam Həsən (ə) ondan «Görəsən, sən bu işdə insafla rəftar etdinmi?, - deyə soruşan bir nəfərə belə cavabı verdi «Bəli! Mən, ancaq Qiyamət günü qana bulanmış 70 və ya 80 min insanın Allah-Təalanın hüzurunda «Nə üstündə qanımız töküldü?» - deyə şikayət etməsindən qorxdum».[4]

**7. Əbu Məhəmməd ibn Müslim ibn Qüteybə ibn Əmr Bahili Dinəvəri:** «Müaviyəyə beyət edildikdən sonra Müaviyə Şama geri qayıtdı. İraqın tanınmış şəxsiyyətlərindən olan və sülh imzalanarkən Kufədə olmayan Süleyman ibn Surəd, Həsən ibn Əlinin yanına gəldi və dedi: «Salam olsun sənə, ey möminləri zəlil edən!» Həsən onun salamını aldıqdan sonra «İndi otur, Allah atanı əfv etsin»[5] dedi.

---

[1] «Nəhcül-bəlağənin şərhi» cild 4, səh. 6.

[2] Doğru olanı Abdullah və Qeys deyil, Übeydullahdır. Biz daha əvəll hər iki mövzuda yanlışlığın səbəbini açıqlamışdıq.

[3] «Kamilut-təvarix» cild 34, səh. 61.

[4] «Nəhcül-bəlağənin şərhi» cild 4, səh. 7 və «Tarixi ibn Kəsir» cild 8, səh. 42.

[5] Orujinal mətn «lillahi əbuk» ifadəsi işlənilibdir. Ərəb dilində bu cümlə ümumilikdə mülayim davranışda istifadə edilir. Bizim dildə bunun təxmini

Süleyman oturduqdan sonra İmama belə dedi: Bizi təəccübləndirən budur ki, beytül-maldan maliyələşən İraq xalqından 100 min döyüşçün və bir o qədər də onların övlad və kölələri olduğu halda, Müaviyə ilə beyət etdin. Üstəlik, Bəsrə və Hicaz döyüşçüləri də sənin tabeliyində idi».[1]

**8. Ziyad ibn Əbih**, Həsən ibn Əlinin Fars əyalətindəki[2] məmuru Müaviyənin hədələrinin cavabında bunlar şöyləmişdi: O nifaq əhli ciyər yeyən qadının oğlu, məktub yazaraq gah mənə vədlər verir, gah da hədələyir. Halbuki, mənimlə və Peyğəmbər övladları ilə onun arasında, şəhid olana qədər cihadı tərk etməyən, can-qəlbdən əmrə tabe, əliqılınclı 90 min (başqa bir rəvayətə görə 70 min) döyüşçü var. Vallahi, Müaviyə ilə qarşılaşdıqda o, məni əyilməz və özünə qarşı çox qəddar görəcəkdir.[3]

## ARAŞDIRMA VƏ TƏHLİL

Yuxarıda qeyd etdiyimiz kimi, İmam Həsənin ordusunun sayı mövzusunda mövcud tarixi mənbələrdə fərqli rəqəmlər vardır. Söylənilən rəqəm tərtiblə 40, 80 və 100 minə qədər dəyişir. Ancaq həqiqətdə hər üç rəqəm, hətta ən kiçik rəqəm belə, şübhəli və mübahisəlidir. Belə ki:

---

olaraq qarşılığı «Atana rəhmət», «Allah ölənlərinə rəhmət etsin» kimidir. (Mütərcim)

[1] «Əl-İmamətu vəs-siyasə» səh. 151.

Müəllifdən: İmam Həsənlə (ə) Süleyman ibn Surədin söhbətini Ələmul-huda Seyid Murtaza «Tənzihul-ənbiya», Məhəmməd ibn Əli ibn Şəhr Aşub «Mənaqib» və Məhəmməd Baqir Məclisi İsfahani «Biharul-ənvar» kitabında nəql ediblər. Bu kitablarda Süleyman ibn Surədin sözlərində ordunun sayı 40 min nəfər olduğu qeyd edilmişdir. Beləliklə, tarixçilər arasında təkcə İbn Qüteybə Dinəvəri, həm ordunun sayını 100 min nəfər qeyd etmiş və həm də «sülh» sözünün yerinə «beyət» sözünü işlətmişdir.

[2] Ola bilsin ki, İran nəzərdə tutulur.

[3] «Tarixi-Yəqubi» cild 2, səh. 194; «Tarixi İbn Əsir» cild 3, səh. 166. Birinci qaynaq ordunun sayını 90 min və ikincisi isə 70 min nəfər rəvayət etmişdir.

**1.** Ziyad ibn Əbihlə (Məhəmməd ibn Yəqubinin rəvayətilə) Süleyman ibn Surədin[1] sözlərindəki (ibn Qüteybə Dinəvərinin rəvayətinə əsasən) ən böyük rəqəm (90 min, 100 min və ya daha çox) bir neçə cəhətdən mübahisəlidir. Bi cəhətlərdən əhəmiyyətlisi budur ki, onların hər ikisi (Süleyman və Ziyad) Həsən ibn Əlinin xilafəti dövründə Kufədə olmaylb, İmam Həsən (ə) beyət və cihadda iştirak etməyiblər. Yəni 2 il o bölgədən və oranın əhalisindən uzaqda olublar.[2]

Elə isə Kufədə olmayan, oranın vəziyyətini yaxından görməyən, qruplmalardan və xalqın beyət etdikləri İmanlarına qarşı laqeydliyindən xəbərdar olmayan bir kəsin mühakiməsini necə dəyərləndirmək olar?!

Əvvəla, Ziyad və Süleyman, Kufənin o günki vəziyyətini onun keçmişi ilə müqayisə etdikləri üçün İmam Həsənin ordusunun sayını bir rəqəm fərz etmişlər. Yəni hicri 37-38-ci illərdə Kufədə olduqları və orduda xidmət göstərdikləri dövrdə Əmirəl-mömінin İmam Əlinin (ə) tabeliyində olan ordunun indi də oğlu İmam Həsənin tabeliyində olduğunu güman etmişdilər.

İkincisi, bu iki nəfərin keçirdikləri psixoloji gərginlik onların məsələsini bu şəkildə şişirtmələrinə səbəb olmuşdur. Həm sülhü qəbul etməyib hisslərininə qapılan Süleymanın, həm də Müaviyənin vəd və təkliflənin cavabında onu hədələyən Ziyadın belə bir mübaliğəyə yol verməsi ehtimalı böyükdür. Digər tərəfdən, bu iki nəfərin sözlərində ordunun sayını müəyyən etmək üçün heç bir fakt yoxdur.

---

[1] Əbu Məhəmməd ibn Müslim ibn Quteybə ibn Əmr Bahili Dinəvərinin digər tarixçilərə zidd olan rəvayətinə görə.

[2] «Əl-İmamətu vəs-siyasə» və «Tənzihul-ənbiya» kitablarında, Süleyman ibn Surədin 2 il Kufədə olmadığı yazılmışdır. Ziyada gəlincə, Bəsrə valisi olan Abdullah ibn Abbas onu Fars əyalətinə vali təyin etdiyi hicri 39-cu ildən etibarən orada yaşayıb. Ondan əvvəl də, Hafiz Əbu Cəfər Məhəmməd ibn Cərir Təbərinin «39-cu il hadisələri» bölümündə nəql etdiyi rəvayətə görə, Bəsrədə yaşayıb.

Məlum olduğu kimi, Süleyman ibn Surəd Müseyyib ibn Nəciyyənn yaxın dostu olub. Onlar arasında dostluq əlaqəsindən daha da sıx əlaqə mövcu olmuşdur.

Bir qədər öncə nəzərinizə çatdırılan tarix sənədlərin birində (4 saylı sənəd) Müseyyib ibn Nəciyyənin sülh bağladığına görə İmam Həsəni (ə) «Tabeliyində 40 min nəfərlik bir ordu olmasına baxmayaraq...» deyərək qınadığını gördük. Heç şübhəsiz, bu iki yaxın dost arasında Rəsulullahın Əhli-beyti ilə əlaqəli bir mövzuda belə bir ixtilafın olması məntiqə uyğun deyil.

Bu halda, İbn Surədin bu məntiqə sığmayan sözlərinin tək səbəbi, bu sənədin ravisi olan İbn Qüteybə Dinəvəridir. Yəni İmam Həsən (ə) ilə əlaqədar ondan başqa heç kimin rəvayət etmədiyi bir çox şübhəli əhvalatların ravisi!

Taleyə baxın ki, bu iki səmimi dost, sülh bağladığına görə rəhbəri İmam Həsəni (ə) qınadıqları üçün ölməzdən əvvəl bu iki əməlin əvəzini gördülər: Hicri 65-ci ildə Kufə əhlindən 18 min nəfər İmam Hüseynin (ə) intiqamını almaq üçün bu iki nəfərə beyət etdilər. Əynul-Vərdə adlı məkanda işlər çətinliyə düşdükdə ətraflarında ancaq 3100 adam qaldı. Bax, burada Kufə əhlinin vəfasızlığı və dönüklüyü onlara İmam Həsəni xatırlatdı. Bu hadisədən bir müddət sonra Təvvabin (tövbəkarlar) hərakatının rəhbərləri olan Süleyman və Müseyyib silahdaşlarının əksəriyyəti ilə birlikdə Əynul-Vərdədə şəhid oldular.

**2.** 80 və 70 min rəqəmi, İmam Həsənin «Sən bu işdə insafla rəftar etdinmi?» sualına verdiyi cavabda göstərilən rəqəmdir. Həqiqətən, bu rəqəmin ən çox 20 mini İmamın ordusuna dəlalət edə bilər. Çünki İmam «Qiyamət günü qanına boyanmış halda Allahın hüzuruna gələn» insanların sayını tərəddüdlə 70 və ya 80 min nəfər olacağını söyləmişdir.

Deməli İmam təkcə öz döyüşçülərini deyil, hər iki qoşunun döyüşçülərini nəzərdə tutulmuşdur. Əgər bu döyüşdə şamlıların sayı 60 min nəfər olunurdusa, nəticədə 20 min nəfər İmamın ordusundakı əsgərlərin sayı olacaqdır. İmamın, qəti bir rəqəm bildirmədən tərəddüdlə «70 və ya 80 min» söyləməsi, təkcə

ordusunu deyil, hər iki ordunun nəzərdə tutduğunu göstərən bir dəlildir. Çünki əgər təkcə Kufə ordusunu nəfərdə tutsaydı, ordunun sayını deməkdə tərəddüd etməzdi. Heç şübhəsiz, İmam Kufə ordusunun sayından xəbərdar idi.

**3.** Bəzi tarixçilər, o cümlədən Müseyyib ibn Nəciyyə, ordunun sayını 40 min nəfər göstəriblər. Bu rəqəm, iki cəhətdən mübahisəlidir:

1. Bu rəqəm İmam Həsənin (ə) ordunun sayı barədə söylədiyi sözlərə uyğun gəlmir. Yəni əvvəlki bənddən aydın olduğu kimi, ordunun sayı ən çox 20 min nəfər olardı. Bundan əlavə İmamın, camaatın rəftarından və cihada qarşı onların soyuqqanlılıq və süstlüyündən etdiyi şikayət[1] də bu rəqəmlə uyğun gəlmir. Çünki 40 min nəfərlik bir ordu hazır olduğu vəziyyətdə İmam Həsən hansı soyuqqanlıq və süslükdən şikayət edə bilər.

2. Bu rəqəm söyləyənlər, zənn və təxminlərin əsasında söyləyiblər. Belə ki, onların zənninə görə Əmirəl-möminin Əli (ə) şəhid olmamışdan öncə Şama son dəfə hücum etmək üçün hazırladığı 40 min nəfərdən ibarət olan bir ordu indi oğlu İmam Həsənin tabeliyindədir. Lakin onlar, camaatın yeni xəlifəyə qarşı dönüklüyünü nəzərə almağı unutmuşlar.

Görəsən, belə bir mübahisəli rəqəmə etibar etmək mümkündürmü?

3. Bu barədə rəvayətlərin ən təəccüblüsü, Zührinin rəvayətidir.

Zühri, Məskində Qeys ibn Sədin başçılığı altında olan ön qoşunun sayını - Übeydullah ibn Abbas və tərəfdarları qaçdıqdan sonra - 40 min nəfər göstərmişdir. Bu o deməkdir ki, Übeydullahın qaçmamışdan əvvəl, təkcə ön qoşunun sayı 48 min nəfər olmüşdür! Bu rəqəm isə heç bir tarixi qaynaqda təsdiq edilmir. Həm İmam Həsənin Übeydullaha verdiyi əmrnaməyə, həm də digər qaynaqlara əsasən, ön qoşununda Übeydullahın

---

[1] İmamın Kufədəki adlı-sanlı tərəfdarlarından olan Bəşir əl-Həmdaniyə cavabı («Biharul-ənvar» cild 10, səh. 113.)

başçılığı altında olan ordunun sayı 12 min nəfərdən çox olmamışdır.

Ümumiyyətlə, Rəsulullahın Əhli-beyti barədə Zührinin nəql etdiyi rəvayətlər ən ziddiyyətli və sənədi zəif rəvayətlərdir. «Dirasatun fil-islam» kitabının müəllifi onu «Əməvilərin muzduru» adlandırmış və bu da onun barədə mühakimə yürütmək üçün kifayətdir.

Yaxud Zührinin bu rəvayəti belə bir şəkildə şərh oluna bilər: Müaviyə, Əmr və Şam döyüşçüləri Müaviyənin Məskində yerləşən ordusunun kənarında düşərgə salıblar. Bu halda, 40 min rəqəmi İmam Həsənin deyil, Müaviyənin ordusunun sayı olacaqdır. Əgər bu ordunu Müaviyənin muzdurları və «Şam döyüşçüləri»ni Müaviyənin könüllü əsgərləri olduğunu fərz etsək, bu rəvayətin İmam Həsən və Müaviyənin ordusunun sayı haqqındakı digər rəvayətlərlə zidd olmadığını görərik.

4. «Böyük ordu» ifadəsi, İzzədin ibn Əbil-Hədid Mötəzilinin İmam Həsənlə (ə) Nuxeylədən Deyri-Əbdur-Rəhmana hərəkət edən qoşun barədə işlətdiyi ifadədir. Bu ifadə, İmam Həsənin ordusunun sayı barədə göstərilən rəqəmlə uyğundur. Çünki 16 min və ya ən çoxu 20 min nəfərlik ordu «böyük ordu»dur.

5. Əvvəlcə birinci qeyd etdiyimiz «Birahul-ənvar»ın rəvayəti hadisələrin bir-birilə bağlılığı və ardıcıllığı kimi bir tarixi sənəd üçün zəruri olan amillər baxımından olduqca mübahisəlidir.

Birincisi, bu rəvayətdə sözügedən - biri Kində, digəri isə Murad qəbiləsindən olan sərkərdələrdir. Onların hər ikisi Übeydullahdan əvvəl Müaviyəyə qoşularaq xəyanət etmişdilər – iki sərkərdənin adı qeyd olunmayıb. Bəşər tarixinə ləkə sayılan belə əhəmiyyətli bir hadisədə iki sərkərdənin adının unudulması çox təəccüblü haldır!

Daha təəccüblüsü isə bu rəvayətə görə İmam Həsənin (ə) bu iki sərkərdəni yola salmazdan əvvəl onların xəyanətə ittiham etməsi və onların xəyanət edəcəklərinə əmin olduğu halda hər ikisinin qoşun başçısı edib Müaviyənin üzərinə göndərməsidir!

Bu iradlardan sadəcə biri bu rəvayətin etibardan duşməsi üçün kifayətdir.

İndi bu araşdırma və təhlildən sonra «ordunun sayı» barədə özünüz nəticə çıxarın! Qoy bu qədər ixtilaflı və təhrifə məruz qalan bu tarixi sənədlərin özü İmam Həsənin (ə) dövrünün ixtişaşlı və qarışıq vəziyyətinə şahidlik etsin! İmam Həsənin dövrü həm kəsb etdiyi əhəmiyyət, həmdə yerdə qoyduğu nəticə baxımından diqqətlə araşdırlmalı və təəssüflə xatırlanmalıdır.

Gördüyünüz kimi bu səkkiz tarixi sənətdə heç biri bir «tarixi sənət» olaraq araşdırılıb etibar ediləcək vəziyyətdə deyil. Bu mövzu barədə bizə qəti olaraq məlum olan ön qoşunun 12 min nəfər və sonradan Kufədən gələn könüllülərin sayını 4 min nəfər olduğudur. Eləcə də İmam Həsənin (ə) Deyri-Əbdur-Rəhmanda qaldığı 3 gün ərzində pərakəndə şəkildə bir neçə dəstənin Həzrətin ordusuna qatılmasıdır. Təxminən cəmi 20 min nəfərə çatan bu ordu, Məskin və Mədain hərbi düşərgələrinə hərəkət edərkən İmam Həsənin ordusunun sayını göstərən rəqəmdir.

Mədain döyüşçülərinə və əsgərlərinə gəlincə, bildiyimiz qədər onlar, heç bir zaman İmam Əlinin (ə) döyüş meydanlarından üz çevirməmişdilər. Elə bu səbəbdən indi də Həzrət Əlinin oğlu onların önündən keçib döyüşə yollandığı halda əlisilahlıların İmamın qoşununa qoşulmaması qeyri-mümkündür!

Beləliklə, İmam Həsən (ə) bu iki düşərgədəki əsgərlərin sayının cəmi 20 min və ya bir qədər çox olduğu güman edilir. Bu rəqəm, İzəddin ibn Əbil-Hədid Mötəzilin vurğuladığı «böyük ordu» ifadəsi bir qədər öncə qeyd etdiyimiz sözlərlə də uyğun gəlir. Bu halda hansı söz İmamın öz sözündən daha etibarlı tarixi sənəd ola bilər?!

Sonradan İmam Həsənə (ə) nə qədər və haradan köməkçi qüvvələrin gəldiyi haqqında isə heç bir məlumatımız yoxdur.

## ORDUNU TƏŞKİL EDƏN ÜNSÜRLƏR

Şeyx Müfid yazır: «İmam Həsən, ətraf bölgələrin valilərinə döyüş qərarına çatdırmaq və camaatı cihada dəvət etmək üçün Hucr ibn Ədiyyi ezam etdi. İnsanlar əvvəlcə süstlük göstərsələr də, lakin sonra hərəkət etdilər.

İmamın ətrafında hər cür insan var idi: özünün və atasının şiələri, Müaviyə ilə savaşmaq üçün hər yola, hər hiyləyə əl atan Hakimiyyət tərəfdarları (xəvaric), döyüş qənimətinə sahib olmaq üçün qarışıqlıq və hərcmərciliyin baş verməsini gözləyən tamahkarlar, şəkkaklar, qəbilə başçılarına tabe olan təəssüfkeşlər, bir sözlə məqsəd və hədəfləri din olmayanlar».[1]

Əvvəlki bölümdə qeyd olunanlardan aydın olduğu kimi, İmam Həsənin (ə) ordusunda təxminən 20 min və ya bir qədər çox döyüşçü var idi. Lakin bu ordunun necə toplandığı bütün təfərruatı ilə bizə məlum deyil. Böyük ehtimalla ordunu toplamaq üçün o dövrün sadə üsullarından istifadə olunmuşdur. Bu üsul, İslamın ilk dövrlərində hər bir toplantıda tətbiq edilirdi. Eləcə də ordu sıralarına könüllü əsgər və ya mücahid qəbul etmək üçün heç bir xüsusi bacarıq və ya yaş həddi nəzərdə tutulmurdu. Digər tərəfdən də orduya məcburi şəkildə - müasir dövrümüzdə olduğu kimi - əsgər toplanılmırdı. Əli silah tuta bilən bir müsəlman, ilahi dəvəti eşidərkən qarşısında dini bir məqsəd görürdü. Nəticə etibarilə bu dini məqsəd onda məsuliyyət hissini oyadır və beləliklə də o, bu yolda canını verməkdən çəkinmirdi. Ya da maddi maraqlar ona qalib gəlir və onda oyanan dini məsuliyyət hissini boğur. Beləcə onu həm axirət mükafatından, həm də zəfər qazanıldığı təqdirdə əldə ediləcək qənimətdən məhrum edirdi.

Orduda məcbur xidmət üçün yaş həddinin müəyyən olunması, fiziki və ruhi hazırlığın yoxlanılması kimi müasir

---

[1] «İrşadi-Mufid» səh. 169; «Kəşful-ğummə» səh. 161; «Biharul-ənvar» cild 10, səh. 113.)

dövrdə nəzərdə alınan göstəricilər o dövrdə mövcud deyildi. İslam dinində insanları itaətkarlığa sövq etdirmək üçün daha çox dinin əhatə etdiyi həqiqətlərin sağlamlığı və doğruluğuna söykənilir. Bu dini prinsiplərinə əsasən, xalqı itaətkarlığa vadar etmək üçün məcburiyyət, təziq və gücdən istifadəyə etməyə yol verilmir. Sadəcə insanlar hər iki yol: həm düz, hə də əyri yol tanıtdırılır. Doğru yolu secmələri üçün onlara yardım edilir:

وَالَّذِينَ جَاهَدُوا فِينَا لَنَهْدِيَنَّهُمْ سُبُلَنَا

***«Bizim üçün səy göstərənləri, yollarımıza hidayət edirik».***[1] Əmr etdiyi və ya çəkindirdiyi bütün işlərdə İslamın şüarı budur!

Dini rəhbərlər də xalqı bir işə dəvət etdikdə və ya bir işdən çəkindirdikdə bu üslubdan yararlanıblar. O cümlədən, əsgər toplamaq və xalqı döyüşə səfərbər etmək üçün mübarizəlik ruhunu oyadan təbliğatlardan və ya döyüşə qadir olan insanları qane edən digər vasitələrdən istifadə ediblər. Məsələn büdcədən təmin olunan rəsmi döyüşçülərə bir sıra imtiyazlar vermiş və ya valilərə səfərbərlik əmri vermiş, onlar da xalqı könüllü olaraq Allah yolunda cihad etməyə dəvət etmələri üçün xətiblər və nüfuzlu şəxsləri bu işə vəzifələndirmişlər.

İmam Həsən (ə), xilafətinin əvvəlində və döyüş üçün səfərbərlik elan etdikdə deyilən bu işlərin hamısını həyata keçirdi. Hucr ibn Ədiyyi ətraf bölgələrin valilərinin yanına göndərərək onları cihada dəvət etdi. Ədiyy ibn Hatəm, Məqil ibn Qeys, Ziyad ibn Səsəə və Qeys ibn Səd kimi güclü xətiblər də onunla əməkdaşlıq etdilər. Onlar xalqı cihadda süstlük göstərdiklərinə görə danlayıb[2], ilahi dəvətə müsbət cavab verməyə sövqləndirdilər. Sonra da hər kəsdən əvvəl düşərgəyə gedib əsgərlərin çərgələrinə qoşuldular.

Kufənin yeddi məhəlləsində və bütün ümumi yerlərdə asılan cihad bayrağı, xalqı Allaha və Əhli-beytə doğru dəvət edirdi.

---

[1] «Ənkəbut» surəsi, ayə 69.

[2] «Nəhcül-bəlağənin şərhi» cild 4, səh. 14.

Bu rahatlıq axtaran və süst paytaxtda birdən-birə məsuliyyət hissinin oyanışı və ya cihada hazırlığa bənzər bir canlılıq yarandı. Şamın əks-təbliğatı camaatın öz rahatlıq sevərliyi səbəbindən cihada qarşı olan süstlüyü Kufəyə hakim olsa da, bu böyük xətiblərin səyi nəticəsində yaranan yeni oyanış, qısa bir müddət ərzində xalqı cihada rəğbətləndirib, onlarda mübarizlik hissini aşıladı.

İmam Həsənin (ə) müxaliflərinin əks-təbliğatına baxmayaraq, Həzrətin yaxın dostlarının təbliğatı xalqın böyük bir qismini cihada rəğbətləndirmişdi və nəticədə: «İnsanlar cəsarətlənib və şövqlə dəstə-dəstə düşərgəyə yollanırdılar».[1]

Xülasə, bu təbliğatlar Kufə və ətraf bölgələrin əhalisinin fikirləri üzərində təsir qoya bilmişdi. Kufə xətiblərinin məharəti buradan bilinirdi ki, onlar camaatın tərzi-təfəkküründən yetərincə yararlanana və cihada dəvətlə yanaşı, var gücləri ilə onları Rəsulallahın (s) Əhli-beytinə itaət etməyə yönəldə bildilər. Əhli-beyt dostları və davamçıları aydın və təsirli bəyanla bu ailənin fəzilət və məziyyətlərini, düşmənlərinin isə eyib və çirkinliklərini açıqlayırdılar. Ümumi məkanlarda, müxtəlif qəbilələrin arasında, ümumiyyətlə hər yerdə xalqı «Cənnət gənclərinin iki ağası»nın nünunəvi və üstün keyfiyyətləri, vəhy ailəsində irsi sayılan dində sabitqədəmlikləri, Bəni-Haşimə xas olan elm, təqva, saflıq, maddi zinətlərə etinasızlıq, Allah yolunda fədakarlıq və ümmətin islahı üçün çalışmaq kimi xüsusiyyətləri ilə tanış edir və onları sevməyin vacibliyini bəyan edirdilər.

Daha sonra beyətlərini, eləcə də ulul-əmrə (əmr sahiblərinə) itaət etmək və əhdə vəfa göstərmək xüsusunda Allahın hüzurunda sorğu-suala çəkiləcəklərini xatırladırdılar. Xətiblər apardıqları təbliğatlarda Əhli-beytlə Əməvilərin soyunu bir-birilə müqayisə edir və bu müqayisə, ümumi xalq kütləsinin üzərində dərin təsir buraxırdı. Məsələn, deyirdilər: Əlinin oğlu

---

[1] İzzəddin İbn Əbil-Hədid Mötəzilinin bu barədə «Nəhcül-bəlağənin şərhi» kitabının 4-cü cildinin 14-cü səhifəsində işlətdiyi ifadə.

hara, Şəxrin oğlu hara?! Fatimənin oğlu hara, Hindinin oğlu hara?! Babası Rəsulullah (s) olan kəslə babası Hərb olan kəsi müqayisə etmək olarmı?! Nənəsi Xədicə olan kəslə nənəsi Fatimə olan kəsi eyni tutmaq mümkündürmü?

Sonra bəziləri bu ikisindən ləkəli ada, alçaq nəslə və küfr və nifaqda keçən keçmişə lənət yağdırır və camaat da onlara qoşulub ucadan «Amin, amin!» deyirdilər. Sonrakı nəsillər də hər zaman bu zərif müqayisə ilə qarşılaşdıqda, o dövrün cammatı kimi «amin» deyirlər!

Bu hikmətli tədbirlər və mübarizlik hissini oyadan bəlağəti nitqlər hər yerdə və hər kəsdə Şam ordusunun məğlubiyyəti və Kufə ordusunun zəfəri ümidini yaratmışdı.

O dövürdə Kufə – Kufə, tarixdəki böyük İslami paytaxtlarla rəqabət aparan yeni və əzəmətli bir şəhər idi - ərəb, qeyri-ərəb və müxtəlif irqlərdən olan mühacirləri bir yerə toplamışdır. Onların əksəriyyəti İslamın mahiyyətini dərk etməmiş, bu səbəbdən qarşılarında yeni üfüqlər açılmamış və İslam ədəb-ərkanına yiyələnməmişdilər. Onlar İslama ancaq öz mənfəətlərini təmin etmək üçün bir vəsilə kimi baxırdılar. Bu qrup, cihadı da döyüş qəniməti və maddi gəlir əldə etmək üçün bir fürsət hesab edirdilər. Onlar, xalqın zəfər və qələbəyə olan ümid və inamından bu nəticəyə gəldilər ki, İmam Həsənin (ə) ordusuna qoşulmaq mənfətə çatmağı tezləşdirə bilən yeganə yoldur. Bu halda nə üçün bu orduya qoşulmasınlar?!

Artıq oxucuya məlumdur ki, nə üçün İmam Həsənin ordusu müxtəlif əqidəli dəstələrdən, məsələn: fitnəkarlar, qənimətə tamah salanlar, məqsədi din deyil, qəbilə təəssübü olanlar, şəkkaklar və başqalarından təşkil olunmuşdur. Onların hər biri müəyyən bir şəkildə İmam Həsənin məqsəd və hədəfindən uzaq idilər. Əvvəldə bildirdiyimiz kimi, o dövürdə etibarlı mücahidləri səfərbər etmək üçün bir üslub yox idi. Əli silah tutan hər bir kəs «müsəlman döyüşçüsü» səlahiyyətini kəsb edirdi.

Şeyx Müfid, xəvaricin İmam Həsənin (ə) ordusuna qoşulmasını belə izah edir: «Onların tək məqsədi, nəyin bahasına olursa-olsun, Müaviyə ilə döyüşmək idi».

Bu söz məntiqə uyğun olsa da, bütün həqiqəti ifadə etmir. Xəvaricin məqsədlərindən biri, Müaviyə ilə döyüşmək ola bilər. Amma bu, onların başqa məqsədlər güdmədikləri mənasında deyil. Çünki xəvaricin İmam Həsən və atası İmam Əliyə qarşı münasibətləri barədə müvcud tarixi sənədlər bizi bu dəstəyə xoşbin etmir. Xüsusilə, Nəhrəvan hadisələrini araşdırdıqda, onlara qarşı bədbinliyimiz daha da artır. Əgər, həqiqətən, onlar Müaviyə ilə döyüşmək üçün Həzrət Həsənin ordusuna qoşulmuşdularsa və İmam qarşı heç bir pis niyyətdə deyildilərsə, onda belə bir sual qarşıya çıxır: Bu hadisədən əvvəl harada idilər və Həzrət Əliyə (ə) qarşı qiyam etdikləri kimi nə üçün Müaviyəyə qarşı qiyam etməmişdilər?!

İmam Həsənin (ə) dövündən qısa bir müddət əvvəl onların əksəriyyətinin qanının tökülməsi, eləcə də apardıqları geniş və davamlı təbliğlər onlara qarşı bədbinliyimizə başqa sübutlardır. Onların bu döyüşdən əvvəlki vəziyyəti, Həzrət Əlini öldürdüklərinə görə onlara qarşı yönələn ümumi nifrətdən xilas olmaq üçün İmam Həsən və müsəlmanlarla sülh və saziş yolunu seçdiklərini göstərir. Belə bir vəziyyətdə xəvaricin könüllü olaraq cihada qatılması və zahirdə digər müsəlmanlarla həmrəng olmasının yeni bir hiylə olduğu və zamanın tələbinə uyğun sima alıb, arxada isə indiyə qədər aydın olmayan gizli düşüncə və niyyətlərin yatdığı ehtimalı böyükdür! «Xuruc» [1] düşüncəsi, Siffeyn döyüşündən «Həkəmiyyət» hadisəsində baş qaldıran nəhs bir düşüncə idi və bu səbəblə xəvaricə «Muhəkkimə» (Həkəmiyyət[2] tərəftarı) də deyilir. Tədricən bu düşüncə sağlam bir inanc kimi bu qrupun qəlbində kök saldı, zaman keçdikcə böyüdü və müsəlmanlar üçün növbənöv acı hadisələrin meydana gəlməsinə səbəb oldu. Xəvariclər, dindar görüşlərinə

---

[1] Əmirəl-möminin Əlinin hökumətinə qarşı qiyam.

[2] Hökm verməк, qəzavət etmək.

baxmayaraq, çox hiyləgər idilər. Onların iki böyük düşməni arasında alovlanan döyüş atəşi kimi uyğun bir fürsətdən nə üçün istifadə etməməlidirlər?! Nə üçün savaş məqsədilə Kufədən hərəkət edən bu orduya qatılıb, döyüş vaxtı uyğun fürsətlərdən bəhrələnməsinlər? Çünki belə döyüşlərdə fitnəkarlar, əgər ayıq və tədbirlə çox böyük nəticələrə nail ola bilərlər.

Şübhəsiz, Şeyx Mufidin dediyi kimi, xəvariclərin Müaviyəyə düşmən olduqlarını və nəyin bahasına olursa-olsun onunla döyüşə can atdıqlarını inkar edə bilmərik. Lakin mənim nəzərimcə, onlar bu işdə iki məqsəd güdürdülər: xəvariclərin bütün qiyam və təxribatlarındakı əsl hədəfləri İraq, Misir və Şamdakı İslam hökmdarlarını hədəfə almaq idi. Terrorçuluq ruhiyyəsi və arxadan zərbə vurmaq onların digər düşüncələri üstələmişdi. İmam Həsənin (ə) qoşununa qatılmışdırlar, lakin fitnəkarlıq məqsədilə. Cihada yollanırdılar, lakin fəsad törətmək məqsədilə.

Həsən ibn Əliyə «Müzləmi-sabat»da[1] elə də təsirli olmayan vuruqları zərbə və sui-qəsd cəhdi onların Peyğəmbərin uca Əhli-beytinə qarşı törətdikləri cinayət zəncirinin ikinci mənfur halqası idi. Bu cinayətlərin hər ikisi xəvaricin müxtəlif şəraitlərdə planlaşdırdıqları gizli təxribatların məhsulu idi.

Allahın lütfü ilə İbn Sinan Əsədinin [2] İmam Həsənə endirdiyi qılınc zərbəsi, İbn Mülcəm Muradinin yaxın keçmişdə (İmam Əliyə) endirdiyi zərbə kimi müvəffəqiyyətli ola bilmədi.

İkinci İman və Rəsulallahın (s) böyük nəvəsinə qarşı törədilən bu alçaq və çirkin cinayət, heç şübhəsiz, Rəsuli-Əkrəmə (s) qarşı ən böyük zülm və düşmənçiliyin nümunəsidir.

---

[1] «Sabat» lüğətdə, iki ev arasında üstüörtülü bir yerə deyilir. Eyni zamanda, Mədaində Şəhrud üzərindəki körpünün yaxınlığında bir yerin adıdır. Bura «Sabat» deyilməsinin səbəbi bu ola bilər ki, burada böyük və bənzərsiz bir üstüörtülü məkan mövcud olmuş və ora «Müzləmə-Sabat» adlandırmışdır.

[2] Həsən Murad «Əd-Dövlətul-Əməviyyətu fiş-Şam vəl-Əndulus» adlı kitabında səhvə yol verərək İmam Həsənə endirilən xəncər zərbəsini Bəni-Ümeyyənin tərəfdarlarına nisbət vermiş və bu sui-qəsdin onlar tərəfindən həyata keçirildiyini yazmışdır. Qarşıda bu hadisə qədim tarixi qaynaqlarda göstərildiyi kimi oxucuların diqqətinə çatdırılacaqdır.

Bu yolla «nəyin bahasına, hansı şəkildə olursa-olsun Müaviyə ilə döyüşmək istəyənlər» Müaviyəyə böyük xidmət göstərirdilər!

Beləcə, bu hadisədə xəvaricin zahirdə büruzə vermədiyi alçaq məqsədləri İmam Həsən (ə) aydın oldu. İmam, lap əvvəldən onlardan ciddi şəkildə çəkinirdi, lakin müxalif olduğunu gizlədirdi.

Heç nə, dost kimi görünən düşmən qədər təhlükəli deyil! Bu düşmən, zahirdə özünü dost kimi, göstərir. Lakin daxildə isə daim onunla mübarizə aparır. Bu cür düşmənin ən təhlükəlisi, xəvaricin İmam Müctəbaya etdiyi kimi, intiqam hissi ilə qılınc çəkənidir.

İmam Həsənin ordusu, müxtəlif əqidəli insanların bir yerə toplanması bəlasına dücar olmuşdur. Bu səbəblə də bu ordunun qələbə çalmasına ümid itmiş, eləcə də Şam və İraq bölgələrindəki daxili və xarici düşmənlərin gizli və açıq təxribatlarına məruz qalmışdı. Şübhəsiz, belə ünsürlərdən təşkil olan bir ordu, qarşılaşdıqları hadisələrdən ikitirəliyə və rəhbərlərinə qarşı qiyama düçar olacaqdır.

Heç şübhəsiz, müqəddəs cihad maddi mənfəətlər üçün bir vəsilə, təhlükəli təxribatlar üçün bir fürsət, kor-koranə və cahilanə təəssüblərin meydana və ya şəkkakların təcrübə səhnəsi deyildir!

«Ətrafdakıların dönüklüyü və zəifliyi İmam Həsənə daha da aydın oldu». [1] Hadisələrin gedişatından bu döyüşü gözləyən uğursuzluq və məğlubiyyəti sezdi. Çünki onun sahib olduğu döyüşçü qüvvəsi islahına əsla ümid qalmayan bu ordu idi. İmamın bu orduya bel bağlamadığını göstərən saysız nitqləri vardır. Bu mövzuda o Həzrətin ən təsirli nitqi, Mədain ordusu qarşısında söylədiyi nitqdir. O, belə buyurur: «Siffeynə yollanarkən, dininiz dünyanızın önündə idi. Lakin indi dünyanız dininizin önündədir. İndi siz iki dəstə ölülər arasında qərar

---

[1] «İrşadi-Mufid» səh. 170.

tutmusunuz: biri göz yaşı tökdüyünüz Siffeyndəki ölüləri, digəri intiqamımı almaq istədiyiniz Nəhrəvandakı ölülər[1].

Varislər, əhdlərini pozanlar və namərdlərdir. Göz yaşı tökünlər, fitnəkar və üsyankardır».

İmam Müctəbanın bu xütbəsi ordusunun təşkil edən ünsürləri müxtəlif hədəf və məqsədlərə sahib olduğunu vurğuladığı yeganə xütbədir.

O, «Gözyaşı tökən fitnəkarlar» ifadəsində ətrafına toplananlardan əksəriyyətini, «İntiqam almaq istəyənlər»də, ordunun cərgələrində yerləşən və ancaq İmam Həsəndən intiqam almaq istəyən xəvarici və «Əhdini pozanlar və namərdlər»də isə fitnəkarlar, tamahkarlar və qənimətpərəstlər olan ordunun digər ünsürlərini nəzərdə tuturdu.

Bu hadisə ilə əlaqədar tarix səhifələrində qaranlıq və qanlı sətirlər həkk olunmuşdur. Bu sətirlərə nəzər saldıqda aldanmış və dünyaya məftun olan İmam Həsənin ordusuna qatılıb müqəddəs cihad meydanını hiylə, nifaq, əhdi pozmaq və fitnəkarlığa aludə etdiklərini və beləcə, Peyğəmbər (s) varisi olan onun pak Əhli-beytinin (ə) iqtidar və hökumət səhnəsindən uzaqlaşdırılıb, haqlarından məhrum edildiyini gördük.

Kitabın sonrakı səhifələrində bu barədə yeri gəldikcə bəzi açıqlamalar verəcəyik.

Bu bölümünün sonunda, İmam Həsənin həyatını araşdıranların əksəriyyətini maraqlandıran bir sualı müzakirə etməyə lazım bilirik: Nə üçün İmam Həsən (ə) belə insanlara meydan verdi və ordunu saflaşdırmaq üçün fitnəkarı cəzalandırmaq, mövqeyini zəiflətmək və ya ən azından ordudan uzaqlaşdırçmaq kimi üsüllara əl atmadı? Bəzilərinin nəzərincə bu, bütün iradların təməl nöqtəsidir. Bu sualın cavabı budur:

1. İslam dini ictimai sahələrdə olduğu kimi, cihadda da cəmiyyətin sinfi təbəqələrə bölünməsinə yol vermir. Odur ki, səlahiyyətli şəxslər, müsəlman olduğunu iddia edən və əli silah

---

[1] Seyid Rəziyyəddin Əli ibn Tavusun «Məlahim vəl-fitən» adlı kitabında (səh. 148, hicri 1368-ci il Nəcəf nəşri) keçən rəvayətdə isə bu ifadəyə yer verilir: «...və intiqamını bizdən almaq istədiyiniz Nəhrəvan ölüləri».

tutan cihada könüllüləri geri qaytarmamalıdırlar. İmam Həsənin (ə) ordusuna qatılan qruplar müsəlman olduqlarını iddia edən və əli silah tutan insanlar olduqları üçün İslam dininin təməl hökmünə əsasən İmamın onları qəbul etməkdən başqa çarəsi yox idi.

2. Rusuli-Əkrəm (s) və Əmirəl-möminin Əli (ə) də apardıqları bəzi döyüşlərdə bu ordu kimi qarışıq insanlardan ibarət olan orduya sahib olublar. Lakin nə Həzərət Peyğəmbərin, nə də İmam Əlinin tarixində bu tip insanları ordu sıralarına qəbul etmədikləri və ya döyüş meydanından qovduqları rəvayət edilməmişdir. Hətta onların bu kimi insanların orduda iştirak etməsindən qaynaqlanan zərərlərdən amanda qalmadıqlarını da bilirik. Məsələn: tarixi qaynaqlarda Hüneyn döyüşü hadisələrində belə qeyd edilir: «Müsəlamanların çoxu Rəsulalllahın böyük ordusuna baxıb heyrətə gəldilər və «Bu ordu, müşriklərin azsaylı ordusu qarşısında məğlubiyyətə uğramaz» - dedilər. Lakin müsəlmanların ordusu qarışıq bir ordu idi. Onların arasında qənimət toplamaq üçün döyüşə gələnlərin sayı çox idi...»

Həmçinin, tarixi qaynaqlarda bənil-Mustəliq döyüşündən qayıdarkən müsəlmanların buna bənzər hadisələrlə qarşılaşdıqları nəql edilmişdir.

Həzrət Əlinin (ə) savaşları haqqında da belə yazılıb: «İmam Əlinin Siffeyn döyüşündəki ordusu müxtəlif millət və qəbilələrdən təşkil olunmuşdu. Bu orduda ixtilaflar və münaqişələr həddən artıq çox idi: Nə əmrə itaət edir, nə də nəsihət dinləyirdilər...»

İbn Hüseyn Beyhəqi Şafeinin «Əl-Məhasinu vəl-məsavi» adlı kitabında qeyd olunduğu kimi, Müaviyyə belə demişdir: «Əli, ən alçaq və üsyankar insanlardan ibarət bir orduya sahib idi. Mənim isə itaətkar və aralarında ixtilaf olmayan bir ordum var».

Bu halda İmam Həsənin (ə) də vəzifəsi, yalnız atası və babasının yolunu, izləmək idi. Çünki bu iki şəxsiyyət ən yaxşı və ən layiqli örnəklərdir.

Din hökmlərinə qarşı diqqətli olmaq və onlara riayət etmək, İmam Həsənin bütün hərəkət və davranışlarında öz əksini tapırdı. Lakin onun düşmənləri qarşılarında belə zərurət görmürdülər.

3. Əgər İmam Həsən ordusunu müxaliflərdən təmizləmək üçün digər ordu başçıları kimi edam etmək, sürgün etmək və ya mövqeyi zəiflətmək kimi üsullara əl atsaydı, belə bir həssas vəziyyətdə müsibət və bədbəxtçiliyin sürətlənməsinə bais olardı. Belə ki, ixtilaf və ikitərəflilik zahirə çıxar və ən azı ordunun yarısı itaətsizlik bayrağını qaldırardı. Deməli, İmam Həsənin bu hərəkəti, öz əli ilə öz ordusunda üsyan və qiyam atəşini şöləndirmək idi. Yəni müqəddəs cihadı qanlı bir daxili müharibəyə döndərmək idi. Bu isə Müaviyyənin ən böyük arzusu idi. Lakin həm öz vəziyyətini, həm də Müaviyyənin şeytani planlarını çox yaxşı bilən İmam Müctəba (ə) belə bir tələyə düşməmək üçün tədbirli və ehtiyyatlı davranırdı.

Sonunda bunu deyə bilərik ki, İmam Həsən (ə) əvvəldən axıradək müxtəlif müsibətlərlə qarşılaşan qısa müddətli xəlifəliyi dövründə bu müxtəlif əqidəli dəstəli islah edib, onları yeganə fikir altında toplamaq fürsətini əldə edə bilmədi. O şəraitdə heç kim bu işi görməyə qadir deyildir. Çünki əxlaqi fəzilətləri qısa bir zaman içərisində insanlara aşılaması qeyri-mümkündür. Bunun üçün mənəviyyatı saflaşdırmağa və illər boyu ruhu bürüyən pastları təmizləməyə ehtiyac vardır.

İkincisi, bu nəsli növbənöv aldadıcı maddi gözəlliklərlə yoldan çıxaran dəyişik hadisələr, həm islahı və həm də eyni hədəf ətrafında birləşməyi qeyri-mümkün edirdi. Bu iş, ancaq maddi istəklərin təmin edilməsilə mümkün ola bilərdi; ki, bu da bir xəstəliyi başqa bir xəstəliklə müalicə etməksən başqa bir şey olmazdı. Həsən ibn Əlinin leksikalogiyasında[1] bu üsullardan yararlanmaq qadağan və qeyri-mümkün idi.

---

[1] «Qamus» sözü ilə ifadə edilib. Bu da «lüğət» və «dərya» mənasını verir.

## ÜBEYDULLAH İBN ABBAS

Qəlbi döyüş həyacanı ilə çırpınan, iki günahsız övladının intiqam ilə alışıb-yanan bu sinəsi dağlı sərkərdə, qoşunu ilə birlikdə Deyri-Əbdur-Rəhmandan ayrıldığı gündən itibarən, mütəmadi olaraq Kufədə olub-keçənlərdən xəbər alırdı.

Übeydullah ibn Abbas, Kufədən şiə dəvət və təbliğatın günbəgün artdığı bir dövrdə çıxmışdı və bu təbliğatın təsiri ilə bir-birinin ardınca köməkçi qüvvələrin orduya qatılacağını gözləyirdi.

O, Məskinə, iki qoşunun qarşı-qarşıya gəldiyi yerə çatdıqda, Küfədəki qızğız təbliğatıların, elə də əhəmiyyətli bir dəyişiklik yaratmadığından məntəqələrdən döyüşçü dəstələrin və Mədaindən orduya qatılan könüllülərdən başqa heç kimin İmam Həsənin (ə) orduduna qatılmadığından xəbərdar oldu. Kufə bəzi nüfuzlu şəxslərinin başçılarının rəhbərlik etdiyi çirkin əməliyyatların, şiənin parlaq simalarının göstərdikləri fəaliyyətləri heçə endirən səbəb və gözlənilən ümumi səfərbərliyin qarşısını alan əsas maneə olması xəbəri Übeydullaha çatdırıldı. Təbii ki, bu xəbərlər də, öz növbəsində, Übeydullahı qəzəbləndirir və özündən çıxarırdı.

Əslində, Übeydullah, artıq köməkçi qüvvələrin gəlməsilə ümidini itirən və bu ümiddən doğan arzuları puç olan bir sərkərdə idi. O real vəziyyəti təhlil etməli və düzgün dəyərləndirməli və qoşununu nəzərdən keçirilməli, sayı 60 mindən az olmayan və öz başçılarına kortəbii şəkildə qeyd-şərtsiz itaət edən düşmən qoşunları ilə tarazlıq yaratmalı idi.

Übeydullah iki ordu arasındakı say fərqindən qorxmurdu. Onu bilavasitə düşündürən sey, iki ordunun sahib olduğu mənəvi xüsusiyyətləri idi. O hər şeydən əvvəl qoşununun ruhiyyəsinə, mənəvi gücünə əhəmiyyət verirdi. Çünki ordunun ruhiyyəsi, düşmənlə qarşılaşdığı anda istifadə edə biləcəyi yeganə güc qaynağı idi. Qoşunu ilə düşmən ordusunu müqaisə etdiksə, onların arasındakı say fərqinin böyük olduğunu gördü. Onlar

qarşıda elə bir döyüş meydanı gözləyirdi ki, orada, yalnız səmimi, müxlis və eyni zamanda yenilməz və mətin döyüşçülərdən ibarət bir ordu qalib gələ bilərdi. Belə olan halda, cihadı qənimətlər əldə etmək üçün sadəcə bir vasitə hesab edənlərin nə kimi dəyəri ola bilərdi?! Məskin qərargahına gəldiyi ilk gündən Übeydullahın ruhunda bir sıxıntı və bədbinlik meydana gəlmişdi ki, bütün sonrakı hadisələrdə onun təsirini görmək mümkündür.

Übeydullahın, qoşununun gələcəyi ilə bağlı ən böyük qorxusu, Kufədən köməyə gələcək qüvvələrin uğursuzluğa düçar olması xəbərinin düşərgəyə yayılması, bir çox dedi-qoduların və eləcə də Müaviyənin hiylə və yalan vədlərdən ibarət tələlərinin təsirli olması idi. Belə olan halda iku qoşununun eyni yerdə, eyni suyun başında və Məskin səması altında məskunlaşdığı belə bir zamanda düşmən tərəfin təfriqə, fitnə-fəsad törətmək məqsədilə düşərgədəki bəzi əsgərləri satın almadığından necə əmin ola bilərdi?! Çünki Müaviyənin bu və hər sahədə istifadə etdiyi ən təsirli bə kəskin silahı «soyuq silah»dır.

Übeydullah öz zənnində yanılmamışdır; həm səmimi insanların, həm münafiqlərin və həm də yeni dedi-qoduların (İmam Həsən (ə) tərəfindən sülh bağlanmaq üçün görüşlərinin başlanması şayiəsi[1]) doğru olmasını arzulayan öz mənafeyini güdən xainlərin bir arada olduğu Məskin qərargahında Müaviyənin ilk təxribatı özünü doğrultdu.

Bu xəbərin yalan olmasının Übeydullah ibn Abbas və xüsusi dostları tərəfindən bilinməsi, onun üçün yetərli deyildi. Onlar, bu xəbərlərin şayiə, həqiqətə zidd olduğunu və İmam Həsənin (ə), həm ətraf bölgələrə göndərdiyi xəbərdə, həm Müaviyənin yazdığı məktublarda və həm də ki, Kufədəki xütbələrdə döyüşə hazır olduğunu dəfələrlə eşitmişdilər. Ortaya atılan şayiə isə, İmam Həsənin (ə) Müaviyəyə sülh təklifi irəli sürdüyü və döyüş qərarından dönməsi idi. Əsla, bu, mümkün olan bir şey deyildir! Bu, şeytanın məharətlə oynadığı bir oyun idi. Səmimi dostlar

[1] «Nəhcül-bəlağənin şərhi» cild 4, səh. 15.

insanları sakitləşdirməyə çalışır və Mədain elçisi gələnə qədər səbir etmələrini istəyirdilər. Lakin bu cəhdlər əbəs idi və mövcud vəziyyətdə heç bir təsir göstərə bilməmişdi. Kədərləndirici xəbər ildırım surəti ilə hər yana yayılır və bu, ordunun döyüş əzmini qırırdı. Übeydullah, çox böyük incəliklə işlənmiş və əsgərlərinin ən zəif nöqtəsini hədəfə alan bu hiylə qarşısında çərəsiz idi. Bir müddət səs-küydən, qarmaqarışıqlıqdan uzaqlaşaraq çadırına çəkildi və fikrə daldı. Birdən acı həqiqət gözlərində canlandı. Bu döyüşdə qəbul etdiyi rəhbərliyini şərəfini bir andaca yox edəcəyini hiss etdi. Ləyaqətinin aradan gedəcəyini düşündü. İnsanların, onun barəsində deyəcəkləri sözlər indidən eşitmiş kimi oldu. Sanki damarlarında axan qanı dondu, dəliyə döndü. Belə ağır bir yükü qəbul etdiyi üçün indi dərin bir peşmançılıq hissi keçirirdi. Onun təbiətindəki sərtlik və tünd xasiyyəti baş qaldıraraq, bu məsuliyyəti qəbul etməsinə səbəb olan şərtləri lənətlədi. Sonra da iztirab və xudbinlik kabusunun təsirində qalaraq yıxıldı, nə edəcəyini bilməz hala gəldi.

Bir xeyri götür-qoy etdikdən sonra qoşun rəhbərliyindən imtina etməyin zəruri olduğu qənaətinə gəldi. Bu, xudbinlikdən doğan bir qərar idi. Nə bilmək olar, bəlkə də o, qaranlıq mətləblərə aydınlıq gətirəcək qəfil baş verə biləcək xəta və hadisələrdən qoruyacaq düşüncə, güc və bacarıqdan məhrum idi. Bəki, o, indi rəhbərlikdən ayrılmağa qərarlı olduğuna görə bu vəzifəni (İmam Həsən (ə) göstərişlərinə əsasən) qoşunun ikinci şəxsi sərkərdə Qeys ibn Sədin öhdəsinə buraxmalı idi. Übeydullah, zəlil və xar ruhunda baş qaldıran şikayətlərin, nankor və haqqa asi çıxan qəlbinin tək şahidi olan çadırından çıxmamış öz acizliyini açıq-aydın etiraf etməklə vəzifə və məsuliyyət boynundan atmaqda israrlı idi. Olduqca məğrur və özündən razı bir gənc olan Übeydullah, mənliyini ayaqlar altına sərərək, özünü insanların isteza və məsğərə dolu gülüş hədəfinə çevirəcək bir adam idimi?

Belə acı bir etiraf etmədən başqa bir çıxış yolu tapa bilmək ümidilə təkrar fikirə daldı. Həmin gecə əlinə Müaviyənin

məktubları keçmişdi. Lakin Übeydullah, bu çirkin şayiə və yalanların məktubları aldığı həmin şəxs tərəfindən düşərgədə yayıldığını bilmirdi. Məktublar, əhatə etdiyi məftunedici (azdırıcı) vədlərlə, belə həssas bir anda çıxış yolu axtarmağa Übeydullahın düşüncələrini daha da qarışdırır, diqqətini yayındırırdı.

Bu məktublar, «Müaviyənin qızıla boyanmış səbri və xoş xasiyyətliyi» ilə «acı həqiqət» arasındakı uçurumu görməsinə imkan vermirdi. Übeydullah düşüncə qabiliyyətini, qərarçıxarma bacarığını və gücünü itirmişdi. O, artıq sağlam düşünə bilmirdi. Haşimi bir sərkərdə, Bəni-Haşimin ən qəddar düşməni qarşısında qətiyyətlə qərar verməsi lazım olduğu halda, tərəddüd içində qıvrılırdı.

Əslində, Übeydullah vəzfəfən ayrılıb bir kənara çəklə və bir tərəddüd etmədən acizliyini etiraf etməsini içində boğa bilərdi. Daha sonra da yerinə keçəcək ikinci sərkərdənin mütləq məğlubiyyəti ilə bəhanəsinin haqlı olduğunu isbat edərək itirdiyi qurur və hörməti yenidən qazana bilərdi. Bundan əlavə öz məharət və bacarığından istifadə edərək üsyançıları susdura və özünün yaxşı xəbərdar olduğu və digər sərkərdələr tərəfindən də tətbiq edilən ümumi tədbirlərdən birini həyata keçirərək zahirdə qabalıq, amansızlıq, həqiqətdə isə idarəetmədən ibarət olan ehtiyat yolunu seçə bilərdi. Beləcə, İmam Həsənin (ə) son qərarı gələndək işlər bir az ləngimiş olardı. O zaman həm çarəsiz qaldığı vəziyyətdən çıxar, həm üzərinə düşən dini məsuliyyətdən yaxa qurtarar, həm də insanlar arasında məsğərə olunmaqdan xilas olardı. Lakin buna baxmayaraq, İmam Həsənin (ə) ordusunda rəhbər olmaq kimi şərəfli bir məqama sahib ikən o Həzrətin ordusundan qaçmaq haqqında Müaviyənin elçilərilə danışığa başlanmasında daha alçaq nə ola bilərdi ki?!

Müaviyə yazdığı məktubunda Übeydullahın iradəsinin ən zəif nöqtəsi olan məqam düşgünlüyünə və birincilik tamah dəqiq nişan alınmışdı: «Bunu bil ki, Həsən qısa ən qısa zamanda sülh

etmək məcburiyyətində qalacaq.[1] Sənə yaraşan isə tabe olmaq deyil, qabaqcıl olmaqdır».[2]

Həmin məktubda Übeydullah üçün bir milion dirhəm mükafat ayrılması qeyd edilmişdi.[3] Düşmənlərinin zəif nöqtələrindən yararlanmaqda Müaviyə olduqca mahir idi.

Əli Ədhəm Müaviyə haqında bunlar deyir. «Müaviyənin bəşəri alçaqlığa olan imanı hədsiz-hüdüdsuz idi. O, bu əqidədə idi ki, gücsüzlük və zəifliyin güc gəldiyi və çox az insanın özünü qoruya bildiyi şəkk və şübhənin hakim olduğu bir anda ən möhkəm iradəyə sahib olan şəxslər belə nəfs və tamahının qurbanına çevrilə bilər!»[4]

Əmirəl-möminin Əli (ə), Ziyada etdiyi tövsiyələrdə belə buyurmuşdur: «Müaviyə, insanın önündən, arxasından, sağından və solundan gələ bilər. Aman, ondan qafil olmayın!»[5]

Beləcə, məğlubiyyət və dünya malına tamah hissi bu Haşimi gəncə qalib gələrək onu ən çirkin xəyanət və alçaqlığın örnəklərindən biri etmiş oldu. Nə dindarlıq, nə intiqam hissi, nə qəbilə qüruru, nə Rəsulullah (s) və İmam Həsənlə (ə) olan qohumluq əlaqəsi, nə hamıdan əvvəl İmam Müctabaya (ə) beyət edərək Allaha əhd-peyman bağlaması, nə insanların dilinə düşmə qorxusu, nə də tarixin özündən intiqam alması naratçılığı Übeydullahın bu uçuruma yuvarlanmasına mane ola bilmədi.

Gecənin bir vaxtı, necə böyük bir günah işlətdiyini bilən alçaq fərari kimi Müaviyənin qərargahına qaçdı. Tarix, Übeydullahın adını «qara siyahı»ya yazaraq ondan üz çevirdi. Öz əli ilə öz məzarını qazan xainlərin cəzası, bilərəkdən və məcbur qalmadan əvvəl ölməkdir.

Übeydullahın qaçması, Məskin qərargahında tamamilə bədbin əhval-ruhiyyənin hakim olmasına səbəb oldu. Çox

---

[1] Bu söz, İmam Həsən (ə) sülh istəyi ilə bağlı Məskin qərargahında çıxarılan dedi-qodunun yalan və həqiqətdən uzaq olduğunun göstərir.

[2] «Nəhcül-bəlağənin şərhi» cild 4, səh. 15.

[3] «Tarixi-Yəqubi» cild 2, səh. 191; «Nəhcül-bəlağənin şərhi» cild 4, səh. 15.

[4] «Aləmul-ərəbi» jurnalı, il: 11, nömrə 2, səh. 30.

[5] «Kamil fit-tarixi-Yəqubi» cild 5, səh. 176.

keçmədən bu hal Mədainəyə sirayət etdi və sonda olduqca ağır bir müsibətə çevrildi. Bu böyük müsibət sonra baş verən hadisələrin səbəbkar, həm Allah yanında və həm də tarix qarşısında Übeydullahdan başqası deyil!

Übeydullahın qaçmasından sonra qoşuna rəhbərlik vəzifəsini İmam Həsənin (ə) əvvəlcədən təyin etdiyi Qeys ibn Səd isra etməyə başladı. Qeys, ərəb tarixinin etiraf etdiyi kimi, sarsılmaz inanc, ağıl və zəka sahibi, İmam Əlinin (ə) həyatda olan əshabı arasında [1] üstün bir sima idi. Gəncliyini cihad meydanlarında kecirmişdi. İnsanların nöqsanlarını görməməzliyə vuran, maddiyata olan düşkünlüklərini bəyənməyən və boynundakı vəzifələrindən qaçmalarını qəbul etməyən bir insan idi. Məskin qərargahı onun sərəncamına keçdikdən sonra o, başçısı olaraq qərargahda qalan əsgərlər arasında dolaşmağa başladı. Qaçan sərkərdəni layiq olduğu şəkildə xatırlayaraq, fərari qoşun başçısı sayəsində əsgərlərin pozulmuş əhval-ruhiyyəsini düzəltməyə, meydana gələn ruhi və mənəvi çöküntünü aradan qaldırmağa çalışdı. O, qoşuna belə səsləndi: «Ey insanlar! Bu ağılsızın etdiyi sizi narahat etməsin! Buna görə də qorxuya düşməyin. Nə onun, nə atasının və nə də qarşısının İslamda gözəl bir günləri olmamışdır. Peyğəmbərin əmisi olan bu zatın atası Bədir döyüşündə Rəsulullahla savaşmaq üçün müşrik ordusunda iştirak edirdi. Əbül-Yusr Kəb ibn Əmr Ənsari onu əsir alıb Peyğəmbərin yanına gətirdi. Rəsuli-Əkrəm onun sərbəst buraxılmasına qarşılıq olaraq fidyə alıb, müsəlmanlar arasında bölüşdürdü. Əli (ə), Übeydullahın qardaşını Bəsrəyə

---

[1] Əbül-Həsən Əli ibn Hüseyn Məsudi belə yazır: «Qeys ibn Səd, dindarlıq, zöhd və Əli sevgisində böyük məqama sahib idi. Allah qorxusu və ibadət elə uca idi ki, bir gün namaz halında ikən səcdə yerində böyük bir əfi ilanın qıvrılaraq dayandığını gördü. Qeys, başını bir az kənara çəkərək ilanın yanına səcdəyə getdi. İlan, Qeysin boğazına sarıldı, amma o, namazını olduğu kimi davam etdirdi və yalnız namaz bitirdikdən sonra ilanı tutub bir kənara atdı.
Buna oxşar bir hadisəni Həsən ibn Əli ibn Abdullah ibn Muğeyrə ibn Muəmmər ibn Xəllad, İmam Əli ibn Musa ər-Rzadan (ə) nəql etmişdir». Qeys, hicri 85-ci ildə vəfat etmişdir.

vali təyin etdi. O Əlunin (ə) və müsəlmanların malını oğurlayıb kəniz satın aldı və bunun özü üçün caiz olduğunu zənn etdi.

Übeydullah da Əli (ə) tərəfindən Yəmənə vali göndərildi. O, övladlarını ölüm ayağında tərk edərək Busr ibn Ərtatın qarşısından qaçdı. Bu gün də etdiyini hamınız gördünüz».[1]

Qeys, xüsusilə də bu kimi hadisələrdə dinləyicilərinin diqqətini istədiyi istiqamətdə yönəldə və öz odlu-alovlu çıxışları ilə onları öz təsiri altına sala bilən mahir bir xətib idi. O, bu sözlərilə insanlara elə təsir göstərmişdir ki, hamı fəryad edərək «Həmd olsun Allaha ki, onu bizim aramızda çıxardı!» [2] deyirdilər.

«İmtahan, kişilərin açarıdır sözü, bax, belə vəziyyətlər üçün söylənilmişdir».

## MÜQƏDDƏRATIN BAŞLANĞICI

Məskindən gələn ilk qasid Qeys ibn Sədin məktubunu İmam Həsənin (ə) hüzurunda təqdim etdi. Mövcud vəziyyəti barədə hesabat xarakterli daşıyan məktubda deyilirdi: *«Müaviyənin ordusu ilə üzbəüz mövqedə yerləşən Məskin qarşısında yerləşən Cənubiyyə kəndi tutulmuşdur. Müaviyə, Übeydullaha xəbər göndərərək yanına çağırmış və qəbul etdiyi təqdirdə - yarısı nəqd və qalanı isə Kufədə təslim edilmək üzrə - mükafat olaraq bir milion dirhəmlə mükafatlandıracağını vəd etmişdir. Buna cavab olaraq Übeydullah, yaxınları ilə birlikdə gecə ikən Müaviyənin qərargahına qaçmışdır. Səhər açılanda camaat öz rəhbərini qərargahda tapa bilməmişdir. Bundan sonra sizin əmrinizə əsasən mən Qeys ibn Səd namazda onlara imamlıq etmiş və idarəçiliyi öz əlimə almışam».*[3]

---

[1] «Məqatilut-Talibiyyin» səh. 35.
[2] «Məqatilut-Talibiyyin» səh. 35.
[3] «İrşadi-Mufid» səh. 170.

Məktubun ilk cümləsi, Übeydullahın, Məskinə gəldiyi gündən bu yana İmam Həsənə (ə) məktub yazmadığını göstərir.[1] Bir sərkərdənin mərkəzi qərargahla əlaqəni kəsməsi, onun lap əvvəldən itaətsizlik göstərməsinə qərar verdiyini göstərmirmi? Bunu demək çox çətindir.

Bundan əlavə, bilmədiyimiz başqa bir məqam isə Übeydullahın, Məskinə daxil olması ilə Müaviyənin ordusuna qatılması arasında məktub yazacaq imkan və fürsəti tapıb-tapmamasıdır.

Qeysin məktubu ilə birlikdə Məskin qərargahından ardı-arası kəsilmədən xəbərlər gəlməyə başladı (pis xəbərlər hər zaman daha tez çatır və daha çox yayılır) və İmam Həsən (ə) Qeysin məktubunda adı çəkilən və tarixi qaynaqlarda zadəganlar «məşhur ailə mənsubları» kimi tanıtdırılan - Übeydullahla bir araya gələrək xəyanət planını həyata keçirmələrindən xəbərdar oldu. İmam Həsən (ə) həmin «yaxınlar»dan bəzilərinin Übeydullahdan daha əvvəl qaçdığını da bildirmişdi. Gəlib çatan bəzi xəbərlərə görə Übeydullah, hətta qoşunun bayrağını da endirmişdi.[2]

Bu çirkin hərəkət düşərgədə itaətsizlik və müxalifət əhval-ruhiyyənin ortaya çıxması üçün münasib şərait yaratmışdı. İtaətsizlik ruhu, ordudakı digər qruplara da təsir etmişdi. Bəziləri, varlılara və məşhur ailələrə tabe olmaqla mənfəət əldə edəcəklərini və orduda qalacaqları təqdirdə bu gəlirlərdən məhrum olacaqlarını düşünərək qaçmaq istəyirdilər.

Müaviyə bu çür əhval-ruhiyyənin yaranması və yayılması üçün əlindən gələni etmişdi. O, yüksək həyat tərzinin naznemətі içində ərəb qururunu itirən bu bədnam və qorxaq zədaganların mənəvi durumuna yaxşı bələd idi. Elə bu səbəbdən də bu tayfanın onun tərəfinə keçəcəyini bilir və bu yöndə davamlı fərqli üsullardan istifadə edərək, müxtəlif tələlər qurub onlarla

---

[1] Çünki məktubun ilk cümləsi, Übeydullahın Məskin gərargahına giriş ilə əlaqəli olaraq ilk dəfə İmam Həsən (ə) məlumat çatdırdığını göstərir. Məktub da Qeysi tərəfindən göndərilmişdir, nəinki Übeydullah tərəfindən.

[2] «Biharul-ənvar» cild 10, səh. 114.

əlaqə yaratmağa çalışırdı. Səyləri nəticəsində bu tayfanın qürurunu maddi vədlərilə qırmağa nail oldu. Ən acınacaqlısı da o idi ki, toruna düşənləri, hər şeydən əvvəl zillət uçurumuna sürükləyirdi. Özü də elə bir uçuruma ki, qürur və şərəf hissi olan heç bir insanın belə bir uçuruma düşməsi mümkün deyil.

Beləcə, İmam Həsənin (ə) tərəfdarları Übeydullah və digər zadəganların ardınca gizlicə Müaviyyə qatıldılar.[1] Qısa vaxt bir müddət ərzində Allaha, Peyğəmbərə və Rəsulallahın övladına xəyanə edib döyüşdən qaçanların sayı 8 minə çatdı.[2]

Əhməd ibn Yaqub belə deyir: «Müaviyə Übeydullaha göndərdiyi elçi vasitəsilə onun mükafatını 1 milyon dirhəm olaraq açıqladı. Übeydullah da tərəfdarlarından 8 min nəfərlə birlikdə Müaviyəyə qatıldı. Döyüş hazırlıqları və qoşun başçılığının məsuliyyətini Qeys ibn Səd öz öhdəsinə götürdü».[3]

Bəli, 12 min nəfərlik qoşun 8 mini xəyanət etdi! Bu, 60 min inadkar düşmənlə üz-üzə duran bir ordu üçün olduqca böyük bir itki idi. Daha doğrusu, qorxunc bir süqut, acı məğlubiyyət və yaxınlaşmaqda olan faciədən də xəbər verirdi. Bu faciənin ağır məsuliyyətini isə həm Allah hüzurunda, həm də tarix qarşısında Übeydullah daşıyır.

Çox böyük sürətlə fitnəyə uyan və qaçmağa üstünlük verən bu insanlar haqqının qorunması və beyətinə vəfa edilməsində hər kəsdən daha layiq hesab etdikləri xəlifənin əmisi oğluna tabe olaraq qaçdıqlarına görə qınanmayacaqlarını zənn edirdilər. Hətta insanların qınaqları qarşısında özlərini müdafiə etmək üçün bu yanlış məntiqə sarılmışdılar. Ancaq insanlar, bu hadisəyə onların gətirdiyi bəhanələrlə qiymət vermirdilər. Bunların hamısı bir bəhanə idi. Məsələnin əsl tərəfi Müaviyyənin vəd etdiyi qızıllardan pay qoparmaq idi. Onların yanında bu zümrənin tək iftixarı, yalnız əhdə vəfasızlıq və dinlərini dünyaya satmaqdan ibarətdir!

---

[1] «Nəhcül-bəlağənin şərhi» cild 4, səh. 8.
[2] Bu rəqəmi Əhməd ibn Yəqubi «Tarix» kitabında göstərmişdir.
[3] «Tarixi-Yəqubi» cild 2, səh. 191; «Rövzətuş-şuhəda» səh. 115.

Həsən ibn Əlinin (ə) ordusundan qaçanlar, İmamın (ə) nə fəzilət və üstünlüyünü inkar edir, nə də ki, bundan xəbərsiz idilər. Elə ona görə də öz dünyəvi istəklərinə qovuşmaq üçün ilk əvvəl İmam Həsəni (ə) seçmiş, daha sonra isə yanıldıqlarını başa düşmüşdülər. Müaviyə qoşulmaları da, ona və onun vədlərinə etibar etdiklərindən və ya qarşıda onları gözləyən aqibətlərini təxmin edə bilmədiklərindən qaynaqlanmırdı. Çünki nə Müaviyə işlərini gizlin görür, nə də ki, onlar Müaviyə kimisini tanımayacaq şəxslər idilər. Bu səbəbdən Müaviyə Kufəyə daxil olduğu ilk gündəcə verdiyi bütün vədləri ayaq altına almaqla aqibətlərinin nə olacağını göstərmişdi.

Belə olan halda İmama qarşı etdikləri xəyanətin səbəbi Həsən (ə) olan düşmənçilik deyildi və cahillikdən də qaynaqlanmırdı. Bunun səbəbi Müaviyəyə qarşı bəslədikləri sevgi də deyildi. Bəlkə də ortada bizim bilmədiyimiz hər hansı bir səbəb səbəblər var ki, onlar belə bir alçaqlığa vadar etmişdir.

Nə bilmək olar, bəlkə də bütün bunlar, Kufə ordusunun zəfər çalağacağı təqdirdə onları gözləyən aqibətdən qorunmaq məqsədilə İmam Həsən (ə) müxaliflərin tərəfindən qurularaq, planlaşdırılmış bir hiylə idi.

İmam Həsən (ə), bütün müsəlmanları cihada dəvət üçün gördüyü geniş tədbirlər və müxlis və həqiqi şiələrin bu sahədə göstərdiyi canfəşanlıq, Küfə xainlərini öz gələcəkləri ilə bağlı qorxu və narahatçılıq hissi keçirməsinə səbəb olur və onları əndişələndirirdi. Elə buna görə də, Kufə ordusuna qarşı hazırladıqları, hədəf aldığı plan və hiylələri daha dəqiqi və ehtiyatla həyata keçirmək məcburiyyətində qalmışlar.

Bu qərarsız və qorxudan xilas olmağın ən qısa yolu, ordunu tərk etmək idi. Buna görə içlərindəki qorxu və iztirabdan elə o dəqiqə qurtulmaq və bu qorxunun əsl qaynağı olan Kufə ordusuna ağır zərbə endirmək məqsədilə Müaviyəyə qoşulmağa qərar verdilər. Bu qərarın çox qısa zamanda və kütləvi şəkildə reallaşması, onun, bir qurp qabaqcıllar tərəfindən qabaqcadan hazırlanmış bir planın tərkib hissəsi olduğuna dəlalət edir. Qaçış faciəsinin bu şəkildə təhlil edilməsi həmin hadisəyə dost və ya

düşmən digər tədqiqatçılar tərəfindən verilən fərqli şərhlərdən həqiqətə daha yaxın olduğu qənaətindəyik. Bu təhlil ordu başçılarından heç birinin Müaviyə tərəfindən rüşvət və vədlərlə aldadılmadığı mənasına gəlməz. Əksinə, Müaviyə, onları ələ almaq üçün heç bir şeyi əsirgəmədi və təkcə bir qoşunun başçısına 1 milyon dirhəm vəd edərək onun həm dinini, həm də şərəfinin satın aldı.

Bu hadisə ilə bağlı diqqət yetirməli olduğumuz başqa bir məsələ isə Übeydullah ibn Abbasdan başqa, xəyanətin mükafatı olaraq Müaviyədən pul alan heç bir insanın adını hallanmamasıdır. Görəsən, digər başçı və nüfuzlu şəxslərin Müaviyənin vədlərilə razılaşaraq, nəqd pul almamalarını necə başa düşmək olarmı? Əsla, xeyr! Lakin az öncə də işarə etdiyimiz kimi, öz gələcəyi haqqında narahatçılıq keçirən bu qrupun belə bir vəziyyətdə pul yerinə verilən vədlərlə razılaşması daha da ağlabatandır. Qorxunun insanlar - xüsusilə də, varlı və zəngin insanlar - üzərindəki təsirini görməmək olmaz. Allahın və mütləq ədalətin hökmran olduğu şəraitdə Şamın aldadıcı vədlərinin bu zədaganlarda xəyanət düşüncəsini təhrik etməsi və onları bu çirkin işə sövq etməsi heç də təəccübləndirici deyil.

Bir dəstənin rifah və rahatlığına düşkünlüyü, başqa bir dəstənin cəhalətdən doğan təəssübkeşliyi, istək və arzuları belə bir aqibətin yaranmasında öz təsirini göstərmiş və beləcə, ordunun təşkil edən fərqli güclərin içüzünü tam çılpaqlığı ilə aşkara çıxarmışdır.

Tamah və digər maddi amillər, qənimət sevdası ilə orduya qatılan insanları rəzalətə və alçaqlığa sürüklədi. Bu insanlar xəyanət edərək savaşmadan qənimət əldə etmək, öz canlarını təhlükəyə atmaqla vuruşaraq qənimət toplamaqdan daha cəzbedici gəlirdi. Elə bu məntiqlə hərəkət edərək qəflətdə olduqları və aldandıqları üçün seçdikləri alçaq istəklər uçurumuna yuvarlandılar.

فَمَنْ نَكَثَ فَإِنَّمَا يَنْكُثُ عَلَىٰ نَفْسِهِ ۖ وَمَنْ أَوْفَىٰ بِمَا عَاهَدَ عَلَيْهُ اللَّهَ فَسَيُؤْتِيهِ أَجْرًا عَظِيمًا

***«...Artıq hər kəs əhdindən dönərsə, zərəri ö nəfsinədir və kim Allahla əhdləşdiyi şeydə durarsa, ona yaxında böyük bir əcr veriləcəkdir».***[1]

Öz imam və rəhbərini tərk edərək üsyankar bir zalıma qoşulan bir müsəlman, həmin zalımdan daha pis və daha alçaqdır! Bu zümrə, dini zəif və dünyası dağınıq insanlardan ibarət idi. Bu səbəbdəb Müaviyənin ordusu bu cür insanlar üçün daha uyğun və daha əlverişli idi. Bu böyük bəla qaçmadan sonadək yönəlmədən mübarizə yolunu seçən, qəti ölüm qərarı ilə meydana atılan, Peyğəmbər (s) övladını müdafiə etdiyi, öz əhdinə və andına sadiq qaldığı üçün xoşbəxt olan cəsur igidləri alçaqlardan ayırd edən ağır bir imtahan idi. Məqsəd uğrunda özünü təhlükəyə atmaq, sıxıntı və çətinliklərə sinə gəlmək və fədakarlıq göstərmək bu insanların təmiz niyyətlərinin, pak mənliklərinin sarsılmaz olduğunu göstərən ən böyük dəlildir. Bax, bunlar, İmam Həsənin (ə) sadiq şiələrinin sifətləridir.

Məskində baş verən kədərli hadisələr Mədain qoşununda da öz mənfi təsirini göstərdi və hər zaman olduğu kimi, bu hadisələr, ordu dəstələrinin arasında şişirdilərək dildən-dilə dolaşdı. İraq xalqından və ayrı-ayrı birləşmələrindən ibarət olan böyük qruplar, Bəni-Haşimin nüfuzlu şəxsləri və həmçinin, Rəbiə və Həmdan qəbilələrinin sadiq gücləri də bu ordunun tərkibində idi.[2]

Əgər orduda fitnəkarların müxalifət dalğasını yatıra biləcək bu sıldırım qayaların mövcud olmasıydı, bu xəbər şiddətli bir zəlzələ kimi qərargahı lərzəyə gətirəcəkdi. İmam Həsən (ə) bu xoşagəlməz hadisələrin qarşısında güclü qəlbləri və ölümsüz ruhları ayağa qaldıran ümid silahına əl atmışdı. O, belli bir

---

[1] «Fəth» surəsi, ayə 10.

[2] «Kamil fit-tarix»in 8-ci cildinin 19-cu səhifəsində belə bir rəvayət edir: «Əbdül-Ərif belə deyir: «Məskində Həsən ibn Əlinin ordusununb ön cərgəsində idik və Şam ordusu ilə döyüşmək üçün həqiqətən özümüzü fədakarlığa hazırlamışdıq...»

məkan və zaman xas məğlubiyyət və uğursuzluğu, - özü olmasa belə, düşüncəsinin mövcud olduğu - başqa bir şəraitdə bar verməyəcəyi mənasına gəlmədiyinə inanırdı. İstər zəfər, istərsə də məğlubiyyətdə İmam Həsəni (ə) daima düşündürən və onun insanlığının özəyinin təşkil edən şəxsiyyətindəki Rəbbani təcəlli nöqtəsi də bu idi. Allah qarşısında öz mənliyindən keçmək və üzərinə düşən ilahi vəzifələri icra etmək üçün fəna olma yolunu seçmək də eyni mənbədən qaynaqlanırdı.

İmam Müctəba (ə) ardı-arası kəsilməyən hadisələrin ardınca yavaş-yavaş baş qaldıran fitnə atəşindən xəbərdar olsa da, ordusuna cihad hazırlıqlarına bir an belə dayandırmadı. O Həzrətdən, fitnənin baş qaldırdığı bu zaman ərzində faciənin əhəmiyyəti haqqındakı biliyini ortaya qoyan və ya mövcud vəziyyəti pisləyən qəzəbli bir kəlmə və ya cümlə belə eşidilmədi. Söylədiyi hər bir söz, orduda nizam-intizamı qorumaq və İslamda cihad pirnsipinə sadiq qalmaqla əlaqədar olmuş və ordusuna bu həqiqəti öyrətmək və bu yöndə təlimatlandırmaq məqsədi güdmüşdür.

O, üzünü Kufəyə doğru çevirdi, xatirələri arasında nəsə bir şey axtarırmış kimi bu şəhərin, özünün və atasının yaxşılıqları qarşısındakı nankorluqlarını gözləri önündə canlandırdı. Bu şəhər şöhrət və möhtəşəmlik qazandıran, İslam aləminin ən böyük paytaxtlarından birinə çevirən, müxtəlif irq və fərqli ənənələri bir araya toplayan mədəni və iqtisadi baxımdan dünyanın ən böyük paytaxtları ilə rəqabət apara biləcək bir səviyyəyə çatdıran İmam Həsənin atası Həzrət Əli ibn Əbu Talib (ə) idi. Kufə, İmam Həsənin (ə) siyasi düşüncəsində hər şey idi. Başqa sözlə desək, Kufə onun üçün qara günlərə, qanlı hadisələrə və indi yaşanan bir çox bəlalara ev sahibliyi edən bir səhnə idi. Kufə və onun xalqının özü ilə bağlı olan keçmişini düşündükdə, olanların o Həzrətə beyət etdikləri zaman onlarla şərtləşdiyi kimi istədiyi hər hansı bir qüvvə ilə vuruşmaq və ya sülh bağlamaq xüsusunda qeyd-şərtsiz itaəti hamılıqla qəbul etdiklərini xatırladı. Sonra Məskində baş verən hadisələrə nəzər saldı. Kufə ordusuna hakim olan sarsıntıları, savaşdan

çəkinmələri, qaçmağa meyili olmaları, maddi ləzzətlərə aldanmaları, açıq-aşkar itaətsizlik göstərmələri, ilahi əhdi pozmaları gözləri önündə canlandı.

Müsəlmançılıq iddiasında olan, zahirdə Həzrət Məhəmmədə (s) imam gətirən və gündə beş dəfə namazlarda Rəsuli-Əkrəmə və onun Əhli-beytinə salavat və salam göndərən insanların alçaqlığı, dinə qarşı laqeydliyi və əxlaqi baxımdan zəifliyi, Peyğəmbərə xəyanət etməyə və Allahın əhdini pozmağa gətirib çıxaracaq qədər arsız və rəzil olmaları, eləcə də Müaviyənin onları gözləyən ölüm və yoxsulluğu dəf edə biləcəyi xəyalı ilə yaşamaları İmam Həsənə (ə) çox ağır gəldi. Qoy elə zən etsinlər ki, Müaviyə onların yolunda özünü sipər edəcək! And olsun Allaha, bu, mümkün olacaq şey deyil. Ölümdən qaçış yoxdur!!! Müaviyənin rüşvət və vədləri, onlar üçün təqdir edilmiş halal ruzi və nemətdən daha faydalı ola bilməzdi. Bu səbəbdən Müaviyə çox keçmədən Kufə şəhərində kürsüyə çıxacaq, hamını gözü önündə əhd-peymanını və andını pozduğunu deyəcək və hamısının ayaqları altına aldığını[1] elan edəcəkdi. Bu, onun zəfər və hakimiyyətə yiyələnmək üçün öyrəndiyi və fürsət yarandıqda istifadə etməkdən çəkinmədiyi bir üsul idi.

Yoxsulluq qorxusu ilə imam və rəhbərini tək qoyanlar Müaviyənin öz əhdini pozduğuna şahid olduqları gün hara qaça bilərdilər?! Allah yolunda və Peyğəmbər övladının cərgəsində cihad edərək ölümə qucaq açmayan bu insanlar «möhkəm qala»larda olsalar belə, qovuşacaqları ölümə nə çarə tapacaqdılar?! Bu insanlar həm din, həm də dünyadan məhrum oldular. Nə Allahdın əhdinə vəfalı oldular, nə də Müaviyənin rüşvətlərini əldə edə bildilər. Bu, onlardan əvvəl atalarının haqlayan və Cəhənnəm atəşinə atan «cahiliyyət ölümü» idi.

---

[1] Bu cümləyə bir çox tarixi qaynaqlarda rast gəlmək olar. Əbu Məhəmməd ibn Müslim ibn Qüteybə ibn Əmr Bahili Dinəvəri «Tarixul-xiləfa ir-raşidin və dövləti-Bəni-Ümeyyə» kitabının 151-ci səhifəsində eyni cümləni qeyd etmişdir (Misir, Mustafa Məhəmməd nəşriyyatı).

Kufəlilərin Məskində üzərinə düşən ən böyük günah, hələ hər şeyin həll edilə biləcəyi bir mərhələdə onlardan bəzilərinin xəyanət məqsədilə cəbhələşmə və yazışmalara başlamaları idi.

Məskin qoşunundakı məşhur ailə mənsublarından bir neçəsinin üzü Mədaində İmam Həsənin (ə) gözləri önündə canlandı. O, bu insanların öz sözlərində sadiq olmadıqlarını bilirdi. Bunlar, zahirdə İmma Həsəndən və Kufədəki cammaatla bir olsalar da, batində İmam sevgisindən məhrum, Onun hədəfləri uyğunda fədakarlıqdan uzaq insanlar idilər. O Həzrət bu iyrənc simaları tanıyır və əleyhinə edilən hərəkətlərdən də xəbərdar idi. İmam Həsənin (ə) yanında olduqları müddət ərzində dindarlığı öz dünyəvi istəklərə çatmaq üçün sadəcə bir vasitə seçmiş və onları, əslində yanlış olaraq seçdikləri bu hədəfə çatdıracaq yolu tapdıqlarının zənn edirdilər. Ancaq yanılmışdılar! Bunu başa düşdükdə, öz gələcəklərini sığortalamaq məqsədi ilə xəyanətə əl atdılar. Onlar İmam Həsən (ə) beyət etdikləri halda, vaxtı ilə həyatı atası Həzrət Əliyə (ə) zəhər edən və aşkar şəkli özünə ölüm arzulamasına səbəb olan qeyri-insani xüsusiyyətlərini yenidən nümayiş etdirməyə başlamışdılar.

İmam Həsən Məskindəki qoşunun gələcək taleyi ilə oynayan, saysız-hesabsız (Müaviyə məktublarından birində belə yazırdı «*...və qızlarımdan birinin...*» [1]) vəd və rüşvətlərinə aldanaraq ordusunu qaçmağa təşviq edən Müaviyənin əlaltılarının bu insanlar olduğunu qəti olaraq bilirdi.

Düşmən çıxılmaz vəziyyətdə ikən yaranan fürsətləri dəyərləndirmək Müaviyənin ən bariz xüsusiyyəti idi. O, hər şeydən əvvəl bu cür çıxılmaz vəziyyətləri yaratmaqda və ələ düşən fürsətləri dəyərləndirməkdə böyük «bacarıq» sahibi idi. Onun hiyləgərliynə məəttəl qalan insanların diqqətini ən çox çəkən məqam sa bu idi. Bu sahədə o qədər «bacarıqlı» idi ki, tərcümeyi-halını yazanlar belə səhvə yol verərək onu «dahi», «mahir siyasətçi» və «bacarıqlı sərkərdə» kimi tanıtdırır.

---

[1] «İləluş-şərayi» səh. 84.

Halbuki, Müaviyənin həyatının hər bir dövrünü, bütün hərəkətlərini incələsək, onun bir çox üzü ortaya çıxacaqdır:

- Bədr döyüşündə müşrik ordusunda Peyğəmbərə (s) qarşı vuruşan döyüşçü[1];
- Məkkə fəth edildiyi gün azad edilənlərdən biri;
- Əlqəmə ibn Vail Həzrəminin arxasınca Mədinədə ayaqyalın qaçan[2] alçaq yoxsul[3];
- Ömər və Osman tərəfindən Şama vali olaraq təyin olunan və 20 il müddətində bu vəzifədə qalan başçı;
- 4 il boyunca möminlərin əmiri İmam Əli və oğlu İmam Həsənlə savaşan üsyankar və vəzifəsindən uzaqlaşdırılmış vali;
- Özünü Allah Rəsulunun (s) xəlifəsi elan etdiyi halda, peyğəmbərin sünnətinə və gətirdiyi qanunlara açıq-aşkar müxalifət edən və «And olsun Allaha, dünyada dadmadığım bir ləzzət qalmadı»[4] deməkdən çəkinməyən həyasız!

Bu şəkildə dərin araşdırma apardığımız zaman bir çoxlarının Müaviyəyə nisbət verdikləri müsbət sifətlərin heç də hamısını etiraf etməməyimiz doğru olmazdı.

Bu araşdırmalardan sonra əldə edə biləcəymiz tək nəticə budurki, Müaviyə istər cahiliyyət dövründə, istərsə də İslamda əlinə düşən bütün fürsətlərdən böyük «məharət»lə yararlana bilmişdir.

İnsanın, öz məqsədinə çatma yolunda qürurunu aradan apara biləcək və cəmiyyəti zahirədə olsa belə qane edə bilməyəcək vasitələrə əl atması, eləcə də dinin ziddinə getməsi və adət-ənənələrə hörmətsizlik göstərməsi və eyni zamanda dinin və ictimai dəyərlərin qorunması və riayət olunmasından dəm

---

[1] İbn Nədim «Əl-Fihrist» kitabının 249-cu səhifəsində belə yazır: «Hişam ibn Həkəmdən, Müaviyənin Bədr döyüşünü görüb-görmədiyi soruşuldu. Hişam: «Bəli, həm də qarşı orduda yer almışdı», - deyə cavab verdi».

[2] Hafiz Əbu Bəkr Əhməd ibn Hüseyn Beyhəqi Şafei: «Məhasinu vəl-məsavi» cild 1, səh. 109 və 210.

[3] Dimyeri belə yazır: «Bir qadın, Peyğəmbərin hüzuruna gələrək Müaviyə ilə evlənmə barəsində məşvərət etdi. Rəsulallah (s) belə buyurdu: «O, mənliyi olmayan bir yoxsuldur!» (cild 1, səh. 59)

[4] «Məhasinu vəl-məsavi» cild 1, səh. 109 və 210.

vurması, nə bilik və zəka, nə də ki, sözün əsl mənasında siyasətdir.

İnsanların normal həyatını alt-üst etmək, açıq-aşkar küfr və təhqirə əl atmaq və bunu adət halına gətirərək insanları Həzrət Əliyə və Əhli-beytə lənət oxumaları və küfr etməyə məcbur etmək, öz sözünün üstündə durmamaq ağıl və zəkaya uyğun gəlməyən şeylərdir. Bu kimi xüsusiyyətlərin heç biri nə dahilik, nə də ki, siyasi baxımdan ləyaqətin göstəricisidir. Bütün bunlar, vəhşilik və qəddarlığdan xəbər verir ki, bu da üstünlük deyil! Çünki adi insanlar arasında düşmənlərinə qarşı eyni üsuları Müaviyədən daha peşəkar şəkildə istifadə edə bilən insanlar vardır. Onda belə çıxır ki, bu insanlar Müaviyədən daha ağıllı və bacarıqlıdırlar! Müaviyənin istifadə etdiyi bu iyrənc üsullar heç bir şəkildə dahilik hesab oluna bilməz!

Etdiyi günaha görə Müaviyə «dahi» kimi tanıdılırsa, onda bu məntiqə əsasən məqsədinə çatmaq üçün daha qatı və qeyri-insani üsullara əl atan Yezidi, daha böyük «dua sahibi» kimi təqdim etmək lazımdır!

Şərqi Rum (Bizans) imperatorluğu məmnun etmək üçün böyük məbləğdə pullar axıtmaq, Kufəyə daxil olduqda öz siyasətinin əksinə etdiyi düşünülməmüş və ehtiyacsız çıxışlar, Mərci-Əzra şəhidlərinə qarşı etdiyi axmaq hərəkətlər Müaviyənin gücsüz olduğunu göstərir. Müaviyənin yalnız bir «bacarıq»ı onun dahi olduğunu düşnən insanların haqlı olduğunu göstərir. Bunu qəbul etmək unsafsızlıq olardı. Belə ki, Müaviyə öz gələcəyini nəzərə alaraq planlı şəkildə hərəkət etmiş və sözügedən hadisəyə çox böyük həssaslıqla yanaşaraq çevrəsindəkilərə qəbul edəcəkləri bir bəhanə gətirmişdir. Burada Osmanın xilafətdən kənarlaşdırılması və öldürülməsi qarşısında Müaviyənin səssiz qalmasını və öldürülən xəlifəyə heç bir yardım etməməsi nəzərdə tuturuq. Əslində, Xəlifəyə yardım etməməklə günahkar bir duruma düşdüyü halda gətirdiyi bəhanə ilə onun tərəfdarlarını ətrafında toplayaraq istədiyi istiqamətdə yönəltməyi bacardı. Artıq Osmanın adamları sağ ikən ona yardım etməyən Müaviyənin ətrafında bir araya gələrək və

öldürülmüş xəlifəyə yardım etmək istəyirdilər. Lakin bu bədbəxt biçarələr Müaviyə, əslində Osmana deyil, şəxsi maraqlarına yardım etmək istədiyini başa düşmürdülər.

Müaviyə, bu axmaqlardan öz maraqları üçün istifadə edərək Həzrət Əli (ə) qarşısında zəif olan ordusunu gücləndirmiş oldu. Bax, Müaviyə, bu yerdə özünü tarixə «hərbiçi» kimi təqdim etdi. Ancaq kəlməsinin ifadə etdiyi iki məna nəzərə alınmaqla heç bir yerdə Müaviyənin «hərbiçi»[1] olmasını təsdiq edə biləcək bir dəlilə rast gəlməkdik. Nə hər hansı bir savaş planı hazırlamış, nə savaş meydanında başçı olaraq özünü göstərmiş, nə də ki, biri tərəfdən təkbətək döyüşə çağırıldığı zaman igidlik və qəhramanlıq göstərərək meydana atılmışdı. İmam Əli (ə), Siffeyn döyüşündə Müaviyəni meydana çağırmışdı[2]. Müaviyə

---

[1] Bu söz «nizami» kəlməsi ilə ifadə edilib. «Hərbiçi», «əsgər» mənaları verir.

[2] Hafiz Əbu Bəkr Əhməd ibn Hüseyn Beyhəqi Şafei «Əl-Məhasinu vəl-məsavi» kitabının 1-ci cild 37-ci səhfəsində belə yazır: «Siffeyn döyüşü başladıqda İmam Əli (ə) Müaviyəyə bələ bir məktub yazdı: İnsanlar niyə səninlə mənim aramda qalıb öldürülsünlər?! Çıx ortaya! Əgər məni öldürsən, sən rahat olasan. Yox əgər səni öldürsəm, mən rahat olaram».

İmamın sözlərindən xəbərdar olan Əmr ibn As Müaviyəyə belə dedi: «Bu adam səninlə insaf üzrə danışır və haqlıdır. Meydana atıl və onunla döyüş!» Müaviyə dedi: «Sənin dediyini əsla etməyəcəyəm, Əmr ibn As. Döyüşə çıxım ki, o, məni öldürsün, sən də xilafətə əl atasan?! Əbu Talibin oğlu Əlinin qəhrəmanlar və igidlər ağası olduğunu bütün Qüreyş qəbiləsi bilir».

Həmin kitabın 38-ci səhifəsində isə belə yazır: «Şibidən belə rəvayət edilmişdir: «Müaviyə bir dəstə insanla Əmr ibn Asın ona tərəf gəldiyini gördü və birdən gülməyə başladı. Müaviyəni bu halda görcək Əmr ona belə dedi: «Ey möminlərin əmiri! Allah üzünü güldürsün və gözlərini işıqlandırsın. İndi güləcək nə var, mən bir şey görə bilmirəm!» Müaviyə dedi: «Yadındadır? Mən Süffeyn döyüşündə iraqlılarla döyüşə çıxdıqda, Əli ibn Əbu Talib sənə tərəf hücuma keçdi. Sənə yaxınlaşanda özünü atdan atıb məhrəm yerlərini açdığın günü xatırlayıram. Böyük bir Haşiminin qarşısında bunu etməyi ağlına necə gətirdin? Çünkı o, istəsəydi səni öldürərdi!»

Əmr ibn As cavabında belə dedi: «Ey Müaviyə! Mənə gülməkdənsə, özünə gülsən, daha yaxşı olar! Əgər Əlinin qarşısına mənim çıxdığım kimi sən çıxsaydın, and olsun Allaha ki, bir zərbə ilə uşaqlarını yetim qoyacaqdır. Sərvətin talan ediləcək və bütün gücün alınacaqdı. Amma sən silahlı insanların arxasında gizlənmişdin. Əli səni döyüşmək üçün meydana

isə bir müddət tərəddüd etdikdən sonra alçaq adamlar kimi təkbətək döyüşdən imtina etmişdi. Çünki onun «bacarıq»ı daha əvvəl də söylədiyimiz kimi, olduqca məhdud və özünəməxsus comərdliyi var idi. Onun bir hədəfi də var idi ki, bütün varlığı bu hədəfə çatmağa həsr etmişdi. Onun bacarığı, insanların çətin vəziyyətə düşmələrindən, sıxıntı və çarəsizliklərindən meydana gələn fürsətlərdən yararlanmaq idi. Hədəf və məqsədi, hakimiyyəti ələ keçirmək və güc qazanmaq idi. Comərdliyi isə, Axirət hesablaşmasında savab qazanmağı qarşısına məqsəd qoyan birinin comərdliyinə bənzəmirdi.

Müaviyə, ən cəsur İslam əsgəri ilə üzbəüz vuruşmaq iqtidarında olmadığını yaxşı bilirdi. Elə buna görə də iraqlılarla apardığı döyüşləri öz mənfur xislətinə uyğun şəkildə taktiki gedişlər etməklə mümkün olduğu qədər silahlı döyüşləri fitnə-fəsad törəməklə əvəzləyə bildi. Müaviyənin Siffeyn döyüşündə qazandığı təcrübələr də bu qənayəti bütövlüklə təsdiq edirdi.

Həmin döyüşdə mütləq məğlubiyyətlə üz-üzə gəlmiş və atına minərək gizlincə qacmağa qərar vermişkən, son anda böyük müşavir Əmr ibn Ası işə qatdı. Bunula da müsəlmanlar üçün bir sıra ağır çətinliklər və fəsadlarla nəticələnən böyük bir fitnəyə əl atdı.

---

çağıranda sənin nə halda olduğunu heç cür yadımdan çıxara bilmirəm. Gözlərin qaralmışdı, alnından tər axırdı. Ağzının və burnunun suyu bir-birinə qarışmışdı. Altından da, adını söyləməkdən xoşum gəlməyən şeylər çıxırdı!!!» Müaviyə qəzəblənərək: «Bəsdir!... Bu qədərinə nə ehtiyac var idi?...» - dedi.

Əbül-Həsən Əli ibn Hüseyn Məsudi də onların bu söhbətini eynilə, olduğu kimi qeyd etmişdir. Ancaq onun rəvayətində Müaviyə ilə Əmr arasındakı söhbət belə başlayır: «Əmr ibn As dedi: «Əgər Misir və oranın valiliyi məsələsi olmasaydı, özümü qurtarardım. Çünki Əbu Talib oğlu Əlinin haqq, özümünsə batil olduğunu bilirəm». («Tarixi ibn Əsir» cild 6, səh. 91)

Müaviyə ona belə dedi: «And olsun Allaha, Misir sənin gözlərini kor edib. Əgər Misir olmasaydı, gözün kor olmazdı».

Bunu dedikdən sonra Müaviyə mənalı bir şəkildə gülməyə başladı. Əmr ibn As təəccüblə soruşdu: «Ey möminlərin əmiri! Niyə gülürsən? Allah üzünü hər zaman güldürsün!» Müaviyə cavabında: «Siffeyn döyüşündə Əlinin hər zaman qarşısındakı təşəbbüs və yaradıcılığına gülürəm!..» - dedi.

Müaviyənin həyat fəlsəfəsində müvəffəqiyyətin rəhni fitnə-fəsad törətmək və hiyləgərlikdən ibarət idi. O, fitnənin silahdan daha təsirli və qat-qat artıq dağdıcı gücə malik olduğunu dəfələrlə sınaqdan keçirilmişdi. Vəziyyət belə olduğu təqdirdə, qarşılaşdığı çətinliklər qarşısında niyə görə də fitnəyə əl atmasın?! Bir halda ki, hələ heç kim Müaviyənin bu sahədə qazandığı uğurlara imza ata bilməmişdi. O bunu ilk növbədədə 20 illik Şam valiliyindən əldə etdiyi hədsiz-hüdudsuz sərvətə və daha sonra idə bu sahədə «mütəxəssis» olan Müğeyrə ibn Şöbə və Əmr ibn As kimilərlə birlikdə olan fəaliyyətinə borclu idi. Bu sahənin böyük qəhramanı Əmr ibn As idi. O, İslam ümmətinin bünövrəsində dərin çatlar əmələ gətirmişdi.

Müaviyə, Ziyad ibn Übeyd Rumini də iyrənc bir oyunla İmam Həsənin (ə) qərargahından ayırıb[1], bu iki nəfərə əlavə

---

[1] İmam Əlinin (ə) xilafəti dövründə Bəsrə valiliyinə təyin olunan Abdullah ibn Abbas, Ziyadı, İranın bir bölgəsinə rəhbər olaraq göndərmiş və İmam Həsənin xilafətində də öz vəzifəsində qalmışdı.

Müaviyə Ziyada təhdidlə dolu və eyni zamanda vədlər verən məktublar göndərirdi. Ziyad bu məktubları oxuduqdan sonra bir xütdə oxudu və Müaviyəni pisləyərək, onu «Həmzənin ciyərini yeyən qadının oğlu, nifaq qaynağı, Xəndək döyüşündəki cəmiyyətin artığı» olaraq tanıtdı. Bundan başqa, Ziyad o gün tərəfdar olduğu və itaət etdiyi – Rəsulullahın (s) oğullarının varlığı ilə Müaviyəni təhdid etdi. Kitabın «Ordunun sayı» bölməsində son xütbənin tam mətnini oxuya bilərsiniz.

Ziyadın istilhaqı (Əbu Süfyan soyuna daxil edilməsi) hadisəsi də qısaca belə baş vermişdi: Əbu Süfyan, Taif şəhərində Hərs ibn Kildə Səqəfitə vergi (bac) ödəyəb «Bayraq sahibləri»ndən (şəhərə girən yolçulara və xaricilərə bildirmək üçün evin qapısına bayraq tikən faişələr) olan Süməyyə adında bir qadınla zina etmişdi. Həmin zinanın məhsulu da Ziyaddır.

Müaviyə bu tamah Süməyyə və onun kimi faişələr dəllallıq edən İbn Əsma və Əbu Məryəmin şahidliyuni qəbul etdi. Beləcə, Müaviyə, Ziyadı şəri və qanuni qardaş olaraq tanıtmaqdan israrla Əbu Süfyanla Süməyyə arasında belə bir görüşün olmadığına dair Qüreyşdən şahid hazırlayan və bu barədə and içmələrini təmin edən kürəkəni Abdullah ibn Amirə (Müaviyənin qızı Hindin əri) əhəmiyyət belə vermədi.

Bu hadisədən sonra Əbu Süfyanın qızı Cüveyriyə Ziyadın yanında örtüyünü açaraq belə dedi: «Sən, artıq mənim qardaşımsan! Əbu Məryəm belə deyir!»

Ziyad, yatağında dünyaya gəldiyi birinci atası Hərs ibn Kildə Səqəfinin rumlu köləsi Übeyd haqqında belə demişdir: «Übeyd, təşəkkür etdiyimiz və minnətdar olduğumuz bir atadır...»

İstilhaq hadisəsi (doğru və əmin nəzərə qörə) hicri 41-ci ildə olmuşdur. Camaatın nəzərində bu hadisə İslam qarşı açıq şəkildə edilən ən böyük ehtiramsızlıqdır.

İbn Əsr Cəzri Əli ibn Məhəmməd yazır: «İstilhaq, şəri hökmləri rədd edən ilk hadisə olmuşdur. Çünki Rəsulallah (s) bu barədə uşağın yataq sahibinə aid olduğunu və zina edənin də daşlanmasının zəruriliyini əmr etmişdir. Müaviyə bu hökmə xilaf çıxaraq cahiliyyət adətlərinə uymuşdur. Allah-Təala bir ayədə belə buyurmuşdur: ***«Onlar cahiliyyət dövrünün hökmünü istəyirlər?! Heç şübhəsiz, inanc sahibləri üçün***

***yəqinliyi olanlar üçün***

***Allahddan daha gözəl hökm verə bilən kimdir?»*** («Maidə» surəsi, ayə 50.)

Ziyad, ərəblərin onun yeni soyunu qəbul etməyəcəklərini bilirdi. Çünki ərəblər işin əsl mahiyyətini çox yaxşı bilirdilər. Bu yalanın sonrakı məqsədindən xəbərdar idilər. Bu səbəbdən o, «Məsalib» adlı bir kitab hazırladı və bu kitabda hər bir nöqsanı ərəblərə nisbət verdi ki, bu da onun irqçiliyini isbat etdi.

Kufə, ilk Əməvi valisi Muğeyrə ibn Şöbə Səqəfidən sonra Ziyadın hakimiyyəti altına girməklə bir anda həlak oldu. Ziyad Kufəni cəhənnəmə çevirdi. Artıq Kufədə sakitləşmək bilməyən bir təlatümün baş verməsi qaçılmaz idi.

Məhəmməd ibn Cərir Təbəri «Tarix» kitabının 4-cü cildin 123-cü səhifəsində bunları yazır: «Ziyad Kufəyə gəldikdə belə dedi: «Sizdən bir şey istəməyə gəldim ki, bunu yalnız sizin üçün istəyirəm». Camaat dedi: «Hər nə istəyirsən, de». Ziyad: «Mənim Müaviyənin qardaşı olduğumu qəbul edin» - deyə müraciət etdilsə də, əhali etiraz edərək belə cavab verdi: «Əgər bizdən yalandan şahidlik etməyimizi istəyirsənsə, bunu, şübhəsiz, qəbul etmərik!»

Kufə və Bəsrə vilayətlərini ilk dəfə olaraq birlikdə Ziyad idarə etmişdi. İlk dəfə silahlı əsgərlərlə və müşayiət edilən və keşikçilər tərəfindən mühafizə olunan da Ziyad olmuşdur.

Özü olmadığı zaman vəkil kimi Sumrə ibn Cündəbi Bəsrədə, Əmr ibn Hariysi də Kufədə qoyurdu. Bir dəfə 6 ay sonra Bəsrəyə qayıtdıqda Sumrənin hamısı Quran hafizlərindən ibarət 8 min nəfəri öldürdüyünü gördü.

Ziyad hicrətin 53-cü ilində ölmüşdür. Hicrətin 159-cu ilində Abbasi xəlifəsi Mehdi bu nəsil dəyişikliyinin (Ziyadın Əbu Süfyanın oğlu və Müviyənin qardaşı olması iddiasının) qeyri-mümkün olduğunu elan etdi. Ziyadın nəslindən gələnlərin Qüreyş və ərəb divanlarından çıxarılması əmrini verdi. Bu tarixdən etibarən Ziyad, Romalı bir kölə olan əsl atasına nisbət edilərək xatırlanmağa başladı».

edərək qorxunc bir «üçlük» əmələ gətirdi. Dində yaranan hər bir ixtilafın və baş verən istənilən təxribatın qaynağı bu iki üçlük idi.

Bu sözlə, sözün əsl mənasında fitnə çıxarmaq Müaviyənin seciyyəvi bir cəhəti idi və heç kəs bu sahədə onunla rəqabət apara bilməzdi. Buna misal olaraq, onun İmam Həsənə (ə) qarşı başladığı savaşda meydana çıxıb müharibə etmək əvəzinə hiylə yolunu tutması və ortalığı bir-birinə qataraq döyüşün gedişatını dəyişməsini göstərə bilərik.

Müaviyə, qoşunlarını İraq sərhədində yerləşdiyi zaman, döyüşmək fikrində idi. Lakin qarşı tərəfin gözlənilməz hücumundan ehtiyat edirdi. Onun istədiyi təxribat və hiyləyə əl atmaqla döyüşün başqa bir məcraya yönəldilməsi idi. Bu sirrini isə heç kimə açmırdı. Süni və yaltaq davranışları ilə insanların mənafeyini düşünən rəhbər görüntüsü yaradırdı.

Məsələn, İmam Həsənlə (ə) apardığı döyüşdə hər iki ordunun əsgərlərinə nəzər saldıqdan sonra bunları söyləmişdir: «Əgər bunlar onları və onlar da bunları öldürəcəksə, mənim insanlarla artıq nə işim ola bilər?!»[1] Yaxud da belə deyirdi: «Kiçik bir iş, daha böyük bir işə çarə qılar».[2]

Kim bilir, bəlkədə Müaviyə bununla vaxt qazanmaq istəyirdi. Bəlkə də, iraqlılar savaşmaqdan çəkinir, döyüşün onun əleyhinə nəticələnməyindən narahatçılıq qorxurdu. Əgər bu ehtimal doğrudursa, onda qətiyyətlə söyləyə bilərik ki, Müaviyə Kufədəki həqiqi duruma dair sağlam bir məlumatda sahib olmamış və şiələrin təbliğatının oradakı vəziyyəti nə dərəcədə əks etdirdiyini bilməmişdir. Digər bir ehtimal isə Müaviyənin bu cür davranmaqla, Peyğəmbərin (s) iki oğlu ilə vuruşmaq xəcalətindən özünü qurtarmaq istəməsi idi. Çünki ümmət İmam Həsən və İmam Hüseynin (ə) Cənnət cavanlarının ağaları olduğunu bilirdi. Belə olduqda, heç bir bəhanə Peyğəmbərin

---

[1] «Tarixi İbn Kəsir» cild 8, səh. 17.
[2] «Tarixi-Məsudi» cild 4, səh. 47.

nəvələri ilə döyüşməyi müsəlmanlarının gözündə haqlı göstərə bilməzdi.

Belə davranmasının başqa bir səbəbi də bu ola bilərdi ki, Kufə xainləri gizlincə Müaviyəyə göndərdikləri məktublarda əmrinə tabe olmağa hazır olduqlarını bildirmiş, ona söz vermiş və əvəzində bəzi vəzifələri əldə etmə vədini almışdılar. Buna qarşılıq olaraq, iki ordunun üz-üzə gəldiyi zaman İmam Həsənin (ə) əlini-qolunu bağlayaraq təslim edəcəklərini, ya da sui-qəsd həyata keçirib öldürəcəklərini bildirməklə, Müaviyəni özlərinə tərəf hərəkət etməyə təşviq etmişdilər.[1]

Bu arada diqqət çəkən maraqlı məqamlardan biri də budur ki, Müaviyə, ona ünvanlanan məktubları toplamış və sonra Müğeyrə ibn Şübə, Abdullah ibn Amir ibn Kureyz və Əbdür-Rəhman ibn Həkəmdən ibarət bir heyət vasitəçiliyi ilə İmam Həsənə göndərmiş,[2] onu həmin məktublardan və ordusundakı xainlərin gizli məqsədlərindən xəbərdar etmişdi. Bu işdə başqa bir məqsəd isə heyətin, İmam Həsəndə sülhü və uzlaşma əlamətləri hiss etdikləri zaman sülhü gündəmə gətirmək və yeri gəldikdə müzakirələri başlatmaq idi. İmam Həsən (ə) diqqətlə kufəlilərin yazılarına və imzalarına (sanki onların yazılarını və imzalarını tanıyırmış kimi) baxdı. Bunların həqiqətən onlara aid olduqlarına tam əmin oldu. Lakin bu görüş imamın, yoldaşları ilə bağlı məlumatına, onlar haqqında daha əvvəl bildiklərinə yeni bir şey əlavə etmədi. Onlar onsuz da əxlaqsızlıqları, dünyapərəstlikləri və azğınlıqları ilə seçilirdi və imam onları çox yaxşı tanıyırdı. İlk dəfə insanları cihada dəvət etdiyi ilk anda etibarən qurduqları təxribatları, başına gətirəcəklər bəlaları bilirdi.

İmam Həsən (ə) Şam nümayəndəsi ilə söhbət etdi və son dərəcə diqqətli ifadələr işlətdi və qəti heç bir şey ifadə etmədi. Hər hansı bir sirrini də açmadı. Onlara xitab etdi və bu söhbət əsnasında Müğeyrə və yoldaşları haqqında xeyir dilədi.

---

[1] Bu mövzuya dair mənbələrə «Beyət» bölümündə işarə etmişik.

[2] «Tarixi-Yəqubi» cild 2, səh. 191.

Həmçinin onlara, Allahın əmrinə tabe olub ona yardım etmələrini və dəvətdən boyun qaçıraraq itaətsizlik göstərməkdən çəkinmələrini istədi Allah və Rəsulunun qarşısında özü barəsində məsuliyyəti onlara bir daha xatırlatdı.

Bundan sonra nələrin baş verdiyini bilmirik. Mənbələrdə də sülh haqqında müsbət, ya da mənfi bir şey söyləyib-söyləmədiyi barədə hər hansı bir açıqlama yoxdur. Bildiyimiz bu qədərdir ki, Muğeygrə və yoldaşları Mədain düşərgəsinə gəlmiş, İmanın çadırına qonaq olmuş və ən böyük fitnə toxumunu səpmədən onları tərk etmişlər. İmanın çadırından çıxdıqdan sonra ətrafdakı çadırları gözdən keçirir və təbii ki, izləndiklərini bildikləri üçün öz aralarında danışmağa başladılar. Onlardan biri qəsdən yüksək səslə yanındakına belə dedi: «Yaxşı oldu. Allah, Peyğəmbərin oğlunun əli ilə müsəlmanların qanını qorudu, fitnə alovunu söndürdü və sülh istəyini ortaya çıxardı».[1]

Sözsüz ki, bu danışıq sülhü zor və hiylə yolu ilə əldə etmək planının bir parçası idi. Bu, Mədaindəki mürəkkəb vəziyyətdə və Məskində baş verən xoşagəlməz hadisələr səbəbindən bədbin əhval-ruhiyyənin hakim olduğu bir şəraitdə vurulan vurulmuş son zərbə idi.

Mədain əsgərlərinin böyük əksəriyyəti döyüşməkdə israrlı idi və əsla sülhə tərəfdar deyildi. Onlar, Müaviyə ilə döyüşmək üçün səfərbər olmuş Məskin mücahidləri və Mədaindəki ehtiyat qüvvələrin zərurət yaranacağı təqdirdə Məskindəki ordu lazımi dəstəyi verə bilməyəcəyini düşünürdülər. Ancaq bu əsgərlər arasında bu cür düşünməyən, amma düşünməkdə israrlı olan insanlar da var idi. Çünki: «Hər nə bahasına olursa-olsun, Müaviyə ilə döyüşmək fikrində idilər».[2] İmam Həsənin ordusunda iştirak edən xəvacirlərin şüarı bu idi. Belə bir vəziyyətdə Muğeyrə və yoldaşlarının: «Həsən sülh imzalamağı qəbul etdi» şəklindəki sözləri həzm edilə bilərdimi? Çünki

---

[1] «Tarixi-Yəqubi» cild 2, səh. 191.
[2] «Biharul-ənvar» cild 10, səh. 110; «İrşadi-Mufid».

onlara (xəvaricə) görə belə bir şeyi söyləmək küfr və buna qarşı dözümlülük yolverilməz idi.

Xəvaricin üsyanı, say baxımından onlaradan qat-qat çox olan başqa qrupların da qiyamına səbəb ola bilərdi. Çünki əsgərlərin çoxu onsuz da ruhi sarsıntı keçirən qərarsız, qətiyyətsiz insanlar idi. Xüsusi ilə də daim itaət və üsyan arasında tərəddüddə qalan rəzil və alçaq xislətlilər belə vəziyyətlərdə dərhal özlərinin iç üzünü göstərirdilər. Bunlar bir sözə bənd idi və dərhal fitnəyə və ara qarışdırmağa baslaya bilərdilər.

Şamlı üçlüyün böyük ustalıqla hazırladığı bu plan Mədainin talehi üzərinə dərin izlər buraxan bir fitnəyə zəmin yaratdı. İndi cox asanlıqla İmam Həsənin Şam nümayəndəsilə sühdən və ya sülhə hazır olduğu haqda bir kəlmə belə söhbət etmədiyini söyləyə bilərik. Əgər onların dediyi kimi olsaydı və İmam sülh təklifinə müsbət cavab vermiş olsaydı, hər şey sona çatacaq və artıq İraq ilə Şam arasında hər hansı bir savaş olmayacaqdı. Belə olan halda bu fitnəkarlığın nə mənası ola bilərdi? Belə bir vəziyyətdə nümayəndələrin bu cür hərəkət etməsi sülh zamanı silahdan istifadə etməkdən başqa bir şeydirmi?! Yoxsa sülh, silahları yerə qoymaq deyilmi?

İmam Həsən sülhü qəbul etməsi ilə bağlı hər hansı bir şey söyləməmişdi və bu sözlər, Şamın ən təhlükəli silahı olan fitnəkarlığı işə salmaqdan başqa bir şey deyildi. Müaviyə, bu silahdan istifadə etmək üçün çox böyük riyakarlıqla əlindən gələni edirdi. Belə ki, istifadə etdiyi ifadələr xüsusi incəliklə seçir, sözlərini ehtiyat və ədəbi ustalıqla söyləyirdi. Bütün bacarığını sərf edərək yalan xəbərlər uydurur, sonra da bunları İmam Həsənin (ə) qərargahına çatdırırdı. Məsələn, bir nəfəri İmam Həsənin Mədaindəki qərargahına göndərir və Abbasın oğlunun qacmasından sonra Məskindəki ordunun başçısı Qeys ibn Sədin sülh imzalayaraq onun tərəfinə keçdiyi şayiəsini yayırdı.[1] Sonra da bir başqasını İmam Həsənin (ə) Müaviyə ilə

[1] «Tarixi-Yəqubi» cild 2, səh. 191.

sülh bağladığını və ona müsbət cavab verdiyini söyləməklə əsgərlər arasında çaşğınlıq yaratmaq məqsədilə Qeysin Məskindəki qərargahına göndərdi. Daha sonra Mədain düşərgəsində «Qeys öldürüldü buradan ayrılın!» kimi başqa bir şayiə yayırdı.[1]

Bu kimi şayiələr Mədain qoşununa necə təsir edəcəyini heç təsəvvür edirsinizmi? Xüsusilə də xəyanət edəcəyini heç ağıllarına belə gətirmədikləri əvvəlki qoşunun başçısının xəyanətindən sonra ikinci qoşun başcısının da xəyanət etməsi və ya öldürülməsi xəbərini niyə də inanmasınlar?!

Məskindəki vəziyyət Mədaindən heç də fərqli deyildi: Eyni kin-küdurət, hər an qaçmağa hazır olanlar, araqarışdıranlar, fitnəkar, yalançı və sözgəzdirənlər. Bir sözlə, həmin xoşagəlməz vəziyyət orada da mövcud idi. Müaviyyə məqsədinə elə bu vasitə ilə - fitnə-fəsad törətməklə çata bilmişdi. Artıq İmam Həsənin hər iki qoşunu bu ağır faciənin qurbanına çevrilmişdi. Öz aralarında baş qaldıran fırtınalarla mübarizə apararaq döyüşə bilməyəcək bir hala gəldi.

İslam dini, Ərəbistan yarımadasında kök saldığı və möhkəmləndiyi gündən bu yana bu cür böyük və ağır bir müsibətlə qarşılaşmamışdı. Çünki xilafət məqamı, dörd bir tərəfdən - əsgərlərin süstlüyü, qoşun başçılarının xəyanəti, dostların həmfikir olmaması və hiyləgər düşmənlərin həmlələri ilə - mühasirəyə alınmışdı. Bu əlverişsiz şərait hər yeri öz təsiri altına almışdı və bu arzuolunmaz vəziyyət böyük, qarşısıalınmaz fəlakətlərdən xəbər verirdi. Bu hadisələr, təəssüflər olsun ki, İslam tarixininn ən qısa, ən şanlı və ən parlaq dövrlərindən birinin acınacaqlı bir sonluqla başa şatmasına səbəb olmuşdu. Bu fəlakət İslam tarixinin ən uğursuz dövrlərindən birinin başlanğıcı təbilini çalmaqla yanaşı, bir-birinə əks idarəetmə üsulları fərqli xüsusilərilə açıq-aydın pozğunçuluğu ilə formalaşmış «zalım səltənət»in[2] zidd nöqtəsini göstərirdi.

---

[1] «Tarixi-Yəqubi» cild 2, səh. 191.

[2] Deyləmi, cild 1, səh. 58. İmam Həsən (ə) xilafətini təhlil etdikdən sonra belə söylədiyini yazır: «Bu, Rəsulallah (s) xiılafət dövrü üçün işarə etdiyi

İmam Həsən (ə) həmin vaxt hər şeydən əvvəl tənəzzülə uğrayan mənəvi gücün geri qaytarılmasına əhəmiyyət verir və İslamın qorunmasına hər bir müsəlmandan daha çox maraq göstərirdi. O, polad tək möhkəm iradəyə sahib bir şəxs idi. Məlum hadisələr və müsibətlər ixlasını artırmaqdan, üzərinə düşən vəzifəsini icra etmək üçün var qüvvəsini bir yerə toplamaqdan və əqidə uğrunda canını sevə-sevə fəda etməkdən başqa onun üzərində heç bir təsir buraxa bilməzdi. Heyrət və tərəddud yaradacaq o qədər səbəbin olmasına baxmayaraq, onda cüzi dərəcədə bir heyrət və çaşqınlıq belə hiss olunmadı. Nə köksü daraldı, nə peşmançılıq hissi keçirdi, nə də ki, vicdan əzabı çəkdi. Yalnız dərin düşüncələrə daldı: ən doğru addımı atmaq, daha uyğun çıxış yolunu tapmaq və doğru bildiyi işi həyata keçirmək məqsədilə hərtərəfli tədbir görmək üçün.[1]

## TƏRƏDDÜD VƏ QƏRARSIZLIĞIN İNCƏ MƏQAMLARI

Düşünməyə başladı... Çünki vəziyyətin olduqca təhlükəli olduğunu və məsələnin böyük bir faciə və ya zillət, alçaqlıq və əsilzadələri yaraşmayan şərəfsiz bir ölümlə nəticələnəcəyini bilirdi. Çarəsiz və nə edəcəyini bilməyəcək. Şübhə onu çarəsiz, əlibağlı qoya və nə edəcəyini bilməyəcək dərəcədə tərəddüd içində olmasa və nə qədər acı olsa da həqiqəti olduğu kimi görürdü. Bu, onun qəlbini od kimi yandırıb-yaxırdı. Bu acınacaqlı vəziyyət onu israrlı şəkildə çıxış yolu axtarmağa məcbur edirdi. Ancaq bu çıxış yolu zillətə, alçaqlığa və bu faciə

---

müddətin sonunu göstərirdi. Bu vaxtdan sonra zalım şah dövrü və Peyğəmbərinmizin (s) işarə etdiyi kimi, haqsız, ətrafa siyarət edən fəsad sultanının dövrü başlamışdı».

[1] İbn Kəsir İmaddədin İsmayıl ibn Ömər Dəməşqi Şafei «Tarix» kitabının 8-ci cildinin 19-cu səhifəsində belə şərh verir: «O (İmam Həsən), bu hadisələr qarşısında sağlam xarakterli bir İmam olduğunu isbat etdi. Ruhunda kiçik bir sıxıntı və vicdanında bir peşmançılıq və narahatlıq hiss etmədi, sıxılmadı. Hər hadisə qarşısında daim gülərüzlü idi».

qarşısında məğlub duruma düşməsinə səbəb olmamalı və eyni zamanda şərəf və qüruruna yaraşmayan bir ölümlə nəticələnməməli idi.

Bir yandan onu hər tərəfdən əhatə edən real və üzücü vəziyyət və digər tərəfdən heç bir əsası olmayan dedi-qodular və başqa bir tərəfdən də dəhşətli hərc-mərcliyə sürüklənməsi...

İmam Həsən (ə) bu qorxulu hadisələr qarşısında bir dağ kimi idi. Heç bir sarsıntı onu yerindən tərpədə bilmirdi. Saleh bir rəhbər olaraq cahillərin səhalətinə görə qəzəblənmir. Qüsur axtaranların məzəmməti onu özündən çıxarmırdı.

Ətrafında başverənləri diqqətlə izləyib planlar hazırladı, bütün verilən məsləhətləri dinlədi. Lakin ən axırda irəli sürülən bütün fikirləri araşdırdıqdan sonra qəti qərara gəlməli idi. İmamın həmin anda nə düşündüyünün bütün incəlikləri və təfsilatı ilə bilməyimiz qeyri-mümkündür. Ancaq bunun dəqiq bilirik ki, İmam, Allahın onda nə istədiyinin, Peyğəmbərin (s) ona hansı göstərişi verdiyini və əqidə və düşümcəsinin qorunmasına zəmanət verən çıxış yolunun hansı yol olduğunu düşünürdü.

İnsanların dedikləri onun üçün o qədər də əhəmiyyətli deyildi. Unutmayaq ki, O, ruhani bir rəhbər idi. O, bu dünyada yaşamağı tək bir məqsəd, canını ulu Yaradanın yolunda fəda etmək, Allah qullarının ondan faydalanmalarının təmin etmək və yaxşılıq etmək üçün istəyirdi. Belə olduqda, Allahın yolunda sahib olduğu bu mənəvi məqam qarşısında insanların sözlərinin nə əhəmiyyəti ola bilər ki?! Öz mənəvi gücü və var qüvvəsi ilə başqalarının xeyrə çatmasına çalışan bir rəhbər və imamın bundan başqa düşüncəsi ola bilməz! Onun düşüncəsi, onun fikri və bütün insani keyfiyyətləri Allahın iradəsi, Peyğəmbəriin (s) əxlaq və tərbiyəsi və möhkəm əqidənin sayəsində formalaşmışdır. Buna görə də az öncə söylədiyimiz kimi, çaşqın və nə edəcəyini bilməyəcək qədər tərəddüd içində deyildi. Çünki Allahın və Peyğəmbərin (s) yolu gün kimi aydın idi.

Obyektiv şərtlərin insanı seçim qarşısında qoyması, istəyinə zidd addım atmağa məcbur etməsi, getdikcə də qəlizləşən böhran

və durmadan gərginləşən vəziyyət olduqca ağır və üzücü idi. Belə bir vəziyyətlə qarşı-qarşıya gələn bir insanın fikirlərinin caşqın və dağınıq olması təbii bir haldır. İnsan belə vəziyyətdə bir şeyi edib-etməmək və qorxu ilə ümid arasında tərəddüddə qalır. Belə bir şəraitdə hər şeydən əvvəl düşünməyə, araşdırma aparmağa, qətiyyət nümayiş etdirməyə və insanları və qərar verməkdə möhkəm iradəyə ehtiyac duyulur və insanların hansı mənəvi gücə malik olması belə böhranlı vəziyyətlərdə üzə çıxır. O, necə də möhtəşəm bir nəfs və necə də böyük mənəvi bir ruhdur! Bu həmin nəfsdir ki, bəlalar üzərinə hücum etdiyi zaman Allahın təqdirinə razı olmuş, üzünü çevirmiş və Ondan başqasına sığınmamışdı. Allahdan başqasından hidayət gözləmirdi. Bu təmiz və saf nəfsdir ki, vəzifə yükünün ağırlığı altında süstlük və laqeydlik göstərmirdi. Bu nəfs, qarşısına çıxan müsibətdən daha əzmli və daha sərtdir. İmanın dostlarının heç birindən, o Həzrətin baş verən hadisələr qarşısında çarəsiz qalması barədə hər hansı bir şey eşitməmişik. O, bu zaman əzm, möhkəm iradə və qətiyyətlə hərəkət etmişdir. Hətta Allahla yalvarışla münacat etdiyi zaman söylədiyi sözlər belə İmamın sarsılmazlığı, Yaradana bağlılığını və yalnız Ona arxalandığını göstərir. Dualarını birində bunları söyləmişdi: «Alahım! Ey güc və qüdrət sahibi! Ey əzəmət sahibi! Başqasından necə qorxa bilərəm? Axı mənim ümidim Sənsən. Nədən əndişələnim? Axı Sənə arxalanıram. Mənə səbir ver və düşmənlərimin qarşısında məni qalib et. Məni öz yardımınla dəstəklə. Sənə sığınıram, pənahım Sənin lütfündür. Yolumu aç, məni bu işdə müvəffəq et!

Ey Hərəm əhlini Fil əshabının fəlakətindən qoruyan Allahım! (Quru palçıqdan olan) daşların hədəfi olsunlar deyə, onların üzərinə dəstə-dəstə quşlar göndərdin. Düşmənlərimə ibrət alınacaq bir əzab ver!»

Nəhayət, insanı məyus edən və qəhərləndirən düşüncələr arasından bir ümid qığılcımı çaxdı. Bu, onun yalvarışlarının cavabı idi. Parladı və könül oxşayan ətri ilə (müjdə sevincinin xəbərçisi imiş kimi) ruhuna yayıldı.

Hadisənin qəribəliyinə baxın. Bir anlıq bütün qəm-qüssə aradan getdi. Hər şey arxada qaldı. Artıq acı xatirələrdən heç bir əlamət qalmamışdı. Əksinə, onları düşündükcə ruhunda böyük həzz alırdı.

Bəzən insanın ruhu ağrılı-acılı müsibətlərin təsiri ilə sıxıldı zaman anidən baş verən kiçik bir hadisə nəticəsində ruhundakı bu sıxıntı fərahlığa, darlıq genişliyə, ümidsizlik ümidə, şəkk-şübhə və tərəddüd isə əzmkarlığa və qətiyyətə çevrilər. O, indiki əlverişsiz şəraitdə öz gələcəyi üçün narahatçılıq keçirirdi. Çünki mqəddəslərə açıq-aşkar hörmətsizlik göstərən riyakar düşmənə sülh əlini uzadacağı təqdirdə babası Rəsulallahın (s) sirəsinə nə dərəcədə uyğun hərəkət edib-etməməsi fikrinin onu rahat buraxmayacağını düşünürdü.[1] Lakin bu yeni təsadüf onu bir neçə il geriyə qaytardı. Birdən özünü nübuvvət zamanında, vəyhin nazil olduğu anda mühacir və ənsarın arasında gördü. Bu, bütün qəm-qüssəsini aradan aparan unudulmaz şirin bir röya idi. Ulu babası öz ilahi hakimiyyətini, özünün də bir üzvü olduğu ailədə sürdürür. Quran ayələri ayələr, ulduzlar kimi, bir-bir Allahın sonsuz elmindən yer üzünə endirdi. Göylərin elçiləri olaraq enirmiş və sadəcə öz ailələrinə gələrmiş kimi.

Bu da atası..... Peyğəmbərin (s) canişini, böyük mücahid. Adlı-sanlı ərəbləri Allah kəlamı qarşısında ram edən o nəhəng şəxsiyyət. Sanki elə indicə Xeybər qalasının fəth etmiş və geri dönürmüş kimi.

Bu da kamil ismət nümunəsi olan anası... Fatimə... ki, Rəsulallah (s) onu (xiristianlara qarşı) mübahiləyə apardı və O, hər zaman haqqına yanında idi. O, dünya qadınlarının xanımı idi....

Bu cismanı həqiqəti olmayan şirin röya olsa da, bir sıra mənəvi həqiqətlərə söykənirdi. Ona görə də bu röyaları görənin ruhu, bədəni onların bədəni ilə bütünləşdiyi kimi, eynilə o babanın, o atanın və o ananın ruhuna qovuşaraq bütünləşirdi.

---

[1] «Biharul-ənvar» cild 10, səh. 107. İmam Həsənin sözləri olaraq rəvayət edilir.

Bu səbəbdən Allah, Həsən, babası, atası, anası və qardaşından ibarət heyəti Nəcran nəsraniləri (xristianlar) ilə mübahiləyə (qarşılıqlı lənətləşmə) yolladığı zaman və onların arasındakı bu cismani bağlantı və bütünlüyü bəyan etmişdir. Peyğəmbər də Əhli-beyti, yəni öz ailəsindən seçdiyi bu dörd nəfəri əbası altına topladığı gün (Əhli-beytin bütün nöqsan və çətinliklərdən uzaq və pak olması barədə) nazil olan «Təthir ayəsi»[1] də sözü gedən şəxslər arasındakı cismani və ruhani bağlantı və bütünlüyü bir daha ifadə etmişdi.

Allahım! Bu nə ehtişam, bu nə əzəmətdir ki, İslamda heç kim buna ortaq deyildir! Ətrafını bürüyən kədərli üfüqlər arasında uşaqlıq və gənclik illərinin unudulmaz mənzərələri gözlərinin önündə canlandı. Onun üçün çox qiymətli olan keçmiş günlərini xatırladı. Mədinədə həmyaşıdları arasında üstün mövqeyə sahib olan Həsən kamilliyə aparan pillələri bir-bir adlayırdı. O zamanlar ya atasının güclü qolları arasında, ya da Peyğəmbərin (s) sinəsi və ya kürəyində, ya da babasının minbərində oynayırdı. O günlərdə Peyğəmbərə nazil olan vəhyi elə anındaca dinləyər, Allahın kəlamını Rəsulunun dilindən eşidərdi. Elmini elm və bilik mənbəyindən alardı və beləcə, özü üçün təqdir edilən rəhbərliyə və imamətə hazırlanırdı. Peyğənbərin, (hər zaman çox yaxşı xatırladığı) özünün ümmətə rəhbərlik etməyə layiq olduğuna dair sözlərini qəlbinin qulağı ilə dinləyərdi. Rəsulallah (s) onun ümmətə rəhbərlik etməyə layiq olduğunu dəfələrlə söyləmişdir.

Bunlar, insana sevinc, qürur və böyük fərəh bəxş edən ən şirin xatirələrdir. Bu xatirələr o qədər cəzbedici idi ki, bütün varlığını bürümüşdü. Bunların təsiri, heç kimin onun gülümsəməsini gözləmədiyi bir halda üzündə təbəssüm şəklində təzahür edirdi.

Babası Rəsulullahı (s) gördü. Sanki onu, anasının kürəyindən götürmüş və əlindən tutaraq gəzdirirdi. Rəsulallah

---

[1] «Əhzab» surəsi, ayə 33-ə bax.

həzin səslə bu cür zümzümə edirdi: «Ey kiçik ayaqlı balaca bala! Yuxarı çıx! Ey gözümün işığı!»

O, balaca ayaqları ilə yavaş-yavaş yuxarı çıxır və ayaqlarını Rəsulallahın (s) sinəsi üzərində qoyurdu. Peyğənbər (s) onun öz ağzını açmasını istəyir və körpənin ağzını öpürdü. Sonra bunları söyləyirdi: «Allahım! Bunu sevirəm. Sən də onu sev. Onu sevənləri də sev».[1]

Bu xatirə son zamanlar baş verən xoşagəlməz hadisələrin ağrı-acısı yaddan çıxacaq və insanı ruhlandırmaq başqa xatirələrin canlanmasına səbəb oldu. Hər bir insanın həyatının ən parlaq günləri, təmiz və sadə uşaqlıq günləridir.

Qucaqlarında böyüdüyü müqəddəs insanların himayəsi və içində yaşadığı cəmiyyət ona təcübə qazandırmaqla, şəxsiyyətinin formalaşmasın yardım edirdi. O dövrün insanın beyninə, ruhuna və qəlbinin dərinliklərində həkk olan xatirələri, əsla, unudulmaz. Məsələn, birdən babası Rəsulallah (s) xatırladı. Onu sağ, qardaşı Hüseyn də sol çiyninə qoymuşdu. Əbu Bəkr onlarla qarşılaşır və «Uşaqlar, gözəl miniyiniz var!» deyir. Rəsulallah (s) isə belə buyurur: «Amma bu ikisi də yaxşı atlıdır. Mənim bu dünyada xoşbəxtliyimə səbəb olan bunlardır».[2]

Başqa bir xatirə canlandı zehnində: Babası Rəsullah (s) dizləri üstə oturmuşdur. Həsəni öz kürəyinə, qardaşı Hüseyni də onun kürəyinə mindirmişdir. Sonra da belə dedi: «Nə gözəl dəvəniz var. Siz necə də gözəl cütlüksüz».[3]

Bir başqa günü xatırladı. Babası (s) səcdəyə getmişdir. O da gəlib babasının boynuna oturmuşdur.[4]

---

[1] Əbil-Qasim Məhəmməd ibn Ömər Carullah Zəməxşəri «İbnul-bey»; «Yənabiul-məvəddə»; «İsabə» cild 2, səh. 12 və s.

[2] «Məhasunu vəl-məsavi» səh. 49.

Bu ikincisi, adı keçən hədisi şeirə çevirən Himyerinin sözlərini də nəql etmişdir: «Oynamaq üçün bayıra çıxdıqları bir gündə Peyğəmbər (s) Həsən və Hüseynin yanına gəldi. İkisini qucaqladı və «Canım sizə qurban olsun» - dedi. Bu ikisi Peyğəmbərin (s) yanında belə yüksək məqama sahib idilər».

[3] İbn Bətta «İnabə».

[4] İmamül-hərəm Mühəddis Hafiz Əhməd ibn Abdullah Əbu Nəim İsfahani Şafei «Hilyətul-övliya».

Bir gün babası rükuda idi. Gəlib ayaqlarının arasından keçmişdir.[1]

Babasına sual verildiyi bir başqa günü xatırladı: «Sən bu uşaqla - Həsənlə davrandığın kimi başqa heç kimlə davranmırsan. Bunun səbəbi nədir?» Peyğəmbər (s) cavabında belə buyurmuşdu: «Bu, mənim xoşbəxtliyimin mayasıdır. Mənim bu oğlum bir ağadır ki, Allah müsəlmanlar arasında sülhü onun əli ilə bərqərar edəcəkdir».[2]

Bir gün Peyğəmbər (s) məsciddə xütbə oxuyarkən boynuna çıxdığını xatırladı. Belə ki, ayağındakı xəlxalın (ayağa taxılan bilərzik) parıltısı məscidin o biri başından da hiss edilirdi. Ağappaq ayaqları babasının sinəsində parıldayırdı. Rəsulallah (s) xütbəni qurtarana qədər elə o vəziyyətdə də qaldı.[3]

Bir gün məscidin qapısında yerə yıxıldığı üçün Peyğəmbərin (s) minbərindən endiyini, yüyürərək onu qaldırıb özü ilə birgə minbərə çıxardığını və sonra da Rəsulallahın: «Ey insanlar xəbəriniz olsun ki, oğul, möhnət və imtahandır» dediyini xatırladı.[4]

Babasının dəfələrnən ona «Sən əxlaqda və yaradılışda mənə oxşayırsan» dediyi yadına düşdü.[5]

Bir gün yuxudan oyandıqda atasının və anasının söhbət etdiklərini görmüşdü. Atasına tərəf dönərək, «Atacan! Mənə su ver!» demişdi. Atası onu yatağından qaldırmış, bol süd verən bir dəvədən süd sağmış, köpüklənmiş bu südün dəri və ya taxtadan düzəlmiş bir qaba tökərək ona gətirmişdi. O vaxt qardaşı Hüseyin oyanmış və «Atacan! Mənə su ver!» demişdi. Peyğəmbər Hüseynə «Övladım! Qardaşın səndən daha böyükdür və səndən əvvəl məndən su istədi» demişdi.[6]

---

[1] «İsabə» cild 2, səh. 11.
[2] «Hilyətul-övliya».
[3] «Biharul-ənvar» cild 4, səh. 58.
[4] Tirmizi «Mənaqi»; Səmani «Ənsab»; Əhməd «Fəzail».
[5] Əbu Həmid Məhəmməd ibn Məhəmməd Qəzali «İhyau ulumiddin»; Məkki (Əbu Talib)i «Kutul-kulub».
[6] «Kitab Süleym ibn Qeys» səh. 98.

Gözündə bir xatirə daha canlandı. Uşaq vaxtlarında anası Fatimənin (ə) önündə oturmuşdu. Elə bu vaxt babası gəldi. Onun oyun oynadığını görcək Fatıməyə belə dedi: «Allah, gələcəkdə sənin bu oğlun vasitəsilə iki böyük müsəlman dəstəni barışdıracaqdır».[1]

Uşaqlıq dövrünün ruhi əzəmətinin göstəricilərindən biri olaraq bu hadisən xatırladı; Rəsulallah (s) minbərində oturmuş Əbu Bəkrin yanına gədərək «Babamın yerından düş!» demişdi.

Xatirələr bir-bir gözlərinin önündə canlanırdı. Bir gün Rəsulallah (s) onu özü ilə birgə minbərə çıxarmşıdı. Bir ona bir də xalqa baxaraq danışırdı; «Bu, mənim oğlum ağadır, seyiddir. Bir gün onun əli ilə Allahın müsəlmanlar arasında sülhü bərqərar edəcəyi gözlənililır».[2]

Bu səhnələr İmamın əhval-ruhiyyəsinə çox böyük təsir göstərirdi. Tarixin bu unudulmaz xatirələri, həmin dəhşətli hadisələrin və başına gələn müsibətlərin ağrı-acısının unutduraraq ona rahatlıq və yüngüllük bəxş edirdi. Beləcə hər xatirə bir başqa xatirəni yada salır, gözünün önündə keçən hər bir səhnələrin canlanmasına səbəb olurdu.

O, babasının sözlərinə, Quran ayələrinə inandığı qədər inanırdı. Sanki, indi babası onunla danışırdı. Onun o cəzbedici səsi İmam Həsənin qulağında cingildəyirdi. Anası Fatiməyə və ya minbərin üzərində, yaxud da səhabələrinin arasında o məşhur sözünü bir daha təkrarlayırdı: «Bu, mənim oğlum seyiddir, Allah onun əli ilə iki müsəlman dəstəni barışdıracaqdır».

İmam Həsən özünə gəldi... və belə deyirdi: Görəsən Rəsulallah (ə) bu gün şamlılarla sülh bağlamağımı nəzərdə tuturdu? Görəsən, Şamın azğın insanları müsəlman bir qrupdur

---

[1] Şəhabuddin Əbu Ömər Əhməd ibn Məhəmməd ibn Əbdür-Rəbih Qirtəbi Əndulusi Maliki «İqdul-Fərid» cild 1, səh. 194; «Hilyətul-övliya»; «Yənabiul-məvəddə»; «Murucuz-zənəb»; «Məhasinu vəl-Məsavi» cild 1, səh. 40 və Məhəmməd ibn İsmail Buxari, Xətib Bağdadi, Səmani, Hərqusi, Cənabizi və s.

[2] Məhəmməd ibn İsmail Buxari, Müslim ibn Həccac Nişapuri «İsabə» cild 2, səh. 12.

ki, bu hədisin işarə etdiyi kəslər olsunlar? Görəsən, Peyğəmbərin (s) mənim tərəfimdən yatırılacağını xəbər verdiyi fitnə, qarşılaşdığım bu fitnədirmi? Məgər biz, bu anda bu fitnəni əzəcik, yatıracaq gücə sahib deyilikmi?

Həsən ibn Əlinin zehnində bu fikirlər keçirdi, ruhunda fırtınalar qopurdu ki, bunu da tarixi bir dəyişikliyin başlanğıcı kimi qiymətləndirmək mümkündür. Bunlar elə suallardır ki, bu onlara veriləcək cavab gələcək müqəddəratı təyin edəcəkdir.

Həsən (ə) vaxtilə babasının yol göstərdiyi bu xatirələrdən belə bir nəticə çıxarırdı ki, babası ən çıxılmaz anlarda belə öz himayəsini ondan əsirgəməmişdi. Buradan zehnində belə bir fikir oyandı ki, əgər yuxarıdakı suallara və bu vəziyyətə münasib bir cavab taparsa, onda mövcud çıxılmaz vəziyyətdən çıxış yolu tapa biləcəkdir.

Bəli, Peyğəmbərin (s) bu sözü söylədiyi, danılmaz bir həqiqətdir. Bu hədisdə işarə edilən «fitnə» də o anda ümməti öz cənginə alan fitnədən başqa bir şey düyildi. Müsəlmanları bir-birinə qarşı qoyan, onları ayrı-ayrı hissələrə parçalayan və pusqu qurub zərbə endirməyə hazırlaşan düşməndən qafil olmalarına səbəb olan belə fitnədən daha böyük bir fitnə ola bilərmi?![1] Bu elə bir fitnə idi ki, müsəlmanları daxili, nizam-intizan və xarici düşmənə qarşl cihad etmək kimi əsl vəzifələrdən ayırmışdı... Bu üsyançıların, bu azğınların müsəlman olmasına gəlincə, bu məsələ İmam Əlinin (ə) onlara qarşı davranışından da başa düşülür. Çünki Əmirəl-möminin (ə) əsgərlərinə, onların qadınlarını və uşaqlarını əsir almağı qadağan etmişdi. Heç şübhəsiz Həzrət Əli (ə) bu davranışı, yol göstərən ən yaxşı yol ən yaxşı örnəkdir!

«Bu fitnəni yatırtmaq üçün kifayət qədər güc yox idimi?» sualına gəlincə (yeri gəlmişkən onu da qeyd edək ki, Kufədə cihad qərarı verdiyi zaman şiələr bunu böyük coşqu və hərarətlə qarşılamışdılar), İmam Həsənin (ə) əsgərlərinin sayı və ordunun

---

[1] Burada hicri 40-cı ildə Bizans imperatorunun Şam sərhədindəki fəaliyyətlərinə işarə edilir.

mənəvi gücünü diqqətlə araşdırıldıqdan və qüvvələr arasındakı mövcud imkanları yetərincə dəyərləndikdən sonra dürüst şəkildə cavablandırmaq olar.

Ordudakı əsgərlərin mənəvi gücü, hadisələri soyuqqanlıqla qarşılaya bilməsi olduqca əhəmiyyətlidir. Bu, kəmiyyət və say çoxluğundan da böyük önəm kəsb edən bir amildir.

İmam Həsənin (ə) əsas ordusu Məskində idi. Bu ordu, ordu başçısının xəyanətindən və 8 min nəfərin qaçmasından sonra ancaq bir möcüzə nəticəsində mənəvi güc tapa bilərdi.

Mədaində də bəziləri var idi ki, onlar öz qəlblərində bəslədikləri kin-küdrəti fürsət tapan kimi biruzə verməkdən çəkinmirdilər. Onların törətdikləri bu iğtişaşlar çirkin gələcək məqsədlərindən xəbər verirdi. Bunlara bel bağlayaraq nə bir fitnə basdırmaq, nə hər hansı böyük bir işə başlamaq, nə də ki, döyüş meydanımda mübarizə aparmaq olardı. Bütün bunlar ordunun mənəvi gücünü və əhval-ruhiyyəsini əsk etdirən göstəricilər idi.

Ordunun sayına gəlincə, bu hadisədə İmam Həsənin ordusundakı əsgərlərin sayı 20 min və ya bundan bir az çox idi. Bunun müqabilində Müaviyənin İraq sərhədində yerləşdiyi ordusundakı əsgərlərin sayı 60 min idi. İmam Həsən, Müaviyənin ordusunun 1/3-i qədər əsgəri olan bir orduya sahib idi.

Satqın əmisi oğlunun 8 min nəfərlə Məskin düşərgəsindən qaçaraq Müaviyənin cərgələrinə qatılmasından sonra qüvvələr arasındakı fərq daha da böyüdü. Bu isə o deməkdir ki, İmam Həsənin hər düşərgədəki əsgərlərin cəmi sayı, Müaviyənin əsgərlərinin 1/5-nə bərabər idi. Əgər ordunun mənəvi gücünün say baxımından 3 dəfə aşağı olduğunu nəzərə alsaq, son dərəcə acınacaqlı bir vəziyyət yaranır. Belə olan vəziyyətdə, İmam Həsənin ordusundakı qüvvələrin sayı, Müaviyənin əsgərlərinin 1/15-i nisbətində idi.

Əgər hesablamanı Məskində qalan əsgərləri nəzərə alaraq aparsaq, onda Məskində yerləşən qoşunu özündən 45 dəfə çox bir ordu ilə döyüşmək məcburiyyətində qalacaqdı. Belə bir

vəziyyətdə Şamın fitnəsini yatırmaq üçün lazım olan güc harada idi. Tarixdə heç bir müharibə qanunu 1 nəfərin 45 və ya 15 nəfərlə döyüşməsini məntiqli hesab etməz. Əgər belə bir şey təsadüfən baş verərsə, şübhəsiz ki, bundan yaxşı bir nəticə gözləmək olmaz. Bu, canını bilərəkdən təhlükəyə atmaqdan başqa bir şey seyil. Başqa sözlə desək, bunub adı «intihar»dır.

Bu halda, Rəsulallah (s) övladı Allah tərəfindən döyüş deyil, sülh üçün, həmçinin ədavət və düşmənçilik üçün deyil, barışıq üçün yaradılmış, Allah tərəfindən öz şəxsi maraqları üçün deyil, yer üzündəki müsəlmanlar üçün vəzifələndirmiş, səltənət üçün deyil, din üçün yetişdirilmiş ilahi lütf və rəhmətdir.

Bu minvalla İmam Həsənin vəzifəsi sülhlə nəticələndi. Belə ki, ordu arasında heç bir toqquşma baş vermədi. Bu tarix bir həqiqətdir. Lakin bəzi tarixçilər Məskində Səid ibn Qeys ilə Şam ordusu arasında gərginlik yarandığını sübut etməyə çalışmışlar. Seyid Əli Xan (ö/t: 1120) «Əd-Dərəcatur Rəfiə» adlı əsərində bu xəyali hadisə ilə əlaqədar ortaya bir sıra fikirlər qoymuşdur. Biz bu möhtərəm Seyidin öz tədqiqatlarında əsaslandığı və həmin gün Məskində baş verənlər barədə dediyi sözləri dəstəkləyəcək heç bir mənbəyə rast gəlmədik.

Başqa tərəfdən, İmam Həsənin (ə) qan tökülməməsinə göstərdiyi marağı ömrünün başqa səhifələrində də görürük ki, bu da yuxarıdakı fikri qəbul etməyimizə səbəb ola biləcək heç bir dəlilin olmadığını göstərir. Peyğəmbərimizin (s): «Allah Həsənin vasitəçiliyi ilə iki böyük müsəlman qrupu barışdıracaqdır» hədisindən başa düşürük ki, İmam Həsən İslamın «sülh elçisi»dir. Bu halda onun əsgərlərinin döyüşə başladığını göstərəcək bir dəlil varmı? Dünyasını dəyişdiyi zaman etdiyi vəsiyyətdən başa düşülür ki, O, özü üçün bir damla qan belə tökülməsinə razı olmamışdır. Belə olan təqdirdə, bu hadisədə də özünün seçdiyi (ya da özü üçün seçilən) vəzifəni icra etmişdir.

Bundan başqa, hadisənin şahidləri birmənalı olaraq deyirlər ki, «Həsən xəlifə oldu və xəlifəliyi dövründə bir damla belə qan

tökülmədi». Bəzi ravilər, bu sözü iki dəfə and içərək söyləyiblər.[1]

## İNANCLA İQTİDAR ARASINDA

Mövzunun daha dərin aydınlaşması üçün müsəlmanların xilafət anlayışı haqqında verdikləri iki müxtəlif açıqlamanı nəzərinizə çatdırır və bu işin faydalı olacağına inanır.

Xilafət, hətta xilafətə aid başqa məsələlər haqqında danışmaq (xüsusilə tərəflərdən birinə və bəzən də hər iki qarşı) təhlükəli və olduqca məsuliyyətli bir işdir. Xilafət anlayışı hər iki tərəfin mövqeyini nəzərə alaraq, qısa şəkildə açıqlamağa çalışarkən yeganə məqsədimiz, mövzumuza aid olan mətləbləri araşdırmaq, eyni zamanda bu iki fərqli baxış arasında bir yaxınlıq yaratmaqdır. Beləcə islah düşənçəsini ortaya qoymaq imkanı əldə etmiş olarıq. Təbii ki, artıq gec deyilsə!

Beləliklə, istədiyimiz tərəflərdən biri və ya hər ikisi baxımdan təhlükəli bir vəziyyət yaratmamaqdır. Məqsədimiz, sadəcə xeyirli olanı ortaya qoymaqdır.

Xilafət, Peyğəmbərin (s) vəfatından sonra çanişinlik və müsəlmanlara rəhbərlik etmək işində Rəsulullahın ümumi naibliyi deməkdir. İnsanlar bu məqam qarşısında mütləq itaətkarlıq göstərməli və bu məqamı tutan şəxs də öz növbəsində xalqı Allahın Kitabı və Peyğəmbərin sünnəti əsasında idarə etməlidir.

Bir qrup müsəlman hansı yolla olursa olsun, bu məqamı əldə edən şəxsin xəlifəliyini qəbul etməyi adət və qanun şəklinə salmışlar. Bu səbəbdən «O, xəlifəliyi qılınc gücünə, hiylə və siyasətlə ələ keçirmişdir»[2] demələrinə baxmayaraq, Müaviyənin xəlifəliyini qəbul etmişlər. İbn Zübeyrin, Əbül-Abbas Səffah (qantökücü) və Əbdur-Rəhman Nasirin və başqalarının xəlifəliyini buna misal göstərmək olar.

---

[1] «İsabə» cild 2, səh. 12; «Tarixi ibn Kəsir» cild 6, səh. 14 və s.

[2] Əbu Məhəmməd ibn Müslim ibn Qüteybə ibn Əmr Bahili Dinəvəri «Tarixul-İslam-siyasi» cild 1, səh. 394.

Onlar vəliəhdlik yolu ilə bu məqamı əldə etmiş (istər zorla və istərsə də başqa bir üsulla ələ keçirmiş olsun, fərq etməz) şəxslərin də xəlifəliyini qəbul etmişlər. Harun ər-Rəşid və başqalarının xilafətini buna misal göstərə bilərik.

Bir qrup şəxsin Əbu Bəkr, Osman və Məhəmməd Rəşadın xəlifəliyi kimi, bir nəfəri xəlifə secməsini də qəbul etmişlər. Bu məsələdə fərqli mövqeyə malik olan ikinci qrup isə Peyğəmbərin (s) yerinə kəçəcək şəxsin təyin olunmasında bilavasitə o Həzrətin sözlərinə istinad etmiş və Peyğəmbərin (s) öz yerinə təyin etdiyi canişinin xəlifəliyini xəlifə olaraq qəbul etmişlər. Onların bu iki qrupdan hər biri öz bildiyi kimi hərəkət etmiş və nəticədə iki ayrı qrup kimi meydana çıxmışlar.[1]

Bundan başqa, xəlifənin təyin edilməsi məsələsində ixtilaf etdikləri kimi, xəlifəni dəyişdirmək və vəzifədən kənarlaşdırmağın mümkünlüyü haqıında da onların arasında firavanlıqları mövcuddur:

Birinci qrupun fikrincə, istənilən şəxs vəzifədə olan xəlifəni devirə bilər və ya xəlifənin şərtləri dəyişərsə, başqalarının bir araya gəlib onu bu vəzifədən uzaqlaşdıması mümkündür.

İkinci qrupun fikrinə görə isə Peyğəmbərin (s) təyin etdiyi xəlifəni heç kim dəyişdirə və uzaqlaşdıra bilməz. Peyğəmbər tərəfindən təyin olunan xəlifənin bu məqama laiq olmayan bir hərəkəti etməsi, qüsura yol verməsi mümkün deyil. Çünki Rəsulullahın xəlifəsi də eyni ilə Peyğəmbər kimi məsumiyyət sifətinə sahibdir.

Bütün bu deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, birinci nəzəriyyə baxımından xilafət, özünəməxsus idarəçilik forması olan ümumi bir hakimiyyət və iqtidardır. Bu cür xilafət, gözdən keçirərək görərik ki, dünyəvi hakimiyyətdən heç nə ilə fərqlənmir. Müasir dövrün hakimiyyətləri bir-birindən seçildiyi kimi, xilafət də onlardan yalnız forma və qanunları ilə fərqlənir.

---

[1] Birinci qrup əhli-sünnə, ikinci qrup əhli-şiədir. Mötəzilərinin böyük bir qismi də bu mövzuda şiə ilə eyni fikirdədir. «İmamət, ancaq nəss və təyin ilə olur». «Əraul-Mötəzilə əs-siyasiyyə» səh. 15; «Məcəlleyi-əl-əlvah» say 11, il 1.

Bu cür xilafətin dəyəri, hansı üsul və vasitələrlə bu vəzifəni əldə etmiş bir şəxsin istedad və bacarığı ilə ölçülür. İnsanların ən təmizi və ən müqəddəsi bu vəzifəyə gələcəyi kimi, insanların ən alçağının da bu vəzifəyə gəlməsi mümkündür.

İkinci nəzəriyyəyə görə isə xilafət, ilahi və ruhani bir məqamdır. Bu məqama itaət etmək eyni ilə Peyğəmbərə (s) itaət etmək kimi vacibdir. Burada xilafət, Allahla (mücərrəd) əlaqə olduğu üçün nübuvvətin kölgəsidir. Nəhayət, bu bağlantı Peyğəmbərin vasitəçiliyilə baş verir. Rəsulallah, xilafətin mənəvi qaynağı və mənbəyidir. Bu məqamın müqəddəsliyi, peyğəmbərlik məqamına olduğu kimi, bu məqam özündən qaynaqlanır. Bu səbəbdən təyin edilən xəlifələr dünyanın ən təmiz, ən saleh şəxsləri olmalıdırlar.

Xilafət məsələsi ilk dövrlərdən başlayaraq müsəlmanların iki dəstəyə ayrılmalarına, onların arasında böyük ixtilafların yaranmasına və İslam tarixində çox xoşagəlməz hadisələrin baş verməsinə səbəb olmuşdur. O dövrlərdə bu iki qrupu bir-birinə yaxınlaşdırmaq, onları birlik və vəhdətə çəkmək, qardaşlıq və islah ideyası ətrafında birləşdirmək, heç də bu gün göründüyü qədər sadə və mümkün deyildi. Müsəlmanlarla Allah arasında həqiqi ünsiyyət və bağlantı vasitəsi olan və ona sarıldığımız zaman bizləri kor-koranə təəssübkeşlikdən, azğın düşüncə və hərəkətlərdən qoruya biləcək həqiqi İslam da elə budur!

Allahla insan arasında əlaqəni yaradan və axirət həyatının əsası olan din məsələsi, dünyəvi məsələlər kimi, insanların vərdişlərinə, istək və arzularına tabe olacaq bir məsələ deyil. Dindar insanın dini anlamaq üçün qarşısındakı tək yol, həqiqəti dərk etmək və başa düşməkdir. Xilafət mövzusunu araşdırarkən heç bir müdaxiləyə yol vermədən, təhrif etmədən ortaq bir mövqeyə toxunmaq istəyirik.

İndi isə hamının qəbul etdiyi iki həqiqəti açıqlayaq:

Birincisi budur ki, birincisi mənası ilə xilafət (yəni Peyğəmbərdən sonra hər kəsi maraqlandıran ümumi hakimiyyət və iqtidar olaraq tanınan xilafət) bir reallıqdır ki, şiələr də bu

həqiqəti qəbul edir. Hətta bu xilafətin fəaliyyəti tərifəlayiq hesab edir.

İkinci həqiqət isə bundan ibarətdir ki, İkinci mənası ilə xilafət (dində ümmətlə peyğəmbər arasında vasitə olması) möhtəbər vasitələrlə əldə edilən səhih rəvayətlərə görə, sünnilərin də etiraf etdiyi kimi, inkarolunmaz bir həqiqətdir. Bu isə iki qrup arasındakı problemi, tərəflərdən birini qalib, digərini məğlub duruma salmadan çözmək üçün təqdirəlayiq bir çıxış yolu hesab oluna bilər.

Bu anda nəss əsasında (Peyğənbərin açıq-aydın bəyanı ilə) təyin edilmiş xəlifələrdən birinin həyatını araşdırdığımıza görə bilməliyik ki, onun xilafəti, İslami xilafətlər arasında heç birinə bənzəmir. Yəni atasının vəfat etdiyi gündən və insanların ona xəlifə olaraq beyət etdikləri gündən etdibarən, hər iki mənada, xilafəti ən gözəl şəkildə idarə etmişdir. Həm birinci mənası ilə (seçim yolu), həm də ikinci mənası ilə (nəss yolu və imam olaraq) xəlifəliyi öhtəsinə götürmüşdür.

Üçüncü bölümdə, onun imamlığa təyin etməsinə dəlalət edən bəzi faktları və xəlifəliyə secilməsi və insanların ona beyət etmələri ilə əlaqədar bəzi məlumatların oxuculara təqdim etmişdir.

İmam Həsənlə (ə) Müaviyə arasında baş verən hasisələr o Həzrəti inancla iqtidar arasında seçim qarşısında qoymuşdur. İqtidardan məqsəd, siyasi hakimyyət idi ki, İmam Həsən (ə) bu vəzifəni seçim yolu ilə əldə etmişdir. Allahın seçimi və Peyəmbərin təyin etməsi ilə əldə etdiyi məqam və mövqe, heç şübhəsiz, söhbətin mövzusu deyil. Çünki belə bir məqam dəyişikliyə məruz qalmaz və Allahın əmirindən başqa heç bir şeyə tabe deyildir! Allahın əmri isə, əsla dəyişiliyə uğramaz!

Xəlifəliyə dövründə üzləşdiyi müsibətlər və baş verən hasisələr, Allah Rəsulunun təyin etdiyi imam olan Həsəni deyil, iqtidar və ordu sahibi olan Həsəni hədəfə almışdır.

Həsən ibn Əlinin imamlığı dəyişikliyin və müsibətlərin hədəfi ola bilməzdi. Onun imamlığı Quran kimi idi. Müsəlmanların çox tapındığı şeyə, Qurana batilin bulaşması

mümkün deyil! İnsanların Qurana qarşı çıxmaları, əmlərindən boyun qaçırmaları bu müqədəs kitaba heç bir zərər verməz. Quranın rəhbərliyi həmişəlik və əbədi və Allah kəlamı olması isə daima bir həqiqət olaraq qalmaqdadır. İnsanların bunu qəbul edib-etməməsi bu həqiqəti dəyişdirməz! Ona əməl etsələr də, etməsələrdə də heç fərq etməz. Həyatlaını ona bağlasalar da, bağlamsalar da Quranda hey bir dəyişilik baş verməz. Həsən ibn Əlinin imamlığı da belədir. Quran və Həsən... Hər birinin İslamla böyük dəyəri və ağır çəkisi vardır.

Çünki Peyğəmbərimiz (s) səhih, hətta mütəvatir bir hədəsində belə buyurmuşdur: «Sizə iki ağır və dəyərli əmanət qoyuram. Biri Allahın Kitabı, digəri də mənim Əhli-Beytimdir. Bu ikisi Kövsər hovuzunun başında mənimlə görüşənə qədər bir-birindən ayrılmazlar».[1]

Həsən ibn Əli (ə) o gün Əhli-beytin böyüyü və cəmiyyətin rəhbəri idi. Daha doğrusu, O, risalət sahibinin Quranla yanaşı müsəlmanlar arasında qoyduğu ikinci əmanətdir. Məgər imamət bundan başqa bir şeydirmi?!

İmam Həsənə bir nəzər yetirin. Onun həqiqətindən söz açdığınız zaman, İlahi sözlərlə necə əhatə edildiyini görəcəksiniz. Quran, nübuvvət, imamət, iki dəyərli əmanət, Cənnət, islah, qan tökülməsinə mane olmaq, əhdə vəfa... Həsənin həqiqəti bundan ibarətdir.

---

[1] Hakim, kitabının 3-cü cildinin 148-ci səhifəsində bu hədisi zikr etmiş və ardından belə bir araşdırma aparmışdır. Bu hədis, Məhəmməd ibn İsmayıl Buxari və Müslim ibn Həccac Nişapurinin (ən böyük iki əhli-təsənnün hədisçısi. Onların kitabları da əhli-sünnət nəzərində ən mötəbər hədis kitablarıdır) hədis üçün irəli sürülən silhət (sahihlik) kriteriyası baxımından mötəbər və səhihdir.

Məhəmməd ibn Əbdur-Rəhman Zənəbi də «Talxisul-mustədərək» adlı əsərində bu hədisi nəql etmiş və Məhəmməd ibn İsmayıl Buxari və Müslim nəzərində hədisin səhih olduğunu açıqlamışdır.

İmam Abdullah ibn Əhməd ibn Hənbəl də «Müsnəd» adlı kitabının 17 və 24-cü səhifələrində və İbn Əbu Şeybə, Əbu Yəla Mosuli və Mövla Əli Müttəqi Hindi «Kənzul-ummal»ın 1-ci cildinin 47-ci səhifəsində və digər hədisçilər də bu hədisi zikr etmişlər.

İndi də üzünüzü itaəti fərz olan rəhbərə qarşı çıxan, onunla vuruşan rəqibinə çevirin. Onun barəsində danışarkən hansı sözlər istifadə etməli olacağıq?: Açgözlük, hiyləgərlik, fitnəkarlıq, rüşvət, sözünün üstündə durmamaq, mal və məqam düşkünlüyü, savaş, talan və oğurluq. Doğrusu, belə bir adamın belə bir şəxsiyyətin qarşısına çıxıb onunla döyüşmək istəməsi tarixin ən böyük alçaqlıq səhnələrindən biridir. Bəli! Bu, Həsəndir. Peyğəmbərimiz övladı və imamət məqamının sahibi. Səltənət, mal-mülk və dünya məqamı kimi şeylər belə bir məqam qarşısında necə də cılızdır!

O babası Rəsuli-Əkrəmin ifadəsilə desək, «Cənnət gənclərinin ağasıdır» ki, bütün müsəlman firqələri bu hədisi təvatür dərəcəsində Peyğəmbərdən rəvayət etmişdir. Bu səhih rəvayət, mənbə etibarı ilə Quran kimi sağlam və etibarlı, məna dərinliyi və bəlağət baxımından isə bəşər kəlamından ucadır. Bu hədis barəsində haşiyə çıxararaq bunları söyləyə bilərik: Görəsən, heç kimin ağlına gəlmədimi ki, «Həsən bu hədisdə niyə dünya gənclərinin ağası olaraq dəyərləndirilmir?» - deyə soruşsun? O, hər bir cəhətdə bütün insanlardan üstün olduğu halda, dünya gənclərinin ağası deyildimi?!

Görəsən, bu hədisin, bu cahanı gözardına vurub o biri cahana boylanmasının arxasında dayanan sirr nədir? Bu gün heç kimin ağlına belə bir sual gəlməz. Çünki bu gün aramızda olmayan və hal-hazırda Cənnətdə Allahın nemətlərindən faydalanan İmam Həsən (ə) barəsində düşündükdə zehnimizə «Cənnət gənclərinin ağası» olaraq canlanır. Daha onu «dünya gənclərin ağası» olaraq dəyərləndirmək yada düşməz.

Bundan əlavə, sözügedən hədisin üzərindən artıq 14 əsr keçmişdir. Birdə ki, bu hədis ayrı-ayrı vaxtlarda və müxtəlif məqamlarda zikr edildiyi zaman hər birimizin zehnində canlanan Həsən və Hüseyn adları və Cənnət gənclərinin ağası sözü canlanır. Ayrıca, bu bəlağətli sözlərin ərəblərin ən böyük natiqinin mübarək dilindən eşitdiyi gün insanların o Həzərtin bununla nə demək istədiyini və ya anladıqlarını düşünürsünüz?

Bəli, hər iki övladını bu adla şərəfləndirən o Həzrət, bununla sanki bizə xəyanət və hiylələrlə dolu olam bir diyarda iradəsiz, ikiüzlü və sözünün üstündə dura bilməyən cavanların bu iki şəxsiyyətin hakimiyyətləri altında yaşamağa layiq olmadıqlarını başa salmaq istəyirdi.

Bəli, bu iki şəxs, gənclərin ağalarıdırlar; amma üstün, Allaha verdikləri sözü yerinə yetirən gənclərin. O biri dünyada Allahın, kin-küdrəti qəlblərindən çıxardığı və bir-birinə qardaş və biri digərinə qarşı mehriban etdiyi gənclərin ağasıdırlar.

Cənnət gənclərinin ağası.. Daha dəqiqi desək, bu dünya və onun gəcləri bu iki şəxsin haqqını inkar etdiyi, onlara əziyyət verdiyi, ağalığını və rəhbərliklərini qəbul etmədiyi, arxa çevirib qaçdığı zaman, görəsən, bu naşükürlük və bu nankorluq onların haqqını aradan aparmışdırmı? Xeyr! Bu ağalıq əbədidir! Amma bu cahanda (daha üstün) və bu cahanın xalqından daha üstün bir xalq üçün!

Qoy bu alçaq dünya onların bərəkətindən, fəzilət və rəhbərliyindən məhrum qalsın. Qoy günümüzün xəyanət və hiyləgərliyi özünə işə seçdiyi gəncləri tarixin xəcalətini, peşmanlığını və rüsvayçılığını və Qiyamətin əzabını öz çiyinlərində daşısınlar.

Bu baxımdan üzərində düşündüyümüz bu hədis, Rəsuli-Əkrəmin (s) gələcəkdən xəbər verən sözlərindən biridir. Belə ki, bu sirli sözlərlə Cənnət gənclərinin bu iki ağasının, bu dünyanın gənclərindən görəcəkləri müamiləyə (münasibət) işarə edir və hər birinin əldə edəcəyi faydalı və ziyana uğramayacaq payını və qismətinin bəyan edir.

Heç şübhəsiz, Cənnətin və Cənnət gənclərinin ağası olan bir şəxs eyni zamanda bütün insanların və bu cahanın ağasıdır. Peyğəmbərimizin (s) (səhih yollarla bizə yetişən) bu mənalı sözləri, elə bir bəlağət gücünə sahibdir ki, zamanın ən böyük natiqlərinin bunu ifadə etməyə gücləri çatmaz. Bu sözlər öz bədiiliyi, geniş məna tutumu və olduqca gözəl ibarələrlə ifadə olunması baxımından nadir dilçilik möcüzəsidir.

Həzrət Peyğəmbərimizin (s) bəlağət üslubunun ən diqqətçəkən və məftunedici xüsusiyyəti və eyni zamanda fərqliliyi, bəzən açıq ifadələrlə, bəzən də işarələrlə az sözlə çox mənanı ifadə etməsidir. Rəsulallahın (s) gələcəklə əlaqədar dediyi bu sözlər möcüzədən başqa bir şeylə izah edilə bilməz. Bu cür bəlağət bir hadisdə olarsa, bu, onun səhihliyinə dəlalət edir.

Peyğəmbərimizin (s) nəvələrini imamət məqamına təyin edərkən söylədiyi «Bu ikisi qiyam etsələr də, etməsələr də imamdırlar» kəlamı gələcəkdən xəbər verən sözlərindən birini təşkil edir.

Yuxardakı hədisin zahirindən başa düşülən budur ki, onların hər ikisi imamdır. Lakin bu zahiri mənanın altında həqiqi bir uzaqgörənlik, hər iki imamın həyatına kinayə yolu ilə bu imamlardan birinin gələcəkdə qiyam edəcəyinə, digərinin isə oturacağına işarə edilir. Ya da bunlardan biri və ya ikisi bir dövrdə qiyam edəcək, yaxud bir dövrdə oturacaq. Onlar hər iki vəziyyətdə də imam və rəhbərdirdər. Onlara qarşı çıxmaq caiz deyildir.

İslamda, Peyğəmbərin gələcəklə bağlı verdiyi xəbərlərə övladı Həsən ibn Əlidən (ə) daha yaxşı nümunə olacaq başqa bir şəxs yoxdur! O, istər bu və istərsə də başqa hədislərdə babasının nəyə işarə etdiyini bilirdi və O, həyat və ölüm haqqındakı bu öngörmələri hamıdan daha yaxşı başa düşürdü. Məgər O, Peyğəmbərin (s) övladı, əxlaqının varisi və (ümmətinə buraxdığı) canişini deyildimi?! O halda, Rəsuli-Əkrəmin (haqqa) dəvət boyunca qövmündən gördüyü müamiləni də görməli və o Həzrətin (s) o gün söylədiyi sözləri, bu gün o da söyləməli idi: «Allahım! Qövmümü hidayət et. Çünki onlar bilmirlər...»

Bu şərəfli oxşarlıq və dəyərli xüsusiyyət bu dünyada digər müsəlmanlar arasında İmam Həsənə bir üstünlük verir və onu maddi sərvət və gücə möhtac olmamasının təmin edirdi. Çünki bu xüsusiyyət, əslində güc, sərvət və qüdrətin elə özü idi. Qoy Müaviyə ona düşmənçilik etsin. Qoy Übeydullah ibn Abbas ona xəyanət etsin. Kufə onu yardım göstərməkdən imtina etsin, onu

yalqız buraxsın. Lakin onu heç bir zaman yalqız buraxmayacaq şey, o şərəfli soy və imamət məqamıdır. O, itaət edilməsi vacib olan bir məqam ən nəhayət, Allahın insanlara əmr edtiyi sevgi və mərhəmətdir.

Bu dünyanın məhdud səltənət və iqtidarı, hüdudsuz mənəvi iqtidar qarşısında hansı dəyərə malik ola bilər ki?! Məğlubiyyət, məqsədə çatmamaq və ölüm, müsəlmanların tarix boyunca iftixar mənbəyi sayılan və onların qəlblərinə hakim olan bircə gün də olsa belə aradan apara bilməz! Təcavüzkarın hücumu və ya nadanların inkarı bu mənəviyyatın nə tərəqqisinə mane ola, nə də ki, varlığını yox edə bilər. Hər ötən gün bu iftixar bu dünyanın gözündə daha da artacaqdır.

Bura qədər İmam Həsən bəşəriyyət üçün bərəkət qaynağı olan mənbə arasındakı möhkəm telləri araşdırdıq. Elə bir mənbə ki, şərrin, fəsadın və azğınlığın baş alıb getdiyi və qıtlığın bol olduğu bir zamnada insanlara xeyir, hidayət və bərəkət bəxş edirdi.

Bununlada İmam Həsəni Allah Rəsulunun (s) övladı, Behişt cavanlarının sərvəri və hidayətdə və Qurana ortaq olan bir imam olaraq tanıdıq.

Geridə isə İmam Həsənin (ə) iqtidar və inanc arasında seçim etmək məcburiyyətində qaldığı zaman söylədiyi sözlərini diqqətlə araşdırmaq məsələsi qalır. Bunun üçün ilk növbədə müxtəlif sənədlərlə bizə çatan rəvayətləri nəzərdən keçirməli və daha sonra mövzu üçün böyük əhəmiyyət kəsb edən məsələləri araşdırmalıyıq.

İndi isə gəlin İmam Həsənin (ə) bu hadisə ilə əlaqədar söylədiyi olduqca dəyərli sözlərinə diqqət yetirək. Əbu Məhəmməd ibn Müslim ibn Qüteybənin İraqın rəisi və ağası olaraq tanıtdırdığı Süleyman ibn Suradın[1] tənqid və qınaq dolu sualına İmam belə cavab verir: «Əgər mən dünyəvi məqamlara çatmaq üçün durmadan çalışsaydım, Müaviyə məndən güclü ola

---

[1] «Əl-İmamətu vəs-siyasə» səh. 151.

bilməzdi! Mən də bu anda gördüyünüzdən başqa bir fikir və düşüncəyə sahib olardım».

İmamın bu öz cavabı tərəfdarlarına və şiələrinə verdiyi digər cavablardan daha təsirlidir. İmam, açıq-aşkar onunla rəqabət aparan, barəsində təhqiramiz sözlər işlədən və Ali-Məhəmmədə qarşı öz düşmənçiliyini gizlətməyən bir düşmənə - Abdullah ibn Zübeyrə verdiyi cavabında belə buyurur: «Mənim ona təslim olduğumu sanırsanmı?! Vay olsun sənə! Mən ərəblərin ən cəsurunun, ən qoçağının oğluyam və dünya qadınlarının xanımı olan Fatimənin övladı olduğum halda axı bu necə ola bilər?! Mən nə qorxudan, nə də ki, zəifliyə görə sülh bağlamışam. Sənin kimi ürəkləri riyakar, daşürəkli və qorxaq insanların üzündən bu işi etmək məcburiyyətində qaldım».[1]

Çox qısa, amma çox əhəmiyyətli digər bir nitqi də vardır ki, bu da onunla eyni kədəri və sevinci bölüşən və eyni qandan və candan olan qardaşı Hüseyn ibn Əliyə (ə) verdiyi dolğun cavabdır. Belə ki, qardaşı ondan «Nə üçün hakimiyyətdən imtina etdin?» - deyə soruşdu. Həzrət Müctəbanın cavabı belə olmuşdu: «Məndən əvvəl atamız hansı səbəbdən hökumətdən imtina etmişdisə, mən də eyni səbəbdən imtina etdim».[2]

İmam Həsənin (ə) bu barədə dediyi sözləri araşdırdığımız zaman o Həzrətin bir qayda olaraq aşağıdakı məsələlərə aydınlıq gətirdiyinin şəhıd oluruq:

1. Dünya üçün mübarizə aparmamışdır;

2. Əgər bunu istəsəydi, düşmənlərindən daha güclü olardı. Lakin o zaman, bu gün örnək aldığımız həyat tərzindən fərqli bir mənzərə yaranacaqdı.

3. Düşdüyü bu ağır vəziyyətdə nə şəxsi, nə də ki, siyasi baxımından zəiflik göstərməmişdi və hətta azacıq da olsa qorxu

---

[1] «Məhasinu vəl-məsavi» cild 1, səh. 60-65.

[2] «Biharul-ənvar» cild 10, səh. 113.

Bura qədər çəkdiyimiz misallar, keçdiyi çətin imtahanlara şahidlik edən digər sözləri təfsilatı ilə nəql etməyə ehtiyac qalmayacaq dərəcədə açıq-aydındır. İmamət məqam dost və düşmən tərəfindən edilən davranışların bu çətin imtahanından alınıaçıq, üzüağ və müvəfəqiyyətlə çıxmışdır.

hissi belə keçirməmişdir. Sadəcə ixlas və sadiq dostlardan məhrum idi. Bu isə o deməkdir ki, əsgər səmimi və sadiq dostları olsaydı, tamamilə qələbə onun tərəfində olardı.

4. Onun tək bir qayəsi var idi: atasının məqsədi. Heç sübhədiz, atasının hədəfi İslamın mənəviytatını məhv və səhih İslamı yox olmaqdan qorumaq idi.

Gördüyünüz kimi, imamət və mənəvi rəhbərliyin əlamətləri, yuxarıda sadalanan dörd maddədə açıq-aşkar göstərilir. Daha doğrusu, İmama Həsənin davranışını nə zəiflik, nə mübarizədən geri çəkilmə, nə də ki, üzərinə düşən vəzifədən boyun qaçırma kimi dəyərləndirmək mümkündür.

Aydındır ki belə qərarı qəbul etmək, öz sahibini Allah yolunda fəaliyyət göstərmək üçün yaşadan müstəqil bir qüvvədən irəli gələ bilər. Belə bir qüvvə isə heç bir zaman dünya üçün çalışmaz. Çünki belə bir mənəvi gücün dünya ilə heç bir əlqüəsi və bağlılığı yoxdur. Başqa bir tərəfdən, imamət, sözün əşl mənasında, nübuvvətin davamı və nübuvvətdən sonra da yer ilə göy arasında əlaqə yaradan vasitə olduğu üçün də bu belədir. Beləki, nübuvvət Allahın iradəsilə ortaya çıxdığı zaman onun yer üzündə kök salması və möhkəmlənməsi yalnız səmimi və ixlaslı dostlarının yardımı ilə gerçəkləşmişdir. Deməli, imamət də, yalnız bu cür dost və yardımçıların sayəsində bərqərar ola bilər. Lakin gəlin baxaq, bu həqiqi dostlar hara, riyakar və satqın dostlar hara?! Həzrət Mühəmməd (s) özündən əvvəlki elçilər tək peyğəmbər olduğu kimi, İmam Həsən də möhkəm imanı, sarsılmaz inamı və üstün xüsusiyyətləri olan bir imamdır. O vəzifə bunun, bu da onun üçün təqdir edilmişdi. Hüdeybiyyə və bəni-Əşcə hadisələrində babası Rəsulullah (s) üzləşdiyi çətinliklər, Səqifə və Şura günlərində atası Həzrət Əlinin (ə) kimsizliyi və tənhalığı onun üçün də qaçılmaz idi.

İmam Həsən (ə) niyə də ata və babasının atdığı addım nəzərə alaraq hərəkət etməsin?! Bu iki böyük zatın üçüncüsü olmasının nə qəbahəti var ki?

İkinci müddəanın şərində bunu deyə bilərik ki, Həsən ibn Əli (ə) yoxluğunu və varlığını, həyatını, tarixini, siyasi

düşüncələrini və bütün var qüvvəsini öz amalı uğrunda mübarizəyə səfərbər etmək qərarını özü qəbul etmişdi. O, bu mühüm və çətin addımı atarkən, iqtidar və inanc arasındakı yolu sona çatdırır və dünyaya maraq göstərməyən zahid imam və xəlifə obrazını yaradırdı. Çünki xəlifəliyi ali dəyərləri cəmiyyətdə bərqarar etmək üçün qəbul etmişdi.

Beləliklə. İmam Həsən (ə) istər müsbət, istərsə də mənfi bütün hadisələrin gedişatında inancına bağlı bir rəhbər örnəyidir. Dünya iqtidar, sərvət, nüfuz və müxtəlif ləzzətlər kimi füsunkar gözəllikləri ilə özünü ona təqdim etdi. Dünyaya bağlanaraq onun qarşısında ram olmasının əvəzində, sadəcə özünü qəbul edib seçməsini istədi. Amma İmam bundan imtina edərək qəbul etmədi. Əgər qəbul etsəydi, dünyanı tərcih etmiş olardı. Bunun üçün də çox çalışması, yorulmadan səy göstərməsi lazım gələcəkdi. Heç şübhəsiz, dünyadan başqa insanlardan daha çox pay alacaqdı. Çünki O, insanlıq tarixinin ən üstün soyunun təmsil edərək dünya dövlətləri içərisində ən böyük dövləti idarə edirdi. Bütün bunları əldə etməsi üçün sadəcə seçim etməsi kifayət edirdi.

Əgər O, qeyri-mümkün olsa da, dünyəvi və maddi bir görkəm alsaydı, irs apardığı dəyərlər və tərbiyədən ayrılmalı və öz mənəvi iftixarını unutmslı olacaqdı. Artıq O, Əli və Fatimənin oğlu və Peyğəmbərin nəvəsi Həsən olmayacaqdı. Yəni tamahkarları məmnun edəcək, özü üçün həmkarlar toplayacaq və qərarsız və tərəddüddə olanları rüşvət verməklə ələ alacaqdı. Çünki böyük imperatorluğun gəlirləri cəmiyyətin rəhbərlərinin və nüfuzlu şəxslərinin ağıllarını başından çıxaracaq qədər çox. O zaman münafiqlər pak mömin, xainlər etibarlı dost, qərarsızlar isə itaətkar və fədakər insanlar kimi görünəcəkdi. Bütün cəmiyyət, göründüyündən fərqli bir görkəm alacaqdı.

O zaman Əmr ibn As, Müğeyrə ibn Şubə və Ziyad ibn Əbih kimilərin, bu gün Müaviyənin sarayını təvaf etdikləri və Hucr ibn Ədiyy, Qeys ibn Səd və Ədiyy ibn Hatəmin ona pənah gətirdikləri kimi, imamın kölgəsinə sığınaraq rahatlıq və firavanlıq əldə edəcəyinin şahidi olacaqdınız.

Onlar Həsən ibn Əli kimi rəhbər fərqli gözlə baxırdı. Çünki Müaviyənin keçmişdəki nöqsanları onda yox idi. Əgər Həsən ibn Əli onların dünyəvi istəklərinə cavab verəcək bir siyasət işlətsəydi, Müaviyənin müqabilində onu tərcih etməklə tərəddüd etməzdilər. Beləcə, heç bir şeylə müqayisə olunmayacaq dərəcədə böyük bir naliyyət əldə edəcəkdi. Belə olan halda İmam Həsənin ətraflndakı rəzil Kufə rəzil xalqı vahid və bütöv bir cəmiyyət görüntüsü yaradacaqdı. Eymi zamanda beytül-mal (dövlət xəzinəsi) vicdanların satın alınması və tamahkar insanların sonsuz arzularını satın alınması üçün sərf olunacaqdı. Dövlətin siyasəti isə şəxsi maraqların həllinə yönələcəkdi. Belə bir vəziyyətdə mövcud şəraitə qarşı yalnız kiçik azlıqda qalan Həzrət Əli (ə) şiəsi müqavimət göstərə bilərdi. Onlar həmin o şəxslər idi ki, vaxtı ilə dünyaya üç dəfə talaq verən atası Həzrət Əlinin (ə), indi isə dünyadan üz çevirən övladı İmam Həsənin (ə) müdafiəsinə qalxmışdılar. Bununla da onlar hər zaman həqiqətin yanında olduqlarını və dünya arxasınca düşmədiklərini sübut etmişdilər. Bu səmimi insanların köməyilə (Rəsulullah (s) soyundan olduğunu nəzərə alaraq) Həsənə qarşı başqaldıran təzyiqlərin azalması gözlənilirdi.

Nə düşünürsünüz? Sizcə, Müaviyə bu Həsənə qarşı mübarizə apara və ya ona qalib gələ bilərdimi? Belə bir vəziyyətdə onlardan hansı daha şanslı və uğur qazanmağa daha yaxın idi? Həsən, yoxsa Müaviyə?

İndi bu açıqlamanın köməyi ilə İmamın, «Əgər mən dünya üçün hərisliklə çalışıb, dünyəvi məqamlara çatmaq üçün durmadan səy göstərsəydim, Müaviyə məndən daha güclü və ağıllı ola bilməzdi və mən də bu anda gördüyünüzdən tamam başqa bir fikir və düşüncəyə sahib olardım» kəlamını daha yaxşı qavraya bilirik.

Bəli, əgər İmam Həsən dünyanın arxasınca qaçsaydı, bundan, başqa bir nəticə gözlənilə bilməzdi. Lakin tam əminliklə deyə bilərik ki, Həsən ibn Əli (ə) başqa cür insan, daha dəqiq desək, bəşəriyyətin, onların davranışları və yaşam tərzlərindən

ilham almaq səadətə qovuşduğu çox nadir şəxsiyyətlərdən biri idi.

Onun aləmində şərəf, izzəti-nəfs (insanın öz dəyərini bilməsi) və dinin mənafeyini üstün tutmaqdan ibarət idi. Nə iqtidar, nə mal, nə də ki, bu dünyanın nemətlərinin, bunların heç birinin şərəf anlayışına dəxli yox idi.

Quranın vurğuladığı kimi, onun sahib olduğu məsumiyyət və yüksək mənəvi məqam, ona fani dünyaya, onun məhdud maraqları və dəyərsiz ləzzətlərinə görə öz şərəfini əldən verməsinə yol verməzdi. Başqa, dünyaya bel bağlamaq, Allahdan, səmavi kitablardan, Allah tərəfindən göndərilən peyğəmbərlərdən və Qiyamət günündən üz çevirmək mənası verirdi. Dünyanın əsiri olan şəxs, hətta zaman keçdikcə bu şeylərə qarşı düşmənçilik də edir.

Bu cür azğın vasitələrdən yararlanaraq mövcud vəziyyətdə öz mövqeyini möhkəmləndirmək bu cür alitəbiətli insanların nəzərində yolverilməzdir.

Həsən ibn Əlinin dünyaya maraq göstərməsi, təbii olaraq, nübuvvət vasitəsi ilə şəxsiyyətinin kökləndiyi əvəzsiz və qiymətli vəhy ailəsindən aldığı tərbiyənin və Quranın nazil olduğu məkandan əldə etdiyi yüksək elmi məqamın bütünlüklə varlığından uzaqlaşması və aradan getməsi mənasına gəlirdi. Məgər onun zatından gələn və varlığının ayrılmaz bir parçası olan bu yüksək təbiətin ondan ayrılması mümkündürmü? Peyğəmbərin (s) övladı, onun ətəyində böyümüş, məktəbində təlim-tərbiyə görmüş Həsənin dünya üçün çalışması və ya mübarizə aparması mümkündürmü? Allah Rəsulunun (risalətinin yer üzündə olmasından savayı) dünya ilə nə işi ola bilərdi? İmam Həsən də o Həzrətin (s) elmindən, inancından və həyatından ilham alaraq imamət meydanında babasının xüsusiyyətlərini özündə əks etdirən bir ayna olmalı idi. Bu gözəl nümunə və rəhbərlik heç bir zaman zəifliklə, qorxaqlıqla ittiham oluna və ya şübhə və tənqidlərə məruz qala bilməz. İmam Həsən öz tərifəlaiq xüsusiyyətlərilə babası Xətəmul-Ənbiyanı (s) heç bir əskiklik olmadan canlandıran ayna olduğu üçün düyaya

etinasızlıq və siyasi baxımından da babasını gözəl şəkildə tərənnüm etməli idi. Çünki O, yaradılış və əxlaq baxımından Peyğəmbərə çox bənzəyən insan idi. Belə olan halda tənqidçilər hansı zəiflik və gücsüzlüyü İmam Həsənə yaraşdıra bilirlər?! Sanki onlar, İmam Həsənin, ətrafdakılarının səbəbkarı olduqları sıxıntı və çətinliklərini unutmuş və, İmam Həsənin baş verən hadisələrlə bir əlaqəsinin olmadığını yaddan çıxarmışdılar. Bilavasitə bu vəziyyətin ən böyük səbəbi, (Peyğəmbərdən sonrakı) bu üçüncü mərhələdə cəmiyyətə meydan gələn ümumi dəyişikliklər, insanların hamısının, ya da böyük bir qisminin təqvadan uzaqlaşması və dünyaya uymaları idi. Beləliklə, əgər bir qəbahət var idisə, o da bu şəraitin qəbahəti idi. Bu qüsur varsa, o da İmam Həsənlə qarşı-qarşıya duran nəslin qüsuru idi. İmamın heç bir təqsiri yox idi. Deyəsən, onlar pozgun və fəsada qurşanmış nəsillərin haqqı yer üzərində bərqərar etməkdən savayı heç bir amalı olmayan bir insanla qarşı-qarşıya gəldiyi belə çətin bir vəziyyətdə işin bundan yaxşı bir sonluqla nəticələnəcəyini unudurlar.

Bu səbəbdən İmam Həsən bu müddət ərzində bir sıra xüsusi tədbirlər görmüşdür ki, bunlar da öz növbəsində vəziyyətdən çıxış yolu olmaqla yanaşı, İmamın necə dəqiq və mahir bir siyasətçi olmasını göstərir.

Kitabın müxtəlif bölümlərində, İmamın zəif nöktələri kimi təqdim olunan çeşidli məqamları qərəzsiz şəkildə araşdırmağa çalışdıq və beləcə, bütün bu deyilənlərin boşboğazlıqdan başqa bir şey olmadığı qənaətinə gəldik.

İmam Həsən axırda ən böyük addımını atdı. Fitnə-fəsadın tüğyan etdiyi bir vaxtda mərəkəni əxlaq və sevginin hakim olduğu bir fəzaya çevirdi. Bununla da ən böyük islahatçı kimi dünya islahatçıları sırasında öz mövqeyini nümayiş etdirməklə dünyanın rəhbərləri arasında ən yüksək məqaməldə etmiş oldu. Səltənət taxtına oturmadı, amma bütün cahanın hökmdarı oldu. Onsuz da İslam həqiqətdə təslim olmayan və alçaq şəhvani istəklərin qarşısında alçalmayan o səmavi və mələkuti ruhdan başqa bir şey deyildir.

İmam Həsən ətrafına göz gəzirdi. Gördüyü mənzərə ona çox ağır gəldi. Çünki onlar məsul olduğu işlərlə laqeyd yanaşmaq, dostluqda vəfasız olmaq və həmçinin haqq cəbhəsini tərk etməklə, əslində, onun deyil, düşmənlərinin sıralarına qatılmışdılar.

Bir neçə xain bütün orduya yoluxan bir xəstəliyə yol açmışdı. Bu xəstəlik, artıq əldən çıxmış və mənən məğlubiyyətə uğramış cəmiyyəti ciddi şəkildə təhdid edirdi. Artıq aralarında fikir birliyi yox idi, hərə bir şeydən dəm vururdu. Ara yamanca qarışmışdı: Birinin sözü digərinin boğazından keçmirdi.

Hərəsi bir təklif irəli sürürdü. Döyüşə hazırlaşırdılar. Amma pislik etməyə yaxın və yaxşılıq etməkdən uzaq olduqları bir insana qarşı. Doğrusu, özlərindən daha pis düşmən tapmağa imkan olmayan dostlardan nə gözləmək olar?

Belə olduqda, peyğəmbərin naibi olan bir imam, peyğəmbərliyin dilindən səslənmiş bir söz niyə də söyləməsin? Bu elə bir söz idi ki, imamın bir-birinə müxalif olan hər iki qrupdan da uzaq olduğunu ifadə edirdi. Daha doğrusu, hər şeyfən üstün bir həqiqətə işarə edirdi. Məgər imamın bu üstün həqiqətdən başqa bir şeydirmi?

## FƏDAKARLIQ

Əgər Allahın onun böyük ruhuna bəxş etdiyi qüüvət, qətiyyət, istiqamət, dözüm və iradə olmasaydı, çoxlarına nəsib olmayan belə bir ucalığı nümayiş etdirməyi heç də asan olmazdı.

Bir insan, dünyadan uzaqlaşmadan, tam ixlasla böyük cihad meydanına atılmadan, öz nəfsinə qalib gəlmədən, içindəki təkəbbürü məhv etmədən Allah yolunda fədakarlıq edə bilərmi? Allahın iradəsi qarşısında özünü heç saya bilərmi? Onun üçün əməl edə bilərmi? Bütün bunlar necə gerçəkləşə bilər?

Allaha tam bağlanmaq haləti elə imamətin özüdürsə, sözsüz ki, Allaha bağlı olan şəxs də imamdır. Möcud şərait batil cəbhəsini məğlubiyyətə uğratmağa əlverişli deyilsə, nə üçün

haqq cəbhəsini qorumaq üçün əldə olan imkanlardan istifadə olunmasın?

Zahirdə döyüş əhval-ruhiyyəsində olan, lakin həqiqətdə şəxsi arzlarını həyata keçirməkdən başqa məqsədi olmayan adamların bu vəziyyəti qarşısında İmam Həsənin etdiyi də bundan fərqli bir şey deyildi.

Əgər Müaviyyənin törətdiyi təhlükələrin Ali-Məhəmmədin az saylı xalis şiələrinə və həqiqi İslama zərər verməsinin, Şam əsgərlərinin və Kufədə İmamın düşərgəsində onun fəaliyyət göstərən beşinci qolunun təxribatlarının qarşısını almağın yeganə yolu, yalnız Müaviyyənin hakimiyyətə gəlməsidirsə, onda qoy bu alçaq bu dünyanı əldə etməklə öz mənfur məqsədinə çatsın. Həsən (ə) Allah yolunun xalis yolçuları üçün öz cəlalı, qüdrəti, əzəməti və sonsuzluğu ilə öz məslək və əqidəsi yetər!

Özünü alçaqlıqdan, maddi çirkinliklərdən qurtarması, dünyanı dünya əhlinə buraxması, eləcə də sonsuz əzəməti, uca məqamı, üstün fəzilət və elmi, cihadı və təqdirəlayiq fədakarlığı ilə insanlara yol göstərən mənəvi və ruhani rəhbərliyi Allah Rəsulunun övladı üçün qüsurdurmu? Heç bir həqiqi müsəlman və möhkəm əqidəyə malik heç bir mömin o Həzrətin davranışında şübhəyə düşməz, haqqını inkar etməz, onunla Peyğəmbərlə arasındakı bağlılığı unutmaz və ya onun ilahi rəhbərliyini və imamlığını görməməzliyə vurmaz! Bu elə bir rəhbərlik və imamlıqdır ki, dəyişikliyi və dönüşü, zəiflik və məğlubiyyəti qəbul etməz! Heç bir düşmənçilik və ədavətə baxmayaraq, daima müzəffərdir və hər zaman qalib gəlir. O, gücünü Allahdan alır. Onun sonsuzluğu haqqın sonsuzluğundan qaynaqlanır. Elə bu səbdən, peyğəmbərin nübuvvət haqqı öz ümmətləri üzərində əbədi qaldığı kimi, o da bir-birini əvəzləyən nəsillər boyunca yaşayacaq. Həqiqətən də əzəmət, heybət və ululuq ilahi həqiqətə məxsusdur. Müxaliflərin təkəbbür və qüruru bu həqiqət qarşısında tab gətirə bilməz.

Bu, İslam tarixinin incə və həssas mərhələlərindən biridir. Həqiqi xilafətin iqtidardan, dini rəhbərliyin səltənətdən və

dünyəvi hakimiyyətlə ruhani hakimiyyətin bir-birindən ayrıldığı bir mərhələdir. Bu ayrılma, zahiri olaraq müsəlmanlara tanış deyildi. Çünki, əvvəllər belə bir şey baş verməmişdi. Amma istənilən halda bu, İslamın başında çatlayan bir reallıq idi. Müsəlmanlar (bilərəkdən və ya bilməyərəkdən) Peyğəmbərin rehlətindən sonra çox qısa bir dövr istisna olmaqla buna alışmışdılar.

Xilafətin şəri və qanuni sahibləri bu ayrılığa təslim olmuşdular. Çünki İslamın varlığını qorumağın yeganə yolunu bunda görmuşdülər.

Artıq həqiqəti olduğu kimi bəyan etməyin əsl vaxtıdır. İmam Həsən (ə) Müaviyə ilə atası Əmirəl-mömininin İmam Əlinin (ə) çox-çox əvvəl Əbu Bəkr və iki yoldaşı ilə davrandığı kimi davranırdı. İmam Həsənin qardaşına cavab olaraq söylədiyi sözlərinn mənası da budur. Daha əvvəl işarə etdiyimiz kimi, qardaşı ondan «Hansı zərurətlə xilafəti təslim etdin?» - deyə soruşmuşdu. O cavabında belə demişdi: «Atan daha əvvəl hansı zərurətlə təslim etmişsə, mən də həmin zərurətlə təslim etdim».

Buradan da aydın olur ki, bu iki imamın hər biri, özünəməxsus şəraitdə böyük fədakarlıq edərək İslamı qorumuşlar.

İmam Həsən buna əsasən, öz ruhani və mənəvi əzəmətini yerə və göy üzünə həkk etmək üçün dünyəvi hakimiyyətini yer üzündən silib atdı. Hər zaman yeni və köhnəlməyən bu ölkənin sərhədlərinə bir göz gəzdirdi. Haqq və haqdan başqa hər şey arasındakı sərhədlərdən, ya da insaniyyət simvolu ilə həddin nə olduğunu bilməyən mənliyə sığınma arasındakı sərhədlərdən başqa bir şey görə bilmirsinizmi? Arada bir tək hədd vardır, o da ölümündə və həyatında ağzından Allahın sözlərindən başqa bir şey çıxmayan böyük İmamı digərlərindən ayıran bir həddir... **«Namaz qılın...», «Zəkat verin...», «Sizdən əvvəlkilərə fərz edildiyi kimi, oruc sizə də fərz oldu...» «İmkanı olanların Kəbəni ziyarət etməsi Allahın insanlar üzərindəki haqqıdır...»**

Bu sərhədlərin o biri tərəfində isə zalım bir hakimin maddəpərəstliyi yer alır. Bu adam insanlara açıq-aşkar belə deyirdi: «Mən sizinlə namaz qılmağınız və ya zəkat verməyiniz, ya da həcc ziyarətində olmağınız üçün savaşmadım. Sizə hakim olmaq üçün sizinlə savaşdım və siz istəmədiyiniz halda, Allah məni məqsədimə çatdırdı...» Bu iki hakimiyyət, bu iki hədəf və bu iki həyat tərzi arasındakı fərqdən başqa bir şey görə bilirsinizmi?!

İnsanlar belə bir hadisəyə, böyük bir zərər olaraq baxmağa alışmışdılar. Çünki bu hadisəyə dünyanın dar maddi şərçivəsindən baxırdılar. Lakin belə bir çərçivədən baxdıqca da, burada maddi ziyandan başqa bir şey görə bilməzlər. Lakin sırf xeyr məqsədi güdən nəfs, bu hadisəni öz hədəflərinə çatma vasitəsi kimi görürdü. Bu hədəflər idə iqtidardan daha əziz və bütün dünyadan daha dəyərli idilər. Bu vaqiə eyni zamanda, insanlıq tarixinin qaranlıqlarına bir ulduz tək işıq saçırdı.

Beləcə, İmam Həsən istər cihadda, istər səbirdə və istərsə də fədakarlıqda bütün insanlardan üstün olduğunu ortaya qoydu. Onsuz da bu üç fəzilət bütün fəzilətlərin anasıdır. Bunlardan başqa, onun sahib olduğu əzəmətin və üstünlüyün açıq göstəricisi olan digər xüsusiyyətləri də var idi.

Birincisi budur ki, o İmamdır. Onu sevmək və ona dost olmaq vacibdir. O Peyğəmbər övladıdır.

İkincisi isə dostları, düşmənləri və həyat yoldaşından zərbə almışdı. Bəli, söylədiyimiz kimi, O özünəməxsus cihad üsulu, tükənməz səbri və həmçinin misilsiz fədakarlığı ilə bütün insanlardan daha üstün idi!

İndi isə İmam Həsənin (ə) (heç kimin barəsində mübahisə edə bilməyəcəyi) bu üç səciyyivi xüsusiyyətinin daha yaxşı anlaşılması üçün onları bir-bir incəliyəcəyik.

## İMAM HƏSƏNIN (Ə) CİHADI

Onun cihadı, həqiqətən, olduqca diqqətçəkici və eyni zamanda ağrı-acılı çox geniş meydanlar əhatə etmiş uzun

müddətli bir cihad idi. Allah yolunda cihad etdi, amma bir cəbhədə deyil, bir çox cəbhədə. Düşmənlə ayrı-ayrı cəbhələrdə qarşılaşdı. Bəzən cihad meydanına əsgər göndərdi, bəzən isə düşmənin hiylələrini boşa çıxarmaqla məşğul oldu. Bəzən də öz adamları və əsgərləri ilə mübarizə aparmaq məcburiyyətində qaldı. Onları islah etmək üçün müxtəlif üsullardan istifadə etdi. Bu yolda çox çətinliklər çəksə də sonra müvəffəq ola bilmədi. Nəfslə mübarizəyə atıldı. Şəxsi hisslərinə nəzarət edərək dünyəvi arzularının tuğyan etməsinə izn vermədi, nəfsin özünə ram etdi. İnsanlıq tarixi boyunca İmam Həsən kimi belə güclü bir iradə ilə öz istəklərini cilovlayan, istək və arzularının qarşısını alan heç bir rəhbər rast gələ bilmədik.

O, sadiq tərəfdarlarına qarşı da mübarizə aparmaq məcburiyyətində qalmışdı. Çünki bunlar qınaq dolu suallar soruşur, hətta bəzən cürət edib tənqid edirdilər. Sülh müqaviləsini imzalamasının səbəbi soruşub onu qınayırlar. İmam onların bu hərəkətlərinə soyuqqanlılıqla yanaşaraq məhsum imam adına layiq bir alicənablıq nümayiş etdirdi. Onlarla üz-üzə gəldikdə qəzəbini boğdu, səbirli davrandı, öz sakit təbiəti və könüloxşayan sözləri ilə qarşıladı. Hər birinin tənqid və etirazını çox sadə və dolğun şəkildə cavablandıraraq, öz məqsədini açıqladı. Bu isə onların xoşagəlməz davranışlarını tamamilə dəyişdirdi. Onlar İmamın bu üstün mövqeyini seyr edərkən Peyğəmbəri xatırlayardılar. İmamın sözlərini səmavi bir vəhy və ilham kimi dəyərləndirərdilər. Məgər elə deyildimi?

Bu cür sual-cavablardan birini misal olaraq diqqətinizə çatdırırıq:

- Ey Rəsulallahın oğlu! Niyə Müaviyə ilə sülh bağladın?! Niyə hücum etməmək haqqında müqavilə imzaladın? Sən ki, haqqın sənin yanında və onun azğın bir zalım oldugunu bilirsən!

- Ey Əbu Sədi! Mən atamdan sonra Allahın höccəti və insanların İmamı deyiləmmi?

- Elədir!

- Rəsulallah (s) mənim və qardaşım haqqında, «Həsən və Hüseyin qiyam etsələr də, otursalar da İmamdılar» buyururmamışdır.

- Bəli, buyuruşdur.

- Bu da onu göstərir ki, mən, qiyam etsəm də, etməsəm də hər bir vəziyyətdə İmamam.

Ey Əbu Səid! Məni Müaviyə ilə sülh bağlamağa məcbur edən səbəb, Allahın Rəsulallah (s) bəni-Zürmrə, bəni-Əşcə və Hüdeybiyyədən dönərkən məkkəlilərlə sülh bağlamağa məcbur edən səbəbdir. Peyğəmbərin sülh bağladığı insanlar tənzili[1], bunlar isə təvili[2] inkar edirdilər. Ey Əbu Səid! Əgər mən Allah tərəfindən təyin edilmiş bir rəhbər və imamamsa, döyüş və ya sülhlə bağlı çıxardığım hər hansı bir qərarı, (bu qərarların hikməti sizin üçün aydın olmasa da) batil saya bilməzsiniz! Eştməmisinizmi? Xızır (ə) gəmini deşərkən, uşağı öldürərkən və divarı inşa edərkən Musa (ə) onun bu hərəkətlərinə görə qəzəblənmişdi. Çünki Musa bu hərəkətlərin hikmətini anlamırdı. Sonra Xızır (ə) Musaya həqiqəti açıqladıqda, Musa anladı və onunla razılaşdı.

Mən də eləyəm. İndi mənə hirslənirsiz. Çünki etdiyim işin hikmətinin dərk etmirsınız. Əgər mən bu işi etməsəydim, bir tək şiəmiz belə yer üzündə diri qalmazdı, hamısı öldürərdilər.[3]

İmam Həsənin qarşısında beş mübarizə cəbhəsi açılmışdı. O, mübarək ömürünü bu cəbhələrdə keçirtdi. Bitmək bilməyən bir güc və tükənməz bir səbrlə mübarizə aparır və onun verdiyi məşəqqətə və çətinliklərə sinə gəlirdi.

Həsənin (ə) savaşmadığı bir cəhbə qalmadı. O, iqtidar və hökumətdən imtina etdiyi halda, İslamın varlığını davam etdirmək, müsəlmanları rifaha və rahatlığa qovuşdurmaq, möminləri canını qorumaq üçün mübarizə aparırdı. Əslində, O,

---

[1] Nazil olan vəhy.
[2] Vəhyin real həyata tətbiq olunması.
[3] «Biharul-ənvar» cild 10, səh. 101.
Bu cihaddan, başqa cihad doğdu. Bu, digər qrupa, yəni Əməvilərə qarşı yürüdülən cihad idi.

Allah yolunda öz yaşayış haqqından keçirdi ki, bunun da qarşılığı o biri dünyanın nemətləri idi.

## İMAM HƏSƏNİN SƏBRİ

Onun səbri cihadının harayına cavab verən və bütün döyüş meydanlarında və cəbhələrdə sığındığı bir qala rolunu oynayırdı. O, zamandan, zəmanə insanından o qədər məhrumiyyət, xəyanət, hiyləgərlik, töhmət, həmçinin düşmənlərdən elə söyüş və dostlardan elə qınaq gördü ki, lakin bunlara səbr etdi. Dünyanın rəhbəri arasında - xatırladığımız qədəri ilə - onun kimi bir şəxdə rast gəlmədik.

O, bütün bu çətinliklərə baxmayaraq hər tərəfdən onun əhatə edən əlverişsiz şəraitə qarşı hikmətlə, səbirlə, ehtiyatla mübarizə apardı, daima məqsədinə doğru irəlilədi. Heç bir zaman qəzəbinin və hisslərinin əsiri olmadı. Hədislər qarşısında özünü itirmədi. Çətinliklər qarşısında tərəddüd etmədi. Dinə yardım etməkdən, Quran bayrağını yüksəltməkdən, İslam dəvətini yaymaqdan başqa heç bir şey onu yerindən tərpətmədi.

Bu məziniyyətlərin və xüsusiyyətlərin sahibi (Allahın onu yaradarkən Peyğəmbərin (s) nəvəsi Həsəndir. Xilqətində qərar vermiş olduğu bu həqiqətlə). İnadkar cahildən, və ya insafsız düşməndən başqa heç kəs İmam Həsənin əxlaqında qüsur tapa bilməz! Onun əxlaqi keyyfiyyətləri öz zamanında ən üstün keyfiyyətlər idi. Comərdliyi və səxavəti dillər əzbəri olmuşdu. Şirin dili, hazırcavab bir insan idi. Güclü məntiqi vardı. Əzəmətini, mərhəmətini, yumşağxasiyyətliyini, ağlını və zəkasını nəinki, dostlar, hətta düşmənləri də etiraf edərdi.

İndi Müaviyənin onun haqqında dediyi sözləri dinləyin. Nə vaxt Müaviyənin məclisində İmam Həsənlə bağlı müzakirə getsəydi, sonda onun üstünlüyünü etiraf edərdi. Bəzən də heç bir mövzu olmadan belə onun barəsində fəxrlə danışardı.

Bir dəfə İmam Həsənin sözlərinin şirinliyini bu şəkildə öymüşdü: «Həsən qədər heç kəsin danışarkən dayanmamasını istəməmişəm».[1]

Bir dəfə də onun məclisində Həsəndən söz düşdükdə belə demişdi: «Onlar elə şəxslərdir ki, natiklik onlara ilham edilmişdir».[2]

İmamın heybəti və xoşsöhbəti haqqında belə demişdi: «Allaha and içirəm ki, onu, həmişə yanımda olmamasından qəmgin və məni məzəmmət edəcəyindən çəkindiyim halda gördüm».[3]

Həmçinin «Allaha and içirəm ki, onu yanımda oturmuş halda gördükdə, onun vəziyyətindən və eyiblərimi ortaya tökməsindən qorxum»[4] demişdi.

Müaviyə İmam Həsəni mədh edən belə bir şeir şöyləmişdi: «Həsən elə birinin oğludur ki, hara gedirdisə, ölümdə onu adım-adım izləyirdi. Aslanın balası da aslan kimi olur. Həsən də atası kimidir. Əgər onun helmini və səbirini ölçmək mümkün olsaydı, «Yəzbil[5] və Səbir[6] kimidir» deyərdi».[7]

Bəli, bunları söyləyən Həsənin bir nömrəli düşməni Müaviyədir. Mərvan ibn Həkəm də İmam Həsən haqqında belə demişdir: «Helmi dağlara bərabərdir».[8]

Bu iki düşmənin tərif dolu sözləri İmam Həsənin xalqın yanındakı yüksək məqamının aşkar dəlilidir. Ən azından, bu iki düşmənin həqiqətə təslim olduqlarını göstərir. Əks təqdirdə, bunu, həmim iki şəxsin İmam Həsənə qarşı hazırladıqları təhlükəli planı ört-basdır etmək kimi dəyərləndirmək lazımdır.

---

[1] «Tarixi-Yəqubi» cild 2, səh. 202; «Tarixi ibn Kəsir» cild 8, səh. 39.
[2] «İqdul-fərid» cild 2, səh. 323.
[3] «Biharul-ənvar» cild 10, səh. 114.
[4] «Nəhcül-bəlağənin şərhi» cild 2, səh. 101.
[5] Bir dağ adı.
[6] Bir dağ adı.
[7] «Nəhcül-bəlağənin şərhi» cild 4, səh. 73.
[8] «Nəhcül-bəlağənin şərhi» cild 4, səh. 5, 18.

Bir çox kitablarda ətraflı şəkildə şərh edilən bu mühazirələr son dərəcə əhəmiyyətlidirlər. Bütün bunlar sülhdən sonra İmam Həsənin Mədinədə olduğu müddətdə o Həzrətlə qarşılaşdığı zaman baş vermişdi. Müaviyə böyük məclislər təşkil edər və ora yaxın dostlarını dəvət edərdi. Onların hamısı elə onun özü kimi, Peyğəmbərin (s) Əhli-beytini xalq arasındakı öz nüfuz və mövqelərini yüksəlməsinin qarşında maneə olaraq görürdülər. Belə məclislərə qatılanların çoxu bu düşüncəyə sahib idi. Əmr ibn As, Utbə ibn Əbu Süfyan, Əmr ibn Osman, Müğeyrə ibn Şöbə, Valid ibn Uqbə, Mərvan ibn Həkəm, Abdullah ibn Zübeyr və Ziyad ibn Əbih kimiləri bu məclislərin daim iştirakçıları idilər. Müaviyə bəzən bunlardan bir neçəsini, bəzən də hamısını dəvət edərdi. Sonra da Həsən ibn Əlini çağırar və bir-birinə ardınca İmam Həsənə qarşı qəzəbli çıxışlar edərdilər. Elə bir söz qalmırdı ki, deməsinlər. Beləliklə də, içlərindəki kimi biruzə verirdilər. Nəticədə məclis bir anda İmam Həsənə qarşı mübarizə meydanına çevrilirdi. İmam Həsən (ə), Abdullah ibn Cəfərin sözü ilə desək, «Oxlara hədəf olmaqdan uzaq olan fəth olunmaz bir zirvədir».[1]

Qəlbi o qədər təmiz və saf idi ki, heç vaxt özünü onların alçaq səviyyəsinə endirməzdi. Onların səviyyəsinə enməsə də, onlara cavab verməkdən də geri qalmazdı: «Allaha and içirəm ki, əgər Bəni-Ümeyyə mənim onlara cavab verə bilmədiyimi düşünməsəydilər, onlara cavab verməzdim».

Onların inadlarını qıracaq güclü məntiq və qətiyyətlə cavab verirdi. Bununla da onları təslim olmağa məcbur edirdi.

Bəzi cavablarda peyğəmbərlikdən miras qalan haqqını da vurğulayırdı. Ucsuz-bucaqsız elm dəryasından qaynaqlanan hazırcavablığı və fərasəti ilə onları susdururdu. Yumşaq danışır və bu yumşaqlığı ilə onları özünün və atasının haqqını etiraf etmək məcburiyyətində qoyurdu. Elə şeylər söyləyirdi ki, (onlar kimi yalana və çirkin sözlərə və söyüşə əl atmadan) onların bu

---

[1] «Məhasinu vəl-məsavi» cild 1, səh. 42.

sözlərini özünə qaytarırdı. Bu məclislərdən Həsən qalib və güclü, rəqibləri isə zəif və məğlub kimi ayrılırdılar.

Hamıdan çox özünü zəif və məğlub durumda hiss edən isə onların başçısı Müaviyə olurdu. Onların içində ən böyük maddi güc və iqtidar onun əlində idi. Qardaşlarının və əmisi oğullarının hər mübahisədə məğlub olmalarını və meydanı pərişan halda tərk etdiklətini görmək ona çox ağır gəlirdi. Belə vəziyyətdə onlara tərəf boylanar və belə deyərdi: «Gördünüzmü! Nə dedimsə, dinləmədiyiniz! Sonda elə sözlər eşitdinizmi ki, dünyanı sizin gözünüzdə qaraltdı və məclisinizin dadını qaçırtdı». Ya da belə deyərdi: «Mən sizə deməmişdimmi onunla (İmam Həsən) bacara bilməzsiniz?»

Bəzən özünü Mərvan ibn Həkəmə tutar və deyərdi: «Bu adamla qarşı-qarşıya gəlməkdən hər nə qədər səni çəkinfirsəm də, dinləmədin və əslində, dənə bir faydası olmayan şeyi etdin. Bir özünə bax! Çünki nə sənin atan onun atasına bərabərdir, nə də sən ona! Sən avara və qovulmuşun bir çobanın oğlusan, o isə Allah Rəsulunun. Təhsüflər olsun ki, bəzi cahillər öz məzarlarını öz əlləri ilə qazar və öz ayaqları ilə ölümun arxasınca gedərlər».

Təhqiramiz bir ifadə ilə Əmr ibn Asa elə deyərdi: «Atası - Əmirəl-möminin (ə) sənə hücum etmişdi. Sən isə canını, övrət yerlərini açmaqla qurtara bilmişdin. Buna görə ondan çəkinirsən!» Ya da belə deyərdi: «Dənizlə savaşmağa cəhd göstərmə, boğularsan! Dağla boy ölçmə, nəfəsi kəsilər. Bir küncdə otur ki, sonra üzr istəmək məcburiyyətində qalmayasan».

Zübeyrin oğlu o zamanlar Müaviyənin adamları arasında idi. Bir gün İmam Həsənlə söz davasına girməkdən peşman olmuş və üzr istəyərək, İmam Həsənə belə demişdi: «Məni bağışla, ey Əbu Məhəmməd! Bu adam (Müaviyəni işarə edərək) məni, səninlə dava etməyə təşviq etdi. O, aramıza nifaq toxumu əkmək istəyirdi. Əgər mən cahillik etdimsə, sən niyə göz yummadın?! Siz elə bir ailəsiniz ki, əfv və güzəşt sizin xüsusiyyətinizdi». Müaviyə onu İmam Həsəndən üzr istədiyini, onun qarşıdında aciz və məğlub bir vəziyyətə düşdüyünü eşitdikdə özünü saxlaya bilməyib ona belə demişdi: «Doğrusu o, könlümü sənin əlindən

rahatlatdı və səni şah damarından tutdu. Onun əlində qartalın pəncəsinə düşmüş bir kəklik kimi idin. Səninlə istədiyi kimi oynayırdı. Bir daha heç kəsə qarşı öyünməyini görməyim!»

Bir dəfə Əmr ibn As, Mərvan və Ziyad ibn Suməyyə İmam Həsənlə (ə) mübahisə edirdilər. Məclisin sonunda Müaviyə bunları söylədi: «Əmr gözəl danışdı, lakin məntiqi tutarlı deyildi. Mərvan danışanda da, məğlub oldu». Sonra üzünü Ziyada tərəf tutaraq belə dedi: «Sən niyə söhbətə girişdin! Qartalın pəncəsinə düşmüş kəklik kimi səni əsr aldı». Əmr ibn As cavab verdi: «Bizim arxamızdan ox atan sən deyildinmi?!» Müaviyə isə cavabında dedi: «Bu halda mən də cahillikdə sizin ortağınızam! Məgər babası Allahın Peyğəmbəri, keçmiş və gələcək nəsillərin ağası, anası dünya qadınlarının xanmı Fatimeyi-Zəhra olan birinin qarşısında öyünmək olar?» Sonra Əmrə belə dedi: «Allaha and içirəm ki, əgər Şam xalqı bu mübahisəni eşitsə, rəzil olarıq». Əmr isə cavabında hiyləgərcəsinə «Belə, o, səni buraxdı. Lakin Mərvan və Ziyadı dəyirman daşı kimi sıxışdırdı və çeynədi» - dedi. Ziyad söylədi: «Bəli, söylədiyimiz kimdir. Lakin nəyin bahasına olursa-olsun, bizimlə onun arasında nifaq salmaq istəyən Müaviyədir».

Deyilənə görə, Abdullah ibn Abbas İmam Həsənlə tək qaldıqda onun alnından öpüb, belə demişdi: «Qurban olum sənə, ey əmioğlu! Elm dəryası daim təlatümdədir. Bunların üzərində necə də hücum etdin və ... oğlullarından intiqamımı aldın».[1]

Bu münazirələrin mətni ədəbi zərafət və sənət dəyəri baxımından ərəb ədəbiyyat irsinə daxil edilə biləcək qədər zəngindir. Bu söhbətlərin sözügedən şəxslər tərəfindən apardığı açıq-aşkardır. Söhbətlərin bədii üslubu o dövrün əbədi müzakirələrinin ən parlaq örnəklərindən birini təşkil edir. Lakin biz burada mübahisələrin təfsilatı ilə qeyd edə bilməyəcəyik.

---

[1] «Məhasinu vəl-məsavi» cild 1, səh. 59-64; «İqdul-fərid» cild 2, səh. 323; «Biharul-ənvar» cild 10, səh. 114.
«Nəhcül-bəlağə»də bu mübahisələrə, həmçinin İmam Həsən və İmam Hüseynin xütbələrinə, məktublarına və müxtəlif sözlərinə yer vermişdir.

Çünki yalançılıqda və arsızlıqda həddi aşmış Əməvilərin çirkin nalayiq sözlərini olduğu kimi vermək ədəbsizlik olardı.

Nəticədə, «düşmənlərimizi alçaldaq!» deyərkən özlərini rüsvay etmişlər. Bu mübahisələrin mətninin yazmaqdan çəkindik, amma eyni zamanda üzərində durduğumuz «İman Həsənin səbir» mövzusu ilə bağlı olduğu üçün bu həqiqəti göz yuma bilmədik. O da budur ki, İmam Həsən (ə) bu məclislərdə ona qarşı edilən hörmətsizlik və Müaviyənin olduqca iyrənc hərəkətləri qarşısında ağılları heyran edəcək səbir və təmkin nümayiş etdirmişdir.

Bu məclislərin əvvəlcədən planlaşdırılmasına və xüsusi siyasi məqsəd daşımasına zərrə qədər şübhəmiz yoxdur. Buna görə də bu məclislər Müaviyənin İmam Həsən və tərəfdarlarına qarşı apardığı mübarizənin bir qolu hesab olunmalıdır. Qəynar döyüşlərin ardından soyuq müharibə. Bu savaş başqa sahələrdə də aparılırdı. Bu sahələrin bəzisinə sonrakı bölümlərdə toxunacağıq.

## İMAM HƏSƏNİN (Ə) FƏDAKARLIĞI

İmam Həsənin fədakarlığının ən böyük göstəricisi, düşüncə və əqidəsini hakimiyyətə və iqtidara dəyişməməsi idi. İqtidara qanuni yolla sahib olduğu halda, dəyərləri uğrunda belə fəda edə bilən bir kəsin bu fədakarlığı, eyni məqsəd uğrunda öz haqqından keçən şəxsin bu fədakarlığı, öz məqsədi uğrunda canını qurban verən şəxsin fədakarlığından daha əhəmiyyətlidir və həmin insanın böyük bir ruha sahib olduğunu göstərir. Əqidə və amal uğrunda uzaqgörənlik və yüksək ruhi səciyyəyə sahib olmaq Həsən ibn Əlinin hər zaman nəzərə çarpan ən üstün xüsusiyyətlərindən biri idi.

Bu iki fədəkarlıq, yəni canını fəda etmə və qanuni səlahiyyəti olduğu halda iqtidardan imtina etmə arasındakı fərqə gəlincə, ikici fədəkarlıq daha çətindir və insanın uzun müddət iztirab çəkməsinə səbəb olur ki, bu da insana çox pis təsir göstərir.

Tarixin hər zaman hökmdarların və padşahların ürəklərindəki hakimiyyət sevgisi can sevgisindən daha dərin olmuşdur; o ki, qaldı düşüncə və inanc eşqi ola. Bir çox insanlar tanıyırıq ki, öz canlarını iqtidar və səltənətə fəda etmişlər. Özü də bir neçə günlük bir iqtidar üçün. Ancaq çox az insanlar tax-tacı qurban vermişdir.

Tarixdə səltənət qurbanlarının qəmgin və insanı ağrıdan mənzərələrini müşahidə etmək mümkündür. Padşahlar tax-taclarını qorumaq üçün durmadan səy göstərmiş, mübarizə aparmışlar. Əvvəl başqalarını fəda etmiş, başqa yollarının qalmadığını gördükdə də öz canlarını qurban vermişlər.

Oxucuların diqqətini incə bir məqama yönəltmək istəyirik; tac-taxtını fəda edən insanların azlığına və taxt-tacları üçün canlarını fəda edən insanların çoxluğuna diqqət yetirir. Bu bizə insanların fədakarlıq haqqında mənəvi baxımdan nə qədər fərqli baxışlara sahib olduğunu göstərir.

Elə buna görə də bunun kimi çox nadir hallarda atılan addımların, yəni iqtidar və səltənədi fəda edilməsinin insanların daha cox diqqətini çəkdiyini bu barədə daha çox danışdıqlarını və daha çox qalmaqalların yarandığını görür və eyni zamanda baş verən hadisəyə fərqli baxışların və müxtəlif fəlsəfi yanaşmaların sahidi oluruq.

Tarixdə bir hökmdarın taxtdan salınması və ya da özünün imtina etməsi həmişə insanlar arasında bu mövzu ilə əlaqədar müxtəlif fikirlərin meydana gəlməsinə səbəb olmuşdur. Bəziləri onu doğru bilər, bəziləri isə səhv. Bəziləri onun bu əməlinə haqqı qazandırarlar bəziləridə onda qüsur axtararlar. Bir sözlə kimlərsə ona tərəfdar kimlərsə ona müxalif olmuşlar.

Sadəcə Həsən ibn Əli istisnadır... Yalnız O hakimiyyət və iqtidardan imtina, bütün dünyəvi imkanlarını öz əqidəsi və hədəfi uğrunda fəda etdikdə, heç bir insan onun yaxşı niyətinə, ixlasına şübhə etmədi. Fədakarlığını böyüklüyünə şəkk gətirmədi. Bu səbəbdən həmin ilə «camaat ili» adı verildi. Çünki hamı onunla razılaşdı və fikrini qəbul etdi.

Bax, tarixdə dahiliyinin, müsəlmanların qəlbindəki məqamının, mənəvi gücünün və ruhunun... böyüklüyünün dəlili də elə budur. Bu elə bir qüdrətdir ki, səltənət libasını çıxarmaq bu qüdrətə xələl gətirməz. Bəziləri: «Bu fədakarlıq onu silahlı mübarizə meydanından uzaqlaşdırmışdır» - deyə gileylənmişdilər. Hətta onlar belələrinin arasında onun tərəfdarlarından da var idi. Amma buna baxmayaraq, onun bu davranışının dini zərurətdən doğması, yəni İslam ümmətinin xeyirini güdməsi və müsəlmanların qanını qoruması və İslami məqsədləri həyata keçirməsi barədə şübhə etməmişdir.

Sonrakı bölümlərdə onun bu hərəkətində qüsur axtaranların iradlarının yersiz və haqsız olduğunu siz də görəcəksiniz. Bəli, onun çətinliklərin öhtəsindən gəlmək üçün seçdiyi yol, həmin şəraitdən yeganə çıxış yolu idi. O şəraitdə başqa yol da yox idi.

İmam Həsən heç bir halda, heç bir şəkildə ittiham edilməmişdir. Özü üçün ən ağır və başqaları üçün ən faydalı və Allaha ən yaxın olan fədakarlığı seçən bir şəxs sorğu-suala çəkilməz. Onu heç bir şeylə ittiham etmək olmaz?! Halbuki, İmam Həsən (ə), Quranın dediyi və hamının qəbul etdiyi kimi, xəta və ittihamlardan paklaşdırılmışdır!

Dünya nə vaxt İmam Həsənə (ə) təsir göstərdi ki, tamah ona güc gəlsin? Necə ola bilər ki, Həzrət Müctəba (ə) ilahi rəhmət və lütfə qovuşmağı təxirə salıb, babasının və atasının yanında onu gözləyən şərərfli və uca məqam üçün əmək sərf etməsin?!

Həsən ibn Əli kimi bir adam o qədər zəif və qorxaqdırmı ki, öldürülməkdən qorxsun?! Öz canını qorumaq üçün iqtidar və hakimiyyətdən imtina etsin?! Zəiflik və qorxaqlıq kimi xüsusiyyətlər Həsən ibn Əliyə necə yaraşdırıla bilər?! Allahın və Peyğəmbərin igid aslanı atasına görəmi? Yoxsa iki babası Rəsulallah və Məkkənin rəhbəri Əbu Talibə görəmi? Əmiləri - şəhidlərin sərvərləri Həmzə və Cəfərə görəmi?! Yoxsa şəhidlərin sərvərləri Həzmə və Cəfərə görəmi?! Ya da savaş meydanlarında göstərdiyi igidliklərinə görəmi? Osmanın mühasirədə saxlandıldığı günə, Bəsərə savaşının olduğu günə, Müzləmi-

Sabat vaqiəsinə [1] görəmi? Məgər O, düşmənlərinin «Hara gedərsə, ölüm də onu addım-addım izləyər» - dedikləri aslan deyilmi? Bir insanın üstünlüyünün ən böyük dəlili düşmənlərinə etirafıdır!

Əslində, İmam Həsənin (ə) öz inancı uğurunda hakimiyyəti fəda etməsi, cəsarətinin və şücaətinin ən bariz dəlillərindən biridir. Belə olan halda necə olur ki, onun həyatında ölüm qorxusu və həyata tamahı olmuş olsun?!

İmam Həsənin (ə) baxışlarından tək meyar və ölçü, ali düşüncələri idi. Heç bir şey bunlarla müqayisə edilə bilməzdi. O, hakimiyyət və iqtidarını əqidə və amalına fəda etməsinin zərurətinə inanırdı. Yalnız bu böyük fədakarlıq sayəsində bu dünyada rəzil olmaqdan, o biri dünyada isə oda atılmaqdan qorxmayanların xain və düşmən əllərindən bu böyük dəyər qoruya bildi.

Həyatı heçə saymaqla heç bir dəyişikliyə yol vermədən bu məramı yürütdü və üstün dəyətləri qorudu. O, yaşayaraq hədəflərini qorumaq uğurunda ağrılı bir həyatı qəbul etdi. Bu, elə bir ağrı idi ki, ölümün acısı bunun yanında çox yüngül idi. O, bütün varlığının başqalarının mənafeyi üçün vasitə olaraq istifadə etməyə razı oldu. Amma özü bundan heç bir maddi fayda görmədi. Yalnız tay-bərabəri olmayan çox nadir islahatçı və rəhbərlərin nail olduğu bir məqamı əldə etdi. Bütün var-qüvvəsini başqalarının mənafeyi və haqqının cəmiyyətdə bərqərar olması üçün sərf etdi.

Bir çox insan düşüncə və əqidəsinin yaşaması üçün böyük xidmətlər göstərmiş və bu məqsəd uğurnda ağır müsibətlərə qatlaşmışdır. Lakin bu həmin insanlar arasında cürbəcür bəlalara səbir etmək və ömrünün sonunadək onu rahat buraxmayan məşəqqətlərə dözmək baxımından heç kəs Həsən ibn Əliyə (ə)

---

[1] Həzrət Həsənin (s) Osmanın mühasirəyə alındığı gün göstərdiyi igidliyini, Cəməl döyüşündəki cəsarətini, Müzləmi-Səbat vaqiəsində göstərdiyi gəhrəmanlığı ətraflı şəkildə öyrənmək üçün Məhəmməd ibn Cərir Təbərinin «Tarix» və «Kitabul-Cəməl», Şeyx Məhəmməd ibn Məhəmməd ibn Nöman Müfidin «İrşad» və Yəqubinin «tarix» kitablarına müraciət edin.

çata bilməz! O, hər bir baxımdan mükəmməl örnək, nümunəvi şəxsiyyət və böyük islahatçı idi. Öz amalı uğrunda ən acı və ən ağır bir həyatı qəbul etməklə dünya islahatçılarına böyük dərs vermişdir.

Mübarizəsinin sonrakı mərhələlərində də hər zaman zöhdlə hərəkət etmiş, bu dünyanın nemətlərinə dəyər verməmiş və bununnla da bu sahədə öz qabaqcıllıq mövqeyini qoruyub-saxlamışdır. Bu dünyadan əl çəkməsi, belə bir həyata qarşı inanılmaz səbri, iqtidarı fəda etməsinin hər biri Allah yolunda cihadının ünsürləri, öz əqidə və amalını yaşatmaqda uğur qazanmasının və şəxsiyyətinin əbədiləşməsinin əsas amilləridir.

# ƏDƏBİYYAT

**1.** Məhəmməd Baqir Məclisi İsfahani (ö/t: h.q 1111): «Biharul-ənvar»;

**2.** Fərid-Vəcdi: «Dairətul-maarif»;

**3.** «Durrul-kəbir»;

**4.** Həsən Murad «Əd-Dövlətul-Əməviyyətu fiş-Şam vəl-Əndəlus;

**5.** Şeyx Əbu Mənsur Əhməd ibn Əli ibn Əbu Talib Təbərsi «Əlamul-vəra»;

**6.** Hafiz Məmməd ibn Yüsif Gənci Şafei «Əl-Bəyan»;

**7.** İbn Kəsir İmadəddin İsmail ibn Ömər Dəməşqi Şafei: «Əl-Bidayətu vən-nihayə»;

**8.** Şeyxul-İslam İbn Həcər Əsqəlani (ö/t: h.q. 852) «Əl-İsabə»;

**9.** Şeyx Əllamə Əbdullah ibn Məhəmməd ibn Amir Şəbravi Şafei: «Əl-İthaf bi hubbil-əşraf»;

**10.** İbn Əsir Cəzri Əli ibn Məhəmməd «Əl-Kamil fit-tarix»;

**11.** Hafiz Əbu Bəkr Əhməd ibn Hüseyn Beyhəqi Şafei (ö/t: h.q. 458) «Əl-Məhasinu vəl-məsəvi»;

**12.** İbn Teymiyyə Əhməd ibn Əbdül-Həlim Hənbəli (d-ö/t: h.q. 611-728) «Əl-Minhac»;

**13.** Mavərdi: «Əl-Əhkamus-sultaniyyə»;

**14.** Səid ibn Hibədullah Rəvəndi: «Əl-Xərayicu vəl-cərayih»;

**15.** İbn Nədim (ö/t h.q. 378) «Əl-Fihrist»;

**16.** İbn Sabbağ Nuriddin Əli ibn Məhəmməd ibn Əhməd Maliki Məkki «Əl-Fusulul-muhimmə fi mərifətul-əimmə»;

**17.** Samani «Ənsab;

**18**. Əsəd ibn İbrahim ibn Həsən ibn Əli əl-Hənbəli «Ərbəin»;

**19.** Şahabiddin Əbu Ömər Əhməd ibn Məhəmməd ibn Əbdur-Rəbih Qirtəbi Əndəlusi Maliki (ö/t h.q. 328) «İqdul-Fərid»;

**20.** Şeyx Səduq Əbu Cəfər Məhəmməd ibn Əli Hüseyn ibn Musa Babeveyh Qumi (d-ö/t h.q. 306-381) «İləluş-şərayi»;

**21.** İbn Bətta «İnabə»;

**22.** Şeyx Mufid Əbu Abdullah Məhəmməd ibn Nöman Əkbəri (ö/t h.q. 413) «İrşad fi-mərifəti hucəcullah ələl ibad»;

**23.** Əbu Həmid Məhəmməd ibn Məhəmməd Qəzali «İhyau ulumid-din»;

**24.** Əli ibn Husaməddin Müttəq Hindi (ö/t h.q. 975) «Kənzul-ummal»;

**25.** Şeyx Cəlil Əbu-Həsən Əli ibn İsa ibn Əbdül-Fəth İrbili (ö/t h.q. 692) «Kəşful-ğummə fi mərifətul-əimmə»;

**26.** Ustad Abdullah Əlayili «Kitabul-əyyamil-Hüseyn»;

**27.** Məhəmməd ibn Cərir Təbəri: «Kitabul-Cəməl»;

**28.** Məkki (Əbu Talib) «Kutul-Kulub»;

**29.** Şeyx Süleyman Bəlxi Hənəfi (ö/t h.q. 1293) «Yənabiul-məvəddə»;

**30.** Əhməd ibn Əli Nəcaşi (ö/t h.q. 450) «Rical»;

**31.** Şafuri əş-Şafei «Nəzhətul- məcalis»;

**32.** Əbdur-Rəhman Əbül-Fərəc ibn Covzi İsfahani «Məqatilut-talibiyyin»

**33.** Seyyid Rəziyyəddin Əli ibn Tavus «Məlahim vəl-fitən»;

**34.** Məhəmməd ibn Əli ibn Şəhr Aşub «Mənaqib»;

**35.** Məhəmməd ibn İsa Tirmizi (ö/t h.q. 297) «Mənaqib»;

**36.** Zübeyr ibn Bəkar «Muvəffəqiyyat»;

**37.** Şeyx Əbül-Həsən Əli ibn Hüseyn Məsudi «Murəvvicuz-zəhəb»;

**38.** Sədrul-əimmə Əbdül-Muəyyəd Müvəffəq ibn Əhməd ibn Məhəmməd Məkki Xətib Xarəzmi (ö/t h.q. 548) «Müsnəd»;

**39**. Yaqut ibn Abdullah Rumi Həməvi «Mucəm»;

**40.** İbn Xəşşab «Tarix»;

**41.** Məhəmməd ibn Yaqubi «Tarix»;

**42.** Hafiz Əbu Cəfər ibn Cərir Təbəri (ö/t h.q. 310) «Tarix»;

**43.** İbn Kəsir İmddəddin İsmayıl ibn Ömər Dəməşqi Şafei «Tarix»;

**44.** İzzəddin İbn Əbil-Hədid Mötəzili: (ö/t h.q. 655) «Nəhcül-bəlağənin şərhi»;

**45**. Şeyx Əbül-Həsən Əli ibn Hüseyn Məsudi: (ö/t h.q. 346) «Tarix»;

**46.** Əbu Məhəmməd ibn Müslim ibn Qüteybə ibn Əmr Bahili Dinəvəri (ö/t h.q. 276) «Tarixul-xulafayi-raşidin və dövləti-Əməvi»;

**47.** Əbu Məhəmməd ibn Müslim ibn Qüteybə ibn Əmr Bahili Dinəvəri «Tarixul-İslam-siyasi»;

**48.** Barraqi «Tarixul-Kufə»;

**49.** Məhəmməd ibn Əbdur-Rəhman Zənəbi də «Təlxisul-müstədərək»;

**50.** Ələmul-huda Seyid Murtaza: «Tənzihul-ənbiya»;

**51.** Cəmil Müdəvvar: «Hizarətul-İslam fi darus-səlam»;

**52.** İmamul-hərəm Mühəddis Hafiz Əhməd ibn Abdullah ibn Əbu Nəim İsfahani Şafei (ö/t h.q. 420) «Hilyətul-övliya»;

**53.** Siqətül-İslam Əbu Cəfər Məhəmməd ibn Yəqub ibn İshaq əl-Kuleyni: (ö/t h.q. 329) «Üsuli-kafi»;

**54.** Əimmətul-hədis imam Abdullah ibn Əhməd ibn Hənbəl (d-ö/t:h/q:161-241: «Fəzail»;

**55.** Əbu İshaq Şeyxul-İslam Həmvini: «Fəraidus-səmteyn»;

**56.** Hafiz Xacə Parsayi Buxari: «Fəslul-xitab»;

**57.** Əbu Cəfər Bilazəri (Zübeyr ibn Bəkar Əhməd ibn Yəhya ibn Cabiri-Bağdadi) (ö/t: h-q: 279): «Futuhul-buldan»;

**58.** Əbül-Qasim Məhəmməd ibn Ömər Carullah Zəməxşəri «İbnul-bey»;

**59.** «Rövzətuş-şuhəda»;

**60.** «Aləmul-ərəbi» jurnalı;

**61.** «Məcəlleyi-əl-əlvah» jurnalı.

# MÜNDƏRİCAT

Seyyid Əllamə Şərəfuddinin ön sözü ............................................ 4
**Ön söz** ............................................................................................ 6
**I FƏSİL** ........................................................................................ 11
İmam Həsənin (ə) həyatı ................................................................ 11
**II FƏSİL** ....................................................................................... 21
Beyətdən əvvəl siyasi vəziyyət ...................................................... 21
Beyət ................................................................................................ 33
İmamətin isbatında şiənin üslubu ................................................. 35
Kufə beyət günlərində .................................................................... 45
1. Əməvilər ...................................................................................... 49
2. Xəvaric ........................................................................................ 51
3. Şəkkaklar .................................................................................... 52
4. Əl-Həmra .................................................................................... 53
Döyüş qərarı ................................................................................... 58
Döyüş səfərbərliyi və rəhbərliyi .................................................... 74
Qoşunun sayı .................................................................................. 85
Araşdırma və təhlil ........................................................................ 90
Ordunu təşkil edən ünsürlər ........................................................... 96
Übeydullah ibn Abbas ................................................................... 106
Müqəddəratın başlanğıcı ................................................................ 112
Tərəddüd və qərarsızlığın incə məqamları ................................... 132
İnancla iqtidar arasında .................................................................. 143
Fədakarlıq ....................................................................................... 158
İmam Həsənin (ə) cihadı ................................................................ 161
İmam Həsənin səbri ........................................................................ 164
İmam Həsənin (ə) fədakarlığı ......................................................... 169
**Ədəbiyyat** .................................................................................. 174